

# TÜRK DÜNYASININ nağıl bağı masal bahçesi

Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

TÜRKSOY
ULUSLARARASI TÜRK KÜLTÜRÜ TEŞKİLATI
INTERNATIONAL ORGANIZATION OF TURKIC CULTURE

*F.Köçərli adına*
*Respublika Uşaq Kitabxanası*

AZƏRBAYCANDA
ATATÜRK MƏRKƏZİ



# TÜRK DÜNYASININ nağıl bağı / masal bahçesi

Təhsil

Bakı
Bakü 2017

Layihənin ideya müəllifi və tərtibçilər: **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Zahirə Dadaşova**
*Əməkdar mədəniyyət işçisi*

Ön sözün müəllifi: **Düsen Kaseinov**
*TÜRKSOY-un baş katibi*

Rəyçi: **Akademik Nizami Cəfərov**
*Azərbaycanda Atatürk Mərkəzinin direktoru*

Tərcüməçilər: **Afət Mamayeva**
*Atatürk Mərkəzinin elmi əməkdaşı (Türk dilindən Azərbaycan dilinə və Azərbaycan dilindən türk dilinə çevirəni)*

**Füzuli Əsgərli**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent (Rus dilindən Azərbaycan dilinə çevirəni)*

Redaktorlar: **Elçin Qafarlı**
**Vəfa Ağamirzəyeva**

**T98 Türk dünyasının nağıl bağı.**
Bakı, «Təhsil», 2017, 216 səh.

Bu kitaba türk xalqlarının çox maraqlı nağılları toplanmışdır. Kitabdakı nağıllar mövzu və məzmun baxımından türk xalqlarının bədii təfəkküründən, zəngin təxəyyülündən, fəhmindən, duyumundan doğan, əsrlər yara-yara həmişəyaşarlıq hüququ qazanan kamil ağız ədəbiyyatı nümunələridir. Bu nağıllarda yeraltı səltənətə enib, əcaib divlərlə vuruşan qüvvətli və cəsur qəhrəmanlardan, dara düşmüş dostlarına kömək etmək üçün hər bir çətinliyə qalib gələn mətin dostlardan, öz ağılları, müdrik cavabları ilə padşahları cəzalandıran mərd insanlardan, xeyir qüvvələrin şər qüvvələrlə yorulmaz mübarizəsindən bəhs edilir.

İSBN

***Nağıllara çəkilmiş şəkillər Bakı şəhər məktəblilərinin rəsm əsərləridir.***

T $\frac{4702060205}{053}$ 2017

**© «Təhsil», 2017**

Projenin edütörü ve projeyi düzenleyenler: **Şehla Gamberova**

**Zahire Dadaşova**

Projenin Ön Söz Yazarı: **Düsen Kaseinov**
*TÜRKSOY Genel Sekreteri*

Projeyi Onaylan: **Akademik Nizami Caferov**
*Azerbaycan'da Atatürk Mərkəzi'nin Müdürü*

Çevirmenler: **Afet Mamayeva**
*Atatürk Merkezi'nin Bilimsel Araştırmacısı*
(Türk Dili'nden Azerbaycan Dili'ne ve Azerbaycan Dili'nden Türk Dili'ne Çeviren)

**Fuzuli Asgerli**
*Filoloji Bilim Dalı Üzere FelsefeDoktoru, Doç.*
(Rus Dili'nden Azerbaycan Dili'ne Çeviren)

Redaktörler: **Elçin Gafarlı**
**Vefa Ağamirzayeva**

**T98 Türk dünyasının masal bahçesi.**
Bakü, «Tahsil», 2017, 216 sayfa.

Bu kitapta Türk halklarının masallarından seçmeler toplanmıştır. Bu masallar konusu ve içeriği bakımdan Türk halklarının bedii zihniyetinden, zengin tahayyülünden, zihni anlayışından, hissiyatından doğan, yüzyıllardan geçip gelen ve her zaman yaşayabilme hakkı kazanan olgunlaşmış sözlü edebiyat örnekleridir. Bu masallarda yer altındaki saltanatlara giderek acaip devlerle savaşan güçlü ve cesur kahramanlardan, zor durumda olan arkadaşlarına yardım etmek için her türlü zorluğa göğüs geren metin arkadaşlardan, bilgelikleri ve akılları ile padişahları cezalandıran metin insanlardan, iyilerin kötülere karşı yorulmadan mücadele etmesinden bahsediliyor.

ISBN

***Masallardaki resimler Bakü okul öğrencilerinin resm eserleridir.***

T $\frac{4702060205}{053}$ 2017

**© «Tahsil», 2017**

# Ön söz

Dəyərli oxucular!

Türk mədəniyyətini araşdırmaq, qorumaq, tanıtmaq və gələcək nəsillərə ötürmək məqsədilə 1993-cü ildə Türk dövlətlərinin mədəniyyət nazirləri tərəfindən qurulan Millətlərarası Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY bununla bağlı fəaliyyətlərini davam etdirir.

Türk dünyası həm musiqisi və sənəti ilə, həm də yazılı və şifahi ədəbiyyatı, folkloru, dastanları və nağılları ilə çox zəngin bir xəzinəyə sahibdir. TÜRKSOY babalarımızdan miras qalan bu zəngin mədəniyyətin qorunması, yaşaması və yeni nəsillərə çatdırılmasına çox əhəmiyyət verir.

Qədim zamanlardan bu günə qədər tarixin amansız dövrlərindən keçib gələrək varlığını qoruyan türk xalqları, əcdadlarının məskən saldığı ana yurdlarında hələ də yaşamağa davam edirlər. Uzaq Şərqdən Avropaya qədər uzanan və bu geniş coğrafiyaya yayılan türklər kimliyini, adət-ənənəsini, mədəniyyətini və dilini günümüzə qədər qoruyub saxlayıblar. Bu bölgələrin "Böyük İpək Yolu" üzərində olması isə qədim türk dövlətlərinin inkişaf etməsinə, türk xalqları arasındakı münasibətlərin və mədəni fəaliyyətlərin çoxalmasına töhfə vermişdir. Qədim türk xalqlarının yayıldığı bu coğrafiyada bu gün Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan kimi müstəqil dövlətlər varlığını qoruyub saxlayırlar.

Sizlərə təqdim edilən bu kitabda Avropa və Asiya qitələrində yaşayan, qədim tarixi olan türk xalqlarının özünəməxsus nağılları yer almışdır.

Türk xalqlarının tarixini və ədəbiyyatını yaddaşlarda saxlayan qaynaqlar ağızdan-ağıza şifahi şəkildə ötürülən xalq ədəbiyyatı ilə bağlıdır. Bu qaynaqlar türklərin əsrlər boyu yaratdığı əsərləri qoruyub saxlamışdır. Hun türklərinin "Oğuz Kağan", Göy türklərin "Boz qurd", Uyğur türklərinin "Köç", Qaraxanlı türklərinin "Satuq Buğra xan", Azərbaycan türklərinin "Dədə Qorqud", Qırğızların isə "Manas" kimi dastanlarının günümüzə qədər gəlib çatmasında bu qaynaqların böyük rolu var. Türk xalqlarının folkloru, kollektiv yaradıcılıq məhsulu olan, müəllifi bilinməyən ortaq ədəbiyyat nümunələridir.

Nağıl, uşaq folklorunun ən çox yayılmış və ən çox sevilən növüdür. Hər xalqın özünəməx-

susluğunu, uşaq kimi saflığını və itməyən ümidlərini özündə əks etdirən nağıllar, uzun qış gecələrinin, "nənəli-babalı" dünyamızın dəyərli, unudulmaz və sehrli qoxusunu xatirələrimizdə yaşadır. Nağıllar milli-mənəvi dəyərlərin əbədiyaşar boxçası olmaqla yanaşı, ən ümidsiz zamanlarda çətinliklərdən necə çıxmağın yolunu göstərən, xeyirin həmişə şərə qalib gəldiyi ümidini aşılayan nəsihətlərdir.

Nağıllarda qədim türk xalqlarının sosial, iqtisadi və mədəni həyatı ilə bağlı, ov və heyvandarlıqla məşğul olduqlarını göstərən nümunələrin mövcud olması, türk xalqlarının zəngin adət-ənənə və mədəniyyətlərinin tanıdılmasında, gələcək nəsillərə ötürülməsində çox böyük əhəmiyyət kəsb edir.

Bu layihənin digər bir özünəməxsusluğu da türk xalqları nağıllarının həm Türkiyə türkcəsi, həm də Azərbaycan türkcəsində nəşr edilməsidir. Türk xalqları arasında mənəvi və mədəni əlaqələrin genişləndirilməsi üçün ilk olaraq türk xalqlarının ədəbiyyatının – nağıllarının toplanaraq bir kitab halında nəşr edilməsi gələcəyə atılan bir addımdır.

Türk xalqlarına məxsus olan nağılların toplanaraq bir araya gətirilməsindəki məqsədimiz, ortaq mədəniyyətimizin nümunələri olan bu nağılları yaşatmaq və gənc nəsillərə çatdırmaqdır. Toplanan nağılların qədim türk xalqlarının tarixi və genetik kodlarının araşdırılması və öyrənilməsi yolunda faydalı bir qaynaq olacağına inanırıq.

**Düsen Kaseinov**
*TÜRKSOY-un baş katibi*

# Ön söz

Değerli Okurlar!

Türk kültürünü araştırmak, korumak, tanıtmak ve gelecek kuşaklara aktarmak üzere faaliyetler yürütmek amacıyla 1993 yılında Türk Devletleri Kültür Bakanları tarafından kurulan Uluslararası Türk Kültürü Teşkilatı – TÜRKSOY bu kapsamda çalışmalarını sürdürmektedir.

Türk Dünyası, hem müziği ve sanatı, hem de sözlü ve yazılı edebiyatı, folkloru, destanları ve masallarıyla çok zengin bir hazineye sahiptir. TÜRKSOY, atalarımızdan miras kalan bu zengin kültürün korunması, yaşatılması ve yeni nesillere tanıtılmasına büyük önem vermektedir.

Eski çağlardan günümüze kadar tarihin acımasız dönemlerinden geçerek varlığını koruyan Türk halkları, ecdatlarının mesken edindiği ata yurtlarında halen yaşamlarına devam etmektedir. Uzak Doğu'dan Avrupa'ya kadar uzanan bu engin coğrafyaya yayılan Türk toplulukları kimliğini, gelenek – göreneğini, kültürünü ve dilini günümüze kadar korumuştur. Bu bölgelerin «Büyük İpek Yolu» üzerinde bulunması ise eski Türk devletlerinin gelişmesine ve Türk toplumları arasındaki ilişkilerin ve kültürel etkileşimin artmasına katkı sağlamıştır. Eski Türk halklarının yayıldığı bu coğrafyada günümüzde Türkiye, Azerbaycan, Kazakistan, Özbekistan, Türkmenistan ve Kırgız Cumhuriyeti gibi bağımsız devletler mevcudiyetini sürdürmektedir.

Sizlere sunulan bu kitapta Avrupa ve Asya kıtalarında yaşayan, köklü tarihe sahip Türk halklarının kendine özgü masalları yer almaktadır.

Türk halklarının tarihini ve edebiyatını hafızalara kazıyan kaynaklar, ağızdan ağıza şifahi şekilde aktarılan halk edebiyatı ile bağlantılıdır. Bu kaynaklar, Türklerin asırlar önce yarattığı eserleri koruyup saklamış, Hun Türklerinin «Oğuz Kağan», Göktürklerin «Boz Kurt", Uygur Türklerinin «Göç", Karahanlı Türklerinin «Satug Buğra Han", Azerbaycan Türklerinin «Dede Korkut", Kırgızların «Manas» destanlarının günümüze kadar ulaşmasını sağlamıştır. Türk halklarının folkloru – kolektif yaratıcılık ürünü olan, yazarları belli olmayan ortak edebiyat örnekleridir.

Masal, çocuk folklorunun en yaygın ve çok sevilen türüdür. Her halkın özgünlüğünü, çocuksu saflığını ve kaybolmayan umutlarını kendinde barındıran masallar, uzun kış gecelerinin,

«nineli– dedeli» dünyamızın değerli, unutulmaz ve büyülü kokusunu hatıralarımızda yaşatıyor. Masallar, milli– manevi değerlerin ebediyen yaşayan bohçası olmanın yanısıra, en umutsuz zamanda zorlukları aşmanın yolunu gösteren, hayrın şer üzerinde hep galip geldiği umudunu aşılayan birer öğütlerdir.

Masallarda, eski Türk toplumlarının sosyal, ekonomik ve kültürel hayatına ilişkin, av ve hayvancılık gibi mesleklerle uğraşıldığını gösteren örneklerin varolması, Türk toplumlarının zengin gelenek ve kültürlerinin tanıtılmasına ve gelecek nesillere aktarılmasına önemli katkı sağlamaktadır.

Bu projenin bir diğer özelliği de Türk halkları masallarının hem Türkiye Türkçesi, hem de Azerbaycan Türkçesinde yayınlanmasıdır. Türk halkları arasında manevi-kültürel ilişkilerin güçlendirilmesi için öncelikle Türk halklarının edebiyatının – masal örneklerinin derlenerek bir kitap halinde yayınlanması geleceğe atılan bir adımdır.

Türk halklarına ait masalların bir araya getirilmesindeki başlıca gayemiz; ortak kültürümüzün örnekleri olan bu masalları yaşatmak ve genç kuşaklara ulaştırmaktır. Derlenen masalların, eski Türk halklarının tarihi ve genetik kodlarının araştırılması ve öğrenilmesi yolunda faydalı bir kaynak olacağına inanıyoruz.

**Düsen Kaseinov**
*TÜRKSOY Genel Sekreteri*

# Cırtdan

Biri vardı, biri yoxdu, bir nənə vardı. Bu nənənin bir nəvəsi var idi. Bu oğlan o qədər balaca idi ki, ona Cırtdan deyərdilər. Bir gün Cırtdan gördü ki, qonşu uşaqları meşəyə oduna gedirlər, gəlib nənəsinə dedi:

– Ay nənə, mənə də icazə ver, uşaqlarla gedim.

Nənə icazə verdi, uşaqları çağırıb hərəsinə bir yağ yaxmacı verdi. Cırtdanı da onlara tapşırdı. Yolda Cırtdan yerə oturub dedi:

– Nənəm məni sizə tapşırıb, məni dalınıza alıb aparın.

Yoldaşları onu növbə ilə dallarına alıb apardılar. Onun yerinə odun da yığdılar. Sonra hər kəs öz odununu şələ bağlayıb dalına aldı. Cırtdan dedi:

– Nənəm məni sizə tapşırıb, mənim odunumu da götürün.

Uşaqlar əlacsız qalıb, onun da odununu dallarına götürdülər. Onlar bir xeyli getdikdən sonra axşam oldu. Qaranlıq qovuşdu, yolu azdılar. Meşədən çıxanda gördülər ki, bir tərəfdən işıq gəlir, o biri tərəfdə it hürür. Biri dedi: «İşıq gələn tərəfə gedək», o biri dedi: «İt hürən tərəfə». Bilmədilər ha tərəfə getsinlər. Cırtdan dedi:

– İt hürən tərəfə getsək, it bizi qapar. İşıq gələn tərəfə gedək, bəlkə, yolu tapa bildik.

Uşaqlar işıq gələn tərəfə gedib bir divin evinə çıxdılar. Div onları görəndə sevinib öz-özünə dedi: «Yaxşı oldu. Gecə onları bir-bir yeyərəm». Uşaqlara bir az çörək yedirdib yatırdı. Gecədən bir az keçəndən sonra div uşaqların birini yemək istədi. Uşaqların yatıb-yatmadığını bilmək üçün dedi:

– Kim yatmış, kim oyaq?

Bu sözü eşidəndə Cırtdan tez başını qaldırıb dilləndi:

– Hamı yatmış, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan, niyə yatmırsan?

Cırtdan dedi:

– Nənəm mənə hər gecə qayğanaq bişirərdi, yedirib yatırardı.

Div qalxdı, tez qayğanaq bişirib Cırtdana yedirtdi ki, bəlkə, yatsın.

Bir qədər keçəndən sonra div yenə soruşdu:

– Kim yatıb, kim oyaq?

Yenə Cırtdan başını qaldırıb dedi:

– Hamı yatıb, Cırtdan oyaq.

Div soruşdu:

– Cırtdan, indi niyə yatmırsan?

– Hər gecə nənəm mənə çaydan xəlbirlə su gətirərdi.

Div ayağa qalxdı, bir xəlbir götürüb çaydan su gətirməyə getdi. Cırtdan da tez yoldaşlarını oyadıb dedi:

– Bu div bizi yemək istəyir. Qalxın, qaçaq.

Uşaqlar tez qalxdılar, qaçıb çaydan keçdilər. Bu tərəfdən div nə qədər xəlbiri suya salıb qaldırdısa, gördü ki, xəlbirdə su qalmır. Axırda təngə gəlib qayıtmaq istəyəndə, bir də gördü ki, uşaqlar çayın o tərəfindən gedirlər. İstədi sudan keçib uşaqların dallarınca düşsün, amma keçə bilmədi. Axırda onları səslədi:

– Ay uşaqlar, sudan necə keçdiniz?

Cırtdan tez cavab verdi:

– Get bir dənə dəyirman daşı tap, boynuna keçirt, özünü suya at, onda keçərsən.

Div Cırtdanın sözünə inandı, gedib bir dəyirman daşı tapıb boynuna keçirtdi, özünü suya atdı, suda boğulub öldü.



**Məmmədli Nihad, 9 yaş**
*Azərbaycan nağılı "Cırtdan" – Azerbaycan masalı «Cırttan»*

# Cırttan

Biri varmış, bir yokmuş, bir kadın varmış. Bu kadının bir torunu varmış. Oğlan çok küçük olduğu için ona Cırttan derlermiş.

Günlerden bir gün Cırttan bakmış ki, komşu çocukları ormana odun toplamaya gidiyorlar. Hemen gelmiş ninesine:

– Nineciğim, izin verir misin ben de çocuklarla ormana odun toplamaya gideyim? demiş.

Ninesi izin vermiş, çocukları çağırmış ve ekmeğin üzerine yağ sürerek hepsine birer dilim vermiş. Cırttan'ı da onlara emanet etmiş.

Yolda giderken Cırttan yere oturmuş ve:

– Ninem beni size emanet etti. Beni sırtınıza alıp götürün, demiş.

Arkadaşları sıra ile onu sırtlarına alıp götürmüşler. Onun için odun da toplamışlar. Sonra herkes kendi odununu sırtına almış ve yola koyulmak isterken Cırttan:

– Ninem beni size emanet etti, benim odunumu da sırtınıza alıp götürün, demiş.

Çocuklar çaresiz onun odununu da sırtlarına alıp yola çıkmışlar. Onlar bir hayli gitdikten sonra akşam olmuş, karanlık çökmüş ve yolu kaybetmişler. Ormandan çıktıktan sonra görmüşler ki, bir tarafta ışık gözüküyor, bir tarafta ise köpek havlıyor.

Biri:

– Işığa doğru gidelim, demiş.

Bir diğeri ise:

– Hayır, köpek havlayan tarafa doğru gidelim, demiş.

Çocuklar nereye gideceklerini şaşırmışlar. Cırttan:

– Köpek havlayan tarafa gidersek, köpek bizi kapar. Işığa doğru gidelim, belki yolumuzu bulabiliriz, demiş.

Çocuklar ışığa doğru gitmişler ve gelip bir devin evine ulaşmışlar. Dev onları görünce sevinerek:

– İyi oldu, gece onları birer birer yerim, diye düşünmüş.

Sonra çocuklara yiyecek bir şeyler vermiş ve onları uyutmuş. Geceden biraz geçdikten sonra dev çocuklardan birini yemek istemiş ve çocukların uyuyup uyumadığını öğrenmek için:

– Kim uyumuş, kim uyanık? diye sormuş.

Bunu duyan Cırttan hemen başını kaldırmış ve:

– Herkes uyumuş, Cırttan uyanık, demiş.

Dev:

– Cırttan, neden uyumuyorsun? diye sormuş.

Cırttan:

– Ninem bana her gece omlet yapar ve beni yedirip öyle uyuturdu, demiş.

Dev hemen kalkmış omlet yapmış Cırttan'a yedirmiş ve:

– Hadi şimdi uyu, demiş.

Biraz geçdikten sonra dev yine sormuş:

– Kim uyumuş, kim uyanık?

Cırttan yine başını kaldırmış ve:

– Herkes uyumuş, Cırttan uyanık, demiş.

Dev:

– Cırttan, şimdi neden uyumuyorsun? demiş.

Cırttan:

– Ninem her gece ırmaktan kalburla su getirirdi bana, demiş.

Dev kalkmış, bir kalbur almış ve ırmağa su getirmeye gitmiş. Dev gidince Cırttan hemen arkadaşlarını uyandırmış ve:

– Arkadaşlar, bu dev bizi yemek istiyor! Kalkın, hemen gidelim, demiş.

Çocuklar hemen kalkmışlar, koşarak ırmağı geçmişler. Diğer tarafta dev kalburu suya daldırıp çıkarıyor, ama kalburda su kalmıyor. Çok uğraşmış, ancak başaramayınca sıkılmış ve geri dönmek istemiş. Tam bu sırada bakmış ki, çocuklar ırmağın diğer kıyısında gidiyorlar. Hemen çocukların peşine takılmak istemiş, ama ırmağı geçememiş. Sonunda onlara:

– Hey, çocuklar, ırmağı nasıl geçtiniz? diye seslenmiş.

Cırttan hemen:

– Git bir tane değirmen taşı bul, boynuna geçir ve kendini suya at, o zaman ırmağı geçebilirsin, demiş.

Dev Cırttan'a inanmış, gitmiş bir değirmen taşı bulmuş ve boynuna geçirerek kendini suya atmış ve ırmakta boğularak ölmüş.

# Qaranquş və sərçə

Biri var idi, biri yox idi. Bir qaranquş vardı. O özü üçün damın lap qırağında yuva tikmişdi. Qonşuluqda bu evin taxtapuşunda sərçə özünə yuva qurmuşdu. Ancaq nə yuva idi!? Bu yuva su borusu ilə taxtapuşun arasındakı sadəcə bir yarıq idi.

Qaranquş hər il bala çıxarır, sonra da onlara uçmaq və oxumaq öyrədirdi. Ancaq ana sərçənin işi tamam başqa idi. O da hər il bir neçə yumurta yumurtlayır, ancaq bircə dəfə bala çıxara bilməzdi, ya dəcəl uşaqlar gəlib yumurtaları onun yuvasından götürər, ya da balaları pişik yeyərdi.

Ana sərçə qaranquşlar ailəsinə baxanda ürəyi lap göynəyirdi.

– Sən nə xoşbəxtsən! – deyə ana sərçə dilləndi. Hər il sən bala çıxarırsan. Mən isə bala üzünə həsrətəm!

– Bunun təqsiri sənin özündədir. Əgər sənin də mənim kimi belə möhkəm yuvan olsa idi, onda nə uşaqlar, nə də pişik sənin balalarına dəyə bilməzdi – deyə qaranquş cavab verdi.

– Zəhmət olmasa, o cür yuva tikməyi mənə də öyrət. Yəqin ki, sən bunun ya bir sirrini, ya da qəribə bir üsulunu bilirsən! – deyə ana sərçə ondan xahiş elədi.

– Yuvanı tikməyə gərək baş işlədəsən! Ancaq əslində burada elə bir çətin şey yoxdur. Qonşu, gəl uçaq mən sənə öyrədərəm! – deyə qaranquş sərçəni öyrətməyə başladı.

Onlar uçub gölün qırağına gəldilər.

Qaranquş dedi:

– Qonşu, dimdiyinə bir parça gil al, bax mənim kimi.

Cik-cik – deyə ana sərçə cavab verdi.

– Mən burada çətin bir şey görmürəm, burada heç bir çətin şey yoxdur!

Qaranquş heç nə demədi. Uçub yaşadıqları evin damına gəldi, bir parça gili divara yapışdırdı.

– Sən də belə elə! – deyə o yenə də ana sərçəyə məsləhət gördü.

– Görürəm, görürəm! Bunu eləməyə nə var, mən də elə bilirdim ki, sənin yuvanı tikməyinin bir sirri, ya heç olmasa bir qəribəliyi var... Onu elə hamı bilir. Belə boş-boş

işlərlə vaxtımı keçirə bilmərəm! – deyə ana sərçə cavab verdi.

Qaranquş isə dimdiyində az-az gil gətirmək üçün dəfələrlə uçub gölə getdi. Gil lazım olduğu qədər yığılandan sonra qaranquş samanın dalınca getdi. Sonra yuvanı yapmağa başladı. Bir az gil götürüb divara yapışdırır, üstündən də saman yığır, sonra yenə gil qoyur, yenə də üstündən saman yapışdırır...

– Bax belə eləmək lazımdır! Əvvəlcə gili yapışdırmaq lazımdır, sonra samanı ona yapışdırmaq lazımdır, sonra yenə gil, yenə də saman, çox yaxşı davamlı bir yuva alınar – deyə ana sərçəyə öyrətdi.

– Bilirəm, bilirəm! Burada bir yenilik yoxdur! – deyə ana sərçə ağız-burnunu büzüşdürə-büzüşdürə cikkildədi.

– Bilməyinə bilirsən, ancaq tək bunu bilmək ilə yuva tikə bilməzsən! Bunun üçün gərək zəhmət çəkəsən. Mən işlədiyim qədər sən işləməsən, ömründə bala çıxara bilməyəcəksən, – deyə qaranquş ona cavab verdi.



**Melek Birge Demir, 8 yaş**
***Türk nağılı «Qaranquş və sərçə» –***
***Türk masalı «Kırlangıç ve Serçe»***

# Kırlangıç ve Serçe

Biri varmış, biri yokmuş, bir kırlangıç varmış. O, kendisine bir evin saçağının altında güzel bir yuva yapmıştı. Komşu evin damında ise bir serçe yuva yapmıştı. Ama ne yuva? Bu yuva su borusu ile damın tahtası arasındaki bir yarıktan ibaretti.

Kırlangıç her sene yavru çıkarıyor, sonra da onlara uçmak ve ötmeği öğretiyormuş. Ama anne serçenin işi bambaşkaymış. O da her sene birkaç yumurta yumurtluyor, ancak bir kez de olsun yavru çıkaramıyordu. Çünkü ya yaramaz çoçuklar gelip onun yumurtalarını yuvasından alıyorlar, ya da yavruları kediler yiyormuş.

Anne serçe kırlangıç ailesine bakınca yüreği sızlamış ve kırlangıça:

– Sen çok mutlu bir annesin! Her sene yavru çıkarıyorsun. Ama ben bir yavruya bile hasret kaldım, demiş.

Kırlangıç:

– Sen bunun suçunu kendinde ara! Eğer senin de benimki gibi böyle sağlam bir yuvan olsaydı, o zaman ne çocuklar, ne de kediler senin yavrularına hiçbir şey yapamazdı, demiş.

Serçe:

– Öyleyse, rica etsem sağlam bir yuva yapmayı bana da öğretir misin? Galiba sen böyle sağlam bir yuva yapmanın ya bir sırrını, ya da farklı bir yöntemini biliyorsun, demiş.

Kırlangıç:

– Sağlam bir yuva yapmak için kafanı iyi kullanmalısın! Aslında o kadar da zor bir şey değil. Komşu, gel uçalım ben sana öğreteyim! demiş...

Onlar uçup bir gölün sahiline gelmişler.

Kırlangıç:

– Komşu, qaqana biraz kil al, bak benim gibi, demiş.

Serçe:

– Cik cik, bu zor bir şey değil ki? demiş.

Kırlangıç hiçbir şey söylemeden uçup yaşadıkları evin damına gelmiş, qaqasındaki kili duvara yapıştırmış ve:

– Sen de böyle yap, demiş.

Serçe:

– Görüyorum, görüyorum! Bunu yapmak zor bir şey değil ki, ben de düşündüm ki, sen bunu yapmanın bir sırrını, ya da farklı bir yöntemini biliyorsun!.. Bunu zaten herkes biliyor. Böyle boş işlere zaman harcıyamam! demiş.

Kırlangıç ise kil getirmek için defalarca uçup gölün sahiline gitmiş. Kırlangıç yeterince kil topladıktan sonra saman getirmek için gitmiş. Samanı da getirdikten sonra yuvayı yapmaya başlamış. Biraz kil alıp duvara yapıştırmış, sonra üzerine samanı yapıştırmış. Sonra yine kil koymuş, kilin üzerine saman koymuş... Böylece yuvayı yaptıktan sonra anne serçeye:

– İşte, yuvayı böyle yapmak gerekir! Önce kili duvara yapıştırman lazım, sonra üzerine saman koyup yapıştıracaksın. Sonra yine kil, yine saman... Evet, çok sağlam bir yuva yapmanın sırrı budur, demiş.

Anne serçe ağzını burnunu yamultarak:

– Biliyorum tabii ki! Bu bir yenilik değil ki! demiş.

Kırlangıç:

– Biliyorsun tabii, ancak sadece bunu bilmekle yuva yapamazsın! Bunun için uğraşman lazım, emek sarf etmen lazım. Eğer benim çalıştığım kadar çalışmazsan, hiçbir zaman yavru çıkaramazsın ve böylece yavruya hasret kalırsın! demiş.

# Dombra nə dedi?

Keçmiş zamanlarda bir xan vardı. Xanın arvadı cavan ikən ölmüş, Hüseyn adında bir oğlu qalmışdı. Xanın dünyada sevdiyi yeganə adam oğlu igid Hüseyn idi.

İgid Hüseyn ova çıxmağı çox xoşlayırdı. Hüseyn hər dəfə ova gedəndə xan narahat olur, oğlu qayıdanda ona deyirdi:

– Bu təhlükəli işdən əl çək, bəsdir ova getdiyin.

Lakin igid Hüseyn atasının sözünə baxmırdı. Hüseyn bir dəfə meşədə qaban gördü. Qabanı təkbaşına ovlamaq istədi, heç kəsə heç nə demədi, xəlvətcə ova çıxdı.

Axşam düşdü. Xanın oğlu gəlib çıxmadı. Xan narahat oldu, ipək çadırından çıxdı, ayağını yerə döydü, ipəkdən hörülmüş qamçısını şaqqıldatdı, nökərləri xəbər gətirməyə göndərdi. Xan dedi:

– Hər kim pis xəbərlə gəlsə, boğazına qaynar qurğuşun tökdürəcəyəm!

Nökərlər atlandılar, çöllərə, dağlara səpələndilər. Hüseyni tapdılar. Hüseyn böyük bir ağacın altında sərələ qalmışdı, qaban onun sinəsini parça-parça eləmişdi. Nökərlər ağlaşdılar. Həm cavana ürəkləri yandığından, həm də qorxudan ağlayırdılar. O yerlərdə Əli adında bir çoban yaşayırdı. Çobanın əlindən hər şey gəlirdi. Nökərlər bu çobanın yanına gəldilər, ondan dərdlərinə çarə istədilər. Gecə yorğun nökərlər tonqalın qırağında yıxılıb yatdılar. Çoban yatmadı, başladı bıçaqla taxta yonmağa, musiqi aləti düzəltməyə. Səhər nökərlər incə, kədərli, həzin bir musiqi səsinə oyandılar. Çoban bardaş qurmuşdu, qucağında heç kəsin görmədiyi yeni musiqi aləti vardı. Alətə nazik tellər çəkilmişdi. Tellərin altında taxta çanaqda bir dəyirmi deşik açılmışdı.

Çoban Əli nökərləri yanına saldı, xanın hüzuruna getdilər. Xan onları görən kimi Əlidən soruşdu:

– Hüseyndən xəbər gətirmisən?

– Bəli, xan!

Çoban barmaqlarını çalğı alətinin üstündə gəzdirdi. Tellər fəryad qopartdılar, ətrafı

şikayət səsi bürüdü, səs ipək çadıra doldu. Alətin telləri kömək diləyən adam kimi haray çəkdi.

Xan sıçrayıb yerindən durdu:

– Sən Hüseynin ölüm xəbərini gətirmisən? Pis xəbərlə gələnə kəsdiyim cəzadan xəbərin yoxdur?

Çoban dedi:

– Xan, mən sənə heç bir söz deməmişəm. Sənə bu xəbəri çaldığım alət çatdırıb, istəyirsən onu cəzalandır.

Xanın əmri ilə dombranı çobandan aldılar. Onun boğazına – çanağındakı yumru deşiyə qaynar qurğuşun tökdülər. Çoban Əli nökərləri ölümdən qurtardı.

Elə o vaxtdan dombra qazaxların sevimli çalğı aləti olub.



**Hüseynov Əli, 12 yaş**
***Qazax nağılı «Dombra nə dedi?» –***
***Kazak masalı «Dombra Ne Dedi?»***

# Dombra Ne Dedi?

Eski zamanlarda bir han varmış. Hanın karısı çok genç yaşta vefat etmişti. Hanın Hüseyin adında bir oğlu varmış. Onun dünyada sevdiği tek kişi yiğit Hüseyin imiş.

Hüseyin ava çıkmayı çok severmiş. Hüseyin her ava çıktığında han çok rahatsız oluyor, onu çok merak ediyormuş. Oğlu avdan geri döndüğünde ona:

– Bu tehlikeli işten vazgeç, bu kadar avlandığın yeter, dermiş.

Ama yiğit Hüseyin babasını dinlemiyormuş.

Günlerden bir gün Hüseyin ormanda avlanırken bir domuz görmüş. Domuzu yalnız başına avlamak istemiş. O yüzden kimseye bir şey söylemeden gizlice domuzun peşine takılmış.

Akşam olmuş, ama hanın oğlu geri dönmemiş. Han onu çok merak etmiş, endişeye kapılmış. İpek çadırından çıkmış, ipekten yapılmış kamçısını şakırdatmış, uşakları haber getirmek için yollamış.

Han:

– Oğlumla ilgili kötü haber getirenin boğazına sıcak kurşun döktüreceğim! demiş.

Uşaklar atlara binip çölleri, dağları aramışlar ve Hüseyin'i bulmuşlar. Hüseyin büyük bir ağacın altında düşüp kalmıştı. Domuz onun göğsünü parçalamıştı. Onu böyle görünce uşaklar ağlamaya başlamışlar. Hem yiğit Hüseyin'e yürekleri sızlamış, hem de handan korktukları için ağlıyorlarmış.

O topraklarda Ali adında bir çoban yaşıyormuş. Çobanın elinden her iş gelirmiş. Uşaklar çobanın yanına gitmişler ve dertlerine bir çare bulmasını istemişler.

Gece olmuş. Yorgun düşmüş uşaklar çölde ocağın etrafında yatıp uyumuşlar. Ama çoban uyumamış. Eline bir bıçak almış ve sabaha kadar tahta parçasını yontarak bir müzik aleti yapmış. Sabah uşaklar tiz, hüzünlü ve hazin bir müzik sesine uyanmışlar. Çoban bağdaş kurup oturmuştu. Kucağında ise kimsenin görmediği yeni bir müzik aleti varmış. Aletin üstünde ince teller varmış. Tellerin alt kısmında ise yuvarlak bir delik açılmıştı.

Çoban Ali uşakları da yanına alıp hanın huzuruna gitmiş. Han onları görür görmez Ali'ye:

– Hüseyin'den bir haber mi getirdin? diye sormuş.

Çoban Ali:

– Evet, han! demiş.

Çoban parmakları ile hafiften tellere dokunmuş. Teller feryat figan etmişler. Etrafı şikayet sesleri sarmış, ses ipek çadıra dolmuş. Müzik aletinin telleri yardım isteyen bir insan gibi inlemiş. Han fırlayıp yerinden kalkmış ve:

– Sen Hüseyin'in ölüm haberini getirmişsin. Kötü haber getirene vereceğim cezadan haberin yok mu? demiş.

Çoban:

– Han, ben sana hiçbir şey söylemedim. Sana bu haberi çaldığım alet söyledi. İstersen onu cezalandırabilirsin! demiş.

Hanın emrile dombranı çobandan almışlar. Onun boğazına – ortasındaki yuvarlak deliğe – sıcak kurşun dökmüşler. Böylece çoban Ali uşakların hayatını kurtarmış.

İşte, o zamandan beri dombra Kazaklar'ın en değerli çalgı aleti olmuş.

# Üç qarpız toxumu

Biri varmış, biri yoxmuş, bir kasıb kəndli varmış. Onun bir parça torpağı varmış. Gecə-gündüz dinclik bilmədən kəndli bu torpaqda çalışarmış.

Günlərin bir günü, bahar gələndə kəndli torpağı şumlamağa başladı. Baxıb gördü göydə ağ leylək uçur. Leylək şumlanmış torpağa yaxınlaşdı, qıy vurdu və daş kimi torpağa düşdü. Kəndli qaçaraq ona yaxınlaşdı. Gördü ki, leyləyin bir qanadı qırılıb. Leyləyi qaldırıb ehtiyatla evə apardı.

– Belə yaxşı quşu xilas etmək lazımdır, – deyə düşündü.

Evdə kəndli leyləyin yaralı qanadına baxdı və onu sağaltmağa başladı. O, xəstə quşa çox qulluq etdi. Nəhayət, leylək sağaldı və uçub getdi. Kəndli quşun dalınca baxdı və dedi:

– Qoy bu quş heç dərd-bəla görmədən çox yaşasın!

Növbəti ildə, yazda kəndli şumlamanı qurtarıb zəmiyə əkinə çıxdı. Birdən onun sağaltdığı leylək uçub gəldi və torpağa üç qarpız toxumu atdı.

Kəndli qarpız toxumlarını götürüb torpağa basdırdı.

Bir neçə gündən sonra qarpız toxumları cücərdi, yarpaqları əmələ gəldi, zoğları uzandı, nəhəng gülləri açıldı.

Yoxsul var qüvvəsi ilə çalışırdı, vaxtlı-vaxtında onların dibini yumşaldır və suvarırdı. Beləliklə, məhsulun yığım vaxtı gəldi. Qarpızlar yetişdi, onlar elə böyük idilər ki, belələrini o yerlərdə hələ heç kim görməmişdi. Yoxsul üç qarpız dərdi və evə gətirdi.

– Yox, belə qarpızları tək yemək olmaz! – deyə fikirləşdi. O özü kimi kasıb olan bütün qohumlarını və dostlarını evə qonaq çağırdı. Nəhayət, dostlar və qohumlar yığışdılar. Qeyri-adi qarpızlara baxıb təəccübləndilər.

Ev sahibi qarpızı götürüb kəsmək istədi, amma nə illah etdisə, bıçaq qarpıza girmədi. Onda ikinci qarpızı kəsməyə çalışdı, yenə də bacarmadı. Üçüncü qarpızla da eyni hadisə baş verdi. Ev sahibi də, qonaqlar da çox təəccübləndilər. Nəhayət, o, var gücü ilə bıçağı qarpıza batırdı. Qarpız partladı,

içindən isə lət və toxum əvəzinə qızıl pullar çıxdı. Onlar cingilti ilə yerə səpələndilər. O biri iki qarpızda da qızıl var idi.

Yoxsul kəndli çox sevindi, bütün qızılları silkələyib çıxardı və qonaqlarına payladı. Qonaqlar razı və sevincək halda evlərinə döndülər.

Üç qarpız zoğunun hər birində on qarpız bitmişdi. Yoxsul o biri qarpızları da yığdı, onların içindəki qızılları topladı və o vaxtdan bəri bolluq içində yaşamağa başladı.

Sizə kimdən deyim, kimdən danışım, qonşuluqda yaşayan varlıdan. Varlı gördü ki, yoxsul qonşusu varlanıb, onun yanına gəlib səbəbini öyrənmək istədi və soruşdu:

– De görüm, necə oldu ki, varlandın? Bunu necə bacardın?

Yoxsul ona hər şeyi olduğu kimi danışdı. «Kaş mənim də bu qədər qızılım olardı!» – deyə varlı fikirləşdi və zəmiyə gedib leyləyi axtarmağa başladı.

Ağ leylək aramla zəmidə gəzişirdi. Varlı yavaşca ona tərəf yaxınlaşdı, məqam tapıb ağacla leyləyin ayağına vurdu. Leylək qışqıraraq torpağa düşdü. Varlı tez ona tərəf qaçdı, götürüb evə apardı. O, leyləyin ayağını sarıdı və sağaltmağa başladı. Bir neçə gündən sonra leylək sağaldı və uçub getdi.

Yazda varlı zəmiyə çıxıb səbirsizliklə ağ leyləyin uçub gəlməsini və ona sehrli qarpız toxumlarını gətirməsini gözləməyə başladı.

Bu minvalla o, hər gün zəmiyə çıxır, başını qaldırıb göyə baxırdı, görsün leyləklər uçub gəlməyiblər ki?

Amma leylək görünmürdü...

Tamahkar varlı bütün iş-gücünü unutmuşdu. O, bütün günü, sübh tezdən ta gün batana qədər zəmidə dolaşır, leyləyin yolunu gözləyir və onu belə çox gözlətdiyinə görə danlayırdı.

Nəhayət, leylək uçub gəldi və varlının zəmisinə üç qarpız toxumu atdı.

Varlı acgözlükdən tir-tir əsirdi. O, toxumları qapdı və dərhal torpağa basdırdı.

Tezliklə toxumlar cücərməyə başladı, iri yarpaqlar əmələ gəldi, torpaqda yaşıl zoğlar uzandı, güllər açdı. Sonra nəhəng qarpızlar yetişdi.

Qarpızlar yetişən kimi varlı bütün yaxınlarını evinə qonaq çağırdı. Özü kimi varlı olan bütün doğmaları və dostları onun evinə yığışdı. Qarpıza bıçaq vuran kimi partladı və içindən bir dəstə eşşəkarısı çıxdı. Eşşəkarıları qoz böyüklüyündə idilər. Onlar vızıldamağa, tamahkar varlını və onun yaxınlarını sancmağa başladılar. Hamının üz-gözü, dodaqları şişdi, öz aralarında dalaşaraq hərə bir tərəfə dağıldı.



**Atakişiyev Qurban, 15 yaş**
*Özbək nağılı «Üç qarpız toxumu» –*
*Özbek masalı «Üç Karpuz Tohumu»*

# Üç Karpuz Tohumu

Biri varmış, biri yokmuş, fakir bir köylü varmış. Onun küçük bir tarlası varmış. Köylü gündüz gece demeden tarlada çalışırmış.

Günün birinde köylü tarlada toprağı sürerken bakmış ki, gökte beyaz bir leylek uçuyor. Leylek aniden sürülmüş toprağa doğru yaklaşmış ve bağırarak yere çakılmış. Köylü koşarak ona yaklaşmış ve bakmış ki, leyleğin bir kanadı kırılmış. Leyleği incitmeden almış ve eve götürmüş.

– Böyle güzel bir kuşun hayatını kurtarmak gerek, diye düşünmüş.

Köylü hemen ilaç hazırlamış, leyleğin kırık kanadına sürmüş. Leyleği iyileştirmek için çok özen göstermiş, elinden geleni yapmış. Sonunda leylek iyileşmiş ve uçup gitmiş. Köylü kuşun arkasından bakarak:

– Allahım, bu kuşa hatasız belasız bir hayat ve uzun bir ömür ver! demiş.

Gelecek sene köylü toprağı sürüp bitirmiş ve yazın gelmesiyle birlikte tarlada ekin işleriyle uğraşıyormuş. Aniden onun iyileştirdiği leylek uçup gelmiş ve toprağa üç karpuz tohumu bırakmış. Köylü tohumları almış ve toprağa ekmiş.

Birkaç gün sonra karpuz tohumları filizlenip uzamış, yapraklar oluşmuş, kocaman çiçekler açmış.

Yoksul köylü tüm gücü ile çalışmış. Her şeyi zamanında yapmış, onların diplerini yumşatmış, bol bol su vermiş. Onlara çok emek sarf etmiş. Nihayet karpuzlar olgunlaşmış ve ürünü toplama zamanı gelmiş. Karpuzlar çok büyükmüş. O yerlerde şimdiye kadar kimse böyle karpuz görmemişti. Yoksul adam tarladan üç karpuz alıp eve gelmiş ve kendi kendine:

– Böyle güzel karpuzları yalnız başına yemek olmaz, demiş.

O, kendisi gibi fakir olan tüm akrabalarını, arkadaşlarını evine davet etmiş. Arkadaşları ve akrabaları toplanmışlar ve böyle olağanüstü karpuzları görünce çok şaşırmışlar.

Nihayet ev sahibi karpuzu kesip misafirlerine ikram etmek istemiş. Çok uğraşmış ama karpuzu kesememiş. Diğer karpuzu kesmek istemiş ama onu da başaramamış. Üçüncü karpuzu denemiş yine başaramamış.

Ev sahibi de, misafirler de olanlara çok şaşırmışlar. Sonunda köylü var gücü ile bıçağı karpuza saplamış. Karpuz patlamış ve içerisinden altın paralar çıkmış. Paralar etrafa saçılmış. Diğer iki karpuzu da kesmişler ve onlardan da altın paralar çıkmış.

Yoksul köylü çok sevinmiş, tüm altınları toplamış ve gelen müsafirlere hediye etmiş. Misafirler de çok sevinmiş ve mutlu bir şekilde evlerine dönmüşler.

Üç karpuz filizinin her birinde on tane karpuz varmış. Yoksul adam onları tarladan toplayıp eve getrimiş. Karpuzların hepsini kesmiş ve içindeki altınları almış. O günden sonra çok zengin olmuş ve huzur içinde yaşamaya başlamış.

Bu yoksul adamın çok zengin bir komşusu varmış. Zengin adam bir bakmış ki, yoksul komşusu çok zengin olmuş. Onun yanına gelmiş ve bunun nedenini öğrenmek istemiş:

– Komşucuğum, söyle bakalım, nasıl oldu da zengin oldun? Bunu nasıl başardın?

Yoksul adam ona her şeyi olduğu gibi anlatmış.

Zengin adam; «Keşke benim de bu kadar altınım olsaydı» diye düşünmüş ve leyleği aramak için tarlaya gitmiş. Bakmış ki, beyaz leylek yavaş yavaş tarlada dolaşıyor. Adam usulca leyleğe yaklaşmış ve bir fırsatını bulup ağaçla leyleğin ayağından vurmuş. Leylek bağırarak yere düşmüş. Zengin adam hemen ona doğru koşmuş ve leyleği alıp eve götürmüş. O, leyleğin ayağını sarmış ve iyileştirmek için elinden geleni yapmış. Birkaç gün sonra leylek iyileşmiş ve uçup gitmiş.

Aylar geçmiş, yaz gelmiş. Zengin adam her gün tarlaya gidiyor ve sabırsızlıkla beyaz leyleğin gelmesini ve ona sihirli karpuz tohumları getirmesini bekliyormuş. Ama, malesef leylek görünmüyormuş...

Açgözlü zengin tüm işlerini bırakmış, bütün gün sabah erkenden ta gün batımınadek tarlada dolaşıyor ve leyleğin yolunu bekliyormuş. Onu bu kadar beklettiği için de içinden leyleğe çok kızıyormuş.

Nihayet leylek uçup gelmiş ve zengin adamın tarlasına üç karpuz tohumu bırakmış. Zengin adam sevincinden zangır zangır titriyormuş. O tohumları kaptığı gibi toprağa ekmiş.

Kısa bir süre sonra tohumlar yeşermiş ve yapraklar oluşmuş, filizlenip iyice büyümüş. Büyük çiçekler açmış, sonra kocaman karpuzlar oluşmuş ve olgunlaşmaya başlamış.

Karpuzlar tam olgunlaşınca zengin adam tüm yakınlarını evine davet etmiş. Kendisi gibi zengin olan tüm akrabaları ve arkadaşları onun evine toplanmışlar. Sıra karpuzu kesmeye gelmiş. Bıçak karpuza dokunur dokunmaz karpuz patlamış ve içerisinden bir sürü eşek arısı çıkmış. Eşek arıları çok büyüklermiş. Nerdeyse ceviz büyüklüğünde. Onlar vızıldayarak açgözlü zengin adamı ve onun misafirlerini sokmaya başlamışlar. Onların hepsinin yüzü gözü, dudakları şişmiş. Sonra da birbirilerile kavga ederek herkes bir tarafa gitmiş.

# Tacirin qızı

Biri varmış, biri yoxmuş, bir tacir varmış. Bu tacir mal alır, başqa bir məmləkətə sövdə etməyə gedir. Ancaq dəryadan gəmiylə keçəndə onun bütün malı suya qərq olur. Tacir qəmgin halda, əliboş evinə qayıdır.

Əyalı ona:

– Niyə belə qəm dəryasına batıb, dərd çəkirsən, malların hanı, sənə nə oldu? – deyir.

Əri isə əhvalatı olduğu kimi əyalına söyləyir.

Bu tacir bir vaxtdan sonra başqa tacirlərdən borc pul alır, yenə sövdəgərliyə gedir. Az gedir, çox gedir, yenə də gəlib həmin dəryanın sahilinə çatır. Dəryadan keçməyə nə qədər qorxsa da, axırda mallarını gəmiyə yükləyir, dəryadan keçəndə yenə də malı suya qərq olur. Bu tacir ikinci dəfə ziyana düşür, dəryanın sahilində oturub ağlayır. Heç bir kömək görməyəndən sonra yenə də qayğı içində evlərinə qayıdır.

Gəlib yenə də olmuş hadisəni əyalına danışır. Bütün var-dövlətini dəryada batırandan sonra nə edəcəyini bilməyən tacir başqa tacirlərə borclu qalır, tükənməz qayğıya qərq olur.

Həmin tacir müəyyən vaxtdan sonra yenə də gedib dost-tanışlara yalvarır, bir neçə min tümən borc pul alır, mal alıb alverə gedir. Lakin gəlib, həmin dəryanın kənarında oturub, ah-vay edir. Bu zaman dəryadan bir Su adamı çıxıb:

– Hə, tacir, nə üçün oturub ağlayırsan? Sənə nə oldu? – deyə soruşur.

Tacir:

– Ey kəramətli adam, mənim bütün var-dövlətim bu dəryada qərq oldu. İndi də borc alıb, yenə Rum vilayətinə getmək istəyirəm. Ancaq bu dəfə də malım qərq olsa, mən nə edərəm? Ona görə də ağlayıram, – deyə cavab verir.

Həmin adam:

– Əgər sənin mallarını sağ-salamat keçirsəm, mənə nə verərsən? – deyib, tacirdən soruşur.

Tacir:

– Nə istəsən verərəm, ancaq mənim bu mallarımı sağ-salamat dəryanın o biri sahilinə keçir, – deyə ona yalvarır.

Su adamı:

– Əgər qızını bizim padşahın oğluna verməyi boynuna alsan, onda keçirərəm, – deyir.

Tacir buna nə cürə cavab verəcəyini bilməyib:

– Səni necə və haradan tapmaq olar, adın nədi? – deyə həmin adamdan soruşur.

O:

– Sən qızını elə bura gətirib: – Ey, Su adamı, – deyərək, üç dəfə təkrar çağırsan, mən özüm burda olacam, – deyir.

Tacir buna razı olur. Həmin adam tacirin mallarını suya qərq eləmədən sağ-salamat o biri sahilə keçirir. Tacir mallarını aparıb satır, çoxlu mənfəət götürür. Çəkmiş olduğu ziyanlarının əvəzini artıqlaması ilə qazanır. Bir qədər yaxşı mal alır, yenə də həmin dəryadan sağ-salamat keçib, öz şəhərinə qayıdır. Ancaq buna baxmayaraq, tacir çox qəmgin olur.

Əyalı görür ki, tacir bu dəfə mallarını sağ-salamat dəryadan keçirib, çoxlu qazanc əldə etsə də, qayğısı əvvəlkindən də artıqdır. Sonra əyalı tacirdən soruşur, olmuş əhvalatı bilir.

Ər-arvad üç gün yas tutur, ağlayıb, dərin qayğıya batırlar.

Ana:

– Eh, bizim bircə qızımız var, onun da yazısı belə imiş, – deyir.

– İndi hər nə olsa da, gərək qızı səhər aparıb tapşıraq, – deyir. Beləliklə, öz aralarında məsləhətləşirlər.

Tacirin qızı da rəfiqələriylə ağlaşıb-xudahafizləşib, öz taleyinin belə gətirdiyinə təəssüflənir.

Ertəsi gün qızın anası qızını bəzəyir-düzəyir, qucaqlaşır, xudahafizləşir, sonra onu dərya padşahının oğluna ərə vermək üçün öz atasına qoşub yola salır. Tacir qızıyla gəlib dəryanın kənarına çatır, sonra üç dəfə:

– Ey, Su adamı, – deyib, çağıranda dəryadan həmin Su adamı çıxır, «eşidirəm» deyir. Tacir isə – öz vədimə düz çıxıb, qızımı gətirdim, indi bu qızı görmək istəyəndə necə görə bilərik, – deyə o adamdan soruşur.

Su adamı:

– Siz qızınızdan arxayın olun, o bizim padşahın oğlunun arvadı olacaq. Onun həyatı ata evindəkindən yaxşı olar. Haçan qızınızı görmək istəsəniz bu yerə gəlin. «Ey, Su adamı», – deyib, üç dəfə çağırsanız mən gəlib sizinlə söhbət edər, qızınızı da gətirib göstərərəm.

Beləliklə, tacir gözünün ağı-qarası bircə qızını kimə verdiyini dürüst bilməsə də, əlacsız qalıb qızıyla xudahafizləşir. Su adamı isə qızı dalına alır, özünü suya verir və gözdən itir. Tacir bir az sahildə dayanır, axırda qayıdıb evinə gəlir.

İndi sizə kimdən deyək – qızdan. Qız suyun tərkinə cumur, bir azdan sonra gözünü açıb görür ki, böyük və gözəl bir bağın için-

dədi. Bağ nə bağ, elə bil behiştdi. Dünyada hansı meyvə desən, nə cürə gül desən bu bağda taparsan. Bağın içində padşahın üçmərtəbəli böyük bir sarayı. Bu qızı görən kimi kənizlərin və nökərlərin hamısı diz çökür, təzim edirlər. Ayaqları altına xalı-palaz salırlar. Qız otaqların içinə girib görür ki, heyran qalmalı şeylər var.

– Bu şeylər yalnız padşahlara layiqdir. Mənim atam kimi tacirlərdə belə möcüzələr ola bilməz – deyə, qız öz-özünə danışır. Nahar vaxtı qızın önünə elə dadlı, elə ləziz xörəklər gəlir ki, o heç yuxusunda da bu cürə xörəklər görməyib. Qız bu var-dövlətin, xörəklərin, geyim-kecimin, kənizlərin, nökərlərin, qulların, qulluqçuların, meyvəli ağacların hamısına baxır: «İndi bunların hamısı mənim üçündür. Adaxlımı da bir görsəydim, o da mənə layiq olsaydı, onda taleyimdən çox razı qalardım», – deyir. Çay vaxtı çay gəlir, nahar vaxtı xörək gəlir, gecə yatmaq vaxtı yorğan-döşək salınsa da, nişanlısı görünmür. Lakin öz ərinin yanında yatdığını duyur.

Qərəz, qızın heç nədən qəmi olmasa da, ərinin kimliyini və necəliyini görə bilməmək onu ağır nisgilə salır.

İndi sizə kimdən deyək – bu qızın anasından.

Qızın anası hər gün yuxudan durub:

– Ay tacir, mən gecə yuxumda qızımızı yaman qayğılı gördüm, ona nəsə olub. Bu gün hökmən gedib onu evə gətirmək lazımdır. Bəlkə, onun qarnı çörəkdən doymur, ya da başında bir qovğa var, – deyə, ərinə üz tutur.

Əri də əyalının sözünə qulaq asıb, dəryanın kənarına gəlir: «Ey, Su adamı», – deyə üç dəfə çağıranda, həmin Su adamı «eşidirəm», – deyib, dəryadan çıxır, tacirdən soruşur:

– Buyur, tacir, əmrin nədir?

– Qızın anası qızı görmək istəyib, məni bura göndərdi. Əgər mümkün olsa, bir həftəlik qızı yanına aparıb-gətirərəm, – deyə həmin adama üz tutur. O da «yaxşı» deyib, gedib qızı gətirir. Tacir qızının geyim-kecimini və rənginin açıqlığını görüb sevinir. Sonra isə qızı evlərinə gətirir. Qızın anası da qızının xoşbəxt olduğuna sevinir. Ancaq qızına ərinin kimliyini bilmək üçün bir əməl öyrədəcəyini bildirir. Qızı da «elədirsə, o əməli mənə öyrət» deyir.

Qızın anası:

– Mən sənə bir kiçik dəridən torbacıq tikim, onu boynundan as. Amma onu heç kimə göstərmə. Axşam yatmazdan qabaq sənə içməli su veriləndə, sən onu içmə və heç kəsə bildirmədən bu torbaya tök. Yatanda yerinə uzanıb xorulda, ərin sənin oyaqlığını bilməsin. O, yatıb şirin yuxuya gedəndən sonra şamı əlinə alıb onun kimliyinə və nə cür igid olduğuna yaxşı-yaxşı bax, – deyərək torbacığı verir qızına.

Qız bir həftə ata evində olandan sonra öz evinə getməyə rüsxət istəyir. Atası da onu aparıb həmin Su adamına tapşırır.

Tacirin qızı gələndən sonra bağı gəzir, gecənin tez gəlməyini səbirsizliklə gözləyir. «Bu axşam yarımı bir görsəydim» deyib, gündüzü fikirlə axşam eləyir. Axşam naharını yeyir, çayını içəndən sonra həmişəki kimi gətirib qıza bir kiçik kasada ağ su verirlər. Qız suyu içməyib, anasının tikib verdiyi həmin torbacığa tökür. Özü də huşsuz adam kimi yerinə uzanıb xoruldayır. Bir az keçəndən sonra qəşəng bir igid gəlib:

– Ey mənim sevgilim, sən yeddi gündən bəri harda idin, sənsiz mənim qərarım gəlmirdi, – deyir, qızın gah baş, gah ayaq ucunda durub, ona tamaşa edir. Sonra isə yatağa uzanır.

Qız isə: «Hə, indi bu yuxuladı, anamın dediyi kimi, durub qızıl şamdanı baş ucumdan götürüb, bu oğlana başdan-ayağa kimi yaxşı-yaxşı baxıb görüm», – deyərək yavaşca yerindən durur, qızıl şamdanı əlinə alır, oğlanın boy-buxununa, camalına bir dəfə baxır. Görür ki, oğlan elə bil cənnət qılmanıdır, gözəl, görkəmli bir igiddi. Amma «yenə də bir dəfə baxım», – deyib, ikinci dəfə şamı lap oğlana yaxın tutur, baxanda birdən şamın bir damcı ərimiş yağı oğlanın alnına düşür. Oğlan sıçrayıb yerindən qalxır və qızın əməlin görüb:

«Ey vay, yandım, ey namərd su pərisi, bu qızı haradan gətiribsənsə, aparıb ora da at», – deyə çığırır.

Dərhal Su adamı gəlib qızın padşahlıq paltarını çıxardır, öz əvvəlki libasını geydirir, dalına alıb aparır, dərya sahilinə atıb qayıdır.

Qız tutduğu hərəkətinə və oğlandan ayrıldığına çox peşman olur, dəryanın kənarında oturub zar-zar ağlamağa başlayır.

Qızın anası səhər yuxudan durub:

– Ey atası, bu gecə yuxumda qızımızın ağır halda olduğunu, qəmə qərq olduğunu və zar-zar ağlayıb dərya kənarında durduğunu gördüm. Tez ol gedib ondan bir xəbər tut, – deyə ərini yenə də dərya sahilinə göndərir.

Tacir əlacsız qalıb yenə də qızı görməyə dəryanın kənarına yollanır.

Gəlib görür ki, qızı oturub zar-zar ağlayır.

– Hə, qızım, bu nə əhvalatdı, sənə nə oldu, nə üçün ağlayırsan? – deyə qızından soruşanda qızı:

– Ey ata, sən gəl soruşma, mən də deməyim. Sonra evdə əhvalatı danışaram. Anam məni bədbəxt elədi, – deyib, atasına cavab verir.

Atası qızı götürüb evlərinə gəlir. Qız halqəziyyəni olduğu kimi ata-anasına danışır. Qızın qarabəxtliyinə səbəb olduğu üçün anası çox peşman olur. Beləliklə, tacirin qızı hurilər padşahının oğlundan ayrı düşür.



**Həsənəliyeva Gülər, 14 yaş**

*Türkmən nağılı «Tacirin qızı» – Türkmen masalı «Tüccarin Kızı»*

# Tüccarın Kızı

Biri varmış biri yokmuş, bir tüccar varmış. Bu tüccar bir gün mal alıp, bunları başka memleketlere satmaya gitmiş. Ancak, bir denizden gemi ile mallarını geçirirken, gemi batmış, tüm malları sulara gömülmüş. Tüccar üzgün, eli boş bir şekilde evine dönmüş. Tüccarı bu halde gören karısı ona:

– Neden üzgün ve kayqılısın, hani malların, ne oldu sana böyle? demiş.

Adam, tüm olanları olduğu gibi karısına anlatmış.

Bu tüccar uzun bir zaman sonra, başka tüccarlardan borç para alıp, yine ticaret yapmaya gitmiş. Az gitmiş, uz gitmiş yine o denizin kıyısına ulaşmış. Denizden geçmeye korksa da sonunda mallarını gemiye yüklemiş, denizden geçerken tüccarın tüm malları yine denizin sularına gömülmüş. İkinci kez felakete uğrayan tüccar, denizin kenarına oturup uzun uzun ağlamış. Çaresiz bir şekilde üzüntüyle evine dönmüş.

Tüccar eve gelip yine karısına olan biteni anlatmış. Tüm varlığı denizin sularına gömülen tüccar için ne yapacağını bilemez bir haldeymiş. Üstelik pek çok tüccara da borcu varmış.

Bu tüccar, birkaç ay sonra tekrar dostlarına gidip, yalvarmış yakarmış, onlardan bir miktar daha borç almış. Sonra bu parayla yine mal alıp, bu malları satmak için yola çıkmış. Ancak, yine o deniz karşısına çıkmış, orayı geçmesi gerekiyormuş. Tüccar denizin kenarına oturmuş 'ah vah' ederken suyun içinden bir Su adamı çıkıp:

– Hey tüccar neden ağlayıp duruyorsun? Ne oldu sana, diye sormuş. O vakit tüccar:

– Ey kerametli adam, benim tüm zenginliğim şu denize gömüldü. Bunun için ağlıyorum, diye cevap vermiş adama.

Adam, tüccara:

– Ey tüccar eğer ben senin mallarını sağ salim karşıya geçirirsem, bana ne verebilirsin? diye sormuş.

Tüccar da:

– Ne istersen vereyim, yeter ki, şu mallarımı karşı tarafa sağ salim geçir demiş, adama.

O zaman Su adamı:

– Eğer kızını bizim padişahın oğluna vermeyi kabul edersen, senin mallarını karşıya geçiririm, demiş.

Tüccar bu isteğe ne cevap vereceğini bilememiş, biraz düşünüp:

– Eğer kızım teklifi kabul edip gelirse, biz seni nerede ve nasıl bulabiliriz? Adın nedir?, diye sormuş.

Adam:

– Sen kızını buraya getirip, «Ey, Su adamı!», diye üç kez arka arkaya seslenirsen, ben hemen ortaya çıkarım, demiş.

Tüccar buna razı olmuş. Su adamı, tüccarın mallarını suya bile değdirmeden emniyetle karşı tarafa geçirmiş. Tüccar mallarını götürüp satmış, bu işten çok kar etmiş. Gördüğü zararları birkaç misli ile karşılamış. Birçok değerli mal alıp, yine o denizden sağ salim geçip, kendi şehrine dönmüş. Ancak, tüccar çok düşünceli görünüyormuş. Karısı, tüccarın bu sefer mallarını sağ salim denizden geçirip, çok kar edip gelmesine karşın, kaygısının iki kat daha arttığını görünce kocasına sebebini sormuş. Tüccar da karısına tüm olan biteni anlatmış.

Karı koca üç gün, ağlayıp sızlamışlar, sonra ikiside derin düşüncelere dalmış.

Onlar:

– Aman! Bizim bir tanecik kızımız var, onun kaderi de böyle oldu. Ama madem söz verdik götürüp kızı vermek gerek, diye kendi aralarında konuşmuşlar.

Tüccarın kızı kaderine razı olmuş, arkadaşları ile ağlaşıp vedalaşıp, kaderinin böyle olmasına üzülmüş. Ertesi gün annesi kızına en güzel elbiselerini giydirip, onunla vedalaşmış. Tüccar kızını denizler padişahının oğluna vermek için yola çıkmış. Tüccarla kızı o denizin kıyısına gelmiş. Tüccar, üç defa:

– «Ey Su adamı!» diye seslendiğinde, suyun içinden Su adamı çıkıp, «Evet, buyurun» demiş. Tüccar, adama, «Ben sözümü tuttum, kızımı getirdim, ancak şimdi kızımızı görmek istediğimizde, ne yapmamız gerekiyor?, diye o adama sormuş.

Su adamı:

– Siz kızınız için endişelenmeyin, o bizim padişahımızın oğlunun karısı olacak, onun hayatı sizin evinizdekinden çok daha iyi olacak. Ne zaman kızınızı görmek isterseniz, buraya gelin, «Ey, Su adamı!» diye üç defa seslenirseniz, ben ortaya çıkarım, kızınızı getirip size gösteririm» diye cevap vermiş.

Sonunda, tüccar biricik kızını kime verdiğini bile tam olarak bilmeden, çaresiz bir şekilde kızı ile vedalaşmış. Su adamı ise kızı arkasına alıp, suya dalıp, gözden kaybolmuş. Tüccar da üzgün bir şekilde, bir süre onların arkalarından baktıktan sonra evine dönmüş.

Şimdi bakalım kız ne yapmış?

Kız, suyun dibine kadar batmış, bir süre sonra gözünü açtığında, büyük, oldukça

güzel bir bahçe içinde bulmuş kendini. Bahçe cennet gibiymiş. Dünyada sebze ve meyve cinsinden ne varsa o bahçede bulunuyormuş. Bahçe içinde üç katlı, büyük bir saray varmış. Bu kızı gören muhafızların hepsi kızın önünde diz çöküp, kıza selam veriyor, kızın ayaklarının altına halılar seriyorlarmış. Kız saraya girmiş, oradaki eşyalara hayran olmuş.

Bu eşyalar yalnızca padişahlara layıktır. Benim babam gibi tüccarların böyle değerli eşyaları olamaz, diyerek, kız kendi kendine konuşmuş. Yemek vaktinde kızın önüne o kadar farklı, leziz yemekler getirilmiş ki, kız bu yemekleri rüyasında bile görmemiş. Kız bu zenginliği, yiyecek içeceği, kıyafetleri, hizmetçileri, muhafızları, ağaçları, düşünüp, «Demek bunların tümü benim için, nişanlımı da bir görsem, o da bana denk biri ise, o zaman kaderime razı olurum» diye içinden geçirmiş. Beklemeye başlamış, çay vakti çay gelmiş, yemek vakti yemek gelmiş, gece yatma vakti yorgan döşek getirilmiş, ne var ki, kızın nişanlısı yine kıza kendini göstermemiş. Ancak kız gece nişanlısının yanına geldiğini ve onun odasında yattığını hissetmiş.

Şimdi bakalım kızın annesi ne yapmış?

Günlerden bir gün kızın annesi sabah uyanıp tüccarın yanına varmış:

Ey tüccar, ben dün gece düşümde kızımı çok kaygılı gördüm, sakın başına bir şey gelmiş olmasın. Bugün gidip mutlaka, onu eve getirmen gerek, belki açtır, açıktadır ya da başında bir bela vardır, diyerek kaygısını dile getirmiş.

Tüccar da karısının dediğini yapıp, denizin kenarına varmış: «Ey Su adamı!», diye üç kez seslenmiş, o vakit Su adamı «Lepbey» diyerek, sudan çıkıp, tüccara:

– Buyur tüccar emrin nedir? diye, sorduğunda, tüccar:

– Karım, kızını görmek istiyor, bir haftalığına kızı eve götüreyim, demiş. Su adamı da «Olur.» diyerek, gidip kızı getirmiş ve tüccara vermiş. Tüccar kızının güzel kıyafetlerini ve pırıl pırıl yüzünü görünce mutlu olmuş. Sonra kızını eve götürmüş. Anne de kızının iyi halde olduğunu görmüş ve içi rahatlamış. Kız nişanlısını göremediğini annesine anlatınca annesi kıza: 'Dur, ben sana nişanlının kim olduğunu öğrenebilmen için bir yol öğreteyim demiş. Kızı da: «Olur, hadi o halde anlat anneciğim!" demiş.

Kızın annesi:

– Ben sana deriden, küçük bir torba dikeceğim, onu boynuna as, ancak kimseye gösterme. Gece yatmadan önce sana içmek için su verildiğinde, sen suyu içme ve kimseye sezdirmeden onu, bu küçük torbaya koy, yat, uyuyormuş gibi yap, yalancıktan horla, nişanlın senin uyanık olduğunu bilmesin, o yatıp, uykuya daldıktan sonra, kandili eline al ve onun yüzüne bak nasıl yiğit olduğunu gör, aklında hiç şüphe kalmasın, demiş.

Kız babasının evinde bir hafta kaldıktan sonra, babasına kendi evine ne zaman dönebileceğini sormuş. Babası da onu götürüp, o su perisine teslim etmiş.

Tüccarın kızı sarayına döndükten sonra, bir süre bağda gezmiş, bir an önce gecenin olmasını istiyormuş. «Gece olsaydı da yarimi bir görseydim!» diye düşünerek gündüzünü gece etmiş. Akşam yemeğinden sonra, her zamanki gibi kıza bir küçük kasede su verilmiş. Kız suyu içmemiş, o, suyu içmeyip annesinin dikip verdiği küçük torbaya koymuş. Kız uykusu gelmiş gibi yapıp yatmış. Az sonra yakışıklı bir yiğit kızın baş ucuna gelip:

– Ey benim sevgilim, sen yedi gündür neredeydin? Ben burada sensiz hiçbir şey yapamadım.» diyerek kızın bir baş ucunda, bir ayak ucunda durup, kızı uzun uzun seyretmiş, sonra kızın yanına yatmış, uyumuş.

Kız ise içiden:

– Evet, şimdi bu uyudu, annemin dediği gibi, kandili baş ucumdan alıp, bu oğlana iyice bir bakayım, diyerek, yavaşça yerinden kalkıp, kandili eline almış. Oğlanın boyuna posuna, yüzüne bakmış. Oğlanın, çok yakışıklı hoş yiğitmiş. Kız ona hayran olmuş, «Bir daha bakayım» diyerek, ikinci defa kandili yaklaştırdığında birden kandilin bir damla kızgın yağı oğlanın alnına damlayıvermiş. Oğlan yerinden fırlayarak ayağa kalkmış, kızın yaptığı şeyi anlayıp:

– Ne yaptın sen, yaktın beni! Aptal su perisi, bu kızı nereden getirdiysen, götürüp oraya da bırak! – diye bağırmış.

Derhal su perisi gelip kızın sultanlık kıyafetlerini çıkarttırıp önceki kıyafetlerini giydirmiş. Kızı arkasına alıp, denizin kenarına bırakmış.

Kız yaptığından pişman olmuş. Oğlandan ayrıldığı için çok üzülmüş, denizin kenarına oturup hüngür hüngür ağlamaya başlamış.

O gün kızın annesi erken uyanıp tüccara:

– Ey tüccar bu gece rüyamda kızımı gördüm, çok kötüydü, bir gam denizine düşmüştü ve hüngür hüngür ağlıyordu, gidip ondan bir haber getir, diyerek kocasını yine denizin kenarına göndermiş.

Tüccar kızını görme isteğini bildirmek için yine denizin kenarına gitmiş. Denizin kenarına vardığında bir de ne görsün. Kızı orada hüngür hüngür ağlayarak oturuyor. Tüccar:

– Ey kızım, bu ne hal böyle, sana ne oldu, neden ağlıyorsun? diye sorduğunda, kız:

– Ey babam, ne sen sor, ne de ben söyleyeyim, olan biteni evde anlatırım, annem beni kara bahtlı yaptı, diye cevap vermiş.

Babası kızını alıp evlerine dönmüş. Kız olanları olduğu gibi annesine ve babasına anlatmış. Anne, kızının kara bahtlı olmasına sebep olduğu için çok pişman olmuş. Ne var ki, iş işten geçmiş.

O günden sonra, tüccarın kızı denizler padişahının oğlunu bir daha görememiş...

# Ağıllı dehqan

Biri var idi, biri yox idi, bir xan var idi. Günlərin bir günü necə olursa xan əylənmək istəyir. Öz sadiq igidləri Asanla Usanı yanına çağırtdırıb, onlara əmr edir ki, getsinlər bir nəfər sarsaq adam axtarıb tapsınlar, gətirsinlər onu xanın yanına.

Xanın əmrini yerinə yetirmək üçün Asanla Usan xanın yanından çıxıb düzəlirlər yola.

İgidlər yol gedə-gedə öz aralarında söhbət edirlər. Asan deyir:

– Biz indi kimi tutub gətirək xanın yanına? İşdir, əgər xanın əmrini yerinə yetirməsək, xan bizi cəzalandıracaq.

Usan etiraz edib dedi:

– Ay səfeh, əgər xanın yanına kimi tutub gətirmək haqqında fikirləşirsənsə, deməli, sən özün elə ağlını itirmisən. Biz dinməz-söyləməz qarşımıza ilk dəfə kim çıxsa tutub apararıq xanın yanına. Xanın əmrini pozmağa onsuz da heç kəsin cürəti çatmayacaq!

İgidlər bir xeyli yol getdilər, getdilər, qabaqlarına yekə bir odun aparan adam çıxdı.

İgidlərin ikisi də bir ağızdan dedilər:

– Ey, yükünü at yerə, elə bu saat bizimlə gedək xanın yanına, xan səni çağırır.

Qarşılarına çıxan adam dedi:

– Yox, əgər bu, xanın əmridirsə, mən əvvəlcə odunu evə aparmalıyam, ondan sonra gedə bilərəm. Görəsən, nədən ötrü mən ona gərək olmuşam?

İgidlər qışqırdılar:

– Hələ bir danışır da! Sənə əmr olunubsa, deməli, getməlisən, daha artıq-əskik danışmaq lazım deyil. Xan bizə tapşırıb ki, bir nəfər sarsaq adam tapaq. Məgər sən sarsaq adam deyilsən?

Qarşılarına çıxan adam yenə etiraz etdi:

– Xeyr, igidlər, mən sarsaq adam deyiləm. Elə ona görə də meşədən əziyyətlə gətirdiyim odunu yolun ortasına atıb getmərəm.

Qarşılarına çıxan adam belə deyib, tələsik igidlərdən uzaqlaşdı. İgidlər yollarına davam elədilər. Getdilər, getdilər, qabaqlarına tənha bir alaçıq çıxdı, alaçıqda bir qadın var idi. Dəzgahın qabağında oturub toxuyurdu.

İgidlər arvada yanaşıb dedilər:
– Səni xan yanına dəvət edir. Yubanma, düş qabağımıza gedək!
Qadın təəccüb etdi:
– Axı xan adi bir qadını nədən ötrü yanına çağırsın?
İgidlər ona dedi:
– Xan səninlə söhbət etmək istəyir. O, bizə əmr verib ki, bir sarsaq adam tapaq, sən kişilərə cavab qaytarmağa cürət etməklə məgər sarsaq olduğunu göstərmədinmi?
Qadın qətiyyətlə dedi:
– Mənim fikrimcə, sarsaq olduğunu o adam etiraf etməlidir ki, avara-avara gəzib veyillənir. Bax, mən yorulmadan, can-başla işləyirəm, öz zəhmətimlə çörəyimi qazanıram. Siz gedin sarsağı başqa yerdə axtarın, mən heç yana gedən-zad deyiləm.
Asanla Usan belə qərara gəldilər:
– Əgər biz sözün düzün deyib, onları başa salsaq, onda heç kəs bizim sözümüzə qulaq asmaz. İndi qarşımıza birinci kim çıxsa, elə onu tutub aparaq, vəssalam!
Onlar yenə baş alıb getdilər. Bir dehqana rast gəldilər. Dehqan yer şumlayırdı.
İgidlər dehqanı səsləyib dedilər:
– Ey, dehqan, get xanın yanına!
Əkinçi cavab verdi:
– Vaxtım yoxdur.
– Çox danışma, əmr olunur sənə get, demək, getməlisən. Açıq-aşkar görünür ki, sən sarsaq adamsan. Xan elə özü əmr verib ki, bir sarsaq tapıb onun yanına aparaq.
Dehqanın acığı tutdu. Dedi:
– Burda sizin üçün sarsaq adam tədarük görməyiblər. Öz yolunuzla çıxın gedin!
İgidlər əkinçini tutub qolunu burdular.
Dehqan dedi:
– Buraxın məni! Məgər gözünüz görmür ki, hava istidir, torpaq quruyur? Mən gərək yeri şumlayıb qurtaram.
Asanla Usan dedilər:
– Yox. Ya gəl get xanın yanına, ya da bizə bir sarsaq adam göstər. Kimdən soruşuruqsa, heç kəs özünü sarsaq hesab etmir. Çoxmu əziyyət çəkəcəyik?
Dehqan dedi:
– Yaxşı, mən sizə sarsaq göstərərəm, ancaq məni buraxın!
İgidlər sevindilər, əkinçini buraxdılar.
– Tez ol, de görək!
Dehqan bir qədər fikirləşəndən sonra dedi:
– Əsl sarsaq elə xanın özüdür ki, sarsaq axtarıb tapmağı sizə əmr verib. Bir də sarsaq siz özünüzsünüz ki, avara-avara gəzib sarsaq axtarırsız. Xanın özündən sarsağını bu torpaqda nə qədər axtarsanız tapa bilməzsiniz.
İgidlər qışqırıb dedilər:
– Sən xanı təhqir elədin! Biz ona xəbər verəcəyik!
Dehqan təmkinlə dedi:
– İstəyirsiniz lap min dəfə xəbər verin. Qoy mənim sözlərim xanın qulağına gedib çatsın.

İgidlər qayıdıb gəldilər xanın yanına və olanların hamısını başdan axıracan ona danışdılar. Xan əmr etdi:

– Dehqanın əl-qolunu sarıyın, götürün gəlin yanıma.

Dehqanı əl-qolu sarıqlı gətirib gəldilər xanın hüzuruna.

Xan onu ələ salaraq dedi:

– Sən bir bu çoxbilənə bax! Belə, demək, mən sarsaq adamam, eləmi? Əgər sən, həqiqətən, belə ağıllı və zirək adamsansa, bax, mənim sevimli bir atım var. Bu əsl tulpardır, harın atdır. Onu cilovla görüm necə cilovlayırsan.

Dehqan düz üç gün xanın atına qulluq elədi: ona yem verdi, su verdi, nazını çəkdi. Dördüncü günü durub gəldi xanın yanına, dedi:

– Mənim xanım, sizin atınız yorğadır, amma cins at deyil, xasiyyətcə inəyə oxşayır, vərdişləri eşşəyə.

Xan bu sözləri eşidəndə bərk qəzəbi tutdu, inadcıl dehqanı öldürməyi qərara aldı.

Xanın anası bu xəbəri eşidəndə oğlunu çağırtdırdı yanına, ona dedi:

– Oğlum, bir dəfə köç vaxtı bizim sürü başqa sürüyə qarışmışdı. At ilxısına eşşəklər düşmüşdü. Görünür, sənin tulparının atası eşşəkdir. Sənin tulparını doğan madyan isə yolun ortasında gəbərdiyi üçün yetim qalmış qulanı balası ölmüş inəyin yanına buraxdım ki, döşünü əmsin. Odur ki, tulpar inək südü ilə böyüyüb.

Xan o zaman dehqandan soruşdu:

– Bəs sən bunu necə bildin?

Dehqan xana belə cavab verdi:

– Mən düz üç gün sənin atının yanından heç tərpənmədim. Hiss elədim ki, at sudan çıxanda dal ayağı ilə təpik atır. Bu hərəkətin inəkdə olduğunu müəyyən etdim. Gecə mən ata ot verəndə isə hər dəfə o, eşşək kimi anqırırdı. Deməli, sənin tulparında eşşək qanı var.

Xan dehqanı öldürməli olmadı, buraxdı onu evinə, özünə də buğda unundan bişirilmiş kökə verdi. Xanın arvadı isə dehqana bir dənə qızıl sikkə verdi.

Ertəsi günü xan yenə dehqanı yanına çağırtdırıb ona dedi:

– Əgər sən, həqiqətən də, hər şeyi tez duyansansa, onda tap görüm mən bu saat nə fikirləşirəm?

Dehqan fikrə getdi: «Xan mənə sual verəndə barmağını başına tuşladı, demək, o istəyir ki, mən onun saçını qırxım».

Dehqan belə fikirləşib, bir kəlmə də olsun danışmadı. Ülgücü götürüb xanın saçını dibindən qırxıb, qoydu yerə.

Bu dəfə də xan dehqanın fərasətinə heyran qaldı, yenə də keçən dəfəki kimi, ona buğda unundan kökə bağışladı, xanın arvadı isə bu dəfə də dehqana bir dənə qızıl sikkə verdi.

Bir neçə gün keçib getdi, xan yenə dehqanı yanına çağırtdırıb ona dedi:

– Əgər sən, həqiqətən də, çox bilənsən-sə, onda tap görüm bizim hansımız xan övladıyıq, mən, yoxsa arvadım?

Dehqan bir qədər fikirləşəndən sonra dedi:

– Sizin arvadınız xan qızıdır, siz isə çörəkçi oğlusuz.

Xan belə sözü eşidəndə qəzəbi tutdu, dehqanın boynunu vurdurmağı qərara aldı. Dehqanın boynunu vurdurmazdan əvvəl xan qoca xanın arvadından – öz anasından soruşdu:

– Anacan, düzünü de görüm mən kimin oğluyam?

Xanın anası dedi:

– Oğlum, bu lap çoxdan olmuş bir əhvalatdır. Bir-birinin dalınca həmişə qızımız olurdu, ərim də bundan çox narazı qalırdı. Mənim bir rəfiqəm var idi, yoxsul bir çörək bişirənin arvadı idi. Mənimlə rəfiqəm ikimiz də hamilə idik. Bu gün-sabah uşaqlarımız doğulacaqdı. Mən rəfiqəmə bolluca hədiyyələr verdim, sözü bir yerə qoyduq ki, əgər mənim qızım olmuş olsa, onun isə oğlu olsa, onda biz uşaqlarımızı dəyişərik. Elə belə də oldu. Mənim bir qızım oldu, rəfiqəmin isə bir oğlu oldu. Necə şərtləşmişdiksə gecənin yarısı, hamıdan xəlvət rəfiqəm oğlunu gətirib verdi mənə, mən də ona öz qızımı verdim. Ondan sonra mən xana xəbər verdim ki, oğlun olub. Sonra da böyük bir toy məclisi qurub şadlıq etdik. İllər ötüb keçdi. Uşaqlar böyüdülər. Qızımdan ayrılmaq istəmədiyim üçün onu sənə aldım.

Xan anasının hekayətini dinləyib qurtarandan sonra dehqandan soruşdu:

– Bəs sən bunu necə bildin?

Dehqan cavab verdi:

– Siz iki dəfə məni çağırtdırmısınız yanınıza, hər iki dəfə də mənə hədiyyə olaraq buğda unundan bişirilmiş çörək vermisiniz. Arvadınız isə hər dəfə mənə bir dənə qızıl sikkə bağışlayıbdır. Mən onda başa düşdüm ki, o, xan qızıdır.

Dehqanın bu ağıllı cavabı xana o qədər ləzzət verdi ki, onu özünə vəzir təyin etdi. Özünün sadiq igidləri Asana və Usana isə sarsaq əvəzinə belə bir ağıllı adam tapdıqları üçün bolluca hədiyyə verdi.



**Baxışova Validə, 15 yaş**
*Qırğız nağılı «Ağıllı dehqan» – Kırgız masalı «Akıllı Köylü»*



**Əzimli Günel, 12 yaş**

***Qırğız nağılı «Ağıllı dehqan» – Kırgız masalı «Akıllı Köylü»***

# Akıllı Köylü

Biri varmış, biri yokmuş. Bir han varmış. Günlerin birinde nasıl olmuşsa han eğlenmek istemiş. Ona sadık olan iki yiğidini, Asan'la Usan'ı yanına çağırtmış ve onlara bir aptal bulup getirmelerini emretmiş.

Hanın emrini yerine getirmek için Asan'la Usan yola koyulmuşlar. Yiğitler yolda giderken kendi aralarında sohbet ediyorlarmış. Asan:

– Biz şimdi kimi yakalayıp hanın huzuruna getirelim? Eğer hanın emrini yerine getirmezsek, han bizi cezalandıracak, demiş.

Usan itiraz etmiş ve:

– Aptal, sen eğer hanın huzuruna kimi yakalayıp götürmek hakkında düşünüyorsan, demek ki, aklını kaybetmişsin. Bizim karşımıza ilk kim çıkarsa, onu yakalayıp hanın huzuruna götürürüz. Zaten kimsenin cesareti yetmez hanın emrine karşı çıkmaya.

Yiğitler bir hayli gitdikden sonra karşılarına sırtında odun götüren bir adam çıkmış. Yiğitler:

– Hey sen, yükünü bırak ve hemen bizimle hanın yanına gidiyorsun. Han seni çağırıyor, demişler.

Adam:

– Tamam, olur. Eğer bu hanın emriyse, ben önce sırtımdaki odunu eve götüreyim, sonra sizinle gelebilirim. Acaba, han beni neden çağırıyor? demiş.

Yiğitler bağırarak:

– Sen hala konuşuyor musun? Eğer sana emrolunduysa, gitmelisin, konuşmanın bir anlamı yok. Han bize bir aptal bulup ona götürmemizi emretti. Sen aptal değil misin? demişler.

Adam itiraz ederek:

– Hayır, yiğitler, ben aptal değilim. İşte bu yüzden de ormandan bin bir eziyetle topladığım odunları yolun ortasında bırakıp gidemem, demiş.

Adam bunları söyleyip hemen yiğitlerden uzaklaşıp gitmiş. Yiğtler yollarına devam etmişler. Bir süre gitdikten sonra karşılarına büyük bir çadır çıkmış. Çadırda bir kadın varmış. Kadın tezgahın karşısında

oturmuş ve bir şeyler dokuyormuş. Yiğitler kadına yaklaşmış ve:

– Nine, han seni yanına davet ediyor. Çabuk ol, hemen gidelim! demişler.

Kadın şaşırmış ve:

– Han benim gibi sıradan bir kadını neden yanına çağırsın? demiş.

Yiğitler ona:

– Han seninle sohbet etmek istiyor. O, bize bir aptal bulup ona götürmemizi emretti. Sen de erkeklerle konuşmaya cesaret ettiğine göre aptal olduğunu kanıtladın, demişler.

Kadın itiraz ederek:

– Benim düşünceme göre aptal olduğunu o insan itiraf etmelidir ki, aylak aylak gezip dolaşır. Bakın, ben hiç yorulmadan çalışıyorum. Kendi ekmeğimi kendim kazanıyorum. Bence siz aptalı başka yerde arayın, ben hiçbir yere gitmeyeceğim, demiş.

Asan'la Usan:

– Eğer biz herkese doğruyu söyleyip, her şeyi olduğu gibi anlatırsak, kimse bizim sözümüzü dinleyip bizimle gelmez. Şimdi gidelim, karşımıza ilk kim çıkarsa hiçbir şey söylemeden onu yakalayıp götürelim, diye düşünmüşler.

Onlar yollarına devam etmişler ve tarlada çalışan bir köylüyle karşılaşmışlar. Köylü tarlada toprak sürüyormuş.

Yiğitler köylüye seslenip:

– Hey, köylü, han seni yanına çağırıyor! demişler.

Çiftçi:

– Vaktim yok, demiş.

Asan'la Usan:

– Çok konuşma, eğer sana git diye emrolunduysa, demek ki, gitmelisin. Senin bir aptal olduğun her halinden bellidir. Han kendisi emretti ki, bir aptal bulup ona götürelim, demişler.

Köylü öfkelenmiş ve:

– Burada sizin için aptal tedariki yapılmıyor. Çekin yolunuza gidin! demiş.

Yiğitler çıftçiyi yakalayıp kolunu çevirmişler.

Köylü:

– Bırakın beni! Görmüyor musunuz hava çok sıcak, toprak kuruyor? Benim toprağı sürüp bitirmem gerek! demiş.

Asan'la Usan:

– Hayır, olmaz! Ya hanın yanına sen gidersin, ya da bize bir aptal adam bul. Hiç kimse kendisini aptal olarak görmüyor. Çok mu uğraşacağız? demişler.

Köylü:

– Peki, siz beni bırakın, ben size bir aptal bulurum! demiş.

Asan'la Usan:

– Çabuk ol, hemen bul! demişler.

Köylü bir az düşündükten sonra:

– Size bir aptal bulup ona götürmeyi emrettiğine göre asıl aptal hanın kendisidir. İlaveten aylak aylak gezerek bir aptal aradığınıza göre siz kendiniz de aptalsınız. Bu

topraklarda ne kadar arasanız bile hanın kendisinden aptalını bulamazsınız, demiş.

Yiğitler bağırarak:

– Sen hana hakaret ettin! Biz bunu ona söyleyeceğiz! demişler.

Köylü temkinle:

– Nasıl isterseniz, gidip hana ne söylerseniz söyleyin! Ben söylediklerimin arkasındayım, demiş.

Yiğitler hanın yanına geri dönmüşler ve olanların hepsini ona anlatmışlar.

Han:

– Hemen köylünün elini kolunu bağlayıp bana getirin, diye emretmiş.

Köylüyü yakalayıp elini kolunu bağlamışlar ve hanın huzuruna getirmişler. Han onunla alay ederek:

– Şuna bak ya, sen çok biliyorsun değil mi!? Evet, demek ki, ben aptalım, öyle mi? Eğer sen gerçekten de akıllı ve atik biriysen, benim çok sevdiğim bir atım var. Harın attır. Yanına kimseyi yaklaştırmıyor. Onu gemle bakalım nasıl gemliyorsun? demiş.

Köylü tam üç gün hanın atına hizmet etmiş. Ona yem vermiş, su vermiş, nazını çekmiş, sevip okşamış. Dördüncü gün hanın yanına gelmiş ve:

– Han, sizin atınız rahvan attır, cins at değil. Karakter olaraq ineğe, alışkanlıkları ise eşeğe benziyor, demiş.

Han bu sözleri duyunca çok öfkelenmiş, inatçı köylüyü öldürmeye karar vermiş.

Hanın annesi bu haberi duyunca hemen oğlunu yanına çağırttırmış ve ona:

– Oğlum, göç zamanı bizim sürü başka bir sürü ile karışmış. At yılkısı eşek yılkısı ile birbirine karışmış. Anlaşılan senin atının babası eşektir. Senin atını doğuran kısrak yolda öldüğü için yetim kalmış tayı südü ile beslensin diye yavrusu ölmüş bir ineğin yanına bıraktım. Senin atın inek südü ile beslendiği için karakteri de ineğe benzemiş, demiş.

Han bunları duyunca köylüye sormuş:

– Peki, sen bunu nasıl analdın?

Köylü hana:

– Ben, tam üç gün senin atının yanında kaldım ve onu izledim. Baktım ki, at sudan çıktığı zaman arka ayağı ile tekme atıyor. Araştırdım ve bunun ineğe has bir hareket olduğunu öğrendim. Geceler ben ona ot verdiğimde ise o, eşek gibi anırıyordu. Bu da demek oluyor ki, senin atının eşekle bir kan bağı var, demiş.

Han köylüyü öldürmekten vazgeçmiş ve onu evine bırakmış. Ayrıca ona buğday unundan yapılmış ekmek vermiş. Hanın karısı ise köylüye bir altın akçe vermiş.

Ertesi gün han yine köylüyü yanına çağırttırmış ve ona:

– Eğer gerçekten de sen her şeyi hemen anlayabiliyorsan, söyle bakalım ben şu anda ne düşünüyorum? demiş.

Köylü içinden: «Han benimle konuşurken parmağını kafasına doğru yöneltmişti.

Demek ki, o, benden onun saçlarını kesmemi istiyor» diye düşünmüş ve hiçbir şey söylemeden usturayı alıp hanın saçlarını kazımış.

Han köylünün zekasına hayran kalmış ve yine ona buğday unundan yapılmış ekmek vermiş. Karısı ise yine köylüye bir altın akçe vermiş ve evine bırakmışlar.

Birkaç gün geçmiş, han tekrar köylüyü çağırttırmış ve ona:

– Madem ki, sen her şeyi biliyorsun, o zaman söyle bakalım bizim hangimiz han çocuğuyuz? Ben mi, yoksa karım mı? demiş.

Köylü yine biraz düşünmüş ve:

– Sizin karınız han kızıdır. Siz ise fırıncı oğlusunuz, demiş.

Han bunları duyunca çok öfkelenmiş ve köylünün boynunu vurdurmak kararı almış. Ama köylünün boynunu vurdurmadan önce annesine sormuş:

– Anne, bana doğruyu söye, benim babam kimdir?

Annesi:

– Oğlum, bu çok eskiden olmuş bir olaydır. Benim peş peşə kızım oluyordu. Kocam da bundan hiç memnun değildi. Benim bir arkadaşım vardı. Yoksul bir fırıncı karısıydı. Günün birinde ben de, arkadaşım da hamile kaldık. Doğuma birkaç gün kala ben arkadaşıma bol bol hediyeler verdim ve ona eğer benim kızım senin ise oğlun olursa çocuklarımızı değiştirelim diye bir teklifte bulundum. O, da teklifimi kabul etdi. Sonra düşündüğüm gibi oldu. Benim kızım, arkadaşımın ise oğlu oldu. Anlaştığımız gibi gece herkes uyuduktan sanra arkadaşım oğlunu getirip bana verdi, ben de kızımı ona verdim. Çocukları değiştirdikten sonra ben hana bir oğlun oldu diye haber yolladım. Düğün bayram yaptık, eğlendik. Sonra yıllar geçti ve çocuklar büyüdü. Kızımdan ayrı kalmak bana çok zor geliyordu. O yüzden kızımı seninle evlendirdim, demiş.

Han annesinin hikayesini dinledikden sonra köylüye sormuş:

– Peki, sen bunu nasıl anladın?

Köylü:

– Siz iki kez beni yanınıza çağırttınız ve her seferinde hediye olarak bana buğday unundan yapılmış ekmek verdiniz. Karınız ise bana altın akçeler armağan etti. İşte, ben o zaman anladım ki, o, han kızıdır.

Köylünün bu akıllı cevabı hanın çok hoşuna gitmiş. Ve köylünü kendisine vezir tayin etmiş. Kendisinin sadık yiğitleri Asan ve Usan'a ise bir aptal yerine böyle akıllı bir adam bulup getirdikleri için bol bol hediyeler vermiş.

# Atanın üç məsləhəti

Qədim zamanlarda qoca bir kişi vardı. O öz oğlanları ilə birlikdə yaşayırdı. Bu qocanın ölüm vaxtı gəlib çatır. Oğlanlarının ikisini də yanına çağırıb deyir:

– Əziz balalarım, var-dövlətimi sizə qoyub gedirəm. Ancaq siz bu dövlətlə varlanmayacaqsınız. Sizə puldan qiymətli, var-dövlətdən dəyərli üç məsləhət verirəm. Onları yadınızda saxlasanız, ömrü boyu firavan, bolluq içində yaşayacaqsınız. Məsləhətim bunlardır, yadınızda saxlayın: heç kəsə birinci baş əyməyin. Gözləyin başqaları sizə baş əysin. Nə cür yemək olur-olsun, balnan yeyin. Həmişə pərqu balışda yatın.

Qoca Allah rəhmətinə gedir. Oğlanları onun məsləhətini unudur, özləri istədiyi kimi yaşayıb kef çəkirlər: içirlər, gəzirlər, çoxluca yeyirlər, yatırlar. Birinci ili atalarının pulunu tamam xərcləyib qurtarırlar. İkinci ili bütün mal-qaranı satıb-sovururlar. Üçüncü ili evdə nə vardısa, hamısını satıb qurtarırlar. Yeməyə daha bir şeyləri qalmır. Böyük qardaş deyir:

– Axı atamız bizə var-dövlətdən əlavə üç məsləhət də vermişdi. Demişdi ki, onlarla ömrümüzün axırınacan firavan, bolluq içində yaşayacağıq.

Kiçik qardaş deyir:

– Atamın dediyi məsləhətlər yadımdadır, ancaq onların nə qiyməti var ki? Atam demişdi ki: «Heç kəsə birinci baş əyməyin, qoy başqaları sizə baş əysin». Bundan ötrü gərək varlı olasan, indi isə hal-hazırda bütün mahalı gəzib-dolaşasan, bizdən kasıbını tapa bilməzsən. O demişdi: «Nə cür yemək olur-olsun, balnan yeyin». Eşidirsənmi, balnan. Bizim heç quru yuxamız da yoxdur, o ki bal olsun. Atamız demişdi: «Həmişə pərqu balışda yatın». Pərquda yatmaq, əlbəttə, yaxşı olardı. Amma evimiz bomboşdur, heç köhnə keçəmiz də qalmayıb.

Böyük qardaş bir xeyli fikrə gedir, sonra deyir:

– Sən nahaq yerə gülürsən, qardaşım. Biz o vaxt atamızın öyüdünü anlamamışıq. Amma onun sözlərində bir müdriklik var. O istəyirmiş ki, dan yeri ağarmağa başlayanda

tarlaya işləməyə gedək, bax, onda hamı, yanımızdan ötüb keçən hər kəs birinci bizə salam verəcək. O vaxt bütün günü yaxşıca işləyəcəksən, evə yorğun-arğın, ac qayıdacaqsan. Bax, onda bir parça quru yuxa da sənə baldan şirin olacaq. Onda hər necə yataq olur-olsun fərqi yoxdur, ürəyinə yatacaq, xoşuna gələcək, şirin-şirin yatacaqsan, elə biləcəksən ki, pərqu yastıqda yatırsan.

Ertəsi günü dan yeri ağarar-ağarmaz qardaşlar durub tarlaya yollanırlar. Hamıdan əvvəl gəlib çıxırlar iş yerinə. Adamlar işə gedir, ilk əvvəl qardaşlara salam verir, onlara xoş gün, yaxşı iş arzu edirlər. Bütün günü qardaşlar bellərini belə dikəltmirlər, axşam isə bir parça yuxa ilə çay onlara baldan şirin görünür. Sonra da qardaşlar quru döşəmənin üstəcə yıxılıb yatırlar, elə bilirlər ki, pərqu içində yatıblar.

Bu minvalla qardaşlar hər gün işləyir, payızda da yaxşı məhsul götürür, yenidən bolluq içində firavan yaşamağa başlayırlar. Yenə qonşular onlara hörmət edirlər.

Qardaşlar tez-tez atalarının müdrik sözlərini yada salırlar.



**Salmanova Şölə, 12 yaş**
***Tatar nağılı «Atanın üç məsləhəti» –***
***Tatar masalı «Babanın Üç Nasihatı»***

# Babanın Üç Nasihatı

Eski çağlarda ihtiyar bir adam varmış. O, iki oğlu ile birlikte yaşıyormuş. İhtiyarın ölüm vakti gelip çatmış. İhtiyar oğullarının ikisini de yanına çağırmış ve demiş:

– Canım yavrularım, tüm malımı mülkümü sizlere bırakıp gidiyorum. Ama siz bu mal mülkle zengin olmayacaksınız. Size paradan, mal mülkden değerli üç nasihat vereceğim. Eğer onları unutmazsanız, hayatınız boyunca rahat ve huzur içinde yaşayacaksınız. Nasihatlarım şunlardır: unutmayın, hiç kimseye ilk olarak siz baş eğmeyin. Bekleyin başkaları size baş eğsin. Hangi tür yiyecek olursa olsun, onu balla yiyin. Her zaman kuğu yastıkta uyuyun!

İhtiyar nasihatlarını söyledikten sonra Allah'ın rahmetine kavuşmuş. Oğulları onun nasihatlarını unutmuş ve istedikleri gibi yaşayıp keyif sürmüşler. Yemişler, içmişler, gezmişler, uzun uzun yatıp uyumuşlar. Birinci yıl babalarından kalan parayı tamamen harcayıp bitirmişler. İkinci yıl yine babalarından kalan tüm hayvanları satıp savmışlar, üçüncü yıl ise evde ne kaldıysa hepsini satıp bitirmişler. Artık yiyecek hiçbir şey kalmamış. Ağabey demiş:

– Babamız bize mal mülkden başka üç nasihat vermişti. O; «Nasihatları unutmazsanız hayatınızın sonunadek rahat ve huzur içinde yaşayacaksınız» demişti.

Küçük kardeş demiş:

– Babamın bize verdiği nasihatlar aklımda. Ama onların ne değeri var ki? O; «Hiç kimseye ilk olarak siz baş eğmeyin, bekleyin onlar size baş eğsin» demişti. Bunun için zengin olmamız lazım, o da bizde yok. Sonra babam; «Hangi tür yiyecek olursa olsun onu balla yiyin» demişti. Anlıyormusun balla? Bizim kuru yufkamız bile yok, balı nerden bulalım? Babam üçüncü nasihatında ise; «Her zaman kuğu yastıkta uyuyun» demişti. Kuğu yastıkta uyumak, elbette iyi olurdu. Ama bizim evimiz bomboş. Eski bir keçemiz bile yok.

Ağabey bir hayli düşündükten sonra:

– Kardeşim, biz babamızın nasihatlarını doğru anlıyamamışız. Onun sözlerinde baş-

ka bir hikmet var. Bir bilgelik var. O, bize şunları anlatmak istiyormuş. Biz sabah erkenden, tan yeri ağarmaya başladığında kalkıp tarlaya çalışmaya gidelim. O zaman yanımızdan geçen herkes ilk olarak bize selam verecek. İşte bununla da ilk olarak onlar bize baş eğmiş olacak. Sonra tarlada iyice çalışacaksın, akşam eve yorgun ve aç döneceksin. İşte o zaman bir parça kuru yufka bile sana baldan tatlı olacak. Yorgun olduğun için nasıl bir yatak olursa olsun içine sinecek, hoşuna gidecek, tatlı tatlı uyuyacaksın, kuğu yastıkta uyuyormuş gibi uyuyacaksın.

Ertesi gün sabah erkenden, tan yeri ağarırken kardeşler kalkıp tarlaya çalışmaya gitmişler. Herkesten önce gelip tarlaya varmışlar. Diğer insanlar kardeşlerden sonra geldikleri için hepsi ilk olarak onlara selam verip güzel bir gün ve iyi işler temenni ediyorlarmış. Kardeşler bütün gün çok çalışmışlar, hem de hiç dinlenmeden. Akşam eve dönmüşler. İşte o zaman bir parça kuru yufka ve çay onlara baldan tatlı gelmiş. Sonra da kardeşler kuru döşemenin üzerinde tatlı tatlı yatıp uyumuşlar, sankı kuğu yastıkta uyuyorlarmış gibi.

Kardeşler her gün çalışmış ve sonbaharda çok iyi ürün almışlar. Yeniden bolluk içinde huzurlu ve rahat bir hayat yaşamaya başlamışlar. Komşular da onlara yeniden saygı göstermişler. Kardeşler babalarının hikmetli sözlerini sık sık hatırlamış ve hiç unutmamışlar. Böylece mutlu mesut bir hayat sürmüşler.

# Qoca və pəhləvan

Qədim zamanlarda bir qoca və bir qarı yaşardı. Qoca tetra quşları üçün tələ qurardı. Bu minvalla da qoca və qarı yaşayırdılar.

Günlərin bir günü qoca tələləri yoxlamağa getdi. Yolda bir qarğa yumurtası gördü, onu götürüb cibinə qoydu. Tələlərə yaxınlaşdı, nə görsə yaxşıdır: bir tələ tərpənib, görünür, bura tetra quşu düşmüşdü, lakin kimsə onu çıxarıb. O biri tələdə isə sağsağan ilişib qalmışdı. Qoca onu özü ilə götürdü, ətrafdakı izlərə diqqət yetirdi və fikirləşdi: «Mən oğrunu tutacam!»

O, ləpirlərin izi ilə qaçmağa başladı və sıx bir meşəyə girdi. Ləpirlər onu böyük bir tirdən düzəldilmiş evə gətirdi. Qoca içəri girdi və tetra quşunun tükünü yolan pəhləvanı gördü.

– Bu, mənim tetra quşumdur! – dedi qoca.

– Bu tetra quşu daha güclü olanındır! – dedi pəhləvan. Gəl yarışaq. Qalib gəlsən, tetra quşundan da çox qazanarsan. Mən sənə bir kisə qızıl verəcəm. Bunu deyib pəhləvan güldü.

– Mən razıyam, gəl yarışaq, – dedi qoca. – Əvvəlcə daşı sıxıb suyunu çıxaraq.

– Bu, çətin deyil, – dedi pəhləvan.

Onlar evdən çölə çıxdılar, pəhləvan daşı götürdü, onu ovcunda elə sıxdı ki, daş ovulub töküldü.

– Sən daşı toza çevirdin, – dedi qoca, – amma suyunu çıxara bilmədin. İndi mənə bax!

Qoca qarğa yumurtasını ovcunda sıxdı və yumurta onun barmaqları arasından axdı. Pəhləvan təəccübləndi və dedi:

– Hə, sən daha güclüsən!

– İndi cəldlikdə yarışaq, – dedi qoca. – Gəl, uçan quşları tutaq. Bax, qarğa uçur, onu tut!

Pəhləvan qarğanın ardınca qaçdı, amma çata bilmədi, qocanın yanına əliboş qayıtdı.

– Yox, – dedi o, – mən bacarmadım.

– İndi mənə bax. Bax, sağsağan uçur, – dedi qoca və quşun ardınca qaçdı.

Tezliklə o qayıtdı, qoynundan sağsağanı çıxardı və pəhləvana göstərdi. O daha da çox təəccübləndi və hətta qorxdu. «Bu qoca məndən daha güclü və cəlddir, o, təhlükəlidir, onu öldürmək lazımdır», – deyə pəhləvan fikirləşdi. Dedi:

– Sabah mən sənə bir kisə qızıl verəcəm. İndi isə gəl tetra quşunu yeyək və yataq. Sən necə yatırsan?

– Mən şax şələsi kimi yatıram, – dedi qoca. – Bəs sən necə yatırsan?

– Mən yatanda ağzımdan od, burnumdan tüstü çıxır, – dedi pəhləvan.

Onlar şam edib yatağa girdilər. Qoca pəhləvanın ağzından od, burnundan tüstü çıxmasını gözlədi. Ehtiyatla qalxdı, öz yerinə bir şax şələsi qoydu, onu xələti ilə örtdü və gizləndi. Bir azdan pəhləvan oyandı. O yavaşca evdən çıxdı, böyük bir daş gətirib şax şələsinin üstünə atdı. Sonra yerinə girib xoruldamağa başladı.

Səhər qoca pəhləvanı oyatdı və dedi:

– Bu gecə yuxuda gördüm ki, küknar ağacının altında yatmışam və üstümə bir küknar qozası düşüb.

Pəhləvan fikirləşdi: «Bu böyüklükdə daş ona küknar qozası kimi görünüb! Hə, o, məndən güclüdür!» və dedi:

– Gəl, qoca, bir kisə qızılını götür, o, sənindir.

Qoca fikirləşdi: «Mən onu heç yerindən tərpədə bilmərəm». Dedi:

– Özün bağışlamısan, özün də evimə apar, mən isə səni qonaq edərəm.

Pəhləvan kisəni çiyninə atıb qocanın evinə doğru yola düzəldi. Alaçığa yaxınlaşdılar, qoca səsləndi:

– Ay qarı, ət bişir, qonağımız var!

Qarı çölə çıxıb dedi:

– Nə ət? Hansı ət? Evdə ət yoxdur!

– Srağagünkü pəhləvanın ayaqlarını bişir! – dedi qoca.

Qarı onu başa düşdü və dedi:

– Sən, ay qoca, yaman huşsuz olmusan, onları dünən yedin axı!

Pəhləvan bu sözləri eşidən kimi kisəni yerə atıb meşəyə tərəf götürüldü. Az qaçdı, çox qaçdı, tülküyə rast gəldi. Tülkü soruşdu:

– Kimdən qaçırsan, ay pəhləvan!

– Qorxulu bir qocadan, o, qarısı ilə birlikdə məni yemək istəyirdi!

Pəhləvan başına gələnləri tülküyə danışdı. Tülkü dedi:

– Sən nə səfeh pəhləvansan! Qoca səni aldadıb, o, daşdan su çıxarmayıb, əlindəki yumurtanı sıxıb. Quşu da o tutmayıb, quş onun qoynunda olub. Yalançının dərsini vermək lazımdır! Gedək mənimlə!

– Yox, mən qorxuram!

– Qorxma! Quyruğumdan yapış!

Pəhləvan tülkünün quyruğundan yapışdı. Onlar birlikdə qocanın evinə gəldilər. Qoca onları görüb qarşılarına çıxdı və qışqırdı:

– Çox sağ ol, ay tülkü qardaş, sən mənə çox sadiqsən! Gətir onu bura, gətir! Bu, indicə qaçan həmin pəhləvandır! Gəl onu birlikdə yeyək!

Pəhləvan bu sözləri eşidən kimi dabanlarına tüpürüb qaçmağa başladı. O vaxtdan onu heç kim o yerlərdə görmədi.

Qoca ilə qarı isə qızıl kisəsini götürüb firavan yaşamağa başladılar, hələ indi də yaşayırlar.



**Hüseynova Sara, 17 yaş**
***Başqırd nağılı «Qoca və pəhləvan» – Başkurt masalı «İhtiyar ve Pehlivan»***

# İhtiyar ve Pehlivan

Eski zamanlarda ihtiyar bir karı koca varmış. İhtiyar kayın tavuklarını yakalamak için kapan kurarmış. Geçimlerini onunla sağlarlarmış.

Günlerden bir gün ihtiyar kapanlara bakmaya gitmiş. Yolda giderken bir karga yumurtası bulmuş. Yumurtayı alıp cebine koymuş. Kapanlara yaklaşınca bakmış ki, kapanlardan biri yerinden oynamış. Meğerse kapana kayın tavuğu düşmüş, ama birisi onu alıp götürmüş. Diğer kapana ise bir saksağan düşmüştü. İhtiyar saksağanı kapandan almış, sonra da etrafdaki izlere bakmış ve: «Ben hırsızı yakalayacağım!» diye düşünmüş.

O, izleri hızlı hızlı takip etmiş ve sonunda gelip bir ormana ulaşmış. İzler onu ormanın derinliklerindeki büyük bir eve götürmüş. İhtiyar eve girmiş. İçeride onun kayın tavuğunun tüylerini yolan bir pehlivanla qarşılaşmış. İhtiyar:

– Bu, benim kayın tavuğumdur! demiş.

Pehlivan:

– Bu kayın tavuğu daha güçlü olanındır! Hadi gel yarışalım. Eğer beni yenersen, kayın tavuğundan daha çok şey kazanırsın. Ben sana bir kese altın veririm! demiş ve gülmüş.

İhtiyar:

– Tamam, olur. Hadi gel yarışalım. Önce gel taşı sıkıp suyunu çıkaralım, demiş.

Pehlivan:

– Bu zor birşey deyil, demiş.

Onlar evden dışarı çıkmışlar, pehlivan taşı alıp öyle bir sıkmış ki, taş ufalanıp yere saçılmış.

İhtiyar:

– Sen taşı toza dönüştürdün, amma suyunu çıkaramadın. Şimdi sıra bende! demiş.

İhtiyar gizlice taş yerine cebindeki karga yumurtasını avucuna almış ve sıkmış, yumurta kırılıp parmaklarının arasında akmaya başlamış. Pehlivan şaşırmış ve:

– Evet, sen daha güçlüsün! demiş.

İhtiyar:

– Şimdi de hızımızı deneyelim. Bakalım hangimiz daha hızlıyız? Hadi uçan kuşları yakalayalım. Bak, karga uçuyor, onu yakala! demiş.

Pehlivan karganın peşinden koşmuş, ama yakalayamamış, sonra ihtiyarın yanına dönmüş ve:

– Ben kargayı yakalayamadım, demiş.

İhtiyar:

– Şimdi beni izle. Bak saksağan uçuyor, demiş.

Saksağanın peşinden koşmuş. Kısa bir süre sonra geri dönmüş, koynundakı saksağanı çıkarmış: «Bak, yakaladım» diye pehlivana göstermiş. Pehlivan çok şaşırmış ve hatta korkmuş!

Pehlivan içinden: «Bu ihtiyar benden daha güçlü ve daha hızlıdır. O çok tehlikelidir, onu öldürmem gerek» diye düşünmüş ve ihtiyara demiş:

– Yarın ben sana bir kese altın vereceğim. Şimdi ise gel kayın tavuğunu yiyelim, sonra da uyuyalım. Sen nasıl uyursun?

İhtiyar demiş:

– Ben kargı şeleği gibi uyurum. Peki, sen nasıl uyursun?

Pehlivan:

– Ben uyurken ağzımdan alev, burnumdan duman çıkar, demiş.

Onlar akşam yemeğini yeyip yatağa yatmışlar. Pehlivanın ağzından alev, burnundan duman çıktığını gören ihtiyar usulca kalkmış ve kendi yatağına bir kargı şeleği koymuş, üstünü kapatmış. Sonra kendisi de bir yere saklanmış. Biraz sonra pehlivan uyanmış. O, usulca evden çıkmış ve kocaman bir taş getirip kargı şeleğinin üzerine atmış. Sonra yerine yatıp horlamaya başlamış. Ertesi gün ihtiyar pehlivanı uyandırmış ve:

– Bu gece rüyamda gördüm ki, köknar ağacının altında uyumuşum ve üzerime bir köknar kozası düştü, demiş.

Pehlivan; «Kocaman taş ona köknar kozası gibi gelmiş! Evet, o, benden güçlüdür!» diye düşünmüş ve:

– İhtiyar, al bir kese altın, o senindir.

İhtiyar; «Ben onu yerinden bile kıpırdatamam» diye düşünmüş ve pehlivana:

– Onu sen hediye ettin bana, evime de kendin götürmelisin. Ben de seni misafir ederim, demiş.

Pehlivan keseyi omzuna almış ve ihtiyarın evine doğru yola çıkmışlar. Eve ulaşınca ihtiyar seslenmiş:

– Hey, hanım, nerdesin, et pişir, misafirimiz var, demiş.

Hanım dışarı çıkmış ve:

– Hangi et? Ne et? Evde et yok ki! demiş.

İhtiyar:

– Geçen günki pehlivanın ayakalrını pişir! demiş.

Hanımı onun ne demek istediğini anlamış ve:

– Ah, ihtiyar sen iyice unutkan olmuşsun, onları dün yedin ya! demiş.

Pehlivan bunları duyunca keseyi yere fırlatmış ve ormana doğru koşmaya başla-

mış. Az koşmuş, çok koşmuş ve bir tilkiye rastlamış.

Tilki:

− Hey, pehlivan, böyle kimden kaçıyorsun? demiş.

Pehlivan:

− Korkunç bir ihtiyardan, o, karısı ile birlikte beni yemek istiyordu! demiş.

Pehlivan tüm başından geçenleri tilkiye anlatmış. Tilki:

− Sen ne kadar aptal bir pehlivansın. İhtiyar sana oyun oynamış. O, taş değil de elindeki yumurtayı sıkıp suyunu çıkarmış. Kuşu da o yakalamamış, kuş onun koynundaymış. Yalancının dersini vermek lazımdır! Hadi gel, gidelim benimle!

Pehlivan:

− Hayır, ben korkuyorum! demiş.

Tilki:

− Korkma, kuyruğumdan tut, demiş.

Pehlivan tilkinin kuyruğundan tutmuş ve birlikte ihtiyarın evine gelmişler. İhtiyar onları görünce karşılarına çıkmış ve bağırarak:

− Çok teşekkür ederim tilki kardeş, sen bana sadıksın! Getir onu, buraya getir! İşte bu biraz önce kaçan pehlivandır! Gel onu birlikte yiyelim! demiş.

Pehlivan bunları duyunca geri dönüp kaçmaya başlamış. O günden sonra bir daha kimse pehlivanı o yerlerde görmemiş.

İhtiyar ve karısı ise altın kesesini alıp huzur içinde yaşamaya başlamışlar ve halen yaşamaktadırlar.

# İvançu

Biri varmış, biri yoxmuş, bir kasıb kişinin üç oğlu varmış. Bir dəfə qardaşlar xoşbəxtlik axtarmaq üçün səfərə çıxmaq qərarına gəlirlər. Yola çıxmamışdan qabaq ataları böyük oğluna tilov, ortancıl oğluna bir köhnə çuval, kiçik oğlu İvançuya isə bir şəfaverici ot kökü verir və deyir:

– Sağ-salamat gedin, övladlarım! Sizə verməyə başqa heç nəyim yoxdur.

Oğlanlar gedəndə yolda bir qoca kişi də qoşulur onlara. Gedirlər, gedirlər, bir də görürlər ki, çəmənlikdə bir dəstə qarğa var. Böyük qardaş deyir:

– Əgər bu qarğalar qoyun olsaydılar və mənim olsaydılar, mən gəlib-keçəni təzə pendir və quzu əti ilə doyurardım.

Qoca bunu eşidir və deyir:

– Bu, baş tutan işdir.

O, sözünü bitirməmiş çəmənlikdə bir səs-küy qopur. Baxanda görürlər ki, qarğaların hamısı dönüb olublar qoyun.

Qoca böyük qardaşa deyir:

– Oğlum, qal burada və istifadə elə.

Gedirlər, gedirlər, gəlib gur sulu bir çaya yetişirlər. Ortancıl qardaş deyir:

– Əgər burada bir dəyirmanım olsaydı, gələni-gedəni isti kömbə ilə doyurardım.

O, sözünü bitirəndə qoca deyir:

– Bu da baş tutan işdir.

Qoca sözünü tamamlamamış birdən sanki yerin altından böyük bir su dəyirmanı peyda olur. İvançunun bu qardaşı da qalır dəyirmanda, o isə qoca ilə yoluna davam edir. Gedirlər, gedirlər, İvançu elə hey susur. Qoca özünü saxlaya bilməyib soruşur:

– Sən niyə bir şey demirsən? Böyük qardaşların xoşbəxtliklərini tapdılar, sən isə elə hey susursan.

İvançu cəsarətini toplayır və deyir:

– Baba, mən evlənmək istəyirəm. Ancaq istəyirəm elə qız olsun ki, ürəyi mənimki kimi olsun.

Baba susur, fikirləşir və deyir:

– Elə bir qız var, amma nişanlıdır, sabah da toyudur. Gəl, tələsək, oğlum, bəlkə, çatdıq.

Onlar gedirlər, gedirlər, gəlib yetişirlər bir kəndə. Kəndin bütün adamları şənlə-

nirlər, çalğıçılar çalırlar, toy edirlər. Yolçuları da şənliyə dəvət edirlər. Baba deyir:

– Sağ olun! Sağ olun! Xeyirxah insanlar! Əgər gəlini bax bu oğlana versəniz, biz də şənlənərik,– və İvançunu göstərir.

Cavanlar qocaya hirslənirlər. Hazırlaşırlar ki, baba ilə İvançunu qovsunlar və deyirlər:

– Yaxşı, biz gəlini İvançuya verməyə razıyıq. Ancaq əvvəlcə gərək onların bəxtini sınayaq. Mis vedrələrdə xoruz və hind quşları qaynayır. Əgər xoruzlar süfrələrə qonub banlasalar, hind quşları isə qırıntıları dənləsələr, verəcəyik.

Onlar sözlərini bitirməmiş xoruzlar atılıb mis vedrələrdən çıxırlar və süfrəyə qonub banlayırlar, hind quşları isə qaçaraq gəlir və stolun altındakı qırıntıları dənləyirlər.

Ayrı əlac yox idi, gəlini İvançuya verməyin vaxtı çatmışdı. Hamı çaşbaş qalaraq deyir:

– Görünür, onların qisməti bir imiş.

İvançu gəlinlə toyda qalır, baba isə yoluna davam edir.

Xeyli vaxt keçir. Baba üç gənc yol yoldaşını yadına salır və gedir ki, baxsın, görsün onlar necə yaşayırlar. Su dəyirmanına çatır. İşin qaynar vaxtı imiş. Biri çuvalları çəkir, başqaları daşıyır, üçüncüləri də pulunu verirmiş. Sahibkar isə sadəcə olaraq gəzinir və sevincdən əllərini ovuşdururmuş. Qoca ona yaxınlaşır və deyir:

– Mən yolçuyam. Oğlum, mənə bir dilim çörək ver. Çox yorulmuşam, həm də acam.

Sahibkar deyir:

– Siz dilənçilər çoxsunuz. Əgər hərənizə bir dilim çörək versəm, siz dəyirmanı da yeyərsiniz.

Qoca ona baxır və deyir:

– Nə? Bu da baş tutan işdir.

Birdən boran qopur, yağış yağmağa başlayır, su dəyirmanı alıb aparır. Sahibkar quru yurdda qalır.

Qoca yoluna davam edir və görür ki, çəmənlikdə alaçığın yanında böyük bir qoyun sürüsü var, qoyunları sağırlar. Qoca sahibkara yaxınlaşır və deyir:

– Mən yolçuyam. Mənə bir parça pendir ver, lap acam.

Sahibkar qocaya deyir:

– Buralara sənin kimi dilənçilər çox gəlir. Əgər mən hamınızı doyursam, təkcə bu çomağla qalaram.

Qoca ona baxır və deyir:

– Bu da baş tutan işdir.

Qoca sözünü bitirməmiş birdən qoyunların hamısı qarğa olur, uçur. Sahibkar əlində çomaq qalır, qoca isə yoluna davam edir. Yetişir İvançunun evinə və özünü xəstəliyə vurur. İvançunun arvadı çıxır və qocanı içəri çağırır. Qoca gəlinə deyir:

– Ərinin sənə acığı tutacaq.

Bu vaxt İvançu da gəlir, qocanın qoltuğundan tutur və içəri keçirdir, yumşaq döşəklərin üstünə uzadır.

İvançu kədərli halda soruşur:

– Sənə nə olub, baba?

Qoca ufuldaya-ufuldaya deyir:

– Xəstəyəm mən, oğlum. Yəqin ki, öləcəyəm. Mənim xəstəliyimin təkcə bir əlacı var, o da şəfaverici otun kökündür, ancaq sən onu tapa bilməyəcəksən, o, çox bahalıdır və az tapılır.

İvançu arvadına, arvadı da İvançuya baxır və deyirlər:

– Biz bu dərmanı tapacağıq, təki sən sağal.

İvançu arvadıyla keçir o biri otağa, kökü sandıqdan çıxardıb gətirirlər və qocaya deyirlər:

– Budur, baba, həmin kök, bircə tez sağal.

Qoca döşəkdən qalxır, İvançunun boynunu qucaqlayır və deyir:

– Sən xeyirxah adamsan, İvançu. Sənin arvadın da xeyirxahdır. Əsl insansınız. Xoşbəxt və geninə-boluna yaşayın!

Qoca sol əlini yelləyir, ovcundan gümüş pullar, sağ əlini yellədir, qızıl pullar tökülür. Pulları İvançu və arvadına verir, onlarla vidalaşıb yoluna davam edir.



**Lebedova Polina, 8 yaş**
*Qaqauz nağılı «İvançu» – Gagavuz masalı «İvançu»*

## İvançu

Biri varmış, bir yokmuş, fakir bir adam varmış. Onun üç oğlu varmış. Günlerden bir gün kardeşler kendi mutluluklarını bulmaya karar vermişler. Bunun için hazırlanıp yola çıkmışlar. Yola çıkmadan önce babaları büyük oğluna bir olta, ortanca oğluna eski bir çuval, küçük oğlu İvançu'ya ise şifalı bir bitki kökü vermiş ve:

– Yolunuz açık olsun yavrularım, Allah'a emanet olun. Size verebileceğim başka hiçbir şeyim yok, demiş.

Kardeşler yola koyulmuşlar. Yolda ihtiyar bir adam da onlara katılmış. Gitmişler, gitmişler, bir bakmışlar ki, çayırlıkta bir sürü karga var. Büyük kardeş:

– Eğer bu kargalar koyun olsaydı ve de benim olsaydı, ben gelip giden herkesi taze peynir ve kuzu eti ile doyururdum, demiş.

İhtiyar bunu duyunca:

– Bundan kolay ne var? demiş.

Daha ihtiyar sözlerini bitirmeden çayırlıkta bir patırtı kütürtü kopmuş ve kargalar hepsi koyuna dönüşmüş. İhtiyar büyük kardeşe dönmüş ve:

– Oğlum, artık bunlar senindir, sen burada kal, demiş.

Sonra diğer kardeşler ve ihtiyar yollarına devam etmişler. Onlar gelip bol sulu bir ırmağa varmışlar. Ortanca kardeş:

– Eğer burada bir değirmenim olsaydı gelip gideni sıcak ekmekle doyururdum, demiş.

İhtiyar hemen:

– Bu da kolay bir iştir, demiş.

İhtiyar sözünü bitirmeden yerin altından büyük bir su değirmeni peyda olmuş. İvançu'nun bu kardeşi de değirmende kalmış. İvançu ile ihtiyar ise yollarına devam etmişler. Bir hayli yol katetmişler, ama İvançu hala susuyormuş. Sonunda ihtiyar dayanamamış ve:

– Sen neden konuşmuyorsun? Kardeşlerin kendi mutluluklarını buldular, sen ise hep susuyorsun, demiş.

İvançu cesaretini toplamış ve:

– Dede, ben evlenmek istiyorum. Ama öyle bir kız istiyorum ki, kalbi benimki gibi olsun.

Dede susmuş, düşünmeye başlamış ve sonra:

– Öyle bir kız var, ama nişanlıdır, yarın da düğünü var. Hadi acele edelim, oğlum, belki yetişiriz, demiş.

Onlar gidip bir köye varmışlar. Köyde düğün varmış, herkes eğleniyormuş. Onları da davet etmişler. Dede:

– Çok teşekkür ederiz, çok sağolun. Eğer siz gelini bu çocuğa verirseniz biz de size katılır ve eğleniriz, demiş.

Önce gençler ihtiyara çok kızmış ve onları köyden kovmak istemişler. Sonra nedense:

– Peki, biz gelini İvançu'ya vermeyi kabul ediyoruz. Ama önce gelin bir oyun oynuyalım. Bakın, bakır kovlarda xorozlar ve hindiler bişiyor. Eğer horozlar sofraya konup öterse, hindiler de masaların altındaki kırıntıları yemeye başlarsa gelini veririz, demişler.

Daha onlar sözlerini bitirmeden horozlar bakır kovalardan fırlayıp sofraya konmuş ve ötmeye başlamışlar. Hindiler de koşarak gelip masaların altındaki kırıntıları yemeye başlamışlar.

Köy halkının başka çaresi kalmamış ve gelini İvançu'ya verme vakti gelmiş. Herkes olanlara çok şaşırmış ve:

– Anlaşılan Allah onları birbirine yazmış, demişler.

Gelinle İvançu düğünde kalmış, dede ise yoluna devam etmiş.

Aradan bir hayli zaman geçmiş. Bir gün üç genç yol arkadaşı dedenin aklına gelmiş. Dede merak etmiş, acaba onlar nasıl yaşıyorlar diye. Gidip onları bir göreyim demiş. Önce su değirmenine gitmiş. Bakmış işler çok iyi gidiyor. Biri çuvalları dolduruyor, bir başkası taşıyor, biri ise paraları topluyor. Değirmenin sahibi ise sadece geziniyor ve mutluluktan ellerini ovuşturuyormuş. İhtiyar ona yaklaşmış ve:

– Oğlum, ben yolcuyum. Bana bir dilim ekmek verir misin? Hem çok yorgunum, hem de çok açım, demiş.

Değirmenin sahibi:

– Siz dilenciler çok fazlasınız. Eğer hepinize bir dilim ekmek verirsem, siz değirmeni de yersiniz, demiş.

İhtiyar kinaye ile ona bakmış ve:

– Eveeet, bu da kolay bir iştir, oğlum, demiş.

Aniden çok güçlü bir rüzgar çıkmış, yağmur yağmaya başlamış. Su değirmeni alıp götürmüş. Değirmenin sahibi her şeyini kaybetmiş.

İhtiyar diğer kardeşi ziyaret etmek için yola koyulmuş. Oraya varınca bakmış ki, bir ağılın yanında koca bir koyun sürüsü var ve koyunları sağıyorlar. İhtiyar ağılın sahibine yaklaşmış ve:

–Oğlum, ben yolcuyum. Bana biraz peynir verir misin? Çok açım, demiş.

Ağılın sahibi:

– Buralarda senin gibi dilencilerden çok var. Eğer ben sizin hepinizi doyurursam elimde sadece bu sopa ile kalırım, demiş.

İhtiyar yine kinaye ile ona bakmış ve:

– Bu da kolay bir iştir, demiş.

İhtiyar henüz sözlerini bitirmeden koyunların hepsi kargaya dönüşmüş ve uçup gitmişler. Ağılın sahibi elinde tek bir sopa ile kalakalmış, ihtiyar ise İvançu'nun yanına varmak için yoluna devam etmiş. İvançu'nun evine varınca hasta numarası yapmış. İvançu'nun karısı dışarı çıkıp onu eve davet etmiş. İhtiyar geline:

– Beni eve alırsan, kocan sana kızar, demiş.

Tam da bu sırada İvançu gelmiş. Hemen ihtiyarı kolundan tutduğu gibi eve götürmüş. Yumşacık yatağa yatırmış. Sonra üzgün bir şekilde sormuş:

– Dede, neyin var?

İhtiyar oflaya puflaya:

– Ben çok hastayım, oğlum. Galiba öleceğim. Benim hastalığımın tek bir çaresi var, o da şifalı bitki köküdür. Ama sen onu bulamazsın. O çok pahalıdır ve çok nadir bulunur, demiş.

İvançu karısına, karısı da İvançu'ya bakmış ve:

– Biz bu ilacı bulacağız, yeter ki, sen iyileş, dede, demişler.

İvançu karısıyla diğer odaya geçmiş, şifalı bitki kökünü sandıktan çıkarmışlar ve getirip ihtiyara:

– İşte dede, istediğin şifalı bitki kökü, al, yeter ki, hemen iyileş.

İhtiyar yataktan kalkmış İvançu'nun boynuna sarılmış ve:

– İvançu, sen çok hayırsever bir insansın, senin karın da hayırsever insandır. İnsan gibi insansınız. Huzur ve rahat içinde mutlu yaşayın. Mutluluklar diliyorum size! demiş.

İhtiyar sol elini bir sallamış avucundan gümüş paralar, sağ elini sallamış altın paralar etrafa saçılmış. Paraları İvançu ve karısına vermiş ve onlarla vedalaşıp yoluna devam etmiş...

# Ağıllı kirpi ilə hiyləgər tülkü

Biri vardı, biri yoxdu. Bir dənə ağıllı kirpi ilə hiyləgər bir tülkü var idi. Kirpi ilə tülkü bir-birilərilə dost idilər və uzun illərdi birlikdə yaşayırdılar. Onlar hər gün Kösə Akayın hininə girib, onun bir toyuğunu oğurlayıb qarınlarını doyururdular.

Günlərin bir günü Kösə Akay onlara tələ qurdu. Hinin qarşısına dərin bir çuxur qazdı. Çuxur görünməsin deyə üstünü də çörçöplə örtdü.

Gecənin yarısı tülkü ilə kirpi yenə toyuq oğurlamaq üçün gəldilər. Gizlicə qapıya yaxınlaşmaq istəyərkən ikisi də çuxura düşdü. Tülkü ilə kirpi Kösənin bu hiyləgərliyinə məəttəl qaldılar.

Çuxurdan çıxmağa imkan yoxdu. Artıq nə etmək olar, çox fikirləşdilər, amma fikirləşməyin də faydası yox idi. Çünki çuxur çox dərin idi.

Kirpi dedi:

– Belə olmaz, dostum, sən məni ağzına al, qaldır çuxurdan yuxarıya at. Mən yuxarıya çıxdıqdan sonra iplə səni çəkib çıxararam.

Tülkü razılaşdı və kirpini ağzına alıb var gücü ilə yuxarıya atdı. Kirpi çuxurdan çıxdıqdan sonra tülküyə: «Sağ ol, dostum, salamat qal» – deyib, çıxıb getdi.

Tülkü məəttəl qaldı, kirpinin nə üçün belə etdiyini başa düşmədi. Artıq səhər də açılırdı. Tülkü çuxurdan çıxa bilmədi. Bir az sonra Kösə Akay gəlib onu görəcəkdi. Tülkü bir az fikirləşdikdən sonra: «Dayan hələ! Bəlkə, bu Kösəni aldadım» – deyib, ağzını əydi, özünü ölülüyə vurdu və arxası üstə yatdı. Bir az sonra Kösə Akay gəldi. Baxdı ki, çuxurda ölü bir tülkü var. Kösə Akay sevinərək: «Hə, tələyə düşdünmü hiyləgər, gəbərdinmi, donuz? Neçə vaxdır mənim toyuqlarımı yeyən sənsən, demək, indi mən də sənin xəzindən paltoma yaxalıq vuraram!» – deyib tülkünün quyruğundan tutub, onu çuxurdan çıxartdı və atdı.

Tülkü çuxurdan çıxan kimi sıçrayıb qalxdı: «Sağ ol, Kösə ağa, paltona yaxalığı bir də çuxura düşdüyüm zaman vurarsan» – deyib dağa tərəf qaçaraq gözdən itdi. Kösə Akay tülkünün arxasınca baxa-baxa qaldı.

Bu bəladan xilas olduqdan sonra tülkü dağlarda uzun müddət gəzib dolandı. Bir gün səhər dağın ətəyindən keçərkən köhnə dostu kirpi ilə qarşılaşdı. Tülkü xoruzlanaraq ona dedi:

– Belə dostluqmu olar? Sənin dostluğun bu idi?

Kirpi cavab verdi:

– Çox qəribəsən, dostum, nə oldu? Orada sənə necə kömək edə bilərdim ki?

Tülkü çox qəzəbləndi və dedi:

– Sənin kimi dostum olmaqdansa, olmasa yaxşıdı.

Kirpi dedi:

– Sən olmasaydın, mən o çuxura heç düşməzdim.

İkisi də ayrılıb hərə bir tərəfə getdi.

Tülkü kirpidən ayrıldıqdan sonra xeyli vaxt gəzib yemək axtardı. Amma heç bir şey tapa bilmədi. Nə etsin, yenə hiyləgərlik etməyə qərar verdi. Elə bu vaxt gördü ki, bir adam dəniz tərəfdən xizək ilə balıq gətirir. Tez hiyləgərcə ağzını köpükləndirdi və yolun ortasında uzanıb özünü ölülüyə vurdu.

Balıq gətirən adam onu görəndə atını saxladı və: «Yaxşı kürk olar» – deyib tülkünü aldı və xizəyin arxasına qoydu. Sonra da atını sürüb getdi. Tülkü yol boyunca yavaş-yavaş balıqları xizəkdən yerə tökdü, sonra özü də xizəkdən düşüb qaçdı və tökdüyü balıqları yığıb yeməyə başladı. Elə bu vaxt oradan keçən bir canavar tülkünün balıq yediyini görüb onun yanına gəldi və dedi:

– Dostum, bir dənə də balıq mənə verərsən?

Tülkü canavara bir dənə balıq verdi. Canavar balığı yedi. Balıq çox ləzzətli idi. Tülküdən birini də istədi. Tülkü dedi:

– Get özün tut ye.

Canavar balığın necə tutulduğunu soruşdu. Tülkü dedi:

– Çaya get, buzu deşib quyruğunu suya sal. Balıqlar quyruğuna yapışacaq, onda sən də quyruğunu çəkib balıqları tutub yeyərsən.

Canavar tülküyə təşəkkür etdi və ikisi birlikdə çaya getdilər. Canavar buzu deşib quyruğunu suya saldı. Bir müddət keçəndən sonra tülkü soruşdu:

– Necədi, hələ bir şey yoxdu?

Canavar cavab verdi:

– Xeyr, hələ bir şey hiss etmirəm.

Bir az keçdikdən sonra tülkü yenə: «Bir şey varmı?» – deyə soruşdu. Bu dəfə canavar sevinərək dedi:

– Bir şey qımıldayır, deyəsən, balıqlar yığışırlar.

Tülkü dedi:

– Quyruğunu daha dərinə sal.

Canavar da quyruğunu daha dərinə saldı. Bir az gözlədikdən sonra canavar dedi:

– Hə, tülkü ağa, balıqlar yaxşıca yığılmağa başladılar. Deyəsən, artıq vaxtdı.

Hiyləgər tülkü vəziyyəti başa düşdü və həyəcanla canavara dedi:

– Aman Allahım, canavar ağa, arxasında köpəklərlə bir ovçu gəlir. Tez ol qaçıb canımızı qurtaraq.

Bu sözləri deyib qaçdı və dağların arasında gözdən itdi. İndi tülkünü axtar ki, tapasan. Ölümdən qorxan canavar qaçmaq üçün çox səy göstərdi, amma quyruğu suda buz bağladığı üçün qaça bilmədi. Elə bu vaxt onun qulağına köpək səsləri gəldi. Ölümdən xilas olmaq istəyən canavar can qorxusuyla var gücü ilə dartıldı və quyruğu qopdu. Ağrı içində qıvrılan canavar tülküyə çox qəzəbləndi və dedi:

– Off, yaramaz tülkü, hiyləgər tülkü, mənə bunu da etdin? Dayan sən, mən necə olsa da səni tutacam.

Canavar tülkünün arxasına düşdü. Əgər tapsa, tutub yeməyə qərar verdi.

Bir neçə gün sonra dağların arasındakı gölün sahilində tülkü ilə qarşılaşdı. O, tülkünü görən kimi: «Mənə bunu da etdin?» – deyib onun boğazına yapışdı.

Tülkü dedi:

– Aaa, mənim nə günahım var? Sənin quyruğunun o qədər balığı çəkə bilməyəcəyini mən haradan biləydim? Sən də nəfsinə o qədər düşkün olmasaydın.

Canavar dedi:

– Xeyr, sən məni aldatdın. Mən səni yeyəcəyəm.

Tülkü qorxdu. Nə etməli, bir hiyləgərlik edib xilas olmaq lazımdır. Fikirləşməyə başladı. Hiyləgərlikdə usta olan tülkünün çox fikirləşməsinə heç ehtiyac da yox idi... Tülkü dedi:

– Bax, o ağanın həyətində kök bir qoç yatır. Get onu ye, heç olmasa qarnın doyar.

Əslində həyətdə yatan qoç deyil, böyük bir köpək idi. O, canavarı görən kimi üstünə tullandı və elə oradaca onu boğub öldürdü.

Beləliklə, tülkü canavardan da xilas oldu.

Uzun bir müddət keçdikdən sonra bir gün tülkü köhnə dostu kirpi ilə qarşılaşdı. Köhnə dostlar ayrıldıqdan sonra başlarına gələn əhvalatları bir-birinə danışırdılar. Elə bu vaxt onların yanındakı ağaca ağzında yağ olan bir qarğa gəlib qondu. Təsadüfən yağ qarğanın ağzından yerə düşdü. Tülkü də, kirpi də çox ac idi. Yağı kimin yeyəcəyi ilə bağlı mübahisə etməyə başladılar. Tülkü yenə bir hiyləgərlik fikirləşdi və dedi:

– Yağ mənimdir.

Kirpi dedi:

– Xeyr, yağ mənimdir.

Kirpi mübahisə etməklə bir şey əldə edə bilməyəcəyini başa düşdü və dedi:

– Bu, belə olmaz, dostum, kimin yaşı böyüksə yağ onun olsun.

Tülkü razılaşdı və dedi:

– De görək, sənin neçə yaşın var.

Kirpi dedi:

– Xeyr, əvvəl sən de.

Tülkü dedi:

– Xeyr, əvvəl sən de.

Kirpi dedi:

– Xeyr, sən de.

Axırda əvvəl tülkü yaşını deməyə razılaşdı və yaxşıca fikirləşdikdən sonra dedi:

– Eee... dostum, mən yer bomboş ikən, göy də mis olanda anadan olmuşam.

Kirpi bu sözləri eşidəndə gözlərindən inci kimi yaşlar töküb ağlamağa başladı. Tülkü onun ağladığını görüb çaşdı və dedi:

– Nə oldu, dostum, niyə ağlayırsan?

Kirpi gözlərini sildi və dedi:

– Bilirsən, dostum, sən belə deyəndə kiçik oğlum yadıma düşdü. Onun üçün ağlayıram. O da yer bomboş ikən, göy də mis olanda anadan olmuşdu. Amma yazıq, çox gənc yaşda ölüb getdi.

Kirpi bunları deyib yağ parçasını ağzına atdı və ləzzətlə yeməyə başladı. Tülkü də kirpinin ağzına baxaraq dedi:

– Allah rəhmət eləsin.



**Abbaslı Fidan, 9 yaş**

***Krım tatar nağılı «Ağıllı kirpi ilə hiyləgər tülkü» –***

***Kırım Tatarlarının masalı «Akıllı Kirpi ile Kurnaz Tilki»***



**Abdullayeva Aytən, 15 yaş**
***Krım tatar nağılı «Ağıllı kirpi ilə hiyləgər tülkü» –***
***Kırım Tatarlarının masalı «Akıllı Kirpi ile Kurnaz Tilki»***

# Akıllı Kirpi ile Kurnaz Tilki

Bir zamanlar varmış, bir zamanlar yokmuş. Bir akıllı kirpi ile bir de kurnaz tilki varmış. Bu ikisi dost olarak çok uzun zaman birlikte yaşamışlar. Onlar geçimlerini Köse Akay'ın tavukları ile sağlıyorlarmış. Her gün Köse'nin kümesine dalıyor, onun bir tavuğunu çalip gidiyorlarmış.

Günlerden bir gün, Köse Akay onlara bir oyun oynamayı düşünmüş. Kümesin önüne derin bir çukur kazmış. Fark edilmesin diye çukurun üstünü çalıyla kapatmış.

Gecenin bir vakti tilki ile kirpi yine tavuk çalmaya gelmişler. Gizlice kapıya yaklaşalım derken, ikisi de çukura düşüvermişler. Tilki ile kirpi Köse'nin bu kurnazlığına şaşırmışlar.

Artık ne yapmalı, çıkmanın imkânı yok. Çok düşünmüşler, ama düşünmenin faydası yokmuş. Çukur derinmiş.

Kirpi:

– Böyle olmaz dostum, sen beni ağzına alıp, çukurdan yukarıya kaldır at. Ben yukarıya çıktıktan sonra iple seni de çeker alırım, demiş.

Tilki razı olmuş ve bütün kuvveti ile kirpiyi ağzı ile yukarıya alıp atmış.

Kirpi serbest kaldıktan sonra tilkiye:

– Sağ ol dostum, sağlıkla kal, demiş, umursamadan çıkıp gitmiş.

Tilki şaşakalmış neye uğradığını anlayamamış. Artık sabah da olmak üzereymiş. Tilki çukurdan çıkamamış. Kısa bir zaman sonra Köse Akay gelip onu görecekmiş.

Tilki kısa bir sure düşündükten sonra:

– Dur hele! Şu Köse'yi bir kandırayım, diye ağzını yamultmuş ve ölmüş gibi sırt üstü yatmış. Çok geçmeden Köse Akay gelmiş. Baksa ne görsün, çukurun içinde ölmüş bir tilki yatıyor.

Köse Akay sevinerek:

– Ooo tuzağa düştün mü kurnaz, geberdin mi hınzır? Uzun zamandan beri benim tavuklarımı yiyen sendin demek, bari ben de senden paltoma bir yaka yapayım diyerek tilkiyi kuyruğundan tutmuş ve onu çukurdan dışarı atmış.

Tilki çukurdan çıktığı gibi sıçrayıp kalkmış ve:

– Sag ol, Köse ağa, palto için yakayı bir daha düştüğüm zaman yaparsın, demiş ve dağa doğru kaçıp gözden kaybolmuş. Köse Akay tilkinin ardından bakakalmış.

Bu beladan kurtulduktan sonra, tilki dağlarda uzun zaman dolaşmış, bir gün sabah dağın bir kıyısından geçerken eski dostu kirpi ile karşılaşmış.

Tilki ona diklenerek:

– Senin dostluğun böyle mi? demiş.

Kirpi:

– Allah Allah dostum, çok tuhafsın ne oldu? Orada sana nasıl yardım edebilirdim ki, diye cevap vermiş.

Tilki çok kızmış ve:

– Senin gibi dostum olacağına olmasın daha iyi, deyip yoluna devam etmiş.

Kirpi de ona:

– Sen olmasaydın ben de çukura düşmezdim, demiş ve başka bir tarafa dönüp gitmiş.

Tilki kirpiden ayrıldıktan sonra uzun zaman dolanıp yiyecek aramış, fakat bir şey bulamamış. Ne yapsın, yine kurnazlığa başvurmaya karar vermiş. Bir de bakmış deniz tarafından bir adam kızak ile balık getiriyor. Hemen kurnazca ağzını köpürtmüş, yolun ortasına yatıp ölü numarası yapmış.

Balık getiren adam onu görünce atını durdurmuş ve «Karıma yakalık kürk olur.» diye tilkiyi alıp kızağın arkasına koymuş. Daha sonra da yoluna devam etmiş. Tilki yavaş yavaş yol boyunca balıkları kızaktan aşağı dökmüş, sonra kendi de kızaktan aşağı inip kaçmış ve döktüğü balıkları toplayıp yemeye başlamış. Bu sırada oradan geçen bir kurt tilkinin balık yediğini görüp onun yanına gelmiş ve ona:

– Dostum, bir balık da bana versene, demiş.

Tilki kurda bir balık vermiş. Kurt balığı yemiş. Balık çok lezzetli gelmiş. Tilkiden bir tane daha istemiş. Tilki:

– Git kendin tut da ye, demiş.

Kurt nasıl tutulduğunu sormuş.

Tilki:

– Nehre gidersin, buzu delip kuyruğunu suya batırırsın, o zaman balıklar kuyruğuna sarılır, sen de çeker alır ve yersin, demiş.

Kurt tilkiye teşekkür etmiş. İkisi birlikte nehre gitmişler. Kurt buzu delip kuyruğunu suya batırmış. Biraz zaman geçtikten sonra tilki:

– Nasıl, daha bir şey yok mu? diye sormuş.

Kurt:

– Hayır, daha hiçbir şey fark etmedim, demiş.

Biraz daha zaman geçtikten sonra tilki bir daha sormuş. Bu sefer kurt sevinerek:

– Bir şeyler kımıldıyor, galiba balıklar toplanıyor, demiş.

Tilki kurda kuyruğunu daha derinlere batırması gerektigini söylemiş. Kurt kuyruğunu suya daha derine batırmış. Biraz oturduktan sonra tilkiye:

– Ooo! Tilki ağa, iyice hareketlenmeye başladı. Galiba artık iyice toplandılar, demiş.

Kurnaz tilki durumu anladıktan sonra çok beklemeden telaşlanarak:

– Eyvah kurt ağa, köpeklerini peşine takmış avcı geliyor, çabuk kaçalım, canımızı kurtaralım, demiş ve dağların arasında gözden kaybolmuş. Tilkiyi bak ki bulasın. Ölümden korkan kurt kaçmak için çok gayret etmiş, ama kuyruğu suda buz tuttuğu için kaçamamış. O sırada onun kulağına köpeklerin sesi gelir gibi olmuş. Ölümden kurtulmak isteyen kurt can havliyle fırlamış ama kuyruğu kopmuş. Acılar içinde kıvranan kurt tilkiye çok öfkelenmiş:

– Ah seni yaramaz, kurnaz tilki, bana yapacağın bu muydu? Dur sen, ben seni tutarım nasıl olsa, diyerek onun peşine düşmüş.

Eğer bulursa, tutup yemeye karar vermiş.

Birkaç gün sonra, dağların arasındaki gölün kıyısında tilkiye rastlamış. O, tilkiyi görür görmez:

– Bana yapacağın bu muydu? diye onun boğazına yapışmış.

Tilki:

– Allah Allah benim ne suçum var, senin kuyruğunun o kadar balığı taşıyamayacağını ben nereden bilebilirdim! Sen de nefsine o kadar düşkün olmayaydın, demiş.

Kurt:

– Hayır, sen beni kandırdın. Ben seni yiyeceğim, demiş.

Tilki şaşırmış. Ne yapsın, bir kurnazlık bulup kurtulmak gerek. Düşünmeye başlamış. Kurnazlıkta usta tilkinin çok düşünmesine de gerek yok ki... Tilki:

– Bak, şu ağanın bahçesinde semiz bir koç yatıyor. Onu ye, hiç olmazsa doyarsın, demiş.

Aslında bahçede yatan koç değil büyük bir köpekmiş. O, kurdu görür görmez üstüne atılmış, hemen orada onu boğup bırakmış.

Böylece tilki kurttan da kurtulmuş.

Uzun zaman geçtikten sonra, günlerden bir gün, baharda tilki eski dostu olan kirpiyle tekrar karşılaşmış. Eski dostlar ayrıldıktan sonra başlarından geçenleri birbirlerine anlatmışlar. O sırada onların yanındaki büyük ağacın dalına ağzında bir parça yağ olan bir karga gelip konmuş.

Karganın ağzındaki yağ parçası kazayla yere düşmüş. Tilki de kirpi de çok aç imişler. Yağ parçasının kimin olacağı ile ilgili tartışmaya başlamışlar. Tilki bir kurnazlık düşünmeye başlamış.

– Yağ benimdir, demiş.

Kirpi de:

– Yağ benimdir, demiş. Kirpi tartışmayla bir şey elde edemeyeceğini anlayarak:

– Bu böyle olmaz dostum, kimin yaşı büyükse yağ onun olsun, demiş.

Tilki buna razı olmuş ve:

– Söyle, sen kaç yaşındasın, demiş.

Kirpi:

– Hayır, önce sen söyle, demiş.

– Hayır önce sen söyle, demiş.

– Hayır sen söyle.

En sonunda önce tilki söylemeye razı olmuş ve iyice düşündükten sonra:

– E... e... dostum, ben yer bomboş, gök bakır iken doğdum, demiş.

Kirpi bu sözleri işitir işitmez gözlerinden inci gibi yaşlar dökerek ağlamaya başlamış.

Tilki onun ağladığını görünce şaşırmış ve:

– Ne oldu dostum, niçin ağlıyorsun? diye sormuş.

Kirpi gözlerini silerek:

– Biliyor musun dostum, sen söyleyince küçük oğlum aklıma geldi de onun için ağlıyorum, o da tam yer bomboş, gök bakırken doğmuştu. Fakat zavallıcık, çok genç yaşta öldü gitti, demiş ve yağ parçasını ağzına alıp, keyifle yemeye başlamış.

Tilki kirpinin ağzına bakarak:

– Allah rahmet eylesin, demiş.

# Titlə – Bitlə

Biri var idi, biri yox idi, bir keçi ilə bir qurd var idi. Keçinin iki balası var idi. Birisi Titlə, birisi də Bitlə. Keçi balalarına dedi:

– Heç kimə qapını açmayın. Gedirəm sizə yemək gətirim.

Dedilər:

– Yaxşı, heç kimə qapı açmarıq.

Keçi getdi işinin dalınca. Bir az sonra qurd gəldi qapıya, dedi:

– Titlə, Bitlə, açın qapını. Döşümdə süd gətirmişəm, buynuzumda ot gətirmişəm.

Titləylə Bitlə dedilər:

– Bizim anamız sarıdı.

Qurd gördü ki, onları aldada bilmir. Nə etdi? Getdi sarı rəngə boyandı. Gəldi, dedi:

– Titlə, Bitlə, açın qapını. Döşümdə süd gətirmişəm, buynuzumda ot gətirmişəm. Titləylə Bitlə dedilər:

– Bizim anamız qırmızıdı.

Qurd nə etsin. Getdi qırmızı rəngə boyandı. Gəldi, dedi:

– Titlə, Bitlə, açın qapını. Döşümdə süd gətirmişəm, buynuzumda ot gətirmişəm.

Titləylə Bitlə dedilər:

– Bizim anamız qaradı.

Qurd gördü aldada bilmir onları, hiddətləndi. Belə zərb ilə qapıya bir təpmə[1] çaldı. Həmən qapını qırdı. Titlə ilə Bitləni yedi, getdi.

Keçi gəldi, gördü qapı qırılıb, Titləylə Bitlə yoxdu. Bildi ki, qurd yeyibdi onları. Getdi qurda dedi:

– Sabah döyüşə gəl.

Sonra keçi südünü sağdı, bir sini qatıq etdi, apardı dəmirçiyə ki, onun üçün iti buynuz düzəltsin. Qurd bunu gördü. O da bir dağarcığı hava ilə doldurdu, içinə də bir noxud atdı. Dəmirçiyə apardı ki, dəmirçi dağarcığı açanda həmən partlasın, dəmirçinin gözün kor etsin.

Dəmirçi bilirdi ki, qurd hizdi[2]. Dağarcığı ehtiyatla açıb dedi:

---

[1] Təpmə – təpik

[2] Hiz – hiyləgər, namərd

– Qurbanım olasan, qurd.

Noxudu yedi, ondan sonra keçinin buynuzunu daha da yaxşı itilədi. Qurdun da dişlərini çəkdi, yerinə sarımsaq qoydu. Səhəri günü qurdla keçi meydana çıxdılar.

Qurd dedi:

– İlk öncə sıra məndə.

Keçi dedi:

– Yaxşı.

Qurd həmən dişlədi keçini. Bütün dişləri yerə töküldü.

Sıra gəldi keçiyə. Həmən buynuz vurmağıyla qurdun qarnını yırtdı. Titləylə Bitlə çıxdı. Balalarını görüncə dedi:

– Demədim mən gəlməsəm heç kimə qapı açmayın?

Titləylə Bitlə dedilər:

– Biz açmadıq, dedik anamız sarıdı. Getdi sarı boyandı, gəldi. Dedik anamız qırmızıdı, getdi qırmızı boyandı gəldi. Dedik anamız qaradı. Hiddətləndi, qapını qırdı, evə girdi, bizi uddu.

– Heç kimin qisası yerdə qalmaz, balalarım, o öz qanına girdi, – keçi dedi.



**Sadıqov Ziya, 14 yaş**
***İraq-türkmən nağılı «Titlə-Bitlə» –***
***İrak Turkmenleri masalı «Title ile Bitle»***

# Title ile Bitle

Biri varmış biri yokmuş, bir yerlerde bir keçi ile bir kurt varmış. Keçinin iki yavrusu varmış: Birinin adı Title, öbürünün adı da Bitle imiş.

Keçi bir gün yavrularına:

Ben yemek getirmeye gidiyorum; kapıyı sakın hiç kimseye açmayın, demiş.

Biraz sonra kapıya kurt gelmiş. Şöyle seslenmiş:

Title Bitle kapıyı açın. Sizin için mememde süt, boynuzumda ot getirdim.

Title ile Bitle kapıyı açmadan içeriden cevap vermişler:

– Bizim annemiz sarı renklidir.

Bunun üzerine kurt gidip sarı renge boyanmış. Tekrar gelip, seslenmiş:

– Title Bitle! Sizin için mememde süt, boynuzumda ot getirdim.

Title ile Bitle kapıyı açmadan cevap vermişler:

– Bizim anamız kırmızı renklidir.

Kurt gidip kırmızı renge boyanmış. Gidip şöyle seslenmiş:

Sizin için mememde süt, boynuzumda ot getirdim.

Title ile Bitle kapıyı açmadan cevap vermişler:

– Bizim anamız siyah renklidir.

Kurt bu sefer hiddetlenerek kapıyı kırmış. Title ile Bitle'yi yutup gitmiş. Sonra keçi gelmiş. Kapının kırıldığını, iki yavrusu Title ile Bitle'nin orada olmadığını görmüş. Yavrularını kurdun yediğini anlamış. Bunun üzerine keçi, kurda gidip:

– Yarın dövüşmek için hazırlan, demiş.

Kurt:

– Peki, diyerek kabul etmiş.

Keçi daha sonra memesinden süt sağarak bir çömlek yoğurt yapmış. Yoğurdu götürüp demirciye vermiş. Kurt ise bir deri torbayı hava ile doldurmuş. İçine de bir nohut tanesi atarak götürüp demirciye vermiş ki, demirci deri torbayı açınca içindeki nohut tanesi «Part» ederek onun gözünü kör etsin. Demirci ustası, kendisine karşı oynanan bu oyuna çok hiddetlenmiş ve:

Dur hele, ben sana gösteririm, diyerek kurdu bayıltmış.

Sabahleyin demirci ustası keçinin getirdiği bir çanak yoğurdu yemiş. Ondan sonra keçinin boynuzunu iyice bileyerek keskin hale getirmiş. Kurdun da dişlerini çekerek yerine sarımsak ekmiş. Böylece kurt ile keçi meydana çıkmışlar.

Kurt, hemen saldırıya geçerek keçiyi ısırmış. Ancak bütün dişleri yere dökülmüş. Hücum sırası keçiye gelmiş. Keçi hemen bir boynuz vurarak kurdun karnını yarmış ve Title ile Bitle de kurdun karnından çıkıp kurtulmuşlar.

Keçi, yavrularını görünce:

– Size dememiş miydim, ben gelmeden hiç kimse için kapıyı açmayın diye, söylenerek yavrularını azarlamış.

Title ile Bitle:

– Biz kapıyı açmadık. Kurda anamız sarı renklidir dedik, gidip sarı renge boyanarak geldi. Anamız kırmızı renklidir dedik, gidip kırmızı renge boyanarak geldi. Bu sefer, anamız siyah renklidir, dedik. Bunun üzerine kurt hiddetlendi. Bir tekme vurarak kapıyı kırdı. İçeri girdi ve bizleri yutarak yedi, demişler.

# Div ilə padşah qızı

Biri vardı, biri yoxdu. Ölkələrin birində bir padşah vardı. O, bir istəyini xalqa çatdırmaq üçün hər tərəfə carçılar göndərdi.

«Padşah qızının hər gecə hara getdiyini və hər gecə bir cüt qızıl başmağı harada parçaladığını kim öyrənə bilsə, padşah taxt-tacının yarısını ona verəcək. Hətta üstəlik qızını da ona verəcək».

Xəbər yayılan kimi padşahın qızını izləmək üçün məmləkətin hər tərəfindən dəliqanlılar yığışıb gəldi. İyirmi doqquz nəfər dəliqanlının qızı təqib etməsinə baxmayaraq, onun haraya getdiyini və kimlə gəzdiyini heç kim öyrənə bilmədi. Çünki gecə yarısı padşahın sarayında alov püskürən bir div peyda olurdu. Div saraya girəndə alov saçan böyük qanadlarını sovurur və isti bir külək əmələ gəlirdi. Bu külək göz qapaqlarına toxunanda gözətçinin yuxusu gəlir və yatırdı. Buna görə də heç kim qızın hara getdiyini görə bilmirdi. Div padşahın gözəl qızına vurulmuşdu.

Div qıza cadu etmişdi. Ona görə də div gələn kimi, qız qızıl başmaqlarını geyinib tez divin arxasına düşürdü. Gözətçi isə otağın qapısının ağzında dərin bir yuxuya gedirdi.

Padşah gələn iyirmi doqquz nəfəri qızının haraya getdiyini öyrənə bilmədikləri üçün zindana atdırdı.

Bir gün padşahın qapısına bir igid gəldi və ona dedi:

– Möhtərəm padşahım, verdiyin sözü tutacaqsanmı? Qızının gecə yarısı haraya getdiyini öyrənsəm, taxt-tacının yarısını və qızını mənə verəcəksənmi?

Padşah dedi:

– Söz verirəm, amma sən də yatıb qalsan, səni zindana atmayacağam, kəlləni vurduracağam, çünki zindan yatağanlarla doludur.

İgid dedi:

– Yaxşı, razıyam səninlə.

İgid yola çıxmaq üçün hazırlandı. Günəş batmadan çarıqlarını geyinib padşah qızının yatdığı otağın qapısının ağzına gəldi və orada uzanıb xor-xor xoruldayaraq yatdı. Padşah qızı onu görəndə belə dedi:

– Ey igid, vay sənin halına! Günəş batmadan yatdığına görə sən də məni qoruya bilməyəcəksən.

İgid yatdı və gecə yarısı oyandı. Amma oyandığını bildirməmək üçün özünü yuxuluğa vurdu. Uzandığı yerdə heç tərpənmədən gözlədi. Tam gecə yarısı olanda div peyda oldu. Qanadlarındakı işıq o qədər güclü idi ki, bütün saray işıqlandı. Div özünü yuxuluğa vuran igidin üstündən keçdi və gülməyə başladı. Yuxu gətirən sehrli küləyini əsdirmədən qapını itələyib içəri girdi. «Qalx gedək, vaxt gəldi» – deyib padşah qızının çiyninə toxundu. Qız qalxdı, qızıl başmaqlarını geyindi. Qızın yolunu işıqlandırmaq üçün div qabaqda, qız da onun arxasınca yola düşdülər.

Onlar küçəyə çıxanda igid qalxıb onların arxasınca getdi və təqib etməyə başladı. Alov saçan divlə padşah qızı şəhərdən çıxdıqdan sonra bir ağacın altında oturub bir ot dəstəsini bir-birinə ataraq oynamağa başladılar. Div ot dəstəsini qıza çox qüvvətli atdığı üçün padşah qızı onu tuta bilmədi və ot dəstəsi igidin ayaqlarının altına gəlib düşdü. İgid ot dəstəsini alıb qoynuna soxdu. Div ot dəstəsini nə qədər axtarsa da, tapa bilmədi və sonra onlar da yollarına davam etdilər. İgid bir ağaca işarə qoymaq üçün baltasını çıxardı və iki cizgi atdı. Qız balta səsini eşidib qorxdu və dedi:

– Arxamızca gələn var.

Div dedi:

– Qorxma, heç kim yoxdu. Gecənin bu vaxtında canlıların burada gəzməyə cəsarəti çatmaz.

Divlə qız xeyli getdikdən sonra bir çayın kənarına gəlib çıxdılar. Div qızı qanadlarına alıb çayın o biri sahilinə keçirdi. İgid də çayın sahilinə gəldi. Amma üzə bilmədiyi üçün çayı keçə bilmədi. Çayı keçmək üçün özünə bir yer axtardı. Sahildə gəzərkən quyruqlu iki adamın mübahisə etdiyini gördü. İgid onlara dedi:

– Nə üçün mübahisə edirsiniz?

Onlardan biri dedi:

– Babamdan bizə qalan mirası bölə bilmirik. Onun üçün mübahisə edirik.

İgid dedi:

– Gətirin mirası, bir baxım.

Sən demə, adamlar şeytanmış. Mirası gətirdilər. Budur, bunlardır. Bir mis tava, bir gümüş dəyənək və bir papaq.

İgid dedi:

– Bu xırım-xırda şeylərə görə nə üçün dalaşırsınız? Bunların heç bir qiyməti yoxdur.

Şeytanlar hoppanıb-düşdü və dedi:

– Sənin dediklərin doğru deyil, bunlar çox qiymətli şeylərdir.

İgid dedi:

– Bunlarla nə iş görə bilərsiniz ki?

Şeytanlardan biri cavab verdi:

– Bu tavanı görürsənmi? Əgər biri ona minib bu dəyənəklə toxunarsa, suyun üstündən keçə bilər.

Digər şeytan əlavə etdi:

– Bu papaq isə sehrlidir. Onu kim başına qoysa gözə görünməz olur.

İgid dedi:

– Mən buna inanmıram.

Şeytanlar dedi:

– İnanmırsan, sınaya bilərsən!

İgid papağı başına qoydu və gözə görünməz oldu. Tavaya mindi, ona gümüş dəyənəklə toxundu və çayın digər sahilinə keçdi. Şeytanlar isə sahildə baxa-baxa qalıb ağlamağa başladılar.

Div ilə padşah qızı isə gözdən itmişdilər. İgid arxalarından qaçaraq onlara çatdı və gördü ki, divin meşənin dərinliklərindəki sarayına yaxınlaşırlar. Tez sehrli papağını başına qoydu, gözə görünməz oldu və onlarla birlikdə saraya girdi. Div qapını kilidlədi. Qızı sarayın ən gözəl otağına apardı. Orada bir səbəti qarışdırıb səbətdən qəribə bir alma çıxardı və qıza atdı. Qız almanı tutdu, təkrar divə atdı. Və beləcə oynamağa başladılar. Birdən div almanı əlindən mərmər döşəməyə saldı. İgid tez almanı götürüb qoynuna soxdu. Qızla alov saçan div almanı nə qədər axtarsalar da, tapa bilmədilər.

Birdən bir xoruz banladı. Xoruz səsini eşidən padşahın qızı tez ayağa qalxdı və dedi:

– Tez məni evə apar.

Yola çıxdılar. İgid cəld tərpəndi və qabaqdan getdi. Dərin çayın üstündən yenə sehrli tava ilə keçdi, saraya gəldi. Qızın otağının qapısının ağzında uzandı və özünü yuxuluğa vurdu. Div qızı gətirib otağına qoydu və gözdən itdi. Səhər açıldı, padşah gəlib qızının başmaqlarının yenə yırtıldığını gördü. Qızından soruşdu:

– Bu gecə haraya getmişdin?

Qızı dedi:

– Heç bir yerə getməmişdim, ata!

Padşah dedi:

– Getmisən. Bu gecə harada olduğunu indi igid söyləyəcək!

İgidi çağırdılar. Və padşah igidə dedi:

– İgid oğlan, de görüm bu gecə qızımın haraya getdiyini öyrənə bildinmi?

İgid dedi:

– Öyrəndim, padşahım!

Padşah dedi:

– Onda de görüm, hara getdi.

İgid başdan başlayaraq bütün əhvalatı olduğu kimi danışdı. Padşah qızı ağacdan kəsilən yonqarları, ot dəstəsini və almanı görəndə inkar edə bilmədi və hər şeyi etiraf etdi. Padşah da verdiyi sözü tutdu. Həm taxt-tacının yarısını, həm də qızını igidə verdi. Padşah qızı divin ona verdiyi üzüyü barmağından çıxarıb atdı və başqa bir üzük taxdı. Div də bunu görəndən sonra uçub göylərə getdi və bir daha saraya gəlmədi.



**Hüseynzadə Sibel, 13 yaş**
***Balkan nağılı «Div ilə padşah qızı» –***
***Balkan masalı «Dev ile Padişah Kızı»***

# Dev ile Padişah Kızı

Biri varmış, biri yokmuş. Ülkelerin birinde bir padişah varmış. Padişah bir isteğini duyurmak için tüm ülkeye tellal çıkartmış:

«Padişah kızının her gece nereye gittiğini ve her gece bir çift altın pabucu nerede paraladığını kim öğrenirse, padişah ona padişahlığının yarısını verecek. Ayrıca kızını da ona verecek.»

Haber duyulur duyulmaz memleketin her tarafından, birçok delikanlı, padişahın kızını gözetlemeye gelmiş. Yirmi dokuz kişi padişahın kızını takip ettiği halde padişahın kızının nereye gittiğini ve kiminle gezdiğini bulamamış, çünkü gece yarısına doğru padişahın sarayında ateş saçan bir dev ortaya çıkıyormuş. Dev saraya girerken ateş saçan büyük kanatlarını savuruyor ve böylece sıcak bir rüzgar meydana getiriyormuş. Bu rüzgâr göz kapaklarına dokunur dokunmaz bekçi uyuyuveriyormuş. Dev, padişahın güzel kızına âşıkmış.

Dev kıza büyü yaptığından altın pabuçlarını giyen kız hemen devin peşine düşüyormuş. Bekçi ise bu sırada odanın kapısında derin bir uykuya dalıveriyormuş.

Padişah kızının nerede dolaştığını söyleyemedikleri için gelen yirmi dokuz kişiyi zindana attırmış.

Bir gün padişahın kapısına bir keleş gelmiş ve ona sormuş:

– Haşmetli padişahım, sözünde duracak mısın, kızının gece nereye gittiğini söylersem, padişahlığının yarısını ve kızını bana verecek misin?

Padişah cevap vermiş:

– Söz, fakat sen de uyursan artık zindan yok, kelleni alırım, çünkü zindan uykucularla doldu.

Keleş:

– Peki, demiş.

Ve yola çıkmak için hazırlanmış. Çarıklarını giyip, güneş batmadan padişah kızının yattığı odanın eşiğinin dibine yatmış ve horul horul uyumaya başlamış.

Padişahın kızı onu görünce şöyle demiş:

– Vay keleş, vay senin haline! Güneş batmadan yattığına göre sen de beni koruyamayacaksın.

Keleş uyumuş, gece yarısına doğru uyanmış, fakat kalktığını belli etmeyip uyuyormuş gibi yapmış. Yattığı yerde hareketsiz bir şekilde beklemiş. Tam gece yarısı olduğunda dev belirmiş. Kanatlarındaki ışık o kadar kuvvetliymiş ki, tüm saray aydınlanmış. Dev, kendisini derin bir uykuya dalmış gibi gösteren keleşin üstünden atlamış ve gülmeye başlamış. Uyutucu rüzgârını estirmeden kapıyı itip içeri girmiş ve kıza:

– Haydi, gidelim, vakit geldi deyip, padişah kızının omzuna dokunmuş. Kız kalkmış, giyinip kuşanmış. Altın pabuçlarını giymiş. Dev kızın yolunu aydınlatmak için önden yürümüş, kız da onun arkasından yürümüş.

Onlar sokağa girince Keleş kalkıp onları takip etmiş. Ateş saçan dev ile padişahın kızı şehirden çıkınca bir ağacın altına oturup bir ot demetiyle oynamaya başlamışlar. Dev, demeti kıza daha kuvvetli atınca demet Keleş'in ayaklarının dibine düşmüş. Keleş demeti alıp koynuna sokmuş. Dev, demeti aramış fakat bulamayınca demetten, vazgeçmişler ve daha ileriye gitmişler. Keleş bir ağaca işaret bırakmak için bir balta çıkarmış ve ağaca iki çentik atmış, kız balta sesini duyunca korkmuş ve:

– Arkamızdan gelen biri var, demiş.

Dev:

– Korkma, kimse yoktur. Gecenin bu vaktinde canlılar ovada gezmeye cesaret edemezler, demiş.

Dev ile kız bir hayli zaman yürüdükten sonra bir nehri geçmişler. Dev, kızı kanatlarına alıp nehrin karşı tarafına geçirmiş. Keleş de kıyıya gelmiş. Fakat yüzmeyi bilmediğinden nehri geçememiş. Geçmek için kendine bir yer aramış. Kıyıda gezinirken orada kuyruklu iki adamcağızın tartıştığını görmüş. Keleş onlara sormuş:

– Niçin tartışıyorsunuz?

– Babamdan kalan mirası paylaşamıyoruz da onun için, diye cevap vermişler.

Keleş:

– Getirin mirası bir bakayım, demiş.

Adamlar şeytanmış, mirası getirmişler.

İşte bunlar, bir bakır tava, bir gümüş sopa ve bir şapka imiş.

Keleş:

– Bu ufak tefek şeyler için niçin kavga ediyorsunuz? Bunlar beş para etmez, demiş.

Şeytanlar sıçramışlar:

– Dediklerin doğru değil, bunlar çok kıymetli şeylerdir, demişler.

– Onlarla ne iş yapabilirsiniz? demiş keleş.

Şeytanlardan biri cevap vermiş:

– Ne mi, bu tavayı görüyor musun? Eğer biri ona basıp da şu sopa ile dokunacak olursa, suyun üstünden geçebilir.

Diğeri eklemiş:

– Bu şapka ise görünmezlik şapkasıdır. Onu kim başına geçirirse görünmez olur.

Keleş:

– Ben buna inanmam, demiş.

Şeytanlar demişler:

– İnanmazsan dene!

Keleş şapkayı başına geçirmiş, görünmez olmuş. Tavaya basıp, ona gümüş sopa ile dokunmuş. Karşı kıyıya geçmiş. Şeytanlar kıyıda kalakalmışlar.

Ağlamaya başlamışlar. Bu sırada dev ile padişahın kızı görünmez olmuşlar. Keleş arkalarından koşarak yetişmiş ve bakmış ki, onlar devin ormanın derinliklerindeki sarayına yaklaşıyorlar. Hemen görünmezlik şapkasını başına geçirmiş. Görünmez olmuş ve onlarla birlikte saraya girmiş. Dev, kapıyı kilitlemiş. Kızı sarayın en güzel odasına götürmüş. Orada bir sepeti karıştırıp sepetten acayip bir elma çıkarmış ve kıza atmış. Kız elmayı tekrar deve atmış. Böylelikle oynamaya başlamışlar. Dev elmayı mermer döşemeye düşürmüş. Keleş onu kapmış ve koynuna sokmuş. Kızla ateş saçan dev, elmayı uzun uzun aramışlar, ancak bulamamışlar.

Bir yerlerde bir horoz ötmüş. Padişahın kızı hemen yerinden fırlamış ve:

– Haydi! Beni eve götür, demiş.

Yola çıkmışlar. Keleş hızlı davranmış, önden gitmiş. Derin nehrin üzerinden yine sihirli tava ile geçmiş ve saraya varıp uyuyormuş gibi eşiğin dibine yatmış. Padişah, sabah kızının pabuçlarının yine yırtılmış olduğunu görünce kızına:

– Bu gece nereye gittin? diye sormuş.

Kız:

– Bir yere gitmedim baba! demiş.

Padişah:

– Gitmişsin işte! Şimdi gece nerede olduğunu Keleş söyleyecek!

Keleş'i çağırmışlar.

– Söyle bakalım Keleş, gece kızımın nereye gittiğini anladın mı?

– Anladım padişahım.

– Öyleyse söyle bakalım!

Keleş baştan başlayarak meseleyi iğneden ipliğe kadar anlatmış. Padişahın kızı ağaçtan kesilen yongaları, ot demetini ve elmayı görünce inkâr edememiş ve her şeyi hatırlamış. Bunun üzerine padişah, hem kızını hem de padişahlığının yansını Keleş'e vermiş. Padişah kızı devin ona verdiği yüzüğü atıp parmağına başka bir yüzük takmış. Dev de bunu görünce, göklere yükselmiş ve bir daha saraya uğramamış.

# Hiyləgər tülkü və quşlar

Biri var idi, biri yox idi, bir leylək var idi. Bu leylək çox böyük və gözəl bir şam ağacında yuva qurmuşdu. Orada balaları ilə çox rahat yaşayırdı. Günlərin bir günü sıx meşəlikdən qəzəbli və tükləri biz-biz olmuş böyük bir tülkü çıxıb gəldi. Tülkü ağaca yaxınlaşıb başını yuxarı qaldırdı və dedi:

– Sən mənim ağacımda yuva qurubsan, əgər canını qurtarmaq istəyirsənsə, balalarından birini mənə at!

Yazıq leylək qorxdu, çarəsiz qalıb balasının birini tülküyə atdı. Tülkü leyləyin yuvadan aşağı atdığı balasını yerə düşmədən göydə tutub meşəyə doğru qaçdı və gözdən itdi.

Ertəsi gün tülkü daha qəzəbli bir halda gəldi. Ağacı möhkəm silkələdi və leyləyin bir balasını da alıb yedi.

Bu vəziyyəti görən bir quzğun tülkü getdikdən sonra gəlib leyləyə sakitcə belə dedi:

– Hə, çox uzun və iti dimdiyin var, amma təəssüf ki, axmaqsan. Hiyləgər tülkünü qorxudub qaçırtmalıydın. «Bu dəqiqə aşağı gəlib hiyləgər beynini dimdiyimlə deşərəm... İki balamı yediyin bəsdi!» – deyib üstünə hücum etsən, mütləq səndən qorxub qaçardı.

Yenə ertəsi gün tülkü çox vahiməli bir halda gəldi və hayqıraraq ağacın ətrafında dolandı və dedi:

– Tez ol üçüncü balanı da ver mənə!

Qorxudan leyləyin başı titrəməyə başladı. Ancaq balasına da qıymırdı. Cəsarətini toplayıb ayaqları ilə ağacdan möhkəm tutdu və dedi:

– Çıx get! Yoxsa aşağı düşüb iti dimdiyimlə başını deşərəm. İki balamı yediyin bəsdi.

Tülkü leyləkdən belə qorxuducu sözlər heç gözləmirdi. Qorxdu. Onu quzğunun öyrətdiyini də başa düşdü. Quzğunun arxasınca deyindi:

– Boşboğaz quzğun, gününü göstərərəm sənə, səni tutub yeyəndə nə etdiyini başa düşərsən!

Quzğunu tutub cəzalandırmağı qarşısına məqsəd qoyan tülkü çayın kənarında duran quzğuna gizlicə yaxınlaşdı. Sonra elə

oradaca üstünü çör-çöplə örtüb özünü ölülüyə vurdu. Və gözləməyə başladı. Amma günəşin isti şüaları altında xoşhallanıb yuxuya getdi. Birdən gözünün yandığını hiss etdi. «Of, yandım!» – deyib bağıraraq qalxdı. Amma quzğun çoxdan hiyləgər tülkünün bir gözünü oyub uçub getmişdi. Tülkü də gözünün ağrısı ilə baş-başa qaldı.

Bu, tülküyə dərs olmadı. Tülkü bu qorxunc gündən sonra da yenə kimi necə aldadacağını fikirləşməyə davam etdi.

Günlərin bir günü tülkü qayın ağacına qonmuş bir çöl xoruzu gördü... Tülkü çöl xoruzuna belə dedi:

– Ay yazıq, fikirləşməkdən başın ağrıyacaq. Nə fikirləşirsən belə?

Çöl xoruzu dedi:

– Bəs sən nə fikirləşirsən? Hara belə gedirsən?

Tülkü dedi:

– Hə, həyat çətindir. Gözümün biri kor olmadan əvvəl bu dünyada çox şey gördüm. Kullus Xoroon adlı bir ölkə var, oraya gedirəm. Orada hazır yeməklərdən yeyib kef edəcəyəm.

Çöl xoruzu dedi:

– Mən də hazır yeməklərdən yemək istəyirəm. Xahiş edirəm məni də apar, nə olar!

Tülkü dedi:

– Onda düş aşağı, arxamca gəl.

Çöl xoruzu qayın ağacından düşüb addım-addım tülkünün arxasınca getməyə başladı. Onlar yolda gedərkən tülkü çalağanı gördü və dedi:

– Ay yazıq çalağan, sağa-sola dönərək nə fikirləşirsən belə?

Çalağan dedi:

– Bəs siz birlikdə hara gedirsiz belə?

Tülkü dedi:

– Kullus Xoroon adlı çox gözəl bir ölkə var, oraya gedirik. Orada hazır yeməklərdən yeyib kef edəcəyik.

Çalağan dedi:

– Mən də hazır yeməklərdən yemək istəyirəm. Məni də yanınıza alın, nə olar!

Tülkü dedi:

– Onda sən də düş gəl arxamızca.

Yazıq çalağan sevinərək gəlib onlara qoşuldu. Onlar yollarına davam etdi. Tülkü yolda bayquşu gördü və ona dedi:

– Ay yazıq, boynunu sağa-sola çevirib nə fikirləşirsən?

Bayquş dedi:

– Bəs siz belə fikirli-fikirli hara gedirsiniz, görəsən?

Tülkü dedi:

– Bir gözümü itirmədən əvvəl bu dünyada çox gəzdim-dolaşdım. Sənin kimi bir canlını quyruğuna qədər yemək yerinə, Kullus Xoroon adında bir ölkə var, oraya gedib hazır yeməklərdən yeməyi daha üstün tuturam. Biz oraya gedirik.

Bayquş dedi:

– Ooo, nə gözəl! Məni də aparın.

Tülkü dedi:

– Onda sən də düş gəl arxamızca.

Bayquş da gəlib onlara qoşuldu.

Hamısı birlikdə yollarına davam edərkən bir kəkliklə qarşılaşdılar. Tülkü kəkliyə dedi:

– Ay kəklik, otu, ağacı, çör-çöpü eşələyib nə edirsən belə?

Kəklik dedi:

– Bəs siz fikirli-fikirli arxa-arxaya düzülüb niyə yığışıbsız bir yerə?

Tülkü dedi:

– Leylək kimi fırlana-fırlana çör-çöpün altını eşələyək? Kullus Xoroon adında bir ölkə var, yığışıb oraya gedirik, orada hazır yeməklərdən yeyib kef edəcəyik.

Kəklik dedi:

– Hımm! Doğrudan da, gözəl yermiş. Mən hazır yeməklərdən yemək istəmirəm. Ancaq o Kullus Xoroon deyilən yeri görmək istəyərəm. Məni də aparın.

Tülkü dedi:

– Sən çox uğurlu bir quşsan. Dur gəl, sən də bizə qoşul.

Kəklik onları diqqətlə təqib etməyə başladı. Onlar yenə yola davam etdilər. Yolda yabanı böyük bir göbələyə rast gəldilər. Tülkü arxasınca gələn quşlara belə dedi:

– Hə, dostlarım! Kullus Xoroon adlı gözəl yer buradır... Gəlin bu keçiddən bir-bir içəri girək, birdən vəhşi heyvanlar izimizə düşər. İzimizi itirək. Gəlin, gəlin... Tez olun!

Quşların hamısı göbələyin altındakı qapıdan bir-bir keçməyə başladılar. Tülkü isə onların arxasından təngnəfəs bir halda gizli-gizli nəsə etdi və axırda da hiyləgər tülkü içəri girdi. Qapını örtüb kilidlədi və quşları orada həbs etdi. Quşlar tülkünün onları aldatdığını başa düşdülər, amma nə faydası var? Tülkü onların bu halına qəhqəhə ilə güldü və sonra dedi:

– Ağılsızlar, Kullus Xoroon deyilən yer mənim yuvamdır. İndi Kullus Xoroonumda hazır yeməklərdən yeyib kef edəcəyəm dedi və çalağanı tutub ağzına atdı.

İkinci gün də sıra ilə bayquşu və çöl xoruzunu yedi. Üçüncü gün sıra kəkliyə gəldi. Tülkünün onu yeyəcəyindən qorxan kəklik qanad çırpıb belə dedi:

– Sevimli bacım! Məni yemək istəyirsən, ye. Amma mənim kimi kiçik bir quşu yeyib doymazsan. Məni burax. Sənə əyləncələr göstərim: bir dəfə sənə xoşbəxtlikdən qəhqəhələr atdırım, bir dəfə səni yaxşıca doyuzdurum, bir dəfə də səni ödünü qopardacaq qədər böyük bir təhlükə ilə qarşılaşdırım.

Tülkü fikirləşdi: «Hə, doğru deyir. Bu kiçik quşu yesəm də, doymaram» – deyib kəkliyin təklifini qəbul etdi və dedi:

– İndi səni buraxacağam, ancaq diqqətli ol, əgər məni aldatsan, səni harada olsa tutub yeyəcəyəm. Mənim hiyləni və yalanı xoşlamadığımı sən yaxşı bilirsən.

Sonra yuvasının qapısını açıb kəkliyi buraxdı. Və onu təqib etməyə başladı. Onlar yolda yaşlı bir qadın və uşaqla qarşılaşdılar. Qadın uşağını xaç suyuna salmaq üçün kil-

səyə aparırdı. Yanında isə rahibə vermək üçün gözəl yeməklərdən hazırladığı bir boxça var idi.

Kəklik onların qabağında yanlarını basa-basa yeriməyə başladı. Qadın kəkliyi görəndə onun rahib üçün çox gözəl bir hədiyyə olacağını fikirləşib kəkliyi tutmaq istədi. Uşağını və boxçasını bir tərəfə qoyub kəkliyin arxasınca düşdü. Kəklik qaçmağa başladı. Elə bu vaxt tülkü qadının boxçasını oğurlayıb meşənin içinə girdi və gözdən itdi. Bütün yeməklərdən bir-bir yedikdən sonra rahatca uzandı. Kəklik də yanına gəldi və tülküyə dedi:

– Hə, necədir, doydunmu?

Tülkü dedi:

– Oooh. Elə doydum ki... İki gözüm olanda heç belə doymamışdım.

Sonra qalan yeməkləri də birlikdə yedilər.

Günlərin bir günü yenə birlikdə gedərkən atıyla tarlasını şumlayan çox varlı bir əkinçi ilə qarşılaşdılar. Kəklik uçub atın boynuna qondu. Bunu görən əkinçi kəkliyi ovlamaq istədi. Qurşağındakı bıçağını tez çıxarıb kəkliyə doğru atdı. Kəklik qaçdı. Əkinçinin atı hürküb başını yuxarı qaldırdı. Bıçaq düz atın boynuna girdi. Yazıq heyvan elə oradaca öldü. Bütün bunları kənardan izləyən tülkü: «Kiçik bir quşa görə atından oldu» – deyib qəhqəhə ilə gülməyə başladı.

Kəklik tülkünün yanına gəlib dedi:

– Hə, bu necədir, əyləndinmi?

Tülkü dedi:

– Hə, özü də necə...

Sonra birlikdə bir kəndə getdilər. Kəklik tülkünü bir anbara aparıb: «Sən burada uzan, dincəl» – dedi. Özü də uçub getdi. Tülkü kəkliyi gözləməyə başladı. Kəklik anbardan ayrıldıqdan sonra kəndin meydanına gedib orada özünü ölülüyə vurdu. Kəndin bütün köpəkləri kəkliyi yemək üçün ona yaxınlaşmağa başladı. Elə tutmaq istəyərkən kəklik əllərindən xilas olub qaçdı. Kəklik qaçanda köpəklər də onu tutmaq üçün arxasına düşdülər. Kəklik qabaqda, köpəklər də arxasında... Kəklik gəlib anbara girdi, köpəklər də arxasından... Bir anda tülkü köpəklərlə üz-üzə gəldi. Canını qurtarmaq istəyən tülkü pəncərəyə tərəf qaçdı. Tülkü canını qurtardı, amma köpəklər onun quyruğunun ucunu qopardılar. Meşəyə qaçaraq bu böyük təhlükədən xilas olmağı bacaran tülkü çox qorxdu...

Kəklik qorxudan ödü qopan tülkünün başının üstündə uçaraq dedi:

– Məndən alacağın qalmadı. Sənə olan borcum bitdi. Əlvida, hiyləgər tükü!

Kəklik bu sözləri dedi və uçub gözdən itdi.

Tülkünün qopan quyruğunun ucundan bir ağ tük çıxdı. Elə o vaxtdan da hiyləgər tülkünün quyruğunun ucu ağ qaldı.



**Heydərov Heydər, 11 yaş**
***Saxa nağılı «Hiyləgər tülkü və quşlar» –***
***Saha(Yakut) masalı «Kurnaz Tilki ve Kuşlar»***

# Kurnaz Tilki ve Kuşlar

Biri varmış, biri yokmuş, bir leylek varmış. Bu leylek haşmetli ve güzel bir çam ağacında yuva yapmış. Orada yavrularıyla huzur içinde yaşıyormuş. Bir gün ormanın sık ağaçlarının arasından kızgın ve tüyleri diken diken olmuş iri bir tilki çıkagelmiş. Tilki ağaca yanaşıp başını yukarı kaldırarak:

– Sen benim ağacıma yuva yapmışsın, eğer canını kurtarmak istiyorsan hemen şimdi yavrularından birini bana at! demiş.

Zavallı leylek telaşlanmış, çaresizce bir yavrusunu tilkiye atmış. Tilki leyleğin yuvadan aşağı bıraktığı yavruyu yere düşürmeden kaptığı gibi ormana doğru yönelmiş ve bir anda gözden kaybolmuş.

Ertesi gün tilki daha öfkeli bir şekilde çıkagelmiş. Ağacı iyice sallayıp leyleğin ikinci yavrusunu da almış.

Bu durumu gören bir kuzgun, tilki gittikten sonra bir ileri bir geri gidip gelip sessizce leyleğe şöyle söylemiş:

– İşte böyle, çok uzun ve sivri gagalısın ama ne yazık ki aptalsın. Kara kurnaz tilkiyi korkutup kaçırmalıydın. «Hemen şimdi inip kurnaz başını gagamla deleceğim... iki yavrumu yediğin yeter!» diye üzerine gidersen senden mutlaka çok korkar.

Ertesi gün tilki daha korkunç bir şekilde gelip:

– Çabuk üçüncü yavrunu da bana ver!» diye haykırarak ağacın etrafında dolanmış.

Leyleğin kafası korkudan titremeye başlamış. Ancak yavrusuna da kıyamamış. Cesaretini toplamış. İki ayağıyla birden ağaca sıkıca tutunup:

– Çek git! Yoksa inip başını sivri gagamla deşiveririm. İki yavrumu yediğin yeter, demiş.

Tilki, leylekten böyle tehditkar sözleri hiç beklemiyormuş. Korkmuş. Ona kuzgunun akıl verdiğini de anlamış. Geveze kuzgun, gününü göreceksin seni yakalayıp yediğimde ne yaptığını anlayacaksın!», diye söylenmiş.

Kuzgunu yakalayıp cezalandırmayı kafasına koyan tilki nehrin kenarında duran kuzguna sinsice yaklaşmış. Sonra hemen

oracıkta üstünü çerle çöple kapatıp ölmüş gibi sessizce yatıp beklemeye başlamış. Ama güneşin etrafı ısıtmasıyla birlikte gevşeyip uyuyakalmış. Birden gözünün ateş gibi yanmaya başladığını hissetmiş, «Of aman!» diyerek doğruluvermiş. Ama kuzgun çoktan kurnaz tilkinin bir gözünü oyup uçup gitmiş. Tilki de acısı ile kalakalmış.

Bu tilkiye ders olmamış. Tilki bu korkunç günden sonra da yine kimi nasıl kandıracağını düşünmeye devam etmiş.

Günlerden bir gün kayın ağacının dallarında oturan yaban horozunu görmüş. Ona:

– Ah zavallı böyle düşünmekten başın şişecek. Ne düşünüyorsun öyle? demiş.

Yaban horozu:

– Ya sen ne düşünüyorsun bakalım? Nereye gidiyorsun? demiş.

Tilki:

– İşte böyle tek gözüm kalana kadar bu dünyada pek çok şey gördüm. Kullus Horoon isimli ülkeye gidip yan gelip yatarak hazır yemeklerden yemek istiyorum, demiş. Yaban horozu:

– Ben de hazır yemeklerden yemek istiyorum, lütfen beni de yanınıza alın ne olur! demiş.

– Haydi o zaman inip beni takip et, demiş yaban horozuna tilki.

Yaban horozu kayın ağacından inip adım adım tilkiyi takip etmeye başlamış. Onlar yollarına devam ederken tilki çaylağı görmüş. Çaylağa:

– Ooo, zavallı çaylak bir sağa bir sola sallanarak ne düşünüyorsun? demiş. Çaylak:

– Ya siz birlikte nereye gidiyorsunuz acaba? demiş.

Kullus Horoon diye çok güzel bir ülke var oraya gidip yan gelip yatarak hazır yemeklerden yemeye gidiyoruz, demiş.

Çaylak:

– Ben de hazır yemeklerden yemek istiyorum. Beni de yanınıza alın ne olur! demiş.

– O zaman inip bizi takip et, demiş tilki.

Zavallı çaylak inip, neşeyle onlara katılmış. Onlar yollarına devam ededursunlar, tilki baykuşu görmüş ve ona:

– Ooo, zavallı boynunu sağa sola çevirip ne düşünüyorsun? demiş.

Baykuş:

– Ya siz böyle düşüne düşüne birlikte nereye gidiyorsunuz acaba? demiş.

Tilki:

–Bu dünyada tek gözümü kaybedene kadar çok gezdim dolaştım. Senin gibi bir canlıyı kuyruğuna kadar yemek yerine, Kullus Horoon denilen bir ülkeye gidip sadece yan gelip yatarak hazır yemeklerden yemeyi yeğlerim. İşte oraya doğru gidiyoruz, demiş.

Baykuş:

– Aman ne güzelmiş. Beni de yanınıza alın, demiş.

Tilki:

– İn takıl peşimize, demiş.

Baykuş da inip onları takip etmeye başlamış. Hep beraber yollarına devam ederlerken bir keklikle karşılaşmışlar. Tilki kekliğe:

– Hey keklik, otu ağacı çeri çöpü deşip ne yapıyorsun? demiş.

Keklik:

– Ya siz ne düşüne düşüne, peş peşe dizilip niye bir araya geldiniz? demiş.

Tilki:

– Leylek gibi fırıl fırıl dönerek çer çöpün altını deşecek değiliz. Kullus Horoon denilen ülkeye gidip yan gelip yatarak hazır yemeklerden yiyeceğiz, demiş.

Keklik:

– Hımm! Gerçekten mükemmel bir yer imiş. Ben hazır yemek yemeyi düşünmüyorum. Ancak o Kullus Horoon denilen yeri görmeyi isterim. Beni de yanınıza alın, demiş.

Tilki:

– Sen çok uğurlu bir kuş imişsin. Haydi gel sen de bize katıl, demiş.

Keklik onları dikkatlice takip etmeye başlamış.

Daha sonra birbirlerini takip ederek giderlerken bir yabanî mantara rastlamışlar. Tilki kendisini takip eden kuşlara şöyle demiş:

– Haydi dostlarım! Kullus Horoon adlı mükemmel yer burasıdır... Haydi bu geçitten tek tek girelim, belki vahşi hayvanlar izimizi takip ederler. «İzimizi kaybettirelim. Haydi haydi... Çabuk olun!» diye bağırmış.

Sonra kuşların hepsi mantarın altındaki kapıdan tek tek geçmeye başlamışlar. Tilki ise arkalarından nefes nefese, gizli gizli bir şeyler yapmış.

En son kurnaz tilki içeri girmiş. Kapıyı kapatıp, kilitlemiş, kuşları hapsetmiş. Kuşlar tilki tarafından aldatıldıklarını anlamışlar ama ne fayda! Tilki onların bu hallerine kahkahalar ile gülmüş. Sonra onlara:

– Boş kafalılar, Kullus Horoon adlı yer benim yuvamdır. Şimdi Kullus Horoon'umda yan gelip yatıp hazır yemekleri yiyeceğim, demiş ve çaylağı tutup ağzına atıvermiş.

Takip eden günlerde de sırasıyla baykuşu ve yaban horozunu yemiş. Üçüncü gün sıra kekliğe gelmiş. Tilkinin kendisini yemesinden korkan keklik kanat çırpıp şöyle söylemiş.

– Sevgili ablacığım! Beni yemek istersen ye. Ama benim gibi küçük bir kuşu yediğin zaman doymazsın. Beni serbest bırak. Ben de seni eğlendirip mutluluktan kahkahalar attırayım. Bir kez iyice doyurayım. Bir kez de korkudan ödünü patlatacak kadar büyük bir tehlikeye düşüreyim, demiş.

Tilki:

– Evet doğru, bu küçük kuşu yesem de doymam, diye düşünüp, kekliğin teklifini kabul etmiş. Şimdi seni serbest bırakacağım, ancak dikkatli ol, eğer beni kandırmaya çalışırsan mutlaka seni yakalar sonra da yerim. Benim hileyi ve kandırmacayı sevmediğimi sen iyi bilirsin! demiş ve ininin ka-

pısını açıp kekliği serbest bırakmış. Sonra onu takip etmeye başlamış.

Onlar yolda yaşlı bir kadın ve çocukla karşılaşmışlar. Kadın çocuğunu vaftiz ettirmek için kiliseye götürüyormuş. Yanlarında da rahip için hazırladığı güzel yiyeceklerden oluşan çıkın varmış.

Keklik onların önünden sallana sallana yürümeye başlamış. Kadın kekliği görünce ondan rahip için güzel bir hediye olacağını düşünmüş. Çocuğunu ve hazırladığı yiyecekleri bir kenara bırakıp açgözlülükle kekliğin peşine düşmüş. Keklik de kaçmaya başlamış. Bu arada tilki kadının bütün yiyeceklerini çalıp ormanın içine girip kaybolmuş. Bütün yiyecekleri bir bir yedikten sonra güzelce uzanmış. Keklik de yanına gelmiş. Tilkiye:

– Nasıl, doydun mu? diye sormuş.

Tilki:

– Ooo hem de nasıl... iki gözüm varken bile böyle doymamıştım, diye cevap vermiş. Sonra rahip için hazırlanan yiyecekleri birlikte yemişler.

Günlerden bir gün yine beraber yürürlerken atıyla tarlasını süren çok zengin bir çiftçiyle karşılaşmışlar. Keklik uçup atın boynunun üzerine konmuş. Bunu gören zengin çiftçi kekliği avlamayı düşünmüş. Kuşağındaki bıçağını hızla çekip kekliğe doğru atıvermiş. Keklik kaçmış çiftçinin atı da ürküp kafasını yukarı doğru kaldırı vermiş. Bıçak da atın tam ensesine isabet etmiş. Hayvancağız oracıkta ölmüş. Bütün bu olanları seyreden tilki «Küçük bir kuş için koca bir attan oldu.» diye kahkahayla gülmeye başlayıp kendinden geçmiş.

Keklik Tilkiye:

– Nasıl, çok eğlendin mi? diye sormuş.

– Hem de nasıl... demiş tilki.

Sonra birlikte bir köye inmişler. Keklik tilkiyi bir ambara götürüp, «Sen burada yat.» demiş. Kendisi de uçup gitmiş. Tilki kekliği beklemeye başlamış. Keklik ambardan ayrıldıktan sonra köyün meydanına gidip ölmüş numarası yapmış. Köyün bütün köpekleri kekliği yemek için yaklaşmaya başlamış. Tam yakalayacaklarken keklik ellerinden kurtulup kaçmış. Arkasına da bütün köpekleri takmış. Keklik önde köpekler arkada... Keklik ambara girmiş, köpekler de arkasından... Bir anda tilki köpeklerle karşı karşıya kalmış. Canını kurtarmak isteyen tilki pencereye doğru koşmaya başlamış, canını kurtarmış ama köpekler tilkinin kuyruğunun ucunu kopartmışlar. Bu büyük tehlikeden ormana kaçarak kurtulmayı başaran tilki çok korkmuş...

Keklik korkudan ödü patlayan tilkinin üzerinde uçarak «Benden alacağın bitti. Sana borcum kalmadı. Elveda kurnaz tilki» demiş ve uçup gözden kaybolmuş. Tilkinin kopan kuyruk ucunun yerine beyaz bir tüy çıkmış. İşte bundan dolayı kurnaz tilkinin kuyruğunun ucu beyaz kalmış.

# Dəvə, tülkü və canavar

Günlərin bir günü bir dəvə çöldə otlayırdı. Bu vaxt bir tülkü qaça-qaça onun yanına gəlib deyir:

– Ey dəvə, sən niyə otlarımı yeyirsən? Axı bu yer mənimdir.

Dəvə deyir:

– Sübut elə ki, bura sənindir. Sən bir şahid gətir gəl, o təsdiq eləsin ki, bu yer, doğrudan da, sənindir.

Tülkü gedir şahid axtarmağa, o, çox gəzib-dolanır, axır ki, bir canavara rast gəlir. Canavara deyir:

– Canavar, gəl mənimlə gedək dəvənin yanına, sən şahid ol ki, dəvə mənim torpağımda otlayır.

Canavar tülküyə cavab verir:

– Mən hardan bilirəm ki, bu dəvə kimin torpağında otlayır?

– Sənin bunu bilməyin heç gərək də deyil, – tülkü deyir. – Sadəcə təsdiq elə ki, mənim torpağımda otlayır, vəssalam, bunun əvəzində biz də səninlə birlikdə dəvəni kəsib, ətini ağız ləzzəti ilə yeyərik.

Canavar razılaşır. İkisi də bir yerdə qaçıb gəlirlər dəvənin yanına. Dəvə xəbər alır:

– Nədir, şahid gətirmisən?

– Gətirmişəm, – tülkü deyir.

Dəvə xəbər alır:

– Hə, şahid, nə deyirsən?

Canavar qışqırır:

– Bu yer tülkünündür.

Dəvə deyir:

– İndi ki, elədir, onda gəl götür otu ağzımdan. Özgəsinin otunu yemək yaramaz. Dəvə ağzını geniş açır. Canavar başını dəvənin ağzına salır ki, otları çıxartsın. Bu vaxt dəvə canavarın başını dişləri ilə möhkəmcə sıxır. Canavar xırıldayır, xırıldayır, ölür. Dəvə dişlərini aralayıb, ölmüş canavarı ağzından atır.

Tülkü uzaq qaçıb deyir:

– Siz bu canavara bir baxın: o, yalançı şahiddir!



**Nuriyeva Məryəm, 12 yaş**

***Balkar nağılı «Dəvə, tülkü və canavar» – Malkar masalı «Deve, Tilki ve Kurt»***

# Deve, Tilki ve Kurt

Günlerden bir gün bir deve otlakta otluyormuş. Tam bu sırada bir tilki koşarak onun yanına gelmiş ve:

–Hey, deve, sen neden benim otlarımı yiyorsun? Burası benim yerimdir, demiş.

Deve:

– Burasının senin olduğuna dair bir kanıtın var mı? Sen bir tanık bul getir, o, burasının gerçekten de sana ait olduğunu onaylasın, demiş.

Tilki tanık bulmaya gitmiş. O, çok gezmiş dolaşmış ve sonunda bir kurtla karşılaşmış. Tilki kurda:

– Kurt kardeş, benim tanığım olur musun? Gel benimle devenin yanına gidelim ve sen tanıklık et ki, deve gerçekten de benim toprağımda otluyor, demiş.

Kurt:

– Ben devenin kimin toprağında otladığını nerden bileyim? demiş.

Tilki:

– Senin bunu bilmen hiç önemli de değil. Sen sadece devenin benim toprağımda otladığını onayla, o kadar. Bunun karşılığında da biz ikimiz birlikte deveni kesip, etini ağız tadıyla yeriz, demiş.

Kurt tilkinin teklifini kabul etmiş. İkisi de koşarak devenin yanına gelmişler.

Deve:

– Nə oldu? Tanık buldun mu? diye sormuş.

Tilki:

– Buldum, demiş.

Deve kurda:

– Evet, tanık sen misin, kurt? Ne diyosun? diye sormuş.

Kurt bağırarak:

– Burası tilkinin toprağıdır! demiş.

Deve:

– Madem ki, burası tilkinin toprağıdır, o zaman gel otu ağzımdan al. Başkasının otunu yemek yakışı kalmaz, demiş.

Deve ağzını kocaman açmış. Kurt otları çıkarmak için başını devenin ağzına sokmuş. İşte, tam da bu sırada deve kurdun başını dişlerile sıkıca sıkmış. Kurt hırlamış, hırlamış ve nefesi kesilip ölmüş. Deve ölmüş kurdu ağzından fırlatıp atmış.

Durumu böyle gören tilki uzaklara kaçmış ve:

– Aaaa, siz şu kurda bir bakın ya! O yalancı tanıkmış! demiş.

# Ağıllı qız və Uluzun xan

Qədim zamanlarda çay sahilindəki alaçıqda yoxsul bir qız yaşayırmış. Bu qızın kiçik qardaşı varmış. Günlərin bir günü xanın adamlarından bir nəfər qızın yanına gəlib deyir:

– Sən niyə qardaşını gizlədirsən, xana xidmət etməyə göndərmirsən? Qardaşın daha böyük oğlandır, o, xanın yanına gedib, ona baş əyməlidir. Uluzun xan bilmək istəyir görsün sənin bu qardaşın hansı işə yarayır.

Qızın qardaşı durub gəlir xanın yanına. Xan oğlana deyir:

– Mənim birinci tapşırığım budur: get öyrən, gör yaşıl dağın günəşli tərəfindəki yamacda yaşayan boz dovşanın neçə yaşı var?

Oğlan qayıdıb gəlir evlərinə, bacısına deyir:

– Mən xanın tapşırığını yerinə yetirə bilmərəm. O əmr edir ki, gedim öyrənim, görək yaşıl dağın günəşli tərəfindəki yamacda yaşayan boz dovşanın neçə yaşı var?

Bacısı deyir:

– Eh, bu, çox asan işdir. Bir neçə ovuc çiyələk dər, qoy dovşanın cığırına, özün də get kolların arasında gizlən, qulaq as.

Oğlan bacısı necə demişdisə, o cür də elədi. Sonra da oturub gözlədi. Gördü, budur ha, dovşan qaça-qaça çiyələyə yaxın gəlib, başladı yeməyə. Yeyib qurtarandan sonra dedi:

– Düz altmış altı ildir ki, yaşıl dağın günəşli yamacında yaşayıram. Ömrümdə birinci dəfədir ki, belə ləzzətli yemək yeyirəm.

Oğlan durub gedir xanın yanına, deyir:

– Boz dovşanın altmış altı yaşı var.

Xan dini kitaba baxıb mat qalır, deyir:

– Doğrudur. İndi də ikinci tapşırığıma əməl elə! Öyrən gör yaşıl dağın şimal tərəfində yaşayan boz ayının neçə yaşı var?

Oğlan qayıdıb gəlir evlərinə, bacısına deyir:

– İndi də xan mənə əmr edir ki, gedim öyrənim görək yaşıl dağın şimal tərəfində yaşayan boz ayının neçə yaşı var.

Bacısı cavab verir:

– Bu da heç çətin iş deyil. Bax, bu üç dənə papağı götür. Birini qoy başına, ikisinin də içini basa-basa otla doldur, yapışdır çiyinlərinə. Ayının cığırının üstündəki kolların içində gizlən və gözlə. Ayı cığırda görünən kimi kolların içindən çıx, qulaq as.

Oğlan bacısı ona necə demişdisə, o cür də elədi. Sonra da oturub, başladı gözləməyə. Budu, bax, ayı göründü. Oğlan kolların içindən çıxıb qulaq asdı. Ayı ucadan dedi:

– Səksən səkkiz ildir ki, yaşıl dağın şimal tərəfindəki yamacda yaşayıram. Ömrümdə birinci dəfədir ki, üçbaşlı adam görürəm.

Oğlan xanın yanına gedib ona deyir:

– Boz ayının səksən səkkiz yaşı var.

Xan dini kitaba baxır, məəttəl qalır, deyir:

– Doğrudur. İndi üçüncü tapşırığımı qoy deyim. Sabah gəl, sevimli qara ayğırımı ram elə. Hamı ondan qorxur, heç kəs onu ram edə bilmir.

Oğlan qayıdıb gəlir evlərinə, bacısına deyir:

– Xanın üçüncü tapşırığı hamısından çətindir. Sabah onun sevimli qara ayğırını ram etməliyəm. Hamı o atdan qorxur, heç kəs onu ram edib, əhilləşdirə bilmir.

Bacısı deyir:

– Ürəyini sıxma, sənə üç dənə dəmir qamçı düzəldərəm. Bu üç qamçıyla sən hansı bir ayğırı desən ram edə bilərsən.

Səhər oğlan durub gedir xanın yanına, at saxlanılan yerdə qapqara, qıvraq bir ayğır görür. Oğlan başlayır ayğırı qamçılamağa. O qədər vurur ki, qamçı didik-didik olur, ayğır sakitləşir. Bu vaxt oğlan atılıb minir atın belinə, bu dəfə ikinci qamçıyla başlayır atı qamçılamağa. Ayğır şahə qalxır, dal ayağı ilə şıllaq atır, ancaq oğlanı üstündən aşıra bilmir. Oğlan ikinci qamçını da korlayır. Ayğır tamam gücdən düşür, amma yenə də oğlanı belindən atmağa çalışır. Bu vaxt oğlan üçüncü qamçını əlinə alıb, başlayır ayğırı şallaqlamağa.

Ayğır qışqırır:

– Vay, daha bacarmıram! – Belə deyib, xan cildinə girir. Beləliklə də, qardaşla bacı Uluzun xana qalib gəlirlər.



**Kərimli Əbülfət, 10 yaş**

*Tuva nağılı «Ağıllı qız və Uluzun xan» – Tuva  masalı «Akıllı Kız ve Uluzun Han»*



**Məcidli Məhəmməd, 12 yaş**
*Tuva nağılı «Ağıllı qız və Uluzun xan» –*
*Tuva  masalı «Akıllı Kız ve Uluzun Han»*

# Akıllı Kız ve Uluzun Han

Eski çağlarda ırmak sahilindeki evlerin birinde fakir bir kız yaşarmış. Bu kızın küçük bir kardeşi varmış. Günlerden bir gün hanın görevlilerinden biri kızın yanına gelmiş ve:

– Sen neden kardeşini saklıyorsun, bırak da gidip hana hizmet etsin. Kardeşin artık iyice büyümüş, o, hanın yanına gidip ona baş eğmeli ve elini öpmelidir. Uluzun han kardeşinin ne iş yapabildiğini öğrenmek istiyor, demiş.

Kızın kardeşi kalkıp Uluzun hanın huzuruna gitmiş. Han ona:

– Sana üç görev vereceğim. Birincisi: git öğren bakalım Yeşil Dağ'ın güney yamacında yaşayan boz tavşanın kaç yaşı var? demiş.

Çocuk evine dönmüş ve ablasına:

– Han, bana Yeşil Dağ'ın güney yamacında yaşayan boz tavşanın kaç yaşında olduğunu öğrenmemi emretti. Ben bunu nasıl öğrenirim? Ben yapamam! demiş.

Ablası:

– Dert ettiğin şeye bak. Bunu öğrenmek çok kolay. Birkaç avuç çilek topla ve tavşanın geçtiği yola bırak. Kendin de çalıların arkasına saklan ve tavşanın ne söyleyeceğine dikkat et, demiş.

Çocuk ablasının söylediği gibi yapmış. Sonra da oturup beklemiş. Bir bakmış ki, işte tavşan koşarak çileklere doğru yaklaştı ve çilekleri yemeğe başladı. Çilekleri yiyip bitirdikden sonra:

– Yeşil Dağ'ın güney yamacında yaşayalı tam altmış yıl oldu. Ama hayatımda ilk kez böyle lezzetli yemek yiyorum, demiş.

Çocuk kalkıp hanın huzuruna gitmiş ve hana:

– Boz tavşanın altmış yaşı var, demiş.

Han çocuğun doğru söyleyip söylemediğini öğrenmek için dini kitaba bakmış ve çok şaşırmış, sonra çocuğa:

– Doğrudur. Boz tavşanın altmış yaşı varmış. Şimdi ise ikinci görevini yerine getir! Git öğren bakalım, Yeşil Dağ'ın kuzeyinde yaşayan boz ayının kaç yaşı var, demiş.

Çocuk yine eve dönmüş, durumu ablasına anlatmış. Ablası:

– Hiç merak etme, bu da zor bir iş değil. Bak, şu üç tane şapkayı al, birini başına koy. Diğer ikisinin de içerisini iyice otla doldur ve her birini bir omuzuna yapıştır. Sonra ayının geçeceği yolun üstündeki çalıların arasında saklan ve bekle. Baktın ki, ayı geliyor hemen çalıların arasından çık ve ayının ne söyleyeceğine dikkat et, demiş.

Çocuk ablasının söylediği gibi yapmış ve oturup beklemeye başlamış. İşte ayı görünmüş. Çocuk çalıların arasından çıkmış ve ayıyı dinlemiş. Ayı yüksek bir sesle:

– Yeşil Dağ'ın kuzey yamacında yaşıyalı tam seksen sekiz yıl oldu. Ama hayatımda ilk kez üçbaşlı insan görüyorum, demiş.

Çocuk ayının yaşını öğrendikten sonra kalkıp hanın huzuruna gitmiş ve ona:

– Boz ayının seksen sekiz yaşı var, demiş.

Han yine dini kitabı açıp bakmış ve şaşırarak çocuğa:

– Doğrudur. Boz ayının seksen sekiz yaşı var. Şimdi de son görevini yapmanın sırası geldi. Benim çok tatlı bir siyah aygırım var. Herkes ondan çok korkar ve kimse ona yaklaşamaz. Yarın gel onu ram et, demiş.

Çocuk eve dönmüş ve durumu ablasına anlatmış:

– Hanın bana verdiği son görev çok zor. Yarın onun siyah aygırını ram etmem gerek. Herkes o attan çok korkuyormuş. Hiç kimse ona yaklaşamıyormuş, onu evcilleştiremiyormuş, demiş.

Ablası:

– İçini ferah tut. Sana demirden üç tane kamçı yapacağım. Bu kamçılarla nasıl bir aygır olursa olsun sen onu ram edebilirsin, demiş.

Sabah erkenden oğlan kalkıp hanın huzuruna gitmiş. Atların tutulduğu yere gelmişler, çocuk bakmış ki, burada simsiyah, kıvrak bir aygır var. Çocuk aygırı kamçılamaya başlamış. Kamçı ile aygıra o kadar vurmuş ki, kamçı kırılmış ve aygır sakinleşmiş. Aygır sakinleşince çocuk atlayıp onun sırtına binmiş ve ikinci kamçı ile atı kamçılamaya başlamış. Aygır şaha kalkmış, arka ayağı ile tekme atmış, ama çocuğu bir türlü sırtından düşürememiş. Nihayet ikinci kamçı da kırılmış. Aygır iyice güçsüz düşmüş, ama yine de çocuğu sırtından atmaya çalışıyormuş. Bu kez de çocuk üçüncü kamçıyı almış ve aygırı kamçılamaya başlamış. Sonunda aygır bağırarak:

– Aman, imdat, artık dayanamıyorum! demiş ve insana dönüşmüş. Meğersem bu hanın ta kendisiymiş.

İşte, böylece abla kardeş Uluzun hana karşı zafer kazanmışlar!

# Kamır-Batır

Biri vardı, biri yoxdu, bir qoca çoban vardı. Onun nə arvadı, nə də oğlu vardı. Çox illər idi ki, o, xana muzdurluq edir, onun minlərlə qoyununu otarırdı. Özünün isə heç nəyi yox idi. Çoban auldan bir az kənarda yaşayırdı.

Günlərin bir günü o, səhər erkən adəti üzrə balaca çəlləkdə xəmir yoğurdu, sonra isə xanın qoyunlarını çölə apardı. Çoban evə çox gec qayıtdı və burada uşaq səsi eşitdi. Otağa daxil olanda gördü ki, xəmir yoğurduğu balaca çəlləkdə bir uşaq uzanmışdır. Qoca buna çox sevindi. O, uşağı qucağına götürüb, xanın yanına qaçdı.

– Nə etmək olar, – deyə xan icazə verdi ki, çoban uşağı qoyunların südü ilə bəsləsin. – Qoy böyüsün. Uşaq sənin balan olar, mənim üçün isə işçi böyüyər.

Beləliklə, qoca oğula sahib oldu. Uşaq çox tez böyüdü, az vaxt ərzində oğlan pəhləvana çevrildi.

Onun adını Kamır-Batır qoydular, bu da xəmirdən olmuş pəhləvan mənasını verirdi.

Günlərin birində Kamır-Batır xanın oğulları ilə aşıq-aşıq oynayırdı. Xan balaları ona bütün aşıqları va qızıl toxmağı uduzdular. Əsilzadələr toxmaqdan heç ayrılmaq istəmirdilər.

Onlar güclə onu Kamır-Batırdan almaq istədilər. Lakin pəhləvanla bacarmaq mümkündürmü?

Onda Kamır-Batır dedi:

– Aşıqları və toxmağı sizə qaytararam. Ancaq bir şərtlə. Sizin alnınıza bir çırtma vurmalıyam.

Xanın oğulları razılaşdılar və Kamır-Batır onların hər birinin alnına bir çırtma vurdu. O, çırtmanı elə vurdu ki, xan varislərinin alnında dəlik əmələ gəldi.

Oğullar atalarının yanına şikayətə gəldilər. Xan qəzəbləndi, həm də çox qorxdu.

– Bu, necə olan işdir! Çoban oğlu quldur böyüyəcək və yaşayışımız çətinləşəcək. Ondan yaxamızı qurtarmalıyıq.

Budur, xan məsləhətçilərini ətrafına topladı ki, Kamır-Batırın təhlükələrindən xilas olsunlar.

Əyanlar çox düşündülər, nəhayət, əlac tapdılar.

– Onu hündür qamışları olan susuz çölə göndərək. Orada üçbaşlı əjdaha yaşayır. Bu günə kimi heç kəs onun əlindən qurtara bilməyib.

Belə məsləhət xanın xoşuna gəldi. O, qoca çobanı yanına çağırdı.

– Qoy oğlun çölə gedib qamış kəssin, özü ilə üç araba da aparsın.

Üç araba qoşuldu və Kamır-Batır qamış dalınca yollandı. O, üç arabanı qamışla doldurdu. Elə təzəcə geri qayıtmaq istəyirdi ki, qamışlıqdan onun qarşısına üçbaşlı əjdaha çıxdı. Kamır-Batır ondan heç də qorxmadı. O, nəhəngi arabaya qoşdu, bütün qamışları onun üstünə yüklədi və onlarla birgə aula daxil oldu. Xan qorxuya düşdü.

Əjdaha çox bədheybət idi. Lakin xan ən çox Kamır-Batırdan qorxdu. Bunu görən xan əmr etdi ki, əjdahanı meşəyə qovsun, özü isə atası çobanın yanına qayıdıb, qoyunları otarsın. Kamır-Batır çölə, atasının yanına gəldi. O, sakit yaşayır, xanın sürüsünü otarırdı. Xan isə yenə də məsləhətçiləri ətrafına topladı. Onlar çox götür-qoy etdilər, xeyli fikirləşdilər ki, muzdur oğlunu necə məhv etsinlər. Xan qərara gəldi ki, Kamır-Batırı çoxlu ilanları olan meşəyə göndərsin. Həmin meşədən heç kəs sağ qayıtmamışdı. Xan yenə də qoca çobanı saraya gətirtdi.

– Oğlunu sıx meşəyə odun dalınca göndər.

Qoca Kamır-Batırı yola hazırladı, meşəyə aparmaq üçün üç araba qoşuldu.

Kamır-Batır yola düzəldi. O, meşədə xeyli odun doğradı, onları arabalara yüklədi. Gənc meşədən təzəcə çıxmaq istəyirdi ki, gördü ki, ona tərəf ilanlar sürünür.

Kamır-Batır heç də ilanlardan qorxmadı. Əksinə, hətta onları görüb sevindi də. Axı o özü ilə kəndir götürməmişdi. Kamır-Batır odunları ilanlarla sarıdı və evə yollandı. Arabaların içində olan ilanları görüb, xan qorxudan əsməyə başladı. Lakin Kamır-Batır onun üçün daha dəhşətli düşmən idi. O, qoca çobana əmr etdi.

– Qoy oğlun ilanları burdan qovsun, onları gözüm görməsin.

Kamır-Batır ilanları odunlardan və arabalardan açdı, onları buraxdı. İlanlar güclə meşəyə üz tutdular, Kamır-Batır isə atası ilə çölə, xanın qoyunlarını otarmağa yollandı.

Üçüncü dəfə xan yenə də şura çağırdı. Hamı çox fikirləşəndən sonra belə qərarlaşdılar ki, bir quyu qazılsın və çoban oğlunu ora atsınlar.

Gizlicə çöldə bir dərin quyu qazdılar və xan öz əyanları ilə bura gəldi, guya onlar gəzməyə çıxıblar. Onlar quyunun yanında düşərgə saldılar. Xan əvvəlcədən buyurdu ki, quyunun üstünə və ətrafına bahalı xalılar döşənilsin. Xan burada oturub, əmr etdi ki, hamıya müxtəlif yeməklər paylansın.

Nökərlər gələnlərə qulluq göstərir, qızardılmış quzuya onları qonaq edirdilər. Xan özü ilə Kamır-Batırı da götürmüşdü. Onu kənarda dayanan görüb, dedi:

– Niyə sən işsiz dayanmısan? Yeməklərdən götür və qonaqlara təqdim elə.

Kamır-Batır bir sini götürüb əyan və məsləhətçilərə xörək paylamağa başladı. Xörək paylayanlara xalçaların üzəri ilə hərəkət etməyə icazə vermirdilər.

Kamır-Batır da xalçaların üzəri ilə yox, kənarı ilə hərəkət edirdi.

Onda xan dedi:

– Niyə sən kənardan keçirsən? Xalçanın üstü ilə addımla!

Kamır-Batır elə ayağını xalçanın üstünə qoymuşdu ki, dərin quyuya düşdü. Xan isə o saat qalxdı və öz əyanları ilə çıxıb getdi.

Kamır-Batır isə quyuda qaldı.

Xan sevindi ki, Kamır-Batırdan yaxaları qurtardı.

Nökərlər qoca çobana dedilər ki, xan onun oğlunu quyuya atdı və əmr etdi ki, kim ora yaxınlaşsa, başı bədənindən ayrılacaq.

Amma buna baxmayaraq qoca qərara aldı ki, oğlunu xilas etsin. O, sürünü quyunun yanına aparır və quyudakı oğluna yemək atırdı. Axşamlar isə sürünü geri qaytaranda, quyuya budaq va şüvül yerləşdirirdi. Kamır-Batır isə onlardan nərdivan hazırlayırdı.

Çox vaxt, yoxsa az vaxt keçdi, Kamır-Batır quyudan çıxaraq, azad oldu.

O, xanın yanına gəldi və ona dedi:

– Xan, sənin hiyləgər hərəkətlərinin heç biri mənə təsir etmədi. Elədiklərinin cavabını al!

O, xanın alnına bir çırtma vurdu. Xanın canı çıxdı. Kamır-Batır xanın oğullarını, bütün qohum-əqrəbasını, məsləhətçilərini saraydan və ölkədən qovdu. O, kasıb xalqı azadlığa çıxartdı.



**Kontsedaylo Ruslan, 11 yaş**
***Noqay nağılı «Kamır-Batır» – Nogay masalı «Kamır Batır»***

# Kamır Batır

Biri varmış, biri yokmuş, ihtiyar bir çoban varmış. Onun ne karısı, ne de bir çocuğu varmış. Uzun yıllar hana hizmet etmiş, onun binlerce koyununa çobanlık yapmıştı. Kendisinin ise hiçbir şeyi yokmuş.

Günlerden bir gün o, sabah erkenden kalkmış ve kiçik bir fıçıda hamur yoğurmuş. Sonra ise hanın koyunlarını otlatmaya götürmüş. Çoban eve çok geç dönmüş. Eve girince bir çocuk sesi duymuş. Odaya girmiş, bakmış ki, hamur yoğurduğu fıçının içinde bir çocuk var. İhtiyar çok sevinmiş. O, hemen çocuğu kucağına almış ve hanın yanına koşmuş.

Han:

– Yapacak bir şey yok. Onu koyunların südü ile besleyebilirsin. Bırakalım büyüsün, sana evlat, bana da işçi olur, demiş.

Böylece ihtiyar bir oğul sahibi olmuş. Çocuk çok çabuk büyümüş, kısa zamanda pehlivan gibi olmuş.

Onun adını Kamır Batır koymuşlar, bu hamurdan oluşmuş pehlivan anlamına geliyormuş.

Günlerden bir gün Kamır Batır hanın çocukları ile aşık oyunu oynuyormuş. Hanın çocukları ona yenilmiş, aşıkları ve altın tokmağı kaybetmişler. Ama asilzadeler altın tokmaktan ayrılmak istemiyorlarmış. Onu Kamır Batır'dan almak istemişler. Ancak bir pehlivanla başarmak mümkün mü?

Durum böyle olunca Kamır Batır onlara:

– Aşıkları ve altın tokmağı size bir şartla geri veririm. Sizin herbirinizin alnına bir fiske vuracağım, demiş.

Hanın oğulları teklifi kabul etmişler, Kamır Batır onların herbirinin alnına bir fiske vurmuş. O, fiskeyi öyle bir vurmuş ki, onların alnında bir delik oluşmuş.

Onlar babalarına gidip Kamır Batır'ı şikayet etmişler. Han hem çok öfkelenmiş, hem de çok korkmuş ve:

– Bu nasıl bir iştir? Çobanın oğlu bir haydut gibi büyüyecek, bizim hayatımızı zorlaştıracak. Ondan kurtulmalıyız, demiş.

Han Kamır Batır'ın tehlikelerinden kurtulmak için tüm ayanlarını başına toplamış. Onlar çok düşünmüşler, nihayet bir çare bulmuşlar ve:

– Onu kargılar olan susuz çöle gönderelim. Orada üç başlı ejderha yaşıyor. Bu güne kadar kimse ondan kurtulamamış, demişler.

Bu tavsiye hanın çok hoşuna gitmiş. O, ihtiyar çobanı yanına çağırtmış ve:

– Oğluna söyle, kendisiyle üç araba götürüp çöle gitsin ve kargı kesip getirsin, demiş.

Üç araba hazırlanmış ve Kamır Batır kargı getirmek için çöle doğru yola koyulmuş. O, gelip söylenilen yere ulaşmış ve üç araba kargı kesmiş toplamış. Tam yola çıkmak isterken kargıların arasından üç başlı ejderha çıkagelmiş. Kamır Batır ondan hiç korkmamış. O, koskoca ejderhayı arabaların arkasına bağlamış ve tüm kargıları da onun üstüne yüklemiş. Çıkmış yola ve ejderhayla birlikte gelip saraya girmiş. Han endişeye kapılmış.

Ejderha çok korkunçmuş. Ama han asıl Kamır Batır'dan korkmuş. Han ona ejderhayı ormana kovmasını, kendisinin de babasının yanına dönüp koyunları otlatmasını emretmiş. Kamır Batır babasının yanına dönmüş. O, sessiz sakin yaşıyor ve hanın koyunlarını otlatıyormuş. Han ise yine ayanlarını etrafına toplamış, Kamır Batır'dan kurtulmak için başka çare arıyorlarmış. Onlar çok düşünmüşler ve sonunda Kamır Batır'ı yılanlar yaşayan ormana göndermeye karar vermişler. O, ormandan şimdiye kadar hiç kimse sağ salim geri dönmemiştir. Han yine ihtiyar çobanı saraya çağırtmış ve:

– Oğlunu ormana gönder, gidip odun getirsin, demiş.

İhtiyar çoban Kamır Batır'ı yola çıkmak için hazırlamış. Yine üç arabayla ormana göndermiş.

Kamır Batır ormana gitmiş, bir hayli odun kesmiş ve onları arabalara yüklemiş. O, ormandan çıkmak isterken bakmış ki, her taraftan ona doğru yılanlar sürünüyor. Kamır Batır yılanlardan hiç korkmamış. Aksine yılanları görünce çok sevinmiş. Çünkü ormana gelirken yanına ip almayı unutmuştu. O, yılanları yakalayıp odunları bağlamış ve eve doğru yola çıkmış. Saraya varmış, han arabalardakı yılanları görünce korkudan titremeye başlamış. Ama Kamır Batır onun için daha korkunç bir düşmanmış. Han ihtiyar çobana emretmiş:

– Oğluna söyle yılanları buradan kovsun, gözüm görmesin onları, demiş.

Kamır Batır yılanları arabalardan ve odunlardan açıp bırakmış. Yılanlar canlarını zor kurtarmış ve hemen ormana doğru yönelmişler. Kamır Batır ise babası ile hanın koyunlarını otlatmaya gitmiş.

Han üçüncü kez ayanlarını etrafına toplamış ve düşünmeye başlamışlar. Onlar bir kuyu kazıp çobanın oğlunu kuyuya atmaya karar vermişler.

Gizlice çölde derin bir kuyu kazmışlar. Han, sanki gezmeye gidiyorlarmış gibi ayanlarını başına toplamış ve kuyunun ka-

zıldığı yere gitmişler. Onlar kuyunun yanında kamp kurmuşlar. Han önceden kuyunun üstüne ve etrafına pahalı halılar döşenmesini emretmiş. Sonra o, yerine oturmuş ve herkese çeşitli yemekler ikram edilmesini söylemiş.

Uşaklar gelenlere hizmet gösteriyor, kızarmış kuzu eti ikram ediyorlarmış. Han Kamır Batırı da yanında getirmişti. Han onun bir kenarda durup beklediğini görünce:

– Sen neden hizmet etmiyorsun? Sen de misafirlere bir şeyler ikram et, demiş.

Kamır Batır bir tepsi almış ve misafirlere yemeklerden ikram etmeye başlamış. Hizmetlilere halıların üzerinden hareket etmeye izin vermiyorlarmış.

Kamır Batır da halıların üzeri ile değil, kenarı ile hareket ediyormuş. Han bunu görünce:

– Sen neden halıların kenarı ile hareket ediyorsun? Halıların üzerinden yürü! demiş.

Kamır Batır ayağını halının üzerine koymasıyla birlikte kuyuya düşmüş. Han hemen kalkmış ve ayanlarını da toplayıp saraya geri dönmüşler.

Kamır Batır ise kuyuda kalmış.

Han artık Kamır Batır'dan kurtulduğunu düşünerek çok sevinmiş.

Uşaklar ihtiyar çobana, hanın onun oğlunu kuyuya attığını ve kimsenin ona yardım etmeyeceğini, yardım edenin boynunun vurulucağını emrettiğini söylemişler.

İhtiyar çoban hanın emrine rağmen oğlunun hayatını kurtarmaya karar vermiş. O, sürüyü her gün kuyunun yanına götürüyor ve kuyudakı oğluna yemek veriyormuş. Akşamlar sürüyü geri getirdiğinde ise kuyuya dal ve sırık atıyor, Kamır Batır ise onlardan merdiven yapıyormuş.

Böylece Kamır Batır kuyudan çıkmış, hanın yanına gelmiş ve ona:

– Han, sen kurnazca yaptığın oyunlarla bana hiçbir şey yapamadın. Şimdi sıra bende. Yaptıkların cezasız kalmayacak, demiş.

Sonra hanın alnına bir fiske vurmuş ve han ölmüş. Kamır Batır hanın oğullarını, akrabalarını ve ayanlarını saraydan ve ülkeden kovmuş. Ve böylece fakir halkı özgürlüğüne kavuşturmuş.

# Qurd

Qoca ac qurd bir gün yol ilə gedirdi və o, bir ulağa rast gəldi. Qurd dedi:

– Ulaq, ay ulaq, mən səni yeyəcəyəm. Mən səni yeyəcəyəm.

– Eybi yoxdur, ye, – deyə ulaq cavab verdi. – Amma yeməyi əvvəl başdan yox, arxadan başla. Arxadakı ət daha ləzzətli olur.

Qurd ulağın arxasına keçdi. Ulaq ona elə şıllaq atdı ki, qurdun bütün dişləri töküldü.

Qurd yoluna davam etdi və o, keçiyə rast gəldi. O dedi:

– Keçi, ay keçi, mən səni yeyəcəyəm. Mən səni yeyəcəyəm.

– Yaxşı, ye, – deyə keçi razılaşdı, – qoy əvvəl mən gedim, çəpişlərimi yemləyim.

Qurd onu buraxdı, keçi qaçdı və bir daha qayıtmadı.

Qurd yenə də yoluna davam etdi. Onun qarşısına qoyun çıxdı. Qurd dedi:

– Qoyun, ay qoyun, mən səni yeyəcəyəm.

– Yaxşı, – deyə qoyun cavab verdi, – ancaq gözlə, mən gedim quzularımı əmizdirim.

Qoyun getdi, o da geri qayıtmadı.

Qurd yenə irəlilədi və dəvəyə rast gəldi.

Qurd dedi: – Dəvə, ay dəvə, mən səni yeyəcəyəm.

– Yaxşı, etirazım yoxdur. Gəl otur üstümdə və məni ye, – deyə dəvə təklif etdi.

«Hə, bunu əldən buraxa bilmərəm» – deyə qurd fikirləşdi və dəvənin üstünə çıxdı.

Dəvə qaçmağa başladı. Qurd qorxdu və istədi ki, dəvəni dişləsin, lakin onun dişi yox idi. Dəvə bazara gəldi. Adamlar qurdu görüb, onu dəvənin üstündən aşırdılar və döyməyə başladılar. Qurd güclə adamların əlindən qurtardı. O, hündür körpüyə gəlib çatdı və burada gizləndi. Lakin onun quyruğu bayırda qaldığından adamlar onu kəsdilər. Qorxudan qurd körpüdən aşdı və o, çaydakı iri qayalara dəyərək parçalandı.



**Karatekin Sofiya, 9 yaş**
*Kumık nağılı «Qurd» – Kumuk masalı «Kurt»*

# Kurt

Günlerden bir gün yaşlı aç kurt kırlarda dolaşırken bir eşeğe rastlamış.

Kurt:

– Hey, eşek, ben seni yiyeceğim, demiş.

Eşek:

– Hiçbir sakıncası yok, beni yiyebilirsin. Ama beni yerken ön tarafımdan değil, arka tarafımdan başla. Çünkü arkamdaki et daha lezzetlidir, demiş.

Kurt eşeğin arkasına geçmiş. Eşek ona öyle bir tekme atmış ki, kurdun bütün dişleri kırılıp dökülmüş.

Kurt tekrar yola koyulmuş. O, yolda bir keçiye rastlamış.

Kurt:

– Hey, keçi kardeş, ben seni yiyeceğim, demiş.

Keçi:

– Tamam, ye! Ama izin ver ben önce gidip yavrularımı doyurayım, demiş.

Kurt onu bırakmış, keçi kaçmış ve geri dönmemiş.

Kurt yine yoluna devam etmiş. Bu kez o, bir koyunla karşılaşmış.

Kurt:

– Koyun, hey, koyun kardeş, ben seni yiyeceğim, demiş.

Koyun:

– Tamam, olur. Ancak bekle, ben önce gidip kuzularımı emzireyim, demiş.

Koyun da gitmiş ve geri dönmemiş.

Kurt yine yollara düşmüş. Bir hayli gittikten sonra bir deve ile karşılaşmış.

Kurt:

– Deve kardeş, ben seni yiyeceğim, demiş.

Deve:

– Peki, itirazım yok. Gel otur sırtıma ve beni ye, demiş.

Kurt; «Evet, artık bu fırsatı kaçıramam» diye düşünmüş ve devenin sırtına binmiş.

Kurt devenin sırtına binince deve koşmaya başlamış. Kurt çok korkmuş ve deveni ısırmak istemiş, ama onun dişleri yokmuş. Deve gelmiş pazarda durmuş. İnsanlar kurdu görünce onu devenin sırtın-

dan indirip vurmaya başlamışlar. Kurt çok zor olsa da insanların elinden bir şekilde kurtulup kaçmış. Sonra yüksek bir köprünün üstüne gelip orada saklanmış. Ama onun kuyruğu dışarıda kaldığından insanlar onu kesmişler. Can havli ile kurt kendisini köprüden aşağı atmış. O, ırmaktaki büyük kayalara çarparak parçalanmış ve ölmüş.

# Çarıs

Bu əhvalat lap çoxdan olmuşdur. Gen dünyada Çarıs adında tənha bir gənc yaşayırdı. Günlərin bir günü onun evinə yaxın olan göldə üç balıqçı balıq tuturdu. Onların üçü tək bircə durnabalığı tutmuşdu. Çarıs isə onlara yaxın yerdə qoyun otarırdı. Üç balıqçı tutduqları durnabalığını gətirib gənc Çarısa dedilər:

– Durnabalığına qoyunu dəyişməzsən ki?

Çarıs cavab verdi:

– Bircə dördayaqlı heyvanım var, bəs ondan necə ayrılım?

O fikirləşdi, fikirləşdi və axır ki, dəyişməyə razılıq verdi. Balıqçılar onun qoyununu alıb apardılar. Çarıs durnabalığını kisəyə salıb dağa tərəf yol aldı. Yolda hələ diri qalan durnabalığı kisəni deşib yerə atıldı. Çarıs daşla onun başından vurub yenidən kisəyə saldı. Durnabalığı yenə də kisəni bir anda deşib yerə atıldı. Gənc yenə daşla durnabalığının başından vurub kisəyə saldı və kisənin ağzını da bağladı. Öz evinə çatanda durnabalığı yenə də kisədən atılıb çıxdı. Çarıs hirslənib onu gölə tulladı. Özü isə evinə gedib uzanıb yatdı.

Səhər tezdən onu yad bir adam oyatdı.

– Tez ol qalx, Su ağası səni yanına çağırır.

Onlar Çarısın durnabalığını atdığı gölün sahilinə gəldilər.

Çarıs soruşdu:

– Mən suyun dibinə necə düşəcəyəm?

Yad adam ona dedi:

– Sən mənim belimə min, suya bir yerdə baş vuracağıq.

Çarıs onun belinə minən kimi yad adam suya atıldı. Onlar tezliklə suyun dibinə endilər. Çarıs hətta islanmağa belə macal tapmadı. Gölün dibi yer üzü kimi günəşli idi, getdikcə elə bil işıqlı dünyaya səyahət edirdilər.

Bələdçi Çarısa dedi:

– Dünən Su ağasının oğlu göldə üzürmüş, gedib balıqçı toruna düşüb və onu sahilə atıblar. Sən onu gölə atıb, canını qurtarmısan.

Çarısın yadına dünənki durnabalığı düşdü və o, hər şeyi anladı.

– Su ağası səndən çox razıdır, səni ona görə yanına çağırıb ki, bunun əvəzini qaytarsın. O, sənə qiymətli daş-qaş və qızıl tək-

lif edəcək, sən bundan imtina et. Ağalığın itini bəxşiş verməsini ondan xahiş elə, o, sənə çox xeyir gətirəcək.

Yad adam Çarısı beləcə öyrətdi.

Onlar Su ağasının məskəninə çatdılar. Su ağası onun qarşısına çıxdı. Çarısın əlindən tutub öz mənzilinə apararaq əyləşdirdi. Su ağasının oğlu isə başı sarıqlı sobanın yanında uzanmışdı. Çarıs dünən durnabalığının başına daşla vurduğunu yadına salanda qorxdu və fikirləşdi ki, Su ağası oğluna görə onu cəzalandıracaq. Amma Su ağası onun qabağına qiymətli daş-qaşları tökdü, qızıl və gümüş külçələrini qarşısına düzüb dedi:

– Özünə bu daş-qaşlardan ən yaxşısını seç, bu külçələrdən də nə qədər ürəyin istəyir götür.

Çarıs qiymətli daş-qaşlardan imtina elədi. Su ağası onun qabağına qızıl pullar töküb dedi ki, apara biləcəyin qədər götür.

Çarıs qızıl pullardan da imtina elədi. Su ağasına dedi:

– Əgər mənə bəxşiş vermək istəyirsənsə, onda yaxşısı budur öz itini mənə ver, yer üzündə o, mənim dostum olacaq.

Su ağası əvvəlcə onun sözlərinə güldü, sonra acı göz yaşları axıtdı, iti əlləri üstündə gətirəndə daha bərkdən hönkürdü. Buna baxmayaraq, iti ona verdi. Çarısa dəbdəbəli ziyafət verərək onu yer üzünə buraxdı. Onu yer üzünə çıxarmaq üçün əvvəlki elçini yanına çağırdı.

– Oğlumun xilaskarı olan bu qonağı evinəcən ötürərsən. Onu yuxarıya elə qaldır ki, başında bir tükü də islanmasın.

Çarıs iti də götürüb bələdçinin belinə mindi, bir göz qırpımında sahilə elə çıxdı ki, nə onun, nə itin bircə tükü də islanmadı.

O, axşam iti özünün yemək yediyi qabda yedizdirdi və öz yanında yatızdırdı. Səhər yerindən qalxanda gözlərinə inanmadı, onun taxta fincanı qızıla çevrilmiş, incə naxışlarla bəzədilmişdi. Axşam özünə və itə yemək hazırladı, bir qabda yedilər, iti ayaqları yanında yatızdırdı. Səhər gördü ki, evindəki bütün əşyalar qızıla və gümüşə çevrilib.

Növbəti gecə yatarkən iti qoynuna aldı, sinəsi ilə onu isitdi. Dan yeri sökülləndə yuxudan ayıldı, gördü ki, it qoynunda yoxdur. Bu vaxt qulağına səs gəldi ki, ocaqda nəsə çırtıldayır, qab-qacaqlar cingildəyir. Çarıs gözlərini açıb gördü ki, ocağın yanında misqızılı rəngdə parlaq saçlı gözəl bir qız oturub. O, qaçıb qızı qucaqladı. Qız ona dedi:

Su ağasının oğlu bura gələcək, məni əldə etmək üçün səninlə mübahisəyə başlayacaq.

Doğrudan da, həmin günün səhəri Su ağasının oğlu gəlib Çarısın mənzilinə baxdı və atasının yanına qayıtdı. Dedi:

– Mənim adaxlımı o tənha cavana niyə vermisən? Əgər qızı mənə qaytarmasan, mən sənə daha ata deməyəcəm.

Su ağası dedi:

– Get Çarısın yanına, onunla gizlənqaç oyna, kim kimi aldatsa, qız da ona çatacaq.

Su ağasının oğlu Çarısın evinə gəlib, onu gizlənqaç oynamağa çağırdı.

Çarıs ona dedi:

– Əgər gizlənqaç oynamaq istəyirsənsə, birinci sən gizlənəcəksən, mən də səni tapacağam.

Su ağasının oğlu qaçıb gizləndi. Çarıs isə öz evində qaldı. Qız ona dedi:

– Sən onu tapmağa niyə getmirsən ki?

– Sən onu hardan tapa biləcəyimi mənə deməzsən ki?

– Gölün sahili boyunca gedəndə orada mal-qara üçün pəyə görəcəksən, onun içinə girərsən. İçəridə üç qoç yatır. Onlar səni görəndə ayı kimi üstünə atılacaqlar, sən onlardan qorxma. Onların arasında buruq və haçabuynuzlu bir qoç var. Sən onun buynuzlarından yapışıb boynunu burarsan, ondan insan səsi çıxacaq, o elə həmin Su ağasının oğludur.

Çarıs pəyəyə girdi, qızın öyrətdiyi kimi elədi. Qoçun boynunu burdu, o isə Su ağasının oğlunun səsi ilə yalvarmağa başladı:

– Vay, ağrıdır, ay mənim boynum!

Çarıs tez evinə qayıdıb qızdan soruşdu ki, bəs o özü harda gizlənsin? Qız oturub misqızılı rəngli saçlarını darayırdı. Çarısı öz darağına çevirdi. Su ağasının oğlu qaçaraq gəlib masanın arxasında oturdu, qoynundan böyük bir kitab çıxarıb oxumağa başladı. Yer üzündə bitən bütün köklər, çayın sahilində və dibində olan çınqıl daşlar, səmadakı bütün ulduzlar haqqında oxudu. O, kitabı axıracan oxusa da, amma kitab Çarısın harada gizləndiyi barədə ona heç nə vermədi. Su ağasının oğlu kitabı örtəndə qız darağı əlindən yerə saldı. Çarıs yerdən qalxıb qışqırdı:

– Mən burdayam!

Su ağasının oğlu yenə gizlənməyə getdi, Çarıs isə qızın yanında qaldı. Qız onu öyrətməyə başladı:

– İndi çöllüklə gedərkən öküz sürüsü ilə üz-üzə gələcəksən. Sürü uzaqdan səni görən kimi böyürüb üstünə gələcək, amma sən onlardan qorxma. Öküzlər böyürtü ilə gəlib səni araya alacaqlar, qorxub eləmə. Sürünün içində buynuzları ox kimi sivri olan ən yekə bir öküz görəcəksən. Cəsarətlə onun buynuzlarından yapışıb boynunu burarsan, o, səndən imdad diləyəcək.

Qız ona necə demişdisə, Çarıs da o cür elədi, Su ağasının oğlunu tapıb öz evinə qayıtdı. Qız paltar tikməklə məşğul idi. Su ağasının oğlu onun evinə sarı qaçıb gələndə qız Çarısı oymağa çevirdi və oymağı da barmağına keçirdi.

Su ağasının oğlu yenə kitab açıb oxumağa başladı. Yer üzündə bitən bütün ağacların, suda üzən balıqların, Tayqada yaşayan quş və vəhşi heyvan adlarını oxudu, lakin heç yerdə Çarısı tapa bilmədi. O, ümidini itirib qəzəblə bağırdı:

– Ortaya çıxsana!

Qız oymağı döşəməyə saldı. Çarıs yerindən atılıb dedi:

– Mən burdayam.

Su ağasının oğlu üçüncü dəfə gizləndi. Qız Çarısa dedi:

– Dəniz sahili ilə gedərsən, orada iri daşlar görəcəksən. Onların arxasında yerə çınqıllar səpələnib. O çınqıllıqda çoxlu quş gəzir, onların arasında qızıl pipikli bir quş görəcəksən. Bütün gücünü toplayıb o quşu tutarsan, onun boynunu yavaşca burarsan, onda o quş adam səsi çıxaracaq.

Çarıs üçüncü dəfə də Su ağasının oğlunu axtarıb tapdı. O gələndə isə qız Çarısı iynəyə çevirdi.

Su ağasının oğlu masa arxasında oturub yenə kitab açdı, uzun-uzadı oxudu, amma Çarısı tapa bilmədi, ağlamsınaraq qışqırdı:

– Ortaya çıxsana!

Qız iynəni yavaşca döşəməyə saldı. Çarıs döşəmədən atılıb durdu və dedi:

– Mən burdayam!

Su ağasının oğlu evlərinə əliboş yollandı. Qız Çarısa dedi:

– O, bir də buralara dönməyəcək. Mənə yetişməyə cəsarəti çatmaz, o, daha səndən qorxur. Çarıs, sağ ol ki, məni əsirlikdən qurtardın. İndi mən sənə vəfalı dost olacağam.

Onlar xeyli vaxt bir yerdə mehribancasına yaşadılar. Çarıs xoşbəxt olduğu üçün çox sevinirdi.



**Rzazadə Fidan, 14 yaş**
*Şor nağılı «Çarıs» – Şor masalı «Çarıs»*

# Çarıs

Çok eskiden bir yerlerde Çarıs adlı kimsesiz bir çocuk yaşıyormış. Günlerden bir gün onun evinin bulunduğu yerdeki göle üç adam balık avlamaya gelmiş ve üçü sadece bir tane turna balığı avlamışlar. Çarıs ise onlara yakın bir yerlerde koyun otlatıyormuş. Onlar avladıkları balığı satmak için genç Çarıs'ın yanına gelmişler ve ona:

–Turna balığıyla koyunu değişir misin? diye sormuşlar.

Çarıs:

– Benim bu koyundan başka hiçbir şeyim yoktur, onu nasıl vereyim size, demiş.

Biraz düşünmüş, taşınmış, sonunda koyunu balıkla değiştirmeye karar vermiş. Koyunu vermiş, balığı almış. Çarıs balığı bir çuvala koymuş, dağdaki çadırına götürmek için yola koyulmuş. Balık henüz ölmediği için çuvalı yırtmış, yere düşmüş. Çarıs balığı çuvala geri koymuş. Balık tekrar çuvaldan yere düşmüş. Çarıs bu kez sinirlenmiş, bir taş alıp balığa vurmuş ve onu tekrar çuvala koymuş. Evine ulaşmak üzereyken balık yine çuvalı yırtıp, yere düşmüş. Bu kez Çarıs çok öfkelenmiş ve balığı almış göle fırlatmış. Sonra evine gelmiş ve yatıp uyumuş.

Ertesi sabah onun kapısına tanımadığı bir adam gelmiş ve:

– Hemen kalk gidelim. Suyun sahibi seni çağırıyor.

Onlar Çarıs'ın turna balığını attığı gölün sahiline gelmişler.

Çarış:

– Ben suya nasıl gireceğim? demiş.

Adam ona:

– Sen benim sırtıma bin, suya birlikte dalacağız, demiş.

Adam çocuğu sırtına almış, suya dalmış. Onlar bir an içinde suyun dibine inmişler, Çarıs hiç ıslanmamış bile. Gölün dibi yer yüzü gibi güneşli imiş, sanki aydınlık dünyada gezintiye çıkmış gibi dolaşıyorlarmış.

Adam Çarıs'a:

– Dün suyun sahibi'nin oğlu suda yüzerken, insanların balık ağına takılmış, kıyıya çıkartılmış. Sonra sen onun hayatını kurtar-

mışsın. Suyun sahibi seni bu yüzden çağırıyor, demiş:

Hemen Çarıs'ın aklına dünkü turna balığı gelmiş ve her şeyi anlamış.

Adam Çarıs'a:

–Suyun sahibi onun oğlunun hayatını kurtardığın için çok memnun ve bunun karşılığını ödemek için seni yanına çağırıyor. O sana altınlar, para pul teklif edecek, ama sen bunların hiçbirini kabul etme, onun bir köpeği var, onu sana hediye etmesini rica et, o köpek çok değerlidir, demiş.

Adam bunları söyledikten sonra gelip suyun sahibinin mekanına varmışlar. Onları suyun sahibi karşılamış. Suyun sahibi Çarıs'ı odasına götürmüş ve baş köşeye oturtmuş. Çarıs bakmış ki, suyun sahibinin oğlu da sobanın yanında oturmuş. Suyun sahibi Çarıs`ın önüne altınlar, para pul ne varsa sermiş ve:

– Bunlardan istediğini alabilirsin, sana istediğin her şeyi verebilirim, demiş.

Çarıs hiçbir şey kabul etmemiş ve suyun sahibine:

– Eğer bana hediye vermek istiyorsan köpeğini hediye et, benim kimsem yok, o bana arkadaş olur, demiş.

Suyun sahibi önce onun sözlerine gülmüş, sonra göz yaşları dökmüş. Ama yapacak bir şey yokmuş, ağlayarak köpeği ona vermiş. Sonra Çarıs'ı güzel bir şekilde ağırlamış ve onu yer yüzüne götürmek için adamını çağırmış:

– Oğlumun hayatını kurtaran bu çocuğa evine kadar eşlik et. Onu yukarıya öyle çıkar ki, saçının bir teli bile ıslanmasın, demiş.

Çarıs köpeği almış ve onu buraya getiren adamın sırtına binmiş. Adam onları sudan çıkarmış ve evine kadar eşlik etmiş.

Akşam Çarıs yiyecek hazırlamış. Köpeğe de kendinin yediği yemekten yedirmiş, yanında yatırmış. Sabah uyandığında gözlerine inanamamış. Evdeki tabak, çatal, kaşık her şey altın ve gümüşe dönüşmüştü. İkinci gece yine yemek yapmış ve köpekle aynı tabakta yemişler, sonra da köpeği ayaklarının ucuna yatırmış. Sabah uyandığında çadırının ve tüm eşyalarının altına ve gümüşe dönüştüğünü görmüş. Üçüncü gece uyurken köpeği koynuna almış ve göğsünde onu ısıtmış. Sabah uyandığında bakmış ki, köpek yok. O anda bir çatırtı duymuş. Bir bakmış sobanın önünde güzeller güzeli bir kız oturmuş. Çarıs hemen yerinden fırlayıp kıza sarılmış. Güzel kız, Çarıs'a:

– Yarın suyun sahibinin oğlu buraya gelecek, beni almak için elinden ne geliyorsa yapacak, demiş.

Ertesi gün gerçekten de suyun sahibinin oğlu gelmiş. O, çadır içindeki altın, gümüş eşyalan ve güzel kızı görünce hemen geri dönüp babasının huzuruna çıkmış:

– Benim nişanlımı o kimsesiz çocuğa neden verdin? Eğer kızı bana geri getirmezsen bir daha sana baba demeyeceğim, demiş.

Babası:

– Git Çarıs'ın yanına, onunla saklambaç oyna. Hanginiz yenerse kız onun olacak, demiş.

Suyun sahibinin oğlu Çarıs'ın evine gelmiş ve ona:

– Haydi, ikimiz saklambaç oynayalım ve yarışalım, hangimiz kazanırsak kız onun olsun, demiş.

Çarıs kabul etmiş ve:

– Oynamayı sen istedin. O yüzden de önce sen saklan, demiş.

Suyun sahibinin oğlu saklanmak için gitmiş. Çarıs ise kendi çadırında beklemeye başlamış. Güzel kız, ona:

– Sen neden onu aramaya gitmiyorsun? demiş.

Çarıs kıza:

– Sen onu bulmak için bana yardım eder misin? diye sormuş.

Kız:

– Dere boyu ilerle, orada bir ağıl var, oraya gir. Orada üç tane koyun yatıyor. Onlar seni görünce kalkıp ayı gibi sana saldıracaklar. Ama sen korkma. Onların içinde boynuzlu bir koç var. Sen onun boynuzundan sıkıca tut ve boynunu bük. O insan gibi «Boynum, boynum!», diye bağıracak. İşte o suyun sahibi'nin oğludur, demiş.

Çarıs dere kenarına gelmiş kızın söylediği gibi yapmış, suyun sahibinin oğlunu bulmuş ve koşarak evine dönmüiş. Şimdi de sıra Çarıs'a gelmiş. Çarıs nereye saklanacağını bilememiş. Kıza nereye saklanacağını sormuş. O sırada kız altın renkli saçlarını tarıyormuş. Çarıs'ı tarağa dönüştürmüş. Suyun sahibinin oğlu koşarak çadıra girmiş, ancak çocuğu görememiş. Çünkü güzel kız o anda Çarıs'ı tarağa dönüştürmüş, onunla saçlarını tarıyormuş.

Suyun sahibinin oğlu hemen masanın başına oturmuş, her şeyden haber veren esrarengiz kitabını koynundan çıkarıp okumaya başlamış. Dünyadaki bitki, ot çeşitleriyle ilgili her şeyi okumuş, sularla ilgili, su balıklarıyla ilgili bilgilere bakmış, gök yüzündeki yıldızlarla ilgili her şeye bakmış. Ancak Çarıs'ın nerede saklandığı ile ilgili hiçbir bilgi bulamamış. Tam bu sırada güzel kız yavaşça tarağı elinden yere düşürmüş. Çarıs, «Ben buradayım», diye yerden kalkmış. Şimdi de sıra su sahibinin oğluna gelmiş. O ikinci kez saklanmak için gitmiş. Güzel kız yine Çarıs'a:

– Dışarı çıkıp kırlara doğru yürürsen karşına öküzler çıkar. O öküzler seni görünce böğürerek üzerine koşacaklar, ama sen korkma. Onlar böğürerek sana yaklaşıp etrafını saracaklar, sakın korkma. Onların arasında boynuzları ok gibi sivri olan bir öküz göreceksin. Cesur ol ve onun boynuzlarından yakalayıp boynunu bük. O zaman o senden yardım dileyecek. İşte o suyun sahibinin oğludur.

Çarıs kız nasıl söylediyse öyle yapmış ve suyun sahibinin oğlunu bulup evine dönmüş. Kız da o sırada elbise dikiyormuş. Kız bakmış ki, suyun sahibinin oğlu geliyor hemen Çarıs'ı yüksüğe dönüştürmüş ve yüksüğü de parmağına takmış.

Suyun sahibinin oğlu yine kitap açıp okumaya başlamış. Yer yüzündeki tüm ağaçların, suda yüzen balıkların, ormanlarda yaşayan kuş ve vahşi hayvanların adlarını okumuş, ama hiçbir yerde Çarıs'ın adını bulamamış. O çok öfkelenmiş ve bağırarak:

− Nerdesin, ortaya çıksana? demiş.

Kız yüksüğü parmağından çıkarıp döşemeye atmış ve Çarıs yerinden fırlayıp:

− Ben burdayım, demiş.

Suyun sahibinin oğlu üçüncü kez saklanmak için gitmiş. Kız Çarıs'a:

− Deniz sahili ile git, orada kocaman taşlar göreceksin. Onların hemen arkasında yerlere çakıl taşları saçılmış. Çakıl taşlarının üzerinde dolaşan kuşlar göreceksin. O kuşların arasında altın ibikli bir kuş var. Ne yap, ne et o kuşu yakala ve hafiften boynunu bük. O zaman kuş insan gibi konuşacak ve sen de suyun sahibinin oğlunu bulmuş olacaksın.

Evet, yine Çarıs kızın söylediklerini harfiyen yapmış ve üçüncü kez suyun sahibinin oğlunu bulmuş ve evine dönmüş. Suyun sahibinin oğlu gelmeden kız bu kez Çarıs'ı iğneye dönüştürmüş.

Suyun sahibinin oğlu gelmiş, masaya oturmuş ve kitabını açmış uzun uzun okumuş. Yer yüzündeki tüm insanların adlarını tek tek okumuş, yer yüzünde ve yer altındaki her şeyle ilgili tüm bilgilere bakmış, ama Çarıs'ı bulamamış. Ağlayarak bağırmış:

− Nerdeysen, ortaya çık? demiş.

Yine kız usulca iğneyi döşemeye bırakmış. Çarıs döşemeden fırlayıp kalkmış ve:

− Ben burdayım! demiş.

Sonunda suyun sahibinin oğlu eli boş evine dönmüş. Kız ise Çarıs'a:

− O, bir daha buraya geri dönmeyecek. O, benimle baş edemez. Cesareti yetmez. O, artık senden korkuyor. Çarıs, beni esaretten kurtardığın için sana çok teşekkür ederim, minnettarım. Bundan böyle ben de sana sadık bir arkadaş olacağım, demiş.

Onlar uzun bir süre birlikte çok güzel bir hayat yaşamışlar. Çarıs, böyle güzel bir hayatı olduğu için çok mutluymuş...

# Sağsağan, tülkü və çəyirtkə

Biri vardı, biri yoxdu, ölkələrin birində ətrafı dik yamaclı uca dağlarla əhatə olunmuş, dümağ sahili olan bir süd gölü vardı. Bu gölün sahilində böyük bir ağac var idi. Ağacın başında beli ağ bir sağsağan yuva qurmuşdu. Sağsağan yuvada yeddi dənə yumurta yumurtlamış və yeddi bala çıxarmışdı. Sağsağan ata sağsağanla birlikdə balalarını çox yaxşı bəsləyirdi. Soyuq gecələrdə üşüməsinlər deyə balalarını qanadlarının altına alırdı. Balalar analarının gətirdiyi yemdən, sudan doyunca yeyib-içirdilər. Yeddi bala gündən-günə böyüyürdü. Artıq onlar yuvaya sığmırdılar. Bunu görən ana və ata sağsağan çox sevinir və deyirdi:

– Bir müddət sonra balalarımızın qanadları güclənəcək, onlar günəşin və ayın altında sevinclə uçub oynayacaqlar.

Günlərin bir günü bu süd gölünün sahilinə hiyləgər bir tülkü gəldi. Tülkü böyük ağacın altından keçəndə balaların ciyiltisini eşitdi. Tamahkar tülkü qulaqlarını şəkləyib ağacın başına doğru baxdı. Gözləri xain parladı. Çünki tülkü budaqların arasındakı yuvanı görmüşdü.

Tülkü sağsağanın balalarından birini yeyə bilmək üçün ağacın ətrafında altı dəfə fırlandı. Ağaca dırmaşmaq istədi, ancaq ağac çox hündür idi. Ağacın ətrafındakı otlaqda bir az gəzdi və fikirləşdi ki, necə etsin ki, sağsağanın balalarını tutub yesin? Sonra ağlına bir fikir gəldi. Gözlərini bərəltdi, azı dişlərini qıcadı. Gəlib soyuqqanlı bir şəkildə sağsağana baxdı və belə dedi:

– Axmaq sağsağan, balalarından birini aşağı at! Əgər atmasan, ağ otlağına od vuraram, süd gölünü qurudana qədər içərəm, ağacını yıxıb balaca balalarının hamısını yeyərəm!

Vəziyyəti belə görən ana və ata sağsağan qanadlarını çırpıb ağlamağa başladılar. Sağsağanlar tamahkar tülküdən qorxub balalarından birini ağacın dibinə atdılar. Tamahkar tülkü bala yerə düşməmiş göydəcə onu tutub ağacların arasında gözdən itdi.

Ana sağsağan dedi:

– Tülkü səhər yenə gəlib balalarımızdan birini də istəsə, nə edəcəyik? Bunun axırı necə olacaq? Buna bir əlac tapmalıyıq.

İki sağsağan da oturub ağladı, onların göz yaşları ağacın yarpaqlarından süzülüb yerə damladı. Birdən sağsağanlar daşların arasındakı otların xışıldadığını eşitdilər. Elə fikirləşdilər ki, gələn tülküdür və zarıyıb ağlamağa başladılar. Elə bu vaxt daşların arasından çəp gözlü bir çəyirtkə çıxdı. Sağsağanların iniltilərini eşidib onlara yazığı gəldi və dedi:

– Yeddi bala bəsləyən gözəl sağsağanlar! Nə oldu? Niyə ağlayırsınız?

Göz yaşları sel kimi axan sağsağanlar səmimi bir səslə ağlaya-ağlaya dedilər:

– Ah, çəyirtkə qardaş! Tamahkar tülkü gözəl yuvamızı tapdı, balalarımızı gördü. «Əgər balalarınızdan birini mənə verməsəniz, ağ otlağınıza od vurararm, süd gölünüzü qurudana qədər içərəm, ağacınızı yıxıb balalarınızın hamısını yeyərəm» – deyib bizi qorxutdu və balamızın birini aldı. Yenə gəlib birini də istəsə, biz nə edəcəyik? Və beləcə bir-bir balalarımızın hamısını aparsa, biz bu əzaba necə dözərik?

Boz çəyirtkə bu sözləri eşidincə başını yellətdi, kədərli-kədərli oxudu və sağsağanlara baxıb dedi:

– Ey sağsağanlar, dünyanın ən yalançı, ən tamahkar heyvanı olan tülkünün sözünə necə inandınız? Min bir əziyyətlə böyütdüyünüz balanızı ona necə verdiniz? Tülkü yenə gəlib, «ağ otlağınıza od vuraram» desə, «vur» deyin, «süd gölünüzü qurudana qədər içərəm» desə, «iç» deyin, «ağacınızı yıxaram» desə, «yıx» deyin.

Çəyirtkə bunları deyib boz daşların arasında gözdən itdi.

Səhər oldu, günəş uca dağların arxasından çıxdı, süd gölünün dumanı çəkildi və tamahkar tülkü azı dişlərini qıcayaraq yenə sağsağanların ağacının altına gəldi. Yenə əvvəl olduğu kimi sağsağanları qorxutdu. Ağ belli sağsağan balalarını qanadlarının altına aldı və dedi:

– Ağ otlağıma od vurursan, vur! Süd gölümü qurudana qədər içirsən, iç! Ağacımı yıxırsan, yıx! Başqa bir balamı artıq sənə verməyərəm, qoymaram onu yeyəsən.

Tülkü sağsağanın balasını ala bilməyəcəyini başa düşdü. Qanlı gözlərini bərəltdi və qəzəblə otlağa girdi. Bu qəzəblə meşəni altı dəfə dolandı, amma od tapa bilmədi. Süd gölünə gəlib suyunu içməyə başladı. Qarnı şişdi, amma gölün suyu qurtarmadı. Gölün suyunu içib qurtara bilməyəcəyni başa düşdü və əlacsız bir şəkildə yenə böyük ağacın altına gəldi. Başını yuxarı qaldırıb sağsağana dedi:

– Ey axmaq və ağılsız sağsağan, bu ağılı sənə kim verdi?

Artıq tülkünün onlara heç bir şey edə bilməyəcəyini görən sağsağan çox sevindi. Amma dilini də saxlaya bilmədi və dedi:

– Bizə bu ağılı qara daşların arasında gəzən boz çəyirtkə verdi.

Bunu eşidən tülkü dişlərini şaqqıldatdı, quyruğunu qaldırdı və qəzəblə dedi:

– Boşboğaz çəyirtkə, çoxbilmiş, dili uzun, gözü çəp çəyirtkə əlimdən qaça bilməyəcəksən. Dilinə sahib çıxmayan alçaq, səni tutub cəzanı verəcəyəm!

Tülkü çəyirtkənin izinə düşdü və daşların arasında onu axtarmağa başladı. Sonra tamahkar tülkü islanmış tüklərini qurudub, dişlərinin sızıltısı keçənə qədər bir az dincəldi. Dincəldikdən sonra qalxıb sıldırım bir qayanın qarşısına gəldi. Uzun otları əymədən, quru yarpaqları xışıldatmadan, balaca daşları qımıldatmadan, qara daşları aralayıb çəyirtkənin izini axtardı və nəhayət, çəyirtkənin yuvasını tapdı.

Çəyirtkə tülkünü görən kimi vızıldayaraq uçub yuvasına girdi. Tülkü deyinə-deyinə orada oturub çəyirtkənin yuvasından çıxmağını gözlədi və dedi:

– Yuvanı tapdım, indi görək nə edəcəksən?

Tam altı gün gözlədi. Çəyirtkə yuvasından çıxmadı. Ümidsiz bir şəkildə gözləyən tülkü acdı. Qalxıb getməyi fikirləşdi. Təbii ki, çəyirtkə də ac idi. Çəyirtkə «Artıq tülkü gedib» – deyə fikirləşdi və başını yuvasından çıxartdı. Amma tülkünün getmədiyini görüncə qorxub yenə yuvasına girdi. Ancaq səbri qalmamışdı. Yenə bir gözüylə gizlicə baxdı. Bunu görən tülkü gözlərini qıydı və ağzını açıb özünü mehriban göstərmək istədi. Quyruğunu ayaqlarının arasına qısıb uzandı və yumşaq bir səslə çəyirtkəni çağırıb dedi:

– Çəyirtkə, sən nə çox yatırsan? Səni gözləməkdən yuxum gəldi.

Sonra quyruğunun üstünə uzanıb ilan kimi qıvrıldı və çəyirtkənin gözünə baxaraq dedi:

– Sənin gözün necə də gözəlmiş. Qapqara, yaban gilası kimi! Amma, deyəsən, başın keçəldir?

Çəyirtkə başını yuvasından çıxarıb tülküyə göstərərək dedi:

– Mənim başım keçəl deyil!

Tülkü dedi:

– Onda, demək ki, heyvanlar mənə yalan deyib. Eşitdim ki, sənin belin də qırıqmış, doğrudu?

Çəyirtkə qəzəblə tüklərini qabardıb yuvasından çıxdı və belini tülküyə göstərib dedi:

– Mənim belim qırıq deyil!

Tülkü əsnədi və quyruğunu ayaqlarının arasına qısıb dedi:

– Hımm, demək, yenə mənə yalan deyiblər. Bir də deyirlər ki, sənin bir ayağın topalmış, yeriyə bilmirmişsən.

Çəyirtkə dəvə kimi böyürdü, ayağını durna kimi uzadaraq hoppanıb tülküyə göstərdi və dedi:

– Mənim ayağım topal deyil!

Tülkü dedi:

– Lap yaxşı, onda bir-iki addım at baxım, mən onda sənə inanaram.

Çəyirtkə yuvasından çıxdı, elə bir-iki addım atmışdı ki, tülkü onu tutdu. Onu azı dişlərinin arasına aldı və quyruğunu qısıb ağacların içinə qaçdı.

Çəyirtkə tülkünün ağzından necə xilas ola biləcəyini fikirləşərək tülküyə dedi:

–Tülkü qardaş, sən bu çöllərin qızılı rəngli tülküsüsən, yoxsa bu meşənin tamahkar tülküsü?

Tülkü cavab vermədi. Çəyirtkə isə öz-özünə deyirdi:

– Çöllərin tülküsü olsa, çəyirtkəni ağzında qabağa-dala fırladaraq yeyərdi. Meşənin tamahkar tülküsü olsa, çəyirtkəni tutan kimi yeyərdi.

Tülkü fikirləşdi və çöllərin qızılı rəngli tülküsü olmağı seçdi. Çəyirtkəni ağzında dala-qabağa fırlatmağa başladı. Elə bu vaxt çəyirtkə bir fürsət tapdı, tülkünün ağzından vızıldayaraq uçub bir daşın üstünə qondu, sonra da gizləndi. Tülkü onu yenidən tutmaq istədi, amma bacara bilmədi. Qəzəblə dişlərini şaqqıldatdı.

Tülkü bir daşın üstünə oturub çəyirtkənin çıxmağını gözlədi. Tülkü tam doqquz gün orda oturub gözlədi. Qızılı rəngli qabarıq tükləri düzləşdi. Gözləməkdən yoruldu, yavaşca qalxıb səndələyə-səndələyə meşəyə girdi və öz-özünə qəzəblənib dedi:

– Kaş onu tutan kimi yeyərdim.

Beləcə dik yamaclı uca dağlarla əhatə olunmuş, dümağ sahili olan, yuvarlaq süd gölünün sahilindəki ulu ağacın başında yuvası olan sağsağan ilə sıldırım qayanın altında, quru otlarla döşənmiş isti yuvasında yaşayan çəp gözlü çəyirtkə tülküyə qalib gəldilər. Sağsağanla çəyirtkə bu hadisə nəticəsində yaxşını da, pisi də gördülər və dost oldular. O gündən sonra bir-birini qorudular və xoşbəxt yaşadılar.



**Həsənova Fidan, 11 yaş**
*Altay nağılı «Sağsağan, tülkü və çəyirtkə» –*
*Altay masalı «Saksağan, Tilki və Çekirge»*

# Saksağan, Tilki ve Çekirge

Biri varmış biri yokmuş, ülkenin birinde yüce dağlarla çevrili, ak kıyılı, yusyuvarlak bir süt gölü varmış. Bu gölün kıyısındaki devasa bir ağacın başına ak belli bir saksağan yuva yapmış. Saksağan yuvanın içini güzelce ısıtmış, yedi yumurta yumurtlamış, yedi yavru çıkarmış. Saksağan eşiyle birlikte yavrularını özenle beslermiş. Yavruları soğuk gecelerde donmasın diye onları kanatlarının altına alırmış. Yavrular annelerinin getirdiği yiyeceklerden doyasıya yer, sudan kanasıya içermiş.

Yedi yavru günden güne büyüyormuş. Yuva artık onlara dar gelmeye başlamış. Bunu gören anne ve baba saksağan çok seviniyor:

– Yakında yavrularımızın kanatları güçlenir, onlar artık ayın, güneşin altında neşeyle uçabilir! diyorlarmış.

Günlerden bir gün bu süt gölünün kıyısına kurnaz bir tilki gelmiş. Tilki devasa ağacın yanından geçerken yavruların cıvıltısını işitmiş. Açgözlü tilki yukarıya, ağacın tepesine doğru bakmış. Kulaklarını dikmiş, gözleri hain hain parlamış. Tilki dalların arasından büyük devasa ağacın başındaki yuvayı görmüş.

Tilki saksağanın yavrularından birini yiyebilmek için ağacın etrafında altı kez dolanmış. Ağaca tırmanmak istemiş, ancak ağaç devasa imiş. Saksağanın yavrularını yakalayıp yiyebilmek için planlar yaparak, ağacın yanındaki ak otlakta biraz gezinmiş, sonra gözlerini koca koca açmış, azı dişlerini çıkartmış. Soğuk bakışlarını saksağana dikmiş ve ona şöyle seslenmiş:

– Saksağan, seni sefil ahmak, yavrularından birini aşağı at! Eğer atmazsan, ak otlağını ateşe veririm, süt gölünden kurutana dek içerim, ağacını deviririm, minik yavrularının hepsini yerim!

Bunun üzerine anne ve baba saksağan kanatlarını çırparak, ağlamaya başlamış. Saksağanlar açgözlü tilkinin tehdidine boyun eğip, yavrulardan birini ağlaya ağlaya ağacın dibine doğru atmışlar. Yavru daha yere düşmeden, açgözlü tilki yavruyu kaptığı gibi ağaçlığın içinde kaybolmuş.

Anne saksağan şöyle demiş:

– Yarın tilki tekrar gelir, bir yavrumuzu daha götürürse ne yaparız, bunun sonu nereye varır, buna bir çare bulmalı.

İki saksağan oturup ağlaşmış, onların gözyaşları ağacın yapraklarından sürülerek yerlere damlamış. Tam bu sırada saksağanlar taşların arasındaki ayrık otlarını hışırdatarak bir şeyin geldigini işitince, «Yine tilki geliyor!» diye korkuyla inlemeye başlamışlar ki, bir taş yığımının kenarından şaşı gözlü bir çekirge çıkıvermiş. Saksağanların inlemelerini duyunca onlara acımış ve:

– Yedi yavru besleyen, güzel saksağanlar! Ne oldu? Ne diye ağlayıp duruyorsunuz? demiş.

Gözyaşları sel gibi salyaları buz gibi akan iki saksağan, içten bir sesle:

– Ah, çekirge kardeş! Açgözlü tilki güzel yuvamızı buldu, yavrularımızı gördü. «Ak otlağınızı ateşe veririm, süt gölünüzden kurutana dek içerim, ağacınızı deviririm, yavrularınızdan birini bana vermezseniz benden korkun!» diye bizi tehdit ederek, bir yavrumuzu aldı. Yarın yine gelirse, birini daha alır, böylece birer birer hepsini götürür, bunun acısına nasıl katlanırız?» diye ağlaşmışlar.

Boz çekirge bu sözleri duyunca, başını iki sallamış, acı acı ötmüş ve saksağanlara:

– Ey saksağanlar, dünyanın en yalancı, en hazır yiyici, açgözlü hayvanı olan tilkinin sözüne nasıl kandınız, bin bir emekle büyüttüğünüz yavrunuzu ona nasıl verdiniz? Yarın tilki tekrar gelip, «Ak otlağınızı ateşe veririm.» derse, «Ver!» deyin. «Süt gölünüzden kurutana dek içerim.» derse, «İç!» deyin. «Ağacınızı devirim.» derse, «Devir!» deyin.» demiş ve boz çekirge boz taşların arasına girip gözden kaybolmuş.

Güneş, ulu dağların arkasından yükselirken, süt gölünün sisi dağılırken, açgözlü tilki azı dişlerini göstererek yine saksağanların ağacının altına gelmiş. Bir öncesinde olduğu gibi saksağanları yine tehdit edip korkutmuş. Ak belli ana saksağan kanadını yavrularının üstüne germiş, şöyle cevap vermiş:

– Ak otlağımı ateşe verirsen, ver! Süt gölümden kurutana dek içersen, iç! Ağacımızı devirirsen, devir! Bir yavrumu daha vermem, onun başını sana yedirmem!

Tilki yavruyu kapamayacağını anlamış. Kanlı gözlerini koca koca açmış, kanını içine akıtmış ve otlağa dalmış. Öfke ile karşı ormanı altı kez dolanmış, ateş bulamamış. Süt gölüne gelip, gölün suyundan şapır şupur içmiş. Karnı davul gibi şişmiş. Golün suyu tükenmemiş. Gölün suyunu içerek tüketemeyeceğini anlayınca çaresiz bir şekilde tekrar devasa ağacın altına gelmiş, başını yukarı kaldırmış ve saksağana sormuş:

– Seni ahmak, akılsız saksağan, bu aklı sana kim verdi?

Artık tilkinin kendilerine kötü bir şey yapamayacağını düşünüp sevinen saksağan, dilini tutamamış ve:

–Bize bu güzel aklı kara taşların arasında gezinen boz çekirge verdi!, demiş.

Bunu öğrenen tilki dişlerini gıcırdatmış. Kuyruğunu dikmiş, öfkeyle:

– Seninle çene yarıştırılmaz. Seni çok bilmiş, dili uzun, şaşı gözlü boz çekirge, benden kaçamayacaksın. Diline sahip olamayan alçak, seni yakalayıp cezanı vereceğim! diye söylenerek, çekirgenin izini sürmüş, taşlarm arasında dolaşmaya başlamış.

Açgözlü tilki, ıslak tüyleri kuruduğunda, biraz rahatlayıp, dişinin sızısı hafiflediğinde sarp bir kayanın önüne gelmiş. Uzun otları eğmeden, kuru yaprakları hışırdatmadan, ufak taşları kımıldatmadan, kara taşları aralayarak çekirgenin izini sürmüş ve nihayet çekirgenin yuvasını bulmuş.

Çekirge tilkiyi görür görmez, vızıldayarak, yuvasına kaçmış.

– Yuvanı buldum, bakalım şimdi ne yapacaksın?» diye söylenerek oraya oturup çekirgenin deliyinden çıkmasını beklemeye başlamış. Tam altı gün beklemiş, çekirge deliğinden çıkmamış. Umutsuz bir hâlde bekleyen tilki acıkmış, kalkıp gitmeyi düşünmeye başlamış. Tabii çekirge de acıkmış, çekirge «Tilki, her hâlde gitmiştir.» diye düşünerek, başını yuvasından çıkarır çıkarmaz tilkiyi görmüş, korkup, tekrar yuvasma girmiş ancak sabredememiş, tek gözüyle bakmış.

Bunu gören tilki gözlerini kısmış, ağzını açıp, sevimli görünmeye çalışmış, kuyruğunu bacaklarının arasına sıkıştırıp uzanmış, yumuşak bir sesle çekirgeye seslenmiş:

– Çekirge sen ne kadar da çok uyudun? Seni beklemekten uykum geldi, diyerek, kabarık kuyruğunun üzerine yatmış, halat gibi kıvrılmış. Sonra çekirgenin gözüne bakarak:

– Senin gözün ne kadar da güzelmiş? Şehlâ mı şehlâ! Kara mı kara, yaban kirazı gibi! Fakat, galiba başın kel, demiş.

Çekirge:

– Benim başım kel değil, diyerek başını yuvadan çıkarmış tilkiyə göstermiş.

Tilki:

– Öyleyse hayvanlar bana yalan söylemiş olmalı. Duydum ki, senin belin kırıkmış, doğru mu? demiş.

Çekirge öfkeyle:

– Benim belim kırık değil diyerek tüylerini dikleştirip, yuvasından çıkmış ve beliyle sırtını tilkiye göstermiş.

Tilki esnemiş. Kuyruğunu bacaklarının arasına kıstırarak:

– Hımm, demek bana yine yalan söylemişler. Bir de senin için bir ayağın aksakmış, yürüyemiyormuşsun, diyorlar, demiş.

Çekirge:

– Benim ayağım aksak değil! diyerek deve gibi böğürmüş, ayağını, turna gibi uzatıp tepinerek tilkiye göstermiş.

Tilki:

– Peki, ileri geri, iki üç adım atarsan, ben o zaman sana inanırım, demiş.

Çekirge yuvasından dışarı çıkmış, iki üç adım atmış ki, tilki çekirgeyi yakalayıvermiş. Onu azı dişlerinin arasına almış, kuyruğunu kıstırıp, ağaçlığın içine dalmış.

Çekirge bu sırada tilkinin elinden kurtulmanın bir yolunu bulmaya çalışıyormuş, tilkiye sormuş:

– Tilki kardeş, sen bu kırların kızıl tilkisi misin, yoksa bu ormanın açgözlü tilkisi misin?

Tilkiden ses gelmemiş. Çekirge sözüm ona kendi kendine konuşmuş:

– Kırların tilkisi olsa, çekirgeyi ileri geri fırlatarak yerdi, ormanın açgözlü tilkisi olsa, tuttuğu gibi yerdi.

Tilki düşünmüş, kırların kızıl tilkisi olmayı yeğlemiş, çekirgeyi ileri geri fırlatmaya başlayınca, çekirge bir fırsatını bulmuş vızıldayarak bir taşın üzerine atlamış. Tilki onu yakalayamamış, öfkeyle dişlerini gıcırdatmış.

Tilki, yassı bir taşın üstüne oturarak, çekirgenin çıkmasını beklemiş. Tilki tam dokuz gün orada oturmuş. Kızıl kabarık tüyleri düzleşmiş, beklemekten sıkılmıs, yavaşça kalkmış, sendeleyerek, «Keşke onu hemen yeseydim.» diye kendi kendine kızıp, söylenerek, ormana girmiş.

Dik yamaçları parlayan, yüce dağlarla çevrili, ak kıyılı, yuvarlak süt gölünün kıyısındaki ulu ağacın dalında yuvası olan saksağan ile sarp kayanın altında, kuru otlarla döşeli ılık yuvasında yaşayan şaşı gözlü çekirge tilkiye karşı büyük bir zafer kazanmışlar. Bu olayla, iyiyi, kötüyü görmüşler, dost olmuşlar, o günden sonra birbirlerini koruyup kollayıp, huzur içinde yaşamışlar.

# Kehermen Ketil

Biri vardı, biri yoxdu. Bir ölkədə yaşlı bir ər-arvad vardı. Onların iki oğlu var idi. Böyük oğlu Kehitranın on iki yaşı, kiçik oğlu Kehermen Ketilin isə yaşyarımı var idi.

Günlərin bir günü Kehitran Kehermen Ketili küçəyə oynamağa apardı. Birdən güclü bir külək qalxdı və Kehermen Ketili qabağına qatıb pəri padşahının ölkəsinə apardı. Kehermen Ketil orada çox tez böyüdü və div kimi oldu. Onun alnı bir arşın, əlinin qalınlığı isə bir arşından bir az çox idi. Boyunun uzunluğu isə doqquz arşını keçibmiş. Pəri uşaqları onun gücündən qorxduqları üçün onu öz oyunlarına qoymur və ona: «Sən insan övladısan, bizimlə gəzmə» deyirdilər.

Kehermen Ketil onların bu hərəkətinə çox qəzəblənirdi və onları harada tutsa döyürdü. Bu vəziyyət pəriləri çox bezdirdi və onlar gedib pəri padşahına dedi:

– Sənin övladlığa götürdüyün Kehermen Ketil öz gücünə arxalanaraq bizim uşaqları göz açmağa qoymur, harada görsə onları döyür.

Pəri padşahı vəziyyəti eşidib Kehermen Ketili öldürtmək qərarına gəldi. Onu öldürtmək məqsədilə iyirmi beş yaşındakı iyirmi beş pəri ilə fırfıra oynamağa göndərdi. Kehermen Ketil bunu eşidincə çox sevindi. Meşəyə getdi və iki böyük palıd ağacını kökündən çıxarıb yonaraq birindən topuz, birindən də fırfıra düzəltdi. Sonra pərilərlə fırfıra oynamağa getdi. Xeyli oynadıqdan sonra Kehermen Ketil oyundan bezir və pərilərə deyir:

– Gəlin yarışaq. Mən fırfıranı fırladıb atacağam, görək siz iyirmi beş pəridən hansınız onu tuta biləcəksiniz?

Pərilər Kehermen Ketilin bu təklifin qəbul etdilər. Kehermen Ketil fırfıranı yerinə yerləşdirdi və topuzla onu var gücüylə vurdu. Fırfıra top kimi fırlandı və onu tutmaq istəyən pərilərin bəzisinin əlini, bəzisinin ayağını, bəzisinin də başını qopara-qopara getdi. Kehermen Ketil qəhqəhə ilə gülərək pərilərə dedi:

– Eh, bir fırfıranı da tuta bilmirsiniz.

Olanları eşidən pərilər padşahı oraya gəldi və qəzəbli bir halda Kehermen Ketilə dedi:

– Nə üçün dalaşırsan?

Kehermen Ketil pərilər padşahına dedi:

– Dalaşmırıq, yaxşıca oynayırıq. Dalaşacaq olsaq, mən sənin ölkənin altını üstünə çevirərdim.

Pərilər padşahı: «Axırda bu, bizi məhv edəcək» – deyə qorxub Kehermen Ketili ölkəsindən qovmaq istəyir və ona deyir:

– Bax o işıq gələn yerdə pəhlivanların güləşi var, sən oraya get.

Kehermen Ketil topuzunu çiyninə aldı və işıq gələn tərəfə doğru getdi. İşıq yuxarıdakı deşikdən gəlirdi. Deşik çox kiçikmiş. Kehermen Ketil oradan keçmək istədi, ancaq böyük gövdəsi deşiyə sığmadı. O, deşiyi dırnağı ilə qazıb böyütdü və işıqlı dünyaya çıxdı.

Pərilər padşahının ölkəsində hava sıxıcı idi. Nəfəs almaq çətindi. Kehermen Ketil deşikdən çıxdıqdan sonra rahat nəfəs aldı. Ətrafına baxdı və çaya tərəf qıvrılaraq bir yol uzandığını gördü. Yolun digər tərəfində bir oba var idi. Kehermen Ketil yola düşüb getdi. Xeyli getdikdən sonra acdı. «Bəlkə, yeməyə bir şey taparam» – deyə çayın sahilindəki qamışlıqda oturdu. Birdən qarşısına bir su öküzü çıxdı. Su öküzünü topuzuyla vurub öldürdü və dərisini soyub onun ətini çiy-çiy yedi. Doyduqdan sonra qalxıb yoluna davam etdi. Uzaqdan bir işıq gəldiyini gördü və yoldan çıxıb o işığa tərəf getdi. Çox getmədən bir evə rast gəldi. Evə yaxınlaşıb pəncərədən içəri baxdı. Gördü ki, sobanın yanında yaşlı bir adam yatıb. Kehermen Ketil qışqıraraq dedi:

– Qapını aç, dədə!

Yaşlı adam soruşdu:

– Kim var orada?

Kehermen Ketil cavab verdi:

– Mənim adım Kehermen Ketildir.

Yaşlı adam sevinərək qapını açdı, onu içəri aldı və dedi:

– Aaa! Sənsən, oğlum! Yaxşı ki, mənim yanıma gəlibsən, yoxsa itərdin.

Kehermen Ketil keçib başda oturdu. Yaşlı adam ona dedi:

– Bu yaxınlarda su kənarında bir oyuq var. Orada yer padşahı yaşayır. Onun on iki əli var. Hər əlində qırx barmağı var. Əlini oyuqdan çıxararaq qırx barmağını qırx tərəfə uzadır. Barmaqlarına kim toxunsa onu tez özünə çəkib udur. Və beləliklə, on iki əlində on iki ölkə tutur.

Yaşlı adam bunları Kehermen Ketilə dedikdən sonra sobanın yanına uzandı.

Yaşlı adam yatdıqdan sonra Kehermen Ketil qalxıb su kənarındakı oyuğu axtarmağa getdi. O, oyuğun yanına çatmadan yer padşahı onu tutub özünə doğru sürüməyə başladı. Əvvəl Kehermen Ketil nə edəcəyini bilmədi. Sonra oyuğun yanına çatanda ayaqlarını oyuğun kənarlarına dayayıb, özünü geriyə doğru çəkməyə başladı. O, özünü geri çəkərkən yer padşahının qıllı əli

qopdu. Kehermen Ketil tez onun qopmuş əlini alıb uzağa atdı. Sonra evə dönüb yaşlı adamın yanında yuxuya getdi. Səhər oyananda sanki gecə heç bir şey olmamış kimi yaşlı adama: «Mən gedim o yer padşahını görüm» – dedi:

Yaşlı adam: «Oğlum, getmə oraya, o, səni görsə öldürər» – deyib oğlunu qoymur getməyə.

Kehermen Ketil dedi:

– Öldürə bilməz, dədə! Mən gecə onun bir əlini qopardım. İndi də canını almağa gedirəm.

Yaşlı adam dedi:

– Yaxşı, oğlum, gedəcəyəm deyirsən, get. Amma mən sənə bir şey öyrədim. O, sənə: «Gir ağzıma, səni udacağam!» – deyəcək. Sən ona: «Məni yemədən əvvəl hamamı yandır, çimizdir. Mən indi kirliyəm, anadan olandan bəri heç çimməmişəm. Sonra yeyərsən» – de. Sonra o səni çimizdirmək üçün hamamı yandırıb sənə: «Hamama get, çim» – deyəcək. Sən ona: «Bizlərdə adətdir, ev sahibi birinci girər hamama» – deyərsən. O, hamama girəndə sən belə elə. Onun sandığında iki dərman şüşəsi var. Biri insana güc verir, biri də insanın gücünü alır. Sən onların yerini dəyişdir. Sonra nə etmək lazımdır, özün görəcəksən.

Kehermen Ketil yaşlı adama təşəkkür edib getdi. Yer padşahının yanına çatanda yer padşahı gülərək istehza ilə ona dedi:

– Ooo, demək, öz ayağınla gəldin! Mənim bir əlimi qopardın və: «Bu, artıq məhv oldu» deyə fikirləşdin, deyəsən. Amma mənə heç nə olmadı, mənim on bir əlim durur. Deyəsən, səni bağışlamağım üçün üzr istəməyə gəlibsən. Amma mən səni bağışlamayacağam. Gir ağzıma, səni udacağam.

Kehermen Ketil yer padşahına dedi:

– Xeyr, mən səndən üzr istəməyə gəlmədim. Səni görməyə gəldim. Məni yemək istəyirsən ye, ancaq əvvəl hamamı yandır və məni çimizdir. Mən çox kirliyəm. Anadan olandan bəri heç çimmədim.

Yer padşahı hamamı yandırmaq üçün əmr verdi və Kehermen Ketilə dedi:

– Hə, onda çimib təmizlən, elə daha ləzzətli olarsan.

Hamam hazır olanda yer padşahı dedi:

– Get, hamama gir!

Kehermen Ketil dedi:

– Bizim ölkədə adətdir, ev sahibi hamama birinci girər.

Yer padşahı hamama girən kimi Kehermen Ketil onun sandığındakı dərman şüşələrinin yerini dəyişdirdi. Yer padşahı hamamdan çıxdıqdan sonra Kehermen Ketil hamama girdi.

Kehermen Ketil hamamdan çıxdıqdan sonra yer padşahı ona dedi:

– Hə, artıq təmizləndin, gir ağzıma, səni yeyəcəyəm.

Kehermen Ketil dedi:

– Onsuz da məni yeyəcəksən, amma əvvəl gəl bir güləşək, sonra nə istəsən edərsən.

Yer padşahı: «Onda güləşmədən əvvəl bir şey içmək lazımdır» – deyib sandıqdakı şüşələrdən birini çıxarıb Kehermen Ketilə verdi, digərini də özü içdi. Elə o dəqiqə gücünün azaldığını hiss etdi və: «Dayan, dayan, bir az da mənim üçün saxla» – deyərək Kehermen Ketilin dərmanı içməsinə əngəl olmaq istədi. Amma Kehermen Ketil artıq dərmanın hamısını içmişdi. Kehermen Ketil şüşəni qaldırıb yerə çırpdı və dedi:

– Mənə belə çatmadı.

Sonra yer padşahını sürüyərək oyuqdan çölə çıxardı, topuzu ilə onu əzib qarnını deşdi. Yer padşahının qarnından çoxlu insan çıxdı. Padşahın qarnından çıxanların hamısı Kehermen Ketilin əlini öpdü və ona təşəkkür etdilər.

Yer padşahının qarnından çıxan insanlar arasında Kehermen Ketilin atası və böyük qardaşı Kehitran da var idi. Onlar Kehermen Ketili axtarmağa gedərkən yer padşahı onları tutub udmuşdu.

Beləliklə, Kehermen Ketil yer padşahının əsir aldığı on iki ölkənin insanlarının hamısını azad etdi. Ona görə də xalq əsrlərdir Kehermen Ketilin adını unutmur.



**Nadirova Nərmin, 14 yaş**
*Çuvaş nağılı «Kehermen Ketil» – Çuvaş masalı «Kehermen Ketil»*

# Kehermen Ketil

Biri varmış, biri yokmuş. Ülkenin birinde ihtiyar bir karı kocanın iki oğlu varmış. Büyüğü Kehitran on iki, küçüğü Kehermen Ketil bir buçuk yaşındaymış.

Günlerden bir gün Kehitran, Kehermen Ketil'i sokağa oynamaya götürmüş. Ansızın güçlü bir rüzgar çıkmış ve Kehermen Ketil'i önüne katıp Peri Padişahı'nın ülkesine kadar götürmüş.

Kehermen Ketil orada çok hızlı ve dev gibi büyümüş. Onun alnı bir arşın, avuç içinin kalınlığı bir arşından çeyrek arşın fazla imiş. Boyunun uzunluğu da dokuz arşını aşmış. Peri çocukları onun gücünden korktuklarından onu kendi oyunlarına katmıyorlarmış.

– Sen insan evladısın bizimle dolaşma! diyorlarmış.

Kehermen Ketil buna öfkelenip peri çocuklarını yakaladığı yerde dövüyormuş. Bu durum perilerin canına tak etmiş. Peri Padişahı'na:

– Senin evlatlığın gücüne güvenip, bizim çocuklara göz açtırmıyor. Nerede görürse dövüyor, diye yakınmışlar.

Peri Padişahı bunun üzerine Kehirmen Ketili öldürtmek düşüncesiyle, ona yirmi beş yaşındaki yirmi beş periyle topaç oynamasını söylemiş. Kehermen Ketil buna çok sevinmiş. Ormana gitmiş ve kocaman iki meşeyi kökünden söküp, birinden topuz, diğerini de yontarak topaç yapmış. Sonra perilerle topaç oynamaya gitmiş. Uzun süre oynayınca Kehermen Ketil oyundan sıkılmış ve perilere:

– Gelin yarışalım. Ben topacı döndüreceğim, bakalım siz onu yakalayabilecek misiniz? demiş.

Periler Kehermen Ketil'in bu önerisini kabul etmişler. Kehermen Ketil topacını yerleştirip koymuş ve topuzuyla bütün gücüyle vurmuş. Topaç top gibi dönüp fırlamış. Topaç, onu tutmaya çalışan perilerden bazılarının elini, bazılarının ayağını, bazılarının ise kafasını kopara kopara gitmiş.

– Tüh, bir topacı da tutamıyorsunuz, diye gülüyormuş perilere Kehermen Ketil.

Olanları gören Peri Padişahı oraya gelmiş ve Kehermen Ketil'e:

– Niçin kavga ediyorsun? diye çıkışmış.

Bunun üzerine Kehermen Ketil Peri Padişahı'na:

– Kavga etmiyoruz, güzelce oynuyoruz. Kavga edecek olsak ben senin ülkenin altını üstüne getirirdim, demiş.

Peri Padişahı da: «Bu bizi sonunda yok edecek.» diye korkup Kehermen Ketil'i ülkesinden kovmak istemiş. Peri Padişahı Kehermen Ketil'e:

– Bak şu ışık görünen yerde pehlivanların güreşi var, sen oraya git, demiş.

Kehermen Ketil topuzunu omzuna almış ve ışığa doğru gitmeye başlamış. Işık üstteki delikten geliyormuş. Delik küçükmüş. Kehermen Ketil oradan geçmeye çalışmış, ancak büyük gövdesi deliğe sığmamış. Sonra deliği tırnaklarıyla kazıyarak büyütmüş ve aydınlık dünyaya çıkmış.

Peri Padişahı'nın ülkesinde hava bunaltıcı ve soluk almak zormuş. Delikten çıkınca Kehermen Ketil rahatlamış. Etrafına bakınmış ve ırmağa doğru bir yolun kıvrılarak gittiğini görmüş. Yolun diğer tarafında bir ova uzanıyormuş. Kehermen Ketil o yola girmiş. Yürümüş yürümüş ve karnı acıkmış. «Yiyecek bir şeyler bulurum belki?» diye ırmağın kenarındaki sazların kenarına oturmuş. Birden önüne bir su öküzü çıkmış. Su öküzünü topuzuyla vurup öldürmüş ve derisini yüzerek onun etini çiğ çiğ yemiş. Karnını doyurduktan sonra yola devam etmiş. Giderken ileride bir ışık görmüş ve yoldan sapıp, o ışığa yönelmiş. Çok gitmemiş bir eve ulaşmış ve pencereden içeri bakmış. Evde sobanın yanında bir ihtiyar uyuyormuş. Kehermen Ketil:

– Kapıyı aç, dede! diye bağırmış.

– Kim var orada? diye sormuş ihtiyar.

– Ben Kehermen Ketil'im demiş.

– Aaa! Sen misin, oğlum! diyerek sevinçle kapıyı açıp onu içeri almış ihtiyar. İyi ki, benim yanıma geldin, yoksa kaybolurdun, demiş. Kehermen Ketil'i başköşeye geçirip oturtmuş ve «Buranın yakınlarında su kenarındaki bir oyukta Yer Padişahı yaşıyor. Onun on iki eli var. Her elinde kırk parmağı var. Elini oyuktan çıkararak kırk parmağını kırk tarafa uzatıyor. Parmaklarına kim dokunursa, onları hemen kendine çekip yutuyor, böylece on iki elinde on iki ülke tutuyor.», demiş ihtiyar ve tekrar ocağın yanına yatmış.

İhtiyar uyuyunca, Kehermen Ketil su kenarındaki o oyuğa gitmiş. Yer Padişahı onu deliğin kenarına varmadan yakalamış ve kendine doğru sürüklemeye başlamış. Kehermen Ketil ne yapacağını şaşırmış. Fakat oyuğun yanına sürüklenince dört yanına ayaklarını dayamış ve kendini geri çekmeye başlamış. Kendini çekerken Yer Padişahı'nın kıllı eli kopuvermiş. Kehermen Ketil Yer Padişahı'nın elini hemen ileri fırlatmış ve eve dönüp ihtiyarın yanında uykuya dal-

mış. Sabahleyin sanki gece hiçbir şey olmamış gibi ihtiyara:

– Ben o Yer Padişahı'nı gidip göreyim, demiş.

İhtiyar:

– Gitme oraya, oğlum, görürse seni öldürür diye durdurmuş.

Kehermen Ketil:

– Öldüremez dede! Ben gece onun bir elini kopardım. Şimdi de canını almaya gidiyorum, demiş.

İhtiyar:

– Tamam oğul, gideceğim diyorsan gidersin. Yalnız ben sana bir akıl vereyim demiş: «Yer Padişahı sana gir ağzıma seni yutacağım!»der. Sen ona «Yemeden önce hamamı yakıp beni yıka. Ben şu an kirliyim, doğduğumdan beri yıkanmadım. Sonra yersin.» diye söyle. Sonra o senin için hamam yaktırır ve sana: «Hamama git» der. Sen ona: «Bizim orada ev sahibi önce gider.» dersin o hamama girince sen şöyle yap: «Onun dolabında iki ilaç şişesi var. Biri kuvvet veren, diğeri kuvvet kaybettiren. Sen onların yerini değiştir. Sonra ne yapman gerektiğini kendin görürsün.» demiş.

Kehermen Ketil ihtiyara teşekkür etmiş ve gitmeyi düşündüğü yere gitmiş.

Yer Padişahı'nın yanına varınca, Yer Padişahı ona:

– Ooo, demek kendi ayaklarınla geldin! demiş alay ederek. Benim bir elimi koparmakla «Bu şimdi bitti.» diye düşündün sanırım. Fakat ben bitmedim benim daha on bir elim var. Şimdi sen af dilemeye geldin sanırım, ama affetmem. Gir ağzıma seni yutacağım, demiş.

– Yok senden af dilemeye değil, seni görmeye geldim, der Kehermen Ketil. Beni yiyeceksen yersin, ancak önce hamamı yaktırıp beni yıka, ben pek kirliyim, doğduğumdan beri yıkanmadım, demiş.

Yer Padişahı:

– Tamam yıkanıp temizlen, öyle daha tatlı olursun demiş ve yamağını, hamamı yakması için göndermiş. Hamam hazır olunca: «Git hamama gir öyleyse!» diyerek Kehermen Ketil'i hamama göndermiş.

Bizim ülkede ev sahibi önce girer, demiş Kehermen Ketil.

Yer Padişahı hamama girince Kehermen Ketil, Yer Padişahı'nın dolabındaki ilaç şişelerinin yerini değiştirmiş. Yer Padişahı dönünce, bu kez hamama Kehermen Ketil girmiş.

Tamam temizlendin, artık gir ağzıma seni yiyeceğim, demiş Yer Padişahı.

Kehermen Ketil:

– Beni nasıl olsa yiyeceksin, ama önce bir güreşelim, sonra göz görür ne yapacağını, demiş.

Yer Padişahı:

– Öyleyse güreşmeden önce bir şeyler içmek lazım diyerek, dolaptaki şişelerden

birini Kehermen Ketil'e alıp vermiş, diğer şişeden de kendi içmiş. Fakat hemen gücünün azaldığını anlamış ve «Dur, dur benim için de biraz bırak!» diyerek Kehermen Ketil'in ilacı içmesini engellemek istemiş.

Fakat Kehermen Ketil ilacın tümünü içmiş.

Kehermen Ketil:

– Bana bile yetmedi! diyerek, şişeyi kaldırıp yere vurmuş.

Sonra Yer Padişahı'nı sürükleyerek dışarı çıkarıp, topuzuyla vurup ezmiş ve karnını deşmiş. Yer Padişahı'nın karnından birçok insan çıkmış. Çıkan herkes Kehermen Ketil`in elerini öpmüş, ona teşekkür etmiş.

Yer Padişahı'nın karnından çıkan insanların arasında Kehermen Ketil'in babası ve ağabeyi Kehitran da varmış. Onlar Kehermen Ketil'i aramaya çıkmışlar ve onları da Yer Padişahı yakalayıp yutmuş.

Böylece Kehermen Ketil, Yer Padişahı'nın esir aldığı on iki ülkedeki insanların hepsini serbest bırakmış. Onun için Kehermen Ketil`in adını halk yüzyıllardır unutmamış.

# Atəşin sultanı

Qədim zamanlarda Qafqazın zirvələrində köçəri insanlar yaşayırmış. Onlar keçədən düzəldilmiş çadırlarda yaşayırlarmış. Oralara həmişə çoxlu qar yağarmış.

Kişilər əllərində ox və yayla ova gedərlər, qadınlar isə uşaqlarla çadırda onları gözləyərlərmiş. Hava çox soyuq olurmuş, sular buz bağlayırmış. Soyuqdan heyvanlar belə yuvalarına girirmiş...

Günlərin bir gün Balqız adlı gənc bir qadın ocaq yandırmaq üçün çölə çıxmış. Odunlar həm çox böyükmüş, həm də buz kimi imiş... Baltanı əlinə alıb odunları doğrayır və qucağına yığıb çadıra daşıyır. Sonra ocağı yandırır və körpə uşağını qucağına alıb ocağın yanına oturur. Uşaq ac imiş, onu əmizdirməyə başlayır. Ocaq çırt-çırt yanırmış. Birdən ocaqdan bir qığılcım sıçrayıb uşağın yanağına düşür və onu yandırır. Uşaq ağlamağa başlayır. Ana tez ayağa qalxır və alovlara qəzəblənərək deyir:

– Sən nə etdiyini heç başa düşürsən? Mən səni odunla qidalandırıram, sən də mənim uşağımı yandırırsan. Sənin başını əzərəm, üstünə su tökərəm, sən də sönüb məhv olub gedərsən.

Atəş sanki cavab verirmiş kimi alovlarını daha da qızışdırır və ananın üstünə qığılcım atır. Ana geriyə doğru sıçrayır və uşağını beşiyə qoyub baltanı əlinə alır, odunları ətrafa dağıdır. Bir qazan su gətirib alovların üstünə səpir ve deyir:

– İndi uşağımı yandır görüm, necə yandıracaqsan?

Alovlar sönüb gedir. Qafqaz çox soyuq olan bir yerdir, hava da qarlı və fırtınalı imiş. Buz kimi hava çadırın içinə dolmuş. Uşaq soyuqdan ağlamağa başlamış... Balqız ocağı yenidən yandırmaq istəyir... Közü üfürür, süpürgə ilə yelləyir, amma nə qədər etsə də, yandıra bilmir... Kiçik bir qığılcım belə çıxmır, uşaq da soyuqdan fəryad edərək dayanmadan ağlayır.

Balqız ana deyir:

– Tez qonşu çadıra gedim, kiçik bir alov gətirib ocağı yandırım.

Tələsik qaçmış qonşuya. Qapını açar-açmaz alovlar sönmüş, közlər belə soyuq kül

olmuş. Başlamış qonşusu ilə ocağı yandırmağa, amma heç cürə ocağı yandıra bilməmişlər. Bütün cəhdləri boşa getmiş.

Balqız oradan çıxıb başqa çadıra qaçmış. Elə çadırın qapısını açar-açmaz ocaqdakı alovlar sönmüş, içəri girməyə fürsət belə verməmiş. Yenə geri dönür və başqa bir çadıra doğru qaçır. Onun da qapısını açar-açmaz ocağın alovları sönüb kül olmuş.

Nəhayət, Balqız kor-peşman dönür öz çadırına. Birdən nənəsi yadına düşür və onun çadırına gedir. Sadəcə orada ocaq yanırmış. Həyəcanla içəri girir. Alovlar onu görən kimi tez sönür və külə dönür.

Ocağın söndüyünü görən nənə qəzəblənir və deyir:

– Nə oldu belə? Yoxsa ocaqdakı atəşi küsdürübsən?

Bütün çadırlardakı ocaqlar sönmüş, heç kimin gücü çatmayıb ocağı yandırmağa. Soyuq və qar bütün Qafqazı bürüyür. Balqız başlamış ağlamağa. Nənəsi qalxır ayağa və deyir:

– Haydı qalx, sənin çadırına gedək. Orada nə etdiyini görmək istəyirəm.

İkisi də gəlib buz kimi çadıra girirlər. Görürlər ki, uşaq hıçqıra-hıçqıra ağlayır. Nənə tez bir tilişkə alır əlinə, ümid edir ki, bəlkə, ocağı yandırar. Amma alovlar inad edir və yanmır. Nənə ocağın qarşısında oturub güc verir nəfəsinə. Üfürür, üfürür... Birdən-birə heç olmayacaq bir şey olur. Görürlər ki, ocağın içində yaşlı bir nənə oturub kədərli-kədərli Balqız və nənəsinə baxır. Ocağın içində oturan nənə zəif bir səs tonu ilə danışmağa başlayır və deyir:

– Niyə bu qədər çabalayırsan? Bilmirsən ki, sənin nəvən mənim ürəyimi yandırdı? Yoxsa bilirsən, amma ona demək istəmirsən?

Balqızın nənəsi heyrətlə soruşur:

– Burada nə baş verdiyini mən haradan bilim? Nə olubsa de mənə, üzr istəyim.

– Sənin nəvən mənim gözlərimə su fışqırtdı, üzümü balta ilə dağıtdı, bunu nə üçün etdi? Mənim günahım nə idi?

Balqızın nənəsi nəvəsinə çox qəzəblənir və deyir:

– Başa düşmüşdüm bir ağılsızlıq etdiyini. Atəşin sultanını küsdürmüsən!

Atəşin sultanı susur. Balqızın nənəsi nə qədər yalvarıb üzr istəsə də, ona heç fikir vermədən elə hey susur. Bir az sonra dilə gəlir və deyir:

– Əgər Balqız uşağını mənə qurban verərsə, sizə atəş verərəm.

Balqız bu sözü eşidəndə hürkür, nənəsinin sanki ağlı başından çıxır. Atəşin sultanı isə danışmağa davam edir:

– Alovları uşağın qəlbindən yaradacağam, ömür boyu istiliyin insanın qəlbindən gəldiyini unutmayacaqsınız və onu həmişə qoruyacaqsınız. Bu Qafqazda onsuz yaşaya bilməzsiniz.

Balqız hönkür-hönkür ağlamağa başlayır, nənəsi isə onu danlayaraq deyir:

– Sənin üzündən yeddi nəsil insan atəşi itirdi. Atəş olmasa, insanların kökü kəsiləcək, gördüyün bütün bu dağlar yetim qalacaq. Ver uşağını Atəşin sultanına. Uşağı ver, atəşi al və yenidən həyatımıza gətir onu.

Balqız ürəyindən yaralanır, ürəyinin bir parçası olan uşağını ona necə versin? Amma uşağını verməsə də, bütün həyat sönəcək... Başqa çarə tapa bilmir. Çarəsiz ağlayan uşağını bağrına basır qucaqlayır və sonra Atəşin sultanına doğru uzadır. Atəşin sultanı uşağı alır və son sözünü deyir:

– Bu gündən sonra bütün Qafqaz xalqı qətiyyən atəşə balta ilə vurmasın, əgər lazım olsa belə, əvvəlcə atəşdən icazə alsın, sonra dəmirlə atəşə toxunsun. Sizdən sonra gələcək yeddi nəslinizə də bunu bildirin.

Atəşin sultanı barmaqlarını ocaqdakı odunlara yaxınlaşdıran kimi odunlar alışır. Elə o anda da Atəşin sultanı uşağı qucaqlayıb alovların arasında yox olur. Balqız uşağını itirdiyi üçün ürəyi gedir və yıxılır yerə. Nənəsi isə təşviş içində onun üzünə soyuq su vurub ayıltmağa çalışaraq deyir:

– Qalx, qızım, qalx! Çadırdan çadıra qaç və bu gözəl xəbəri hər kəsə bildir. De ki, atəş yenidən alışdı. Bundan sonra uşağın qəlbi ilə atəş həmişə yanacaq, bütün bəşəriyyətə istilik yayacaq!



**Qarayeva Ülkər, 13 yaş**
***Qaraçay nağılı «Atəşin sultanı» – Karaçay masalı «Ateşin Sultanı»***

# Ateşin Sultanı

Yeni çağın yenisinde, eski çağın berisinde, göçebeler yaşarmış Kafkasya'nın zirvesinde... Çadırları varmış keçeden, hep kar yağarmış inceden.

Erkeklerin elinde ok ile yay, ava gitmişler, kadınlar ile çocuklar çadırda beklemişler. Hava soğuk, sular buz tutmuş, çocuklarla hayvanlar yuvaya doluşmuş...

Balkız adında genç bir kadın ocak yakmak için dışarı fırlamış. Odunlar kalın, buz gibi... Baltayı almış eline, vurmuş odunların beline. Parçalara bölüp içeri taşımış. Ocağı yakmış, bebeğini kucağına alıp ocağın kıyısına oturmuş. Bebek aç, onu emzirmeye başlamış. Ocak çıtır çıtır yanmakta, bebek ile anasını ısıtmakta. Aniden bir kıvılcım sıçramış, bebeğin yanağını yakmış. Bebek ağlamış. Anne derhal ayağa fırlamış, alevlere kızmaya başlamış:

– Ne yaptığının farkında mısın? Ben seni odunla besliyorum, sen benim bebeğimi yakıyorsun. Senin kafanı kırar, üstüne su dökerim, sönüp gidersin.

Ateş cevap verir gibi alevlerini harlatmış, annenin üstüne yalım atmış. Anne, geri sıçramış, bebeği beşiğe bırakıp baltayı almış eline, odunları dağıtmış her yere. Bir kazan dolusu suyu getirip saçmış alevlerin üstüne ve:

– Şimdi bebeğimi yak da göreyim, demiş.

Alevler sönüp gitmiş. Kafkasya soğuk, hava da kar ve fırtına. Çadırın içine dolmuş buz gibi hava. Bebek başlamış ağlamaya... Balkız uğraşmış ocağı yeniden yakmaya... Közlere üfürmüş, süpürge ile yelpazelemiş, ama ne çare! En küçük bir alev parlamamış, çocuk soğuktan çığlık çığlığa kalmış.

Balkız anne, acele komşu çadıra koşayım, küçük bir ateş getirip benim ocağı tutuşturayım, demiş. Hızla koşmuş komşuya, açar açmaz kapıyı, alevler sönüvermiş, közler bile soğuk kül olmuş. Komşusuyla başlamış ocağı yakmaya, ocak başlamış soğuk soğuk bakmaya. Bütün çaba boşa gitmiş.

Oradan da çıkmış Balkız, koşmuş öteki çadıra, birazcık ateş bulmaya. Daha çadırın

kapısını aralar aralamaz, alevler ocakta sönüvermiş, içeri girmesine fırsat bile vermemiş. Yine dönmüş geri. İleride duruyormuş çadırın biri. Açar açmaz kapıyı, sönmüş alevlerin hepsi, yine aynısı.

Balkız dönmüş kendi çadırına. Yolda ninesinin çadırına uğramayı akıl etmiş. Yalnızca orada ocak yanıyormuş. Heyecanla girmiş içeri, onu görünce alevler sönüp gitmiş. Soğuk küllerini savuruvermiş.

Ocağın söndüğünü gören nine:

– Ne oluyorsun böyle, yoksa ocaktaki ateşi mi küstürdün? diye kızmış.

Bütün alevler sönmüş çadırlarda, kimsenin gücü yetmemiş ocak yakmaya. Soğuk ve kar yayılmış bütün Kafkasya'ya. Balkız başlamış ağlamaya. Ninesi kalkmış ayağa:

– Haydi senin çadıra gidelim, ne yaptığını orada görmek istiyorum, demiş.

İkisi birlikte girmiş buz gibi çadıra. Çocuk hıçkıra hıçkıra ağlamakta. Nine hemen bir çıra almış eline, umut etmiş alevin gelmesine. Ama inat etmiş alevler, tutuşmayı kabul etmemiş. Nine çökmüş ocağın önüne, gücünü katmış nefesine. Üflemiş, üflemiş... Birdenbire hiç olmayacak bir şey olmuş. Yaşlı bir nine oturmuş ocağın içine. Hüzünlü hüzünlü bakmış Balkız ile ninesine. Konuşmaya başlamış kısık sesle:

– Bu çaba neden? Senin torunun canımı acıttı bilmez misin? Yoksa bilip de ona söylemez misin? demiş.

Balkız'ın ninesi hayretle sormuş:

– Ne oldu burada, nerden bileyim, söyle bana özür dileyeyim, demiş.

– Gözlerime su fışkırttı, yüzümü baltayla parçaladı, neden yaptı, benden günahımı sormadı.

Balkız'ın ninesi çok kızmış:

– Anladım bir akılsızlık yaptığını. Küstürdün Ateşin Sultanını!

Ateşin Sultanı susmuş. Ninenin yalvarmalarına aldırmadan susmuş. Bir süre sonra dile gelmiş:

– Ateş veriririm size, Balkız çocuğunu bana kurban ederse?

Balkız irkilmiş, ninenin aklı gitmiş, Ateşin Sultanı devam etmiş:

– Alevleri çocuğun kalbinden yaratacağım, ömür boyu sıcaklığın insan kalbinden geldiğini unutmayacaksınız, onu koruyup kollayacaksınız. Bu Kafkasya'da onsuz yaşayamazsınız.

Balkız hüngür hüngür ağlamış, nine onu azarlamış:

– Senin yüzünden yedi kuşak insan ateşi kayıbetti. Ateş olmadan insan soyu kuruyacak, bu dağlar baştan başa yetim kalacak. Ver çocuğunu Ateşin Sultanı'na ver ve ateşi al, hayatımıza kat yeniden.

Balkız yüreğinden yaralanmış, biricik çocuğunu nasıl verir? Onu nasıl ateşe atar?.. Ama vermese bütün hayat ölecek... Başka çare bulamamış, ağlayan çocuğunu Ateşin

Sultanı'na uzatmış. O da çocuğu alıp son sözünü söylemiş:

– Bugünden sonra bütün Kafkas halkı ateşe sakın balta sokmasın, çok gerekirse önce ateşten izin alsın, sonra demiri dokundursun. Gelecek yedi kuşağınıza bunu da demiş.

Sonra parmaklarını ocaktaki odunlara yaklaştırır yaklaştırmaz, odun tutuşmuş. O anda Ateşin Sultanı çocuğu kucaklayıp alevlerin arasında kaybolmuş. Balkız çocuğu yitirince bayılıp düşmüş. Ninesi telaş içinde onun yüzünü soğuk su ile silmiş:

– Kalk kızım kalk, çadırdan çadıra koş, şu güzel haberi götür: Ateş yeniden harlandı. Bundan sonra çocuk kalbiyle ateş hep yanacak, bütün insanlığa sıcaklık yayacak, demiş.

# Sehrli çeşmə

Biri vardı, biri yoxdu. Biri acdı, biri toxdu. Bəli, bir vaxtlar Ağbaş dağının ətəklərində qəribə və təəccüb doğuran işlər olurdu. Bu dağın ətəyində yüz yaşını keçmiş, beli bükülmüş bir nənə və baba yaşayırdı. Babanın adı Seley, nənənin adı isə Səidə imiş. Onlar öz əllərinin zəhmətilə qazanır və halal qazancla yaşayırdılar. Bir-birlərinə dəyər verirdilər. Təəssüflər olsun ki, uşaqları yox idi. Tək dərdləri bu idi. Yaşlandıqları üçün kədərlənirdilər, daha çox yaşamağın xəyalını qururdular.

Günlərin bir günü günorta vaxtı qapıdakı tənək talvarının altında yatan baba yuxuda qəribə bir quş gördü. Quş babanın başının üstündə fırlanaraq uçurdu. Baba da həvəslənərək quşun arxasınca gedirdi. O gəlib havası çox təmiz və gözəl bir çəmənliyə çıxdı. Gözlərinin qarşısında dörd bir tərəfi yamyaşıl bir çəmənlik uzanıb gedirdi. Çəmənlikdə gözləri qamaşdıran rəngarəng çiçəklər açmışdı. Hər tərəf çox işıqlı idi. Şırıltı ilə axan sular, cəh-cəh vuran cürbəcür quşlar füsunkar bir mənzərə yaradırdı. Bura canlıların azad yaşadığı bir yer idi. Bu füsunkar mənzərə qarşısında baba öz-özünə dedi:

– Bəh-bəh, nə gözəl çəmənlikdir, cənnət belə bu qədər gözəl ola bilməz.

Baba yeridikcə burnuna müşk-ənbər qoxusu gəlirdi. Bir az da getdikdən sonra yabanı otların arasında göz qamaşdıran bir bulaq gördü. Həmin qəribə quş bulağın üstündə bir-iki dövrə vuraraq yerə qondu, sonra qanadlarını çırparaq gözəl bir pəri qızına çevrildi və dönüb babaya dedi:

– Baba, bu, sehrli bir bulaqdır. Bulağın suyundan üç qurtum içsən, bütün arzuların həyata keçər.

Baba çox sevindi və pəri qızına təşəkkür etdi. Elə bulağın suyundan ovucuna alıb ağzına aparmaq istəyirdi ki, nənənin: «Qalx, qalx» – deyən səsini eşidib oyandı və: «Gözəl bir yuxu görürdüm, məni oyadaraq yuxumu məhv etdin» – deyib nənəyə əsəbiləşdi. Sonra baltasını götürüb dağa odun yığmağa getdi.

Heybətli Ağbaş dağı o gün babanın gözünə həmişəkindən daha gözəl göründü. Yol boyunca gördüyü yuxunu fikirləşdi. Ona görə də dağın dərinliklərinə doğru xeyli hərəkət etdi. Amma bu qədər uzağa getdiyini hiss etmədi. Birdən baba bir quşun cəh-cəh vurduğunu eşitdi və başını yuxarı qaldırdı. Quş mayallaq aşaraq gəlib babanın yanına qondu. Bu, çox gözəl bir quş idi. Pipikləri qızıl kimi parlayırdı, tükləri tovuz quşunun tüklərindən daha rəngarəng, quyruğu üç-dörd qulac uzunluğunda idi. Quşun ayağına ox batmışdı və o, qan itirirdi. Baba tez quşun ayağındakı oxu çıxarıb atdı və otları ovucunda əzib suyunu quşun yaralı ayağına sürtdü. Qurşağından bir parça yırtıb quşun ayağını bağladı. Quş bir anın içində sağaldı və qanadlarını açıb havaya qalxdı. Sonra babanın başının üstündə fırlanaraq şirin-şirin cəh-cəh vurmağa başladı. Bir neçə dəqiqədən sonra yerə qonub, tayı-bərabəri olmayan çox gözəl bir qıza çevrildi. Babaya salam verib, belə dedi:

– Ey qəlbi gözəl baba, sənə salam olsun! Siz mənə çox böyük bir yaxşılıq etdiniz. İndi mən də sizin yaxşılığınıza qarşı yaxşılıq etmək istəyirəm. Ürəyinizdən nə keçirsə deyin, kömək etməyə hazıram.

Baba nə edəcəyini bilmədi, çaşqınlıqdan elə olduğu yerdəcə özündən getdi. Ayılandan sonra xəyalmı, gerçəkmi deyə başını silkələdi, gözlərini ovuşdurdu və uzandığı yerdən qıza baxdı. Kömür saçlı, yay qaşlı, ceyran gözlü, alma yanaqlı, aydan da, günəşdən də gözəl olan bu qız yuxuda gördüyü həmin qız idi. Baba heyrətləndi. Sonra dümağ saqqalını sığallayaraq ürəyindən keçən arzularını bir-bir dedi:

– Ey pəri qızı, bu dümağ saqqalımı yox etməyin, bükülən belimi düzəltməyin bir yolu varmı?

Babanın nə demək istədiyini başa düşən pəri qızı dedi:

– Əlbəttə, var, baba. Bu Ağbaş dağının qarlı zirvələrini görürsənmi? Əgər o zirvələri aşa bilsəniz, orada sehrli və gözəl bir bulaq var. Amma oraya gedən yol olduqca zəhmətlidir, çətindir. Sıldırım qayalıqlardan keçməlisən. Çox təhlükəlidir. Əngəlləri aşıb arzularınıza çatmaq istəyirsinizsə, mən sizə kömək edərəm.

Pəri qızı babaya qırmızı, sarı və yaşıl rəngli üç dənə lələk verib dedi:

– Dara düşdüyünüz vaxt bu lələklərdən birini yandırarsınız, mən o dəqiqə yanınızda olacağam.

Sonra pəri qızı yenə quşa çevrilib babanın başının üstündən havaya qalxdı. Sıx ağaclarla əhatə olunmuş dağın zirvəsinə doğru uçub gözdən itdi.

Baba çox gec bir saatda gəlib evə çıxdı. Nənəyə çox qəribə bir quş gördüyünü, onun bir pəri qızına çevrildiyini, dağda sehrli bir bulaq olduğunu, bulağın suyunun

insanı gəncləşdirdiyini bir-bir danışdı. Nənə çox sevindi. Az qala sevincindən uçacaqdı. İkisi də oturub danışdılar və qərar verdilər ki, baba sehrli bulağı gedip tapsın. Hazırlandılar. Vaxt gəlib çatanda baba nənəylə vidalaşıb Ağbaş dağına doğru yola çıxdı.

Baba az getdi, çox getdi və cəngəllik bir meşəyə gəlib çıxdı. Yolunu azdı. Sola getdi, sağa getdi, irəli getdi, amma yolu tapa bilmədi. Davam etməyin heç bir nəticə verməyəcəyini düşündü və geri dönmək istədi. Amma bu da ürəyindən deyildi. Əlacsız qaldı. Acmışdı. Bir az yemək yeyib dincəlmək üçün oturdu. Əlini torbasına saldı. Pəri qızının verdiyi lələk əlinə gəldi. Baba dedi:

– Hə, dara düşdüm, indi lələyi yandırım görüm nə olacaq?

Lələyi yandırdı. İsti bir külək qopdu, elə o andaca quş qarşısında peyda oldu və dedi:

– Salam, baba, daramı düşdünüz?

Baba dedi:

– Cəngəllik bir meşə yolumu kəsdi, azdım. Hansı tərəfə gedəcəyimi bilmirəm.

Quş dedi:

– Onda bir məşəl yandırıb quyruğuma bağlayın, mən sizə yolu göstərərəm.

Baba məşəli yandırıb quşun quyruğuna bağladı. Quş ildırım sürətilə meşənin üzərindən uçdu. Quyruğuna bağladığı məşəl meşəni alışdırıb yandırdı. Çox qısa bir anda bir alov dəryası əmələ gəldi və babanın qarşısında dümdüz bir yol açıldı.

Baba yoluna davam etdi. Çox qorxulu bir yerə gəlib çıxdı. Hər tərəfdən pələnglər, aslanlar, canavarlar, ilanlar, əqrəblər çıxmağa başladı. Baba çox qorxdu. Sanki ruhu bədənindən çıxacaqdı, rəngi dümağ ağardı, dizləri titrəməyə başladı.

Baba öz-özünə dedi: «Hə, indi bu yırtıcılara yem olacağam, barı gözümü bağlayım» – deyib əlindəki torba ilə üzünü örtdü. Bu vaxt lələk üzünə toxundu. Tez çıxarıb yandırdı. Yenə isti bir külək əsdi və quş peyda oldu. Babanı belinə alıb uçdu. Çox keçmədən sıldırım bir keçidin üstündəki tənha bir yerə gətirib buraxdı.

Baba dağ keçidilə az getdi, çox getdi və birdən güclü bir fırtına başladı. Baba bir addım belə ata bilmədi. Fırtına onu geri sovururdu. Gözünü aça bilmədiyi üçün dik bir yamacdan aşağı düşdü. Dağdakı ağaclardan birinin budağına ilişib qaldı. Baba dedi:

– Hə, artıq sonum gəldi, bu uçurumdan necə xilas ola bilərəm ki?

Başını qaldırıb yuxarı baxdı, gördü ki, ağacın budağına ilişib qalan torbanın içindəki lələk düşmək üzrədir. Baba çox çətinliklə də olsa lələyi tutdu və yandırdı. İsti bir külək qopdu. Quş uçurumda peyda oldu və babanı belinə alıb oradan xilas etdi.

Nəhayət ki, baba dağı aşıb bir obaya gəlib çıxdı. Obaya gözucu baxdı ki, qarşısında heyrətedici, ovsunlayıcı bir yer uzanıb gedir. Ətrafındakı dağlar işıq saçır, bağlar ye-

tişmiş şirin meyvələrlə doludur. Bir-birindən gözəl quşlar cəh-cəh vuraraq budaqdan-budağa qonurlar, marallar, ceyranlar yamyaşıl çəmənlikdə oynaşırlar. Baba çəmənlikdə rəngarəng çiçəklərin üzərində uçan kəpənək və bal arılarına baxa-baxa gedərkən birdən yabanı otlarının arasından şırıl-şırıl axan bulağı gördü. Həminki pəri qızı da bulağın yanında oturmuşdu. Pəri qızı babanı görəndə hörmətlə ayağa qalxıb dedi:

– Baba, buraya gəlib çatmaq üçün çox çətinliklər çəkdiniz.

Baba dedi:

– Cəfa çəkməyən səfa sürməz. Qərarlı olmasan, məqsədinə çata bilməzsən.

Pəri qızı dedi:

– Baba, bulağın suyundan üç ovuc için.

Baba dedi:

– Susuzluqdan dodaqlarım qurudu, ciyərim yandı, nə üçün doyunca iç demirsən, üç ovuc iç deyirsən.

Pəri qızı dedi:

– Bu, sehrli bir bulaqdır, üç ovuc içmək kifayətdir. Daha çox içsəniz, körpə uşağa dönərsiz.

Baba dedi:

– Pəri qızı, bu bulağın sirri nədir? Deyə bilərsənmi?

Pəri qızı dedi:

– Olar, deyərəm. Meyvə və tərəvəzlərin şirəsi hər gün bu bulağın suyuna qarışır. Ona görə bu bulağın suyu çox qüvvətlidir. Bu bulağın suyu insanı sadəcə gəncləşdirmir, eyni zamanda hər cür xəstəliyə də şəfadır. Xəstələr içərsə, heç bir zaman bir də xəstələnməz.

Pəri qızının dedikləri babanın çox xoşuna gəldi. Bulağın suyundan üç ovuc içdi və elə bulağın başında da yatıb qaldı. Bir müddət sonra oyandı. Bir az üşüyüb titrədi. Özünü olduqca yüngül hiss edirdi. Əlini çənəsinə çəkdi, baxdı ki, saqqalı, bığı yoxdu. Bulağın suyuna düşən əksinə baxdı. Gördü ki, uzunboylu, yaraşıqlı bir igidə dönüb. Sevincindən nə edəcyini bilmədi. Pəri qızına çoxlu təşəkkür etdi. Pəri qızı iyirmi yaşında bir dəliqanlıya dönən babaya dedi:

– Ey igid, burada mənimlə yaşamaq istəyərsənmi?

Pəri qızı aydan da, günəşdən də çox gözəl idi. Babaya çox böyük yaxşılıqlar etsə də, cahanda tayı-bərabəri olmayan bir gülpəri olsa da, babanın gözü arvadı Səidədən başqa heç kimi görməzmiş. Ona görə də pəri qızına dedi:

– Ey aləmdə tayı-bərabəri olmayan gülpəri, kiçik bir yaxşılığıma görə mənə yenidən gənc olmaq şansını verdiniz. Siz olmasaydınız, mən qaranlıq meşələri keçə bilməzdim, yırtıcı heyvanlardan xilas ola bilməzdim. Sizə ən səmimi duyğularımla təşəkkür edir və minnətdarlığımı bildirirəm. Fəqət təklifinizi qəbul edə bilmərəm, çünki evdə həyat yoldaşım Səidə yolumu gözləyir.

Pəri qızı bulağın suyu kimi saf, təmizqəlbli babanın dediklərini xoş qarşıladı. Ona sehrli bulaqdan bir qab suyu da hörmətlə uzatdı və dedi:

– Bunu həyat yoldaşınıza aparın, o da üç qurtum içsin.

Baba pəri qızına təkrar səmimi qəlbdən təşəkkür etdi və bir qab suyu da alıb evinə doğru yola çıxdı. Baba dağdan enib evinə yaxınlaşdığı zaman bir qucaq odun da doğrayıb belinə aldı və mahnılar oxuyaraq gəlib evə çıxdı. Nənə baxdı ki, yaraşıqlı bir igid gəlib evə girdi. Çaşıb qalan nənə dedi:

– Ey igid, sən kimsən, kimi axtarmağa gəlibsən?

Baba gülərək dedi:

– Məni tanımadınmı? Mən Seleycanam. Arvadım Səidəni axtarmağa gəlmişəm.

Nənə gözlərinə inana bilmədi. Ərinin bu cür dəyişdiyini ağlına gətirə bilmirdi. Nənə dedi:

– Seleyin sağ qulağının altında bir xal var idi. O xal səndə varmı?

Sonra nənə diqqətlə igidin sağ qulağının altına baxdı. Gördü ki, doğrudan da, xal ordadı. Nənə Seleyin yola çıxmadan əvvəl dediyi sözləri də xatırladı və igidə inandı. Onun belə gəncləşməsinin səbəbini başa düşdü və dedi:

– Onda sehrli bulağın suyundan mən də içim, tez gənc bir qıza dönüb sənə yoldaş olum.

Seleyin əlindən qabı aldı. Seley dedi:

– Üç qurtumdan çox içmə.

Nənə qabdakı sudan üç qurtum içdi və elə oradaca yuxuya getdi.

Səidə nənə səhər xoruzların banlama səsinə oyandı. O, özünü çox yüngül hiss edirdi. Üzünü sığalladı və gördü ki, hörümçək toru kimi olan qırışlarından əsər-əlamət qalmayıb, bükülən beli düzəlib, ürəyi çox rahat döyünür, çox yaxşı nəfəs alır. Səidə həyətə çıxıb çərxi-fələk kimi fırlana-fırlana oynadı. Seleyi görən kimi özünü sevinclə onun qucağına atdı. Seley ilə Səidə bir-birilərindən doya bilmirdilər. Çəmənliklərdə bir-birilərinə gözəl mahnılar oxuyub keçən illəri xatırlayırdılar. Gələcək həyatları ilə bağlı planlar qurub yeni bir həyata başladılar.

Onların bu vəziyyətini görüb eşidən bütün qonşuları, dostları Seley ilə Səidəni təbrik etdilər. Sehrli bulağın suyuna dodağını toxunduran xəstələr sağaldılar. Seleyə təşəkkür edib minnətdar oldular. Bu hadisə çox qısa bir müddətdə ağızdan-ağıza, qulaqdan-qulağa diyarbadiyar yayıldı. Sehrli bulaq suyuna dodağı toxunan insan xəstələnmir, ölüm yatağında yatanlar bir damlayla şəfa tapıb, həyata dönür, üç qurtum içən yaşlılar gənc bir igid olub bir daha yaşlanmır. Bu cür şayiələr hər tərəfə yayıldı.

*Sehrli bulaqdan*
*Gənclik gəlir, yarım hey,*
*Seley ilə Səidə*
*Handan gülər, yarım hey.*

Yuxarıdakı misralardakı kimi mahnılar bəstələndi. Səidə və Seley yaşlıların dillərində dastan oldu. Onların həyatındakı bu dəyişikliyi eşidən qarafikirli ağa ayağı yanmış toyuq kimi yerində dura bilmirdi. Seleyi və sehrli bulağın suyunu tez ona gətirmələri üçün nökərlərinə əmr verdi. Çox keçmədən nökərlər Seleyi və bir qab sehrli bulaq suyunu ağanın hüzuruna gətirdilər. Ağa ondan yaşda çox böyük olan Seleyin gənc bir igidə döndüyünü görəndə çox təəccübləndi. O, bu dəyişikliyə həm inanırdı, həm də inanmırdı. Ona görə də yerdəki su qabını əlinə alıb dedi:

– Lap yaxşı. Seleycan sən, doğrudan da, bu qabdakı sudan içib gəncləşdin, eləmi?

Seleycan dedi:

– Eynilə elə oldu, ağam. Bu, ağ bulağın, ya da göy bulağın suyu deyil. Sehrli bulağın suyudu.

Ağa öyünərək dedi:

– Bilirəm, bilirəm, bu, Allahın qüdrətidir. Bu su çox dəyərlidir. Bu, abi-həyat suyudur. Hə, Seley, xalq arasında «Əlindən gələni xalqdan əsirgəmə» deyə hikmətli bir söz var. İndi bu sehrli sudan məmləkətin bütün insanlarına versən və bundan hər kəs faydalansa, nə deyirsən? Onlar da Səidə ilə ikinizin nur topu kimi bir uşağınızın olması üçün dua edərlər, nə deyirsən?

Seley dedi:

– Ağam, əgər dediyiniz kimi olarsa, olar. Sehrli bulağın suyunu bütün məmləkət xalqına bağışlayaram.

Ağa sehrli bulağın suyunu belə asanlıqla ələ keçirdiyi üçün ürəyində sevinərək bir fərman verdi:

– Səhər məmləkətdəki hər kəs sarayın qarşısına yığışsın. Sehrli bulağın suyundan hər kəsin içməsi üçün tədbirlər görülsün və xalq xoşbəxt olsun.

Ağa Seleyi yola saldıqdan sonra sehrli bulaq suyunu alıb evinə apardı. Bu hadisəni də həyat yoldaşına danışdı. Həyat yoldaşı çox qəzəbləndi və dedi:

– Ay ağılsız, yekə başında bir əkinçinin ağlı qədər ağlın yoxdur. Belə dəyərli bir neməti xalqamı içirəcəksən? Özümüz içsək, olmazmı? Ay ağılsız...

Ağa tələsdiyini fikirləşib zəhər içmiş biri kimi peşman oldu. Arvadı dedi:

– Amma hələ gec deyil.

Arvadı ağanın əlindən qabı çəkib aldı və ağzını açıb suyu içmək istədi. Ağa düşündü ki, arvadı suyu içib gəncləşərək özünə gənc sevgili tapmaq istəyir. Nifrətlə onu vurdu və arvadı özündən gedib yıxıldı. Qabı alıb suyu içməyə başladı. Ağa bulağın suyundan nə qədər çox içilsə, o qədər çox gəncləşilə-

cəyini fikirləşərək suyun hamısını içdi. Qabı tamamilə boşaltdı. Bir az sonra əzilmiş şaftalı kimi oldu. Gözləri yumuldu, paltarlarının içində yox olub yuxuya getdi.

Səhərisi gün xalq ağanın sarayının qarşısına yığıldı. Məmləkətin ağsaqqalları, tanınmış insanları və ağanın qohumları saraya girib onu gözləməyə başladılar. Günortaya qədər ağadan bir xəbər çıxmadı. Ağanın oğlanlarından biri: «Mən gedim atama baxım» – deyib atasının otağına girdi. Gördü ki, çarpayının üstündə «inqa, inqa» – deyərək bir uşaq ağlayır. Anası da özündən getmiş halda yerdə yatır. Gördüklərini gəlib saraydakılara danışdı. Ağsaqqallar və ağanın qohumları otağa girib gördülər ki, doğrudan da, oğlanın dediyi kimi bir uşaq ağlayır. Sultan xanım da yerdə yatır. Vəziyyəti belə görənlər heyrətlə bir-birilərinə baxdılar. Ağanın digər oğlu dedi:

– Burada təəccüblənəcək nə var ki, anam şüurunu itirib özündən gedib, onu özünə gətirək.

Bir az sonra ağanın arvadı özünə gəlib ayıldı. Çarpayıda ağlayan uşağı görüb dedi:

– Aman Allahım! Gördünüzmü atanızı, balalarım? Bəli, tamahkarlığın sonu budur.

Ağanın övladları uşağa dönən atalarına baxıb ağlayaraq dedilər:

– İndi buna atamı deyək, qardaşmı?

Seley, Səidə və bütün xalq ağanın tamahkarlıq edib suyun hamısını içdiyini və körpə bir uşağa döndüyünü eşitdilər. Hamı onu lağa qoyub güldü.

Ağanın ailəsi bu rəzalətə dözə bilməyib bir gecə ortadan yox oldu. Ağanı da məmləkətinə buraxıb uzaqlara getdilər.

Beləliklə, xalq zalım ağadan qurtuldu. Xoşbəxt və bəxtiyar bir həyat sürdülər. O gündən sonra xalq arasında sehrli bulaq haqqında belə bir mahnı yayıldı:

*Qiymətli bulağım,*
*Sularından içsək biz,*
*Gözəl şans gəlməzmi,*
*Gənclik çağına girsək biz...*



**Zeynalova Adelya, 12 yaş**
*Uyğur nağılı «Sehrli çeşmə» – Uyğur masalı «Sihirli Çeşme»*

# Sihirli Çeşme

Biri varmış biri yokmuş, biri açmış biri tokmuş. İşte o zamanlarda Akbaş Dağı'nın bağrında tuhaf, inanılmaz işler olurmuş. Bu dağın eteğinde saçları ağarmış, belleri bükülmüş, yüz yaşını aşmış bir nine ile dede yaşarmış. Dedenin ismi Seley, ninenin ismi Seyide imiş. Bunlar kendi bileklerinin hakkıyla kazanır, helal kazançla yaşarlarmış. Birbirlerine değer verirlermiş. Ne var ki, bir tane bile çocukları olmamış, tek üzüntüleri buymuş. Yaşlandıklarına üzülürler, daha da fazla yaşamanın hayalini kurarlarmış.

Günlerden bir gün bir öğlen vakti kapının önündeki asmaların altında uyuklamakta olan dede bir düş görmüş. Düşünde tuhaf bir kuş görmüş. Kuş dedenin tepesinde döne döne uçuyormuş. Dede ise kuşa heveslenip onun ardından gidiyormuş. Gide gide havası çok temiz, güzel bir çayırlığa varmış. Gözlerinin önünde dört bir yanı yemyeşil, aydınlık, gözleri kamaştıran rengarenk çiçekler açmış, suları şırıldayarak akan, türlü türlü kuşların cıvıldadığı, canlıların özgürce yaşadığı bir yer duruyormuş. Bunu gören dede: «Oh, oh ne güzel çayırlık, cennet dedikleri bundan güzel olamaz» diye düşünmüş. Dede yürüdükçe burnuna miski amber kokuları geliyormuş. İlerlemiş bir de ne görsün, yabani otların arasında muhteşem bir pınar parıldıyormuş. Deminki tuhaf kuş pınarın üstünde kısa bir süre ötüp kanatlarını açmış, yere konmuş, kanatlarını çırpıp güzel bir peri kızına dönüşmüş ve dedeye:

– Dede bu sihirli bir pınardır. Pınarın suyundan üç yudum içersen tüm dileklerin gerçekleşir, demiş.

Dede sevinçle peri kızına teşekkür etmiş, pınarın suyunu avuçlayıp hemencecik ağzına götürmüş. Ninenin «Kalk kalk.» diyen sesini duyup uyanan dede: «Tatlı rüyamı bozdun!» diye nineye kızmış. Sonra baltasını alıp dağa odun kesmeye gitmiş.

Heybetli Akbaş Dağı dedenin gözüne o gün her zamankinden daha güzel ve görkemli görünüyormuş. Yol boyunca demin gördüğü rüyayı düşünürken dağın içlerine doğru bir hayli ilerlemiş olduğunu fark etme-

miş. Dede aniden bir kuşun öttüğünü duyunca başını kaldırmış. Bir kuş takla atarak gelmiş, dedenin yamacına konmuş. Bu kuş ibikleri altın gibi parlayan, tüyleri tavustan daha renkli, kuyruğu üc-dört kulaç uzunluğunda muhteşem güzellikte bir kuşmuş. Bağına bir ok saplanmış olan kuş kan kaybediyormuş. Dede hemen kuşun bacağındaki oku çıkartıp atmış. Türlü türlü otları avucunda ezip suyunu kuşun yaralı bacağına sürmüş. Kuşağını yırtıp kuşun bacağını sarmış. Kuş çabucak iyileşip eski haline gelmiş ve kanatlarını açıp havalanmış. Sonra dedenin başı üzerinde dolanmaya, neşeyle tatlı tatlı ötmeye başlamış. Birkaç dakika sonra yere konarak muhteşem güzellikte bir kıza dönüşmüş. Dedeye selam verip şöyle demiş:

– Selam sana iyi kalpli dede. Siz bana iyilik ettiniz. Ben de şimdi iyiliğinize karşılık iyilik yapmak istiyorum. Gönlünüzden ne geçiyorsa söyleyin yardım etmeye hazırım, demiş.

Dede ne yapacağını bilememiş, şaşkınlıktan bulunduğu yerde bayılmış. Hayal mi gerçek mi diye başını sallamış, gözlerini ovuşturmuş, yattığı yerden kıza bakmış. Kömür gibi simsiyah saçlı, yay kaşlı, ahu gözlü, elma yanaklı, aydan da güneşten de güzel olan bu kız düşünde gördüğü Peri kızının ta kendisiymiş. Dede hayretler içerisindeymiş. Sonra bembeyaz sakalını sıvazlayarak gönlünden geçen arzu ve isteklerini bir bir sıralamış:

– Ey Peri kızı, şu bembeyaz sakalımı yok etmenin, bükülen belimi düzeltmenin bir yolu var mıdır?

Dedenin ne demek istediğini anlayan Peri Kızı:

– Elbette var dede. Bu Akbaş Dağı'nın buzlu zirvelerini görüyor musunuz? Eger orayı aşarsanız orada sihirli, güzel bir çeşme var. Fakat oraya giden yol oldukça zahmetli, geçitleri sarp ve tehlikelidir. Engelleri aşıp amacınıza erişmeye niyetiniz varsa ben size yardım ederim. Başınız dara düştüğünde bunu yakarsanız o anda yanınızda olurum, demiş ve dedeye kırmızı, sarı, yeşil renkli üç tane tüy vermiş. Sonra kuşa dönüşmüş ve dedenin başı üzerinden gökyüzüne doğru havalanmış.

Gür ağaçlarla kaplı dağın içlerine doğru uçarak gözden kaybolmuş.

Dede evine çok geç bir saatte dönmüş. Nineye ilginç bir kuş gördüğünü, onun bir Peri kızına dönüştüğünü, dağda sihirli bir pınar olduğunu, pınarın suyunun insanı gençleştirdiğini bir bir anlatmış. Nine inanılmaz derecede mutlu olmuş. Neredeyse sevinçten uçacakmış. İkisi karar vermişler ve dedenin sihirli pınara gitmesi için hazırlık yapmışlar. Kararlaştırılan günde dede nineyle vedalaşıp dağın zirvesine doğru yola çıkmış.

Dede az gitmiş uz gitmiş, sık bir ormana geldiğinde yolunu kaybetmiş, sola doğru yürümüş olmamış, sağa doğru yürümüş

olmamış, ileriye doğru yürümüş olmamış. Devam etmekte fayda görmemiş ama geri dönmeye de gönlü razı olmamış. Çaresiz kalmış, «Bari biraz dinlenip karnımı doyurayım.» diye oturmuş. Torbasına elini daldırmış. Eline peri kızının verdiği tüy gelmiş. Dede «Eh! İşte başım dara düştü, tüyü yakıp bir bakayım.» diye tüyü yakmış. Sıcak bir rüzgar çıkmış o anda karşısında evvelki kuş belirmiş:

– Selam dede, başınıza ne sıkıntı geldi, demiş.

Dede:

– Sık orman önümü kesti, yolumu bulamadım, kafam karıştı, demiş.

Kuş:

– Öyleyse bir meşale yakıp kuyruğuma bağlayınız ben size yolu gösteririm, demiş.

Dede meşaleyi yakıp kuşun kuyruğuna bağlamış. Kuş şimşek hızıyla ormanın üzerinde uçmuş, kuyruğundaki ateş ormanı tutuşturmuş, «Dur sus!» diyene kadar kısa zamanda bir ateş deryası oluşmuş ve dedenin önünde dümdüz bir yol açılmış.

Dede yoluna devam etmiş. Giderken korkunç bir yere gelmiş, dört taraftan kaplanlar, aslanlar, kurtlar, yılanlar, çıyanlar çıkmaya başlamış.

Dedenin ruhu çekilmiş, korkusundan beti benzi atmış, dizleri titremeye başlamış. Dede: «İşte şimdi bu yırtıcılara yem olacağım, gözüm bari görmesin.» diyerek elindeki torbayla yüzünü kapatınca torbadaki tüy yüzüne dokunmuş. Hemencecik çıkartıp yakmış, sıcak bir rüzgarla birlikte kuş yine ortaya çıkmış, dedeyi sırtına alıp uçurmuş. Çok geçmeden sarp bir geçidin üzerindeki ıssız bir yere bırakmış.

Dede, dağ geçidine varmış, az yürümüş yürümemiş şiddetli bir tipi başlamış. Dede bir adım dahi ilerleyemeden birkaç adım geriye savrulmuş. Gözünü açamadığından dik bir yamaçtan aşağı yuvarlanmış, şans eseri dağın belinin ortasındaki yaşlı bir ağacın dalına takılıp kalmış. Dede : «İşte şimdi sonum geldi, bu uçurumdan nasıl kurtulabilirim ki!» diye başını kaldırıp yukarı bakınca, ağacın küçük bir dalına takılıp kalmış olan torbasını ve torbadan düşmek üzere olan tüyü görmüş. Dede bin bir güçlükle tüyü yakalamış ve yakmış, yine sıcak bir rüzgar esmiş. Kuş dik uçurumda peyda olmuş ve dedeyi sırtına alıp oradan kurtarmış.

Dede dağın sırtını aşıp bir ovaya erişmiş. Ovaya bir göz atmış, gözünün önünde hayret verici, büyüleyici bir mekan uzanıyormuş, çevredeki dağlar pırıl pırıl ışık saçıyormuş, bahçeler olgunlaşmış ballı meyvelerle yüklü ağaçlarla doluymuş. Birbirinden güzel kuşlar ötüşüp daldan dala konuyor, geyikler, maralar, ceylanlar yemyeşil çimenler üzerinde huzur içinde oynaşıyormuş. Dede çimenlik boyunca rengarenk çiçeklerin üzerinde uçan rengarenk kelebek ve bal arılarını seyrede-

rek yürürken birden yabani otların arasındaki pınarı görmüş. Çeşmenin üzerinde deminki Peri kızı oturuyormuş. Peri kızı dedeyi görünce saygıyla ayağa kalkmış ve:

– Dede buraya ulaşabilmek için çok sıkıntı çektiniz, demiş.

Dede:

– Cefa olmadan sefa olmaz, kararlı olunmazsa amaca ulaşılmaz, demiş.

Peri kızı:

– Haydi dede, kıymetli pınarın suyundan üç avuç içiniz, demiş.

Dede:

– Susuzluktan dudaklarım yandı, içim kurudu, niçin kana kana iç demiyorsun da üç avuç iç diyorsun? diye sormuş.

Peri kızı:

– Bu özel bir pınar üç avuç içmek yeterlidir. Daha fazla içerseniz bebeğe dönüşürsünüz, demiş.

Dede:

– Peri kızı bu pınarın sırrı nedir? Anlatır mısın? diye sormuş.

Peri kızı:

– Tamam, olur. Meyve ve sebzelerin şırası, her gün bu pınarın suyuna karışır. Bunun için pınarın suyu gayet kuvvetlidir. Bu pınarın suyu insanı gençleştirmekle kalmaz. Her türlü hastalığa da şifadır. Yaralılar içerse bir daha hasta olmaz, demiş.

Dede, Peri kızının anlattıklarından pek memnun olmuş. Pınarın suyundan üç avuç içmiş ve pınarın başında uyuyakalmış. Bir zaman sonra uyanmış, üşür gibi olmuş. Kendisini son derece hafif hissediyormuş, çenesini sıvazlamış sakalları, bıyıkları yokmuş. Pınarın suyuna yansıyan görüntüsüne bakmış. Dede yakışıklı, sırım gibi bir yiğide dönüştüğünü görmüş. Sevinçten içi içine sığmıyormuş. Peri kızına tekrar tekrar teşekkür etmiş. Peri kızı yirmi yaşlarında bir delikanlıya dönen dedeye:

– Ey yiğit burada benimle yaşamak ister misin? diye sormuş.

Doğrusu aydan daha parlak, güneşten daha güzelmiş. O cihanda eşi benzeri olmayan olağanüstü güzellikte bir gülperi olsa da kendisine anlatmakla bitmeyecek ölçüde iyilikler etmiş olsa da «Pazarda bin kişi, gönülde bir kişi» sözündeki gibi dede haremi Seyide’nin yerine kimseyi koyamazmış. Peri kızına:

– Ey âlemde eşi benzeri olmayan sevgili gülperi, değersiz bir iyiliğim için bana yeniden genç olma şansını verdiniz. Siz olmasaydınız benim karanlık ormanı geçmem, yırtıcı hayvanlardan kurtulmam mümkün olmazdı. Size en derin duygularımla minnettarlığımı sunarım. Fakat teklifinizi kabul edemem çünkü kendi evimde hayat arkadaşım Seyide yolumu bekliyor, demiş.

Peri kızı, pınarın suyu gibi saf, temiz, altın kalpli dedenin söylediklerini hoş görmüş, ona sihirli pınardan bir kap daha suyu saygıyla uzatmış:

– Bunu hayat arkadaşınıza götürün o da üç yudum içsin, demiş.

Dede peri kızına tekrar içtenlikle teşekkür etmiş, bir kap suyu alıp yaşadığı yere doğru yola çıkmış. Dede dağdan inip evine yaklaştığında bir kucak odun kesip sırtlamış, bağıra çağıra şarkılar söyleye söyleye evine dönmüş. Nine bakmış ki, yakışıklı bir yiğit gelmiş eve giriyor. Şaşıp kalan nine:

– Ey yiğit sen kimsin, kimi aramaya geldin? demiş.

Dede gülerek:

– Beni tanımadın mı? Ben Seleycan. Kadınım Seyide`yi aramaya geldim, demiş.

Nine gözlerine inanamamış, bu denli bir değişmeye akıl erdirememiş. «Seley'in sağ kulağının altında bir ben vardı. Bu ben sende var mı, yok mu?» diyerek dikkatle yiğidin sağ kulağının altına bakmış. Bakmış ki, gerçekten de ben oradaymış. Nine Seley'in evden çıkmadan evvel söylediği sözleri hatırlayınca da yiğide inanmış. Bu gençleşmenin sebebini anlamış. Nine de: "Kıymetli pınarın suyunu içeyim, hemencecik genç bir kıza dönüşüp sana eş olayım," diyerek kabı Seley'in elinden almış. Seley üç yudumdan fazla içmemesini söylemiş. Nine kaptaki sudan üç yudum içip hemen oracıkta uykuya dalmış.

Sabah horozların ötmesiyle uyanan Seyide kendini çok hafif hissediyormuş. Yüzünü sıvazlamış örümcek ağı gibi olan kırışıklıklarının kaybolduğunu, bükülen belinin ince, nazik bir bele dönüştüğünü yüreğinin özgürce çarptığını, rahat bir şekilde nefes aldığını fark etmiş. Seyide dışarıya çıkıp çarkıfelek gibi döne döne oynamış. Seley'i görünce sevinçle kendini Seley'in kucağına atmış, Seley ile Seyide birbirine doyamamışlar, kırlarda birbirlerine güzel sözler söyleyerek geçmiş yılları yad etmişler. Bol bol bundan sonraki hayatlarında yapacakları hakkında konuşmuşlar ve yepyeni bir hayata başlamışlar.

Onların bu durumunu işiten uzaktan yakından tüm komşuları, eş dostları Seley ile Seyide'yi tebrik etmişler. Kıymetli pınarın suyuna ağız değdirerek iyileşen hastalar, Seley'e çok minnettar olmuşlar. Derken bu olay çok kısa bir zamanda ağızdan ağıza, kulaktan kulağa, o delikten bu deliğe, o diyardan bu diyara yayılmış. 'Kıymetli pınar suyuna ağzı değen insan hastalanmaz, ölüm halinde yatan adamlar bir damlada şifa bulup hayata döner, üç yudum içen yaşlılar genç bir yiğit olup bir daha ihtiyarlamaz' şeklindeki söylentiler her yana yayılmış.

*Kıymetli pınardan*
*Gençlik gelir yârim hey*
*Seley ile Seyide*
*Handan güler yârim hey.*

Yukarıdaki gibi şarkılar düzülmüş, karı koca, ihtiyarların dillerinde destan olmuş.

Seley ile Seyide'nin hayatını öğrenen karanlık düşünceli ağa ayağı yanmış tavuk gibi yerinde duramaz olmuş. Seley'i ve sihirli pınarın suyunu hemen kendilerine getirmeleri için emir erlerine buyruk vermiş. Çok geçmeden emir erleri Seley'i yere değdirmeden bir kap kıymetli pınar suyuyla beraber ağanın huzuruna getirmişler. Ağa kendisinden çok büyük olan Seley'in gencecik bir yiğide dönüştüğünü görünce kah inanarak, kâh inanmayarak yerde duran su kabını eline almış.

– Pekala. Seleycan sen gerçekten bu kaptaki sudan içip gençleştin öyle mi? diye sormuş.

Seleycen:

– Aynen, öyle ağam. Bu ak pınarın, gök pınarın suyu değil. Sihirli pınarın suyu, diye cevap vermiş.

Ağa:

– Biliyorum, biliyorum bu Allah'ın kudreti, bu suyun değerine paha biçilemez. Bu kaptaki abı-hayat olsa gerek. Evet Seley! Halk arasında «Elinden geldiğince halktan esirgeme» diye hikmetli bir söz vardır. Bu kıymetli suya bütün memleket halkının ağzını değdirmeye, bu sudan herkesi yararlandırmaya ne dersin? Onlar da Seyide ile ikinizin nur topu gibi bir çocuğunuz olması için dua ederler, ne dersin? demiş böbürlenerek.

Seley:

– Efendim, eğer dediğiniz gibi olursa tamam. Sihirli pınar suyunu memleket halkına bağışladım gitti, demiş.

Ağa sihirli pınar suyunu bu kadar kolay eline geçirebildiği için içten içe sevinerek:

– Sabah bütün memleket halkı sarayın önünde toplansın, sihirli pınarın suyunu içme töreni yapılsın, memleket halkı mutlu olsun, diye bir ferman çıkarılmasını emretmiş.

Ağa Seley'i uğurlayıp bir kap değerli pınar suyunu evine götürmüş. Bu işi hanımına anlatmış, hanımı ağaya:

– Ey mıymıntı, koca kafanda çiftçi kadar akıl yok mu? Böyle değerli, eşsiz bir nimeti halka mı vereceksin? Kendimiz içsek olmaz mı? Ey akılsız deli' » diye açmış ağzını, yummuş gözünü.

Ağa acele ettiğini düşünüp zehir yutmuş gibi pişman olmuş.

– Ancak henüz geç kalmış değiliz, demiş hanımı.

Karısı ağanın elinden kabı kaparcasına çekerek kabın ağzını açıp suyu içmek istemiş. Ağa, «O tüm suyu içip kendine sevgili bulmak istiyor» diye düşünmüş ve hasetle ona vurup onu bayıltmış. Kabı alıp suyu içmeye başlamış. Ağa, sihirli pınarın suyu ne kadar çok içilirse o kadar gençleşileceğim düşünerek suyun hepsini içmiş. Kabı tamamen boşaltmış. Bir süre sonra ezik şeftali gibi olmuş, gözleri kapanmış, kıyafetlerinin içinde kaybolup, uykuya dalmış.

Sabahleyin halk, ağanın sarayının önüne toplanmış, memleketin ileri gelenleri ve ağanın akrabaları saraya girip ağayı beklemeye başlamışlar. Öğlene kadar ağadan haber çıkmamış, valinin oğullarından biri «Ben gidip babama bakayım.» diye babasının odasına girdiğinde divanda «Inga inga!» diyerek ağlayan bir bebek görmüş, annesi de yerde baygın yatıyormuş. Bunu gören ağanın oğlu gördüklerini saraydakilere anlatmış. İleri gelenler ve ağanın akrabaları odaya girip bakmışlar, oğlanın söylediği gibi divanda bir bebek ağlamaktaymış. Sultan Hanım ise yerde baygın yatmaktaymış. Bu durumu görenler hayretle birbirlerine bakışmışlar. Ağanın bir oğlu:

– Bunda şaşılacak ne var, annem bilincini kaybederek düşüp kalmış, annemi kendine getirelim, demiş.

Bir süre sonra ağanın hanımı kendine gelmiş, divanda ağlayarak yatan bebeği görmüş:

– Aman Allah'ım gördünüz mü yavrularım babanızı? İşte açgözlülüğün sonu budur, diyerek ağlamış.

Ağanın çocukları bebeğe dönüşen babalarına bakarak:

– Şimdi buna baba mı diyelim, kardeş mi? diyerek ağlamışlar.

Seley, Seyide ve bütün halk ağanın açgözlülük edip bebeğe dönüştüğünü duymuşlar, alay ederek gülüşmüşler.

Ağanın ailesi bunun utancına dayanamayıp bir gece ortadan kaybolmuşlar, ağayı memleketine bırakıp uzaklara gitmişler.

Memleket halkı böylelikle zalim validen kurtulmuş. O günden sonra halk için mesut, bahtiyar bir hayat başlamış. Halk arasında kıymetli pınar için şöyle bir şarkı yayılmış:

*Kıymetli pınarın,*
*Sularını içersek biz*
*Güzel şans gelmez mi?*
*Gençlik çağına girersek biz...*

# Pişik və Siçan

Biri var idi, biri yox idi. Bir pişik və bir siçan var idi. Pişik bu siçanı güdür. Pişik baxır ki, siçan oturur. Siçan baxır ki, pişik güdür. Pişik güdür ki, siçan çıxsın. Siçan gözləyir ki, pişik getsin.

Bu, onu güdür, o, bunu gözləyir.

Pişik təngə gəlir və deyir:

– Ay siçan qardaş, ordan çıx boyunu görüm.

Siçan deyir:

– Mən öz boyumu görə bilmirəm, sən hardan görəcəksən, məndən kiçik canlı yoxdur.

– Çıx bir ayaqlarını görüm.

– Mənim ayaqlarımı mən görə bilmirəm, sən hardan görəcəksən?

Pişik deyir:

– Nə işə düşdük, ay siçan, bu dəlikdən çıx, o biri dəliyə gir, sənə bir qızıl verərəm.

Siçan deyir:

– Siçan qızılı nə edəcək, o qızılı apar zərgərlərə ver.

Pişik baxır ki, bu yolla da tuta bilməyəcək, siçanlar padşahına məktub yazır. Yazır ki, padşah sağ olsun, mən Həcc ziyarətinə gedəcəm, biz pişik xalqı siçan xalqına çox ziyan vurmuşuq, gəlin halallaşaq.

Padşah məktubu oxuyur, vəzirlərinə əmr edir ki, bütün siçan xalqını yığın, onlara müraciətim var. Vəzirlər bütün siçan xalqını yığırlar. Siçanlar padşahı deyir:

– Ey siçan xalqı, bizim pişik qardaş Həcc ziyarətinə gedəcək, o, məktub yazıb ki, halallaşaq, yoxsa ziyarətim qəbul olmaz.

Siçanların padşahı siçanlara əmr edir ki, gedin pişiklə halallaşın.

Pişik iki dəlik arasında oturur, yanına da iki qazan qoyur.

Bu pişik sağ dəlikdən gələn siçanları sağ tərəfindəki qazana qoyur, sol dəlikdən gələn siçanları sol tərəfindəki qazana qoyur və qazanın qapağını örtür.

Bu pişiklə qarşılaşan siçan baxır ki, siçan xalqının kökü kəsiləcək, siçan deyir:

– Ey siçan xalqı, ey siçanlar padşahı, niyyəti belə olan pişik Həccə gedərmi? Sizə xalq deyənin və səni də padşah seçənin gözü çıxsın.



**Cəlilova Nigar, 13 yaş**
***Axısqa türklərinin nağılı «Pişik və siçan» –***
***Ahıska Türklerinin masalı «Kedi ve Fare»***

# Kedi ve Fare

Biri varmış, biri yokmuş. Bir kedi ve bir fare varmış. Kedi bu fareyi gözetliyormuş. Kedi bakmış ki, bu fare oturuyor. Fare bakmış ki, kedi onu gözetliyor. Kedi farenin çıkmasını bekliyormuş, fare de kedinin gitmesini bekliyormuş.

Bu onu gözetliyor, o da bunun gitmesini bekliyormuş.

Sonunda kedi sıkılmış ve:

– Ulan, fare kardeş, oradan bir çık da boyunu posunu göreyim, demiş.

Fare:

– Dünyada benden küçük canlı yok, boyumu posumu ben kendim göremiyorum, sen nereden göreceksin ki, demiş.

Kedi:

– O zaman çık da, bir ayaklarını göreyim, demiş.

Fare:

– Ayaklarımı ben kendim göremiyorum, sen nereden göreceksin ki, demiş.

Kedi bakmış olacak gibi deyil, fareyi delikten çıkaramayacak, tekrar fareye seslenmiş:

– Ulan fare, ha şu delikten çik da, o biri deliğe gir, sana bir altın vereyim, demiş.

Fare:

– Ulan kedi, fare altını ne yapsın, o altını götür kuyumculara ver, demiş.

Kedi bakmış ki, bu taktik de işe yaramadı. Nihayet fareler padışahına bir mektup yazmaya karar vermiş. Mektupta: "Padişahım çok yaşa! Biz kedi halkı siz fare halkına çok zarar verdik. Şimdi ben hacca gideceğim, o yüzden sizlerle helallaşmak istiyorum." demiş.

Padişah mektubu okumuş ve vezirlerine: "Tüm fare halkına haber yollayın, onlarla görüşmek istiyorum." demiş.

Vezirler tüm fare halkını bir yere toplamış. Fareler padişahı:

– Ey fare halkı, bizim kedi kardeş bana bir mektup yazmış. Mektupta hacca gideceğini ve bu yüzden de bizimle helallaşmak istediğini, bizimle helallaşmazsa hacının kabul edilmeyeceğini yazmış. Şimdi ben sizlere emrediyorum, gidin kediyle helallaşın, demiş.

Bu arada kedi iki delik arasına oturmuş ve sağına soluna da birer tane kazan koymuş. Kedi sağ delikten gelen fareleri sağ kazana, sol delikten gelen fareleri de sol kazana toplamış ve ağzını da kapatmış.

Bu kediyle karşılaşan fare bakmış ki, fare halkının soyu kuruyacak. Fare demiş:

– Ey fare halkı, ey fareler padişahı, niyeti böyle olan bir kedi hiç hacca gider mi? Size halk diyenin, seni de padişah seçenin gözü çıksın.

# Sehrli göl



Biri vardı, biri yoxdu. Yaşlı bir ər-arvad var idi. Onlar Göy dağının ətəklərində yaşayırdılar. Kişi ov ovlayır, qadın isə ev işləriylə məşğul olurdu. Həyatlarını belə yaşayıb gedirdilər. Günlərin bir günü qadın xəstələnir. Nə yemək yeyir, nə də su içə bilir. Çox ağır xəstələnir. Elə bilirlər ki, öləcək. Qadının əri əlacsız qalır. Amma əlindən heç bir şey gəlmir. Arvadı isə gündən-günə ölümə doğru yaxınlaşırdı. Bir gecə qadın ərinə qısıq bir səslə dedi:

– Bir az yemək istəyirəm!

Arvadının yemək istəməsinə əri çox sevindi. Amma evdə yeməyə heç bir şey yox idi. Ər-arvadın yaşadığı yerdə çox varlı bir adam var imiş. Bu adam kormuş. Ona Kor Zəngin deyirdilər. Kişinin yadına Kor Zəngin düşür. Yaşlı kişi fikirləşir: «Səhər gedib Kor Zəngindən çörək bişirmək üçün bir az un istəyərəm». Ancaq bu, ürəyindən olmasa da, məcbur qalıb getməliydi.

Səhər tezdən evdən çıxdı. Elə getmək istəyərkən evin qabağındakı gölməçə gözünə dəydi. Baxdı ki, suyun qabağını çör-çöp kəsib. Su axmağa yol tapa bilmir. Yaşlı kişi tez əlinə bir kürək alıb suyun qabağını açdı. Su və suyun üstündəki köpüklər gedəcəkləri yerə doğru axmağa başladı. Bunu belə görən yaşlı kişi dedi:

– Hər şey olacağına varır, su axıb yolunu tapır.

Yaşlı kişi un istəmək üçün Kor Zənginin qapısına getdi. Kor Zəngin onu görəndə dedi:

– Nə istəyirsən?

Yaşlı kişi dedi:

– Bir az un istəyirəm. Arvadım çox ağır xəstədir və acdır. Evdə yeməyə heç bir şey yoxdu. Ona çörək bişirəcəyəm. Unun qarşılığında mən də sənə bir dəri verərəm.

Kor Zəngin dedi:

– Məndə dəri çoxdu. Dəri istəmirəm. Mən sənə bir qab un verim, onun yerinə sən də mənə gözlərini ver.

Yaşlı kişi əvvəl çox qorxdu. Amma başqa çarəsi yoxdu. Qulağına arvadının inləyərək dediyi «Bir az yemək istəyirəm» sözləri gəldi. Yaşlı kişi çarəsiz gözlərini Kor Zənginə verdi. Sonra da unu belinə alıb evinə tə-

rəf yola çıxdı. Amma təəssüflər olsun ki, evini tapa bilmədi. Nə edə bilərdi. Axı görmürdü. Birdən qulağına bir səs gəldi:

– İxtiyar, nə olub? Niyə eyni yerdə fırlanıb durursan?

Yaşlı adam dedi:

– Kimdi danışan? Mən görmürəm, koram!

– Biz su köpükləriyik. Sən bu səhər bizi evin qabağındakı gölməçədən xilas etdin. Sən bizə kömək etdin, biz də yolumuzu tapdıq.

Bu sözləri eşidən yaşlı kişi bütün başına gələnləri su köpüklərinə danışdı. Su köpükləri yaşlı kişiyə dedi:

– Su səsini təqib et, səni sehrli gölə aparaq.

Yaşlı kişi su səsini təqib etdi. Bir yerə gəlib çatanda su köpükləri dedi:

– Budur, bura sehrli göldür. O, yaxşı adamlara kömək edir. Gözlərini gölün suyu ilə yu.

Yaşlı kişi belindəki yükü yerə qoyub üzünü gölün suyu ilə yudu. Elə o andaca kişinin gözləri yenidən açıldı və gördü. Tez evinə gəldi. Çörək bişirib, arvadını doyuzdurdu. Xəstə qadın bir müddət sonra sağalıb ayağa qalxdı.

Kor Zəngin isə yoxsul adamın gözlərini alsa da, ona bir faydası olmadı. Bir müddət sonra gözləri yenə kor oldu. Çünki varlı adam pis insandı. Kasıb kişi Kor Zənginə görə çox kədərləndi və ona kömək etmək istədi. Amma yoxsul adamın bilmədiyi bir şey var idi: Sən demə, varlı adam uşaqlıq vaxtlarında gözləri yenicə açılan köpək balalarını gölə atırmış. Bir gün yenə köpək balalarını gölə atanda böyük bir dalğa gəlib varlı adamın üzünə zərbə ilə vurur və varlı adam o gündən sonra kor olur. Beləliklə də, varlı adam cəzasını alır.

Yaşlı kişi Kor Zənginin yanına gedib sehrli göldən bəhs etdi. Bunu eşidən Kor Zəngin çox qəzəbləndi və dedi:

– O gölü yox edəcəyəm, qumla, daşla dolduracağam.

Yaşlı adam onun bu sözlərinə çox kədərləndi və evinə döndü. Arvadı ona təsəlli verib dedi:

– Sən heç kədərlənmə. Kor Zəngin sehrli gölə heç bir şey edə bilməz. O gölə boş yerə sehrli göl demirlər.

Yaxşılıq edən yaxşılıq, pislik edən də pislik görür və nağıl da burada sona çatır.



**Babayeva Günel, 13 yaş**
*Xakas nağılı «Sehrli göl» – Hakas masalı «Sihirli Göl»*

# Sihirli Göl

Biri varmış, biri yokmuş, bir karı koca varmış. Onlar, Gök Dağ'ın eteğinde yaşıyorlarmış. Koca avlanır, kadın ev işleriyle uğraşırmış. Hayat böyle devam ederken bir gün kadın hastalanmış. Yemek yiyemiyor, su içemiyormuş, öyle hastaymış ki, ölecek gibi görünüyormuş. Kadının kocası çaresiz kalmış. Karısı ölüme her gün bir adım daha yaklaşıyormuş. Bir gece kadın kocasına kısık bir sesle:

– Biraz yemek istiyorum! demiş.

Karısının bu isteğine adam çok sevinmiş. Fakat evde yiyecek bir şey yokmuş. Karı kocanın yaşadığı yerde çok zengin bir adam varmış, bu adam körmüş. Ona Kör Zengin derlermiş. Adamın aklına Kör Zengin' e gitmek gelmiş.

Yaşlı Adam:

– Sabah gider, ekmek yapmak için Kör Zengin'den un isterim, diye düşünmüş. Ancak içinden gitmek gelmiyormuş. Ama mecburen sabah erkenden evden çıkmış. Tam gidecekken gözü evin önündeki su birikintisine takılmış. Suyun yolunu çer çöp kapamış, su ve su köpükleri akacak yol bulamıyormuş. Adam hemen bir kürek almış ve birikintinin önünü açmış. Su ve su köpükleri akıp gidecekleri yere ulaşmışlar. Bunu gören yaşlı adam şöyle düşünmüş:

– Her şey olacağına varıyor, su yolunu buluyor.

Adam kararlı bir şekilde un istemek için Kör Zengin'in kapısına gitmiş.

Kör Zengin adama:

– Ne istiyorsun? diye sormuş.

Adam:

– Biraz un istemeye geldim, karım hasta ve aç. Evde yiyecek bir şey yok. Ona ekmek yapacağım. Unun karşılığında ben de sana avladığım hayvanlardan birinin derisini vereyim.

– Bende deri çok! Ben sana bir kap un vereyim, onun yerine sen de bana gözlerini ver, demiş Kör Zengin.

Yaşlı adam önce korkmuş, ama ne yapsın, kulağına karısının yalvaran sesi geliyormuş: «Biraz yemek istiyorum!» diye.

Adam çaresiz bir şekilde gözlerini Kör Zengin'e vermiş, sonra unu yüklenerek, evine doğru yola çıkmış, ne var ki, evin yolunu bulamamış. Göremiyormuş ne yapsın! Ansızın kulağına bir ses gelmiş.

– Ne oldu ihtiyar? Niçin aynı yerde dönüp duruyorsun?

İhtiyar:

– Konuşan kim? Ben körüm! demiş.

– Biz su köpükleriyiz. Sen bizi bu sabah evinin önündeki su birikintisinden kurtardın. Sayende yolumuzu bulduk.

Bu sözleri duyan kör adam su köpüklerine olanları bir bir anlatmış. Köpükler adama:

– Su sesini takip et, seni Sihirli Göl'e götürelim, demiş.

Su sesinin peşi sıra gitmiş ihtiyar. Bir yere geldiklerinde su köpükleri:

– İşte burası Sihirli Göl. O, iyi insanlara yardım eder. Gözlerini onun suyuyla yıka, demiş.

Yaşlı yükünü bırakıp, yüzünü gölün suyuyla yıkamış. O anda adamın gözleri yeniden görür olmuş. Hemen evine dönmüş, ekmek yapıp, karısını doyurmuş. Hasta kadın kısa zamanda iyileşip ayağa kalkmış.

Kör Zengin, yoksul adamın gözlerini almış, ancak o gözler zengine bir faydası olmamış. Gözler bir süre sonra yine görmez olmuş. Çünkü zengin kötüymüş, fakir adam onun için çok üzülmüş, ona yardım etmek istemiş. Yoksul adamın bilmediği bir şey varmış: meğer zengin adam çocukken gözleri yeni açılan köpek yavrularını göle atarmış. Bir gün, yine köpek yavrularını göle atarken, büyük bir dalga gelip, zenginin yüzüne var gücüyle çarpmış. Zengin cezasını bulmuş. O günden sonra onun gözleri görmez olmuş.

Yaşlı adam, Kör Zengin'e gidip Sihirli Gol'den bahsetmiş. Bunu duyan Kör Zengin çok sinirlenmiş. «O gölü yok edeceğim kumla, taşla doldurtacağım.», demiş.

Bunu duyan yoksul adam üzülerek evine dönmüş. Karısı onu teselli etmiş ve şöyle demiş:

– Sen hiç üzülme. Kör Zengin Sihirli Göl'e bir kötülük yapamaz. O göle, boşuna Sihirli Göl demiyorlar, demiş.

İyilik iyiliği yapana, kötülük kötülüğü yapana dönmüş, masal da burada son bulmuş.

# Kasıb kişinin nağılı

Biri vardı, biri yoxdu, bir kişi ilə bir arvad vardı. Kişi də, arvad da qocalmışdılar. Arvad düz üç ilə üç dənə paltar toxudu. Paltarları ərinə verib dedi:

– Apar bunları sat.

Kişi paltarları götürüb yola düşdü. O, yolda bir çobana rast gəldi. Çoban bir siçan tutmuşdu, istəyirdi bu siçanı öldürsün. Kişi ondan soruşdu:

– Siçanı niyə öldürürsən?

Çoban dedi:

– Bu, mənim yeməyimin içinə girib, onu korlayıb.

Kişi dedi:

– Siçanı öldürmə, al, əvəzində bu paltarı verim.

Çoban razılaşdı, dedi:

– İndi ki belədir, onda siçanı öldürməyib buraxıram.

Kişi paltarın birini ona verib yoluna davam etdi. O, başqa bir çobana rast gəldi. Baxdı ki, bu çoban da bir dovşanı öldürmək istəyir. Kişi soruşdu ki, nəyə görə dovşanı öldürürsən? Çoban dedi:

– Bu, mənim divarımın dibini oyur.

Kişi dedi:

– Dovşanı öldürmə, əvəzində paltardan birini sənə verərəm.

Bu çoban da razı oldu, dedi:

– İndi ki belədir, dovşanı buraxıram.

Kasıb kişi dovşanı da buraxdırıb, yoluna davam etdi. Gəldi çıxdı bir başqa çobanın yanına. Bu çoban da bir qurd tutmuşdu, istəyirdi ki, qurdu öldürsün. Kişi bunu görüb dedi:

– Qurdu niyə öldürürsən?

Çoban dedi:

– Bu, mənim qoyunlarımı yemək istəyirdi.

Kişi dedi:

– Gəl sən bunu burax, əvəzində bu paltarı sənə verim.

Çoban paltarı görən kimi o saat razılaşdı, dedi:

– Əgər belədirsə, onda qurdu buraxıram getsin.

Kişi axırıncı paltarı da bu çobana verib geri qayıtdı. Arvadı ondan soruşdu ki, paltarları neylədin? Kişi dedi:

– Mən paltarları verib qurdu, dovşanı, siçanı ölümdən qurtardım.

Arvad dedi:

– A kişi, mən üç ilə güclə o üç paltarı toxumuşdum, sən isə onları verib heyvanları xilas edibsən.

Kişi arvadına heç bir cavab verə bilmədi. Bu vaxt siçan gəldi. Baxdı ki, budu, dovşan dişində kök gəlir, qurd dişində bir öküz budu gətirir. Hər üçü toplaşdılar kişinin həyətinə. Siçan qurddan soruşdu ki, sən bu öküz budunu neyləyirsən?

Qurd dedi:

– Bu kişi paltar verib məni ölümdən qurtarıb. Mən də bu yaxşılığın əvəzində ona bir öküz budu gətirmişəm.

Siçan üzünü dovşana tutub dedi:

– Bəs sən niyə kök gətiribsən?

Dovşan dedi:

– Bu kişi paltar verib məni ölümdən qurtarıb. Mən də əvəzində ona kök gətirmişəm.

Siçan dedi:

– Dostlar, bu budun da, bu kökün də kasıb kişiyə xeyri yoxdur. Gəlin bu kişiyə qiymətli bir şey gətirək, bununla da bu kişi kasıblığın daşını atsın.

Qurdla dovşan bir ağızdan dedilər:

– Biz ona qiymətli nə gətirə bilərik ki?

Siçan dedi:

– Gəlin əvvəlcə gedək xanın sarayına.

Qurd dedi:

– Bəs kişiyə nə gətirək?

Siçan dedi:

– Ağlıma belə bir şey gəlib. Qurd, sənin ayaqların uzundur, ona görə də sən yaxşı qaçırsan. Dovşan, sən min qurdun belinə, mən də sənin qulaqlarının arasında gizlənim. Gəlin tez xanın evinə gedək, orada mən fikrimi deyərəm.

Onlar gəlib çıxdılar xanın sarayına. Siçan dedi:

– Siz burada durun, mən bu saat xanın arvadının ipək sapını oğurlayıb gətirəcəm. Sapın bir ucunu mənim ayağıma bağlayarsız, o biri ucunu da özünüz tutarsınız. Mən girəcəyəm xanın xəzinəsinə, sapı tərpətsəm, çəkin.

Siçan dediyi kimi də edib, xanın xəzinəsini götürüb gəldi. Qurd xəzinəni aldı ağzına, dovşan çıxdı qurdun belinə, siçan da çıxıb oturdu dovşanın iki qulağının arasında. Qurd başladı qaçmağa. Bunlar gəlib dağın təpəsinə çatdılar. Dovşan qorxub qışqırdı:

– Qardaş!

Qurd – hə – deyəndə ağzındakı xəzinə dağdan aşağı düşdü. Hər üçü çox pis oldular. Siçan qurda dedi, get sap gətir. Qurd qaçıb sap gətirdi. Sapın bir ucunu bağladılar siçanın ayağına, bir ucundan da qurd tutdu. Siçan düşdü dərənin dibinə, xəzinəni götürdü. Qurd da sapı dartıb siçanı çıxartdı. Siçan dedi:

– Qurd qardaş, bir də ağzından salma.

Qurd dedi:

– Onda mənə qardaş deməyin, desəniz, salacağam.

Dovşan söz verdi ki, bir də heç nə deməyəcək. Dovşan qalxdı oturdu qurdun kürəyində, siçan da oturdu dovşanın iki qulağının arasında. Qurd xəzinəni ağzı ilə tutub qaçmağa başladı. Gəlib gölə çatdılar. Dovşan yenə qorxub «qardaş» dedi, qurd «hə» deyəndə xəzinə ağzından düşdü suya. Bu dəfə hər üçü peşman oldular. Siçan özünü itirməyib suya tullandı. Qurbağalara və balıqlara dedi:

– O parıldayan şey gölün dibinə hardan düşüb? Onu mənə verin.

Qurbağalarla balıqlar xəzinəni götürüb verdilər siçana. Siçan xəzinəni alıb göldən çıxdı. Qurd təzədən xəzinəni götürdü. Dovşan mindi onun belinə, siçan da oturdu dovşanın iki qulağının arasında. Onlar gəlib kasıb kişinin evinə çatdılar. Siçan qapını döydü ve kişi qapını açdı. Bu vaxt qurd, dovşan, siçan xəzinə əllərində girdilər içəri. İçəri girib kişiyə belə dedilər:

– Sən paltarları verib bizi ölümdən xilas etdin. Biz də yaxşılığı unutmayıb sənə xəzinə gətirdik.



**Quliyeva Zöhrə, 13 yaş**
*Sarı uyğur nağılı «Kasıb kişinin nağılı» –*
*Sarı Uygur masalı «Yoksul Adamın Masalı»*

# Yoksul Adamın Masalı

Biri varmış, biri yokmuş, bir karı koca varmış. İkisi də çok yaşlanmışlardı. Kadın tam üç yıla üç elbise dokumuş ve elbiseleri kocasına vererek:

– Götür bunları sat, demiş.

Adam elbiseleri almış ve yola çıkmış. O yolda bir çobana rastlamış. Görmüş ki, çoban bir fare yakalamış ve onu öldürmek istiyor. Adam ona:

– Hey, çoban kardeş, fareyi neden öldürmek istiyorsun? demiş.

Çoban:

– Bu fare benim yemeğimin içine girdi ve onu mahv etdi, demiş.

Adam:

– Fareyi öldürme, ben de karşılığında bu elbiseyi sana vereyim, demiş.

Çoban kabul etmiş və demiş:

– Peki, o zaman ben de fareyi öldürmüyor ve bırakıyorum.

Adam elbisenin birini çobana vermiş ve yoluna devam etmiş. Sonra adam başka bir çobana rastlamış. Bakmış ki, bu çoban da bir tavşan yakalamış və onu öldürmek istiyor. Adam yine:

– Hey, çoban kardeş tavşanı neden öldürmek istiyorsun? demiş.

Çoban:

– Bu tavşan benim duvarımın dibini oymuş, demiş.

Adam:

– Tavşanı öldürme, karşılığında bu elbiselerden birini sana vereyim, demiş.

Çoban razı olmuş ve:

– Öyleyse, ben de tavşanı bırakıyorum, demiş.

Yoksul adam tavşanın da hayatını kurtarmış və yoluna devam etmiş. Yolda yürürken başka bir çobanla yine karşılaşmış. Bu çoban ise bir kurt yakalamış ve onu öldürmek istiyormuş. Yoksul adam bunu görünce dayanamamış ve çobana sormuş:

– Hey, çoban kardeş, kurdu niçin öldürmek istiyorsun?

Çoban:

– Bu kurt, benim koyunlarımı yemek istiyordu, demiş.

Adam:

– Hadi gel sen bu kurdu bırak, öldürme, karşılığında bu elbiseyi sana vereyim, demiş.

Çoban elbiseyi görünce hemen razılaşmış ve:

– Peki, o zaman kurdu bırakayım gitsin, demiş.

Yoksul adam sonuncu elbiseyi de bu çobana verip geri dönmüş. Karısı ona elbiseleri ne yaptığını sormuş. Adam:

– Ben elbiseleri verip farenin, tavşanın və kurdun hayatını kurtardım, demiş.

Karısı:

– Ben üç yıl boyunca o elbiseleri ne zorluklarla dokudum. Sen ne yaptın? Elbiseleri verip hayvanların hayatını kurtarmışsın.

Adam karısına hiçbir şey söyleyememiş. İşte tam bu sırada fare gelmiş. Bir bakmış işte tavşan, ağzında bir havuçla gelmiş. Arkasından kurt, ağzında bir öküz budu getirmiş. Hayvanların üçü de adamın bahçesinde toplanmışlar. Fare kurda sormuş:

– Sen bu öküz budunu ne yapacaksın?

Kurt:

– Bu adam, çobana bir elbise verip benim hayatımı kurtardı. Ben de onun bu iyiliğinin karşılığında ona bir öküz budu getirdim, demiş.

Sonra fare tavşana sormuş:

– Peki, sen neden bu havuçu getirdin?

Tavşan da aynı cevabı vermiş:

– Bu adam, çobana bir elbise verip benim hayatımı kurtardı. Ben de onun iyiliğinin karşılığında havuç getirdim.

Fare:

– Arkadaşlar, bu budun da, havucun da yoksul adama hiçbir faydası yok. Biz bu adama öyle değerli birşey getirelim ki, o, yoksulluktan kurtulsun, demiş.

Kurtla tavşan fareye sormuşlar:

– Biz ona değerli ne getirebiliriz ki?

Fare:

–Hadi önce gidelim hanın sarayına, demiş.

Kurt:

– Peki, gidelim de ama, biz bu yoksul adama ne getireceğiz? demiş.

Fare:

– Aklıma bir şey geldi. Kurt kardeş, senin ayakların uzundur, o yüzden de sen iyi koşuyorsun. Tavşan kardeş sen kurdun sırtına bin, ben de senin kulaklarının arasında saklanayım. Hadi, hemen hanın evine gidelim, ben aklımdan geçenleri orada söyleyeceğim. Onlar gelip hanın sarayına varmışlar. Fare:

– Siz burada bekleyin, ben hanın hanımının ipek ipliğini çalıp getireceğim. İpliğin bir ucunu benim ayağıma bağlarsınız, diğer ucundan da siz tutun. Ben hanın hazinesine gireceğim, ipliği kıpırdatınca beni hemen çekin, demiş.

Fare söylediği gibi yapmış ve hanın hazinesine girmiş ve oradan bir çuval altın alıp arkadaşlarının yanına gelmiş. Kurt altın dolu çuvalı ağzına almış, tavşan kurdun sır-

tına binmiş, fare de çıkıp tavşanın kulaklarının arasına oturmuş. Kurt koşmaya başlamış. Onlar gelip bir dağın tepesine ulaşmışlar. Tavşan korkmuş ve:

− Kardeş! diye bağırmış.

Kurt, «Efendim!» der demez ağzındaki çuval dağdan aşağı yuvarlanmış. Üçü de çok üzülmüşler. Fare kurda:

− Git, bir iplik bul getir, demiş.

Kurt hemen koşup bir iplik bulup gelmiş. Yine ipliğin bir ucunu farenin ayağına bağlamışlar, diğer ucundan da kurt tutmuş. Fare dereye inip çuvalı almış, kurt da fare ile birlikde çuvalı dereden yukarı çekip çıkarmış. Fare:

− Kurt kardeş, dikkat et çuvalı tekrar ağzından düşürme, demiş.

Kurt:

− O zaman kimse bana kardeş diye seslenmesin. Eğer seslenirseniz tekrar çuvalı ağzımdan düşürürüm, demiş.

Tavşan söz vermiş ki, bir daha hiçbir şey söylemeyecek. Yine tavşan kurdun sırtına binmiş, fare de tavşanın kulaklarının arasına oturmuş. Kurt çuvalı ağzına almış ve koşmaya başlamış. Onlar bir süre sonra gelip bir gölün sahiline ulaşmışlar. Tavşan yine korkmuş ve:

− Kardeş, diye bağırmış.

Kurt, «Efendim» deyince bu kez de çuval ağzından suya düşmüş. Yine üçü de çok üzülmüşler. Fare kendini toplamış ve hemen suya atlamış. Kurbağalara ve balıklara:

− O parlayan şey gölün dibine nereden düştü? Onu bana verir misiniz? demiş.

Kurbağalar ve balıklar çuvalı alıp fareye vermişler. Fare de çuvalı alıp gölden çıkmış. Kurt yeniden çuvalı ağzına almış. Tavşan kurdun sırtına binmiş. Fare de tavşanın kulaklarının arasına oturmuş. Nihayet, onlar gelip yoksul adamın evine varmışlar. Fare kapıyı çalmış. Yoksul adam kapıyı açınca kurt, tavşan ve fare altın dolu çuvalla birlikde içeri girmişler ve adama:

− Sen elbiseleri verip bizim hayatımızı kurtardın. Biz de senin yaptığın iyiliği unutmadık ve karşılığında sana bu altın dolusu çuvalı getirdik, demişler.

# Tənbəl oğlanın nağılı

Bir vaxtlar ölkələrin birində kasıb bir kişi yaşayırdı. Kasıb kişinin bir oğlu var idi. Bu oğlan çox tənbəldi. Atası ona nə zaman bir iş tapsa, iki-üç gün sonra ustası onu geri gətirib: «Mənə belə tənbəl oğlan lazım deyil» – deyib gedərdi.

Bir səhər oğlan yatağından qalxıb anasına dedi:

–Ana, get padşahın qızını mənə istə.

Anası dedi:

– Yaxşı, oğlum, gedim istəyim.

Oğlanın anası padşahın sarayına getdi. Ancaq gözətçilər qadına padşahın hüzuruna çıxmağa icazə vermədilər. Qadın yalvarıb-yaxardı, axırda içəri girmək üçün icazə aldı. Qadın padşahın hüzuruna çıxıb ona dualar etdi və böyük bir hörmətlə əyilib ətəyindən öpdü. Padşah qadına dedi:

– Otur görüm, nə üçün gəlmisən?

Qadın cavab verdi:

– Baş mənim, qılınc sənin. Allahın iznilə qızını oğluma istiyirəm.

Padşah güldü və dedi:

– Ana, get oğluna de ki, əgər mənə dünyada heç kimin bacarmadığı üç hünər göstərə bilsə, qızımı ona verərəm.

Qadın evinə gəldi və oğluna dedi:

– Get dedin, getdim. Qulaq as indi. Əgər padşaha dünyada heç kimin bacarmadığı üç hünər göstərə bilsən, qızını sənə verəcək. Bunu edə bilərsənmi, oğlum?

Oğlu dedi:

– Edə bilərəm, ana.

Bir ay keçdikdən sonra atası tənbəl oğlana dedi:

– Gəl başqa bir məmləkətə gedək, orada səni bir aşpazın yanına şagird qoyum.

Hazırlanıb yola çıxdılar. Xeyli yol getdikdən sonra oğlanın atası böyük bir daş görür və deyir:

– Gedim o daşa kürəyimi söykəyib bir az dincəlim.

«Of» – deyərək oturub daşa söykəndi.

Kişi «Of!» deyər-deməz gördü ki, boyu bir qarış, saqqalı iki qarış bir ərəb peyda oldu və ondan soruşdu:

– Nə istəyirsən?

Kişi dedi:

– Heç bir şey. Mən səni çağırmadım.

Ərəb dedi:

– Mənim adım Ofdu və əlbəttə ki, məndən bir istəyin olmalıdır.

Kişi dedi:

– Səndən heç bir istəyim yoxdu.

Of soruşdu:

– Bu oğlanı haraya aparırsan?

Kişi cavab verdi:

– Filan məmləkətə aparıram. Bir ustanın yanına şagird qoyacağam.

Of dedi:

– Əgər oğlanı mənə versən, sənə otuz gümüş pul və üstündə də bir paltar verərəm. Oğluna da çox yaxşı baxaram, hər şeyi öyrədərəm.

Oğlanın atası: «Yaxşı verirəm» – deyib oğlanı Ofa verdi və özü də çıxıb getdi.

Sonra Of daşı qaldırdı və oğlanı bir quyuya endirdi. Of oğlanın qabağına bir ovuc daş qoyub: «Bunları say» – dedi və özü də ova getdi. Bu Ofun yanında bir dənə də qız varmış. Bu qız Hind padşahının qızı idi. Of qızı özünə həyat yoldaşı etmək üçün qaçırıb gətirmişdi. Qız oğlanı görəndə bədəninə bir istilik gəldi, ona qarşı içində sevgi hissi oyandı. Oğlana dedi:

– Bu daşları sayanda hamısını sayma, burda toplam səksən daş var. Of bunların sayını səndən soruşanda həmişə üç-dördünü əksik de.

Qız hər gün oğlana cürbəcür şeylər öyrədirdi. Of da hər gün gəlib-gedib soruşurdu:

– Neçə dənə saydın?

Oğlan deyirdi:

– Yetmiş yeddi dənə saydım.

Ərəb oğlana qəzəblənib dedi:

– Səhərə qədər hamısını saya bilməsən, səni öldürəcəyəm.

Həmişə olduğu kimi yenə Of səhər tezdən ova getdi. Qız isə oğlana yeni bacarıqlar öyrədirdi. Oğlanın atası tam bir il sonra gəldi və Ofa dedi:

– Oğlumu almağa gəlmişəm.

Of dedi:

– İxtiyar, qoy bir il də qalsın, çünki bir şey öyrədə bilməmişəm.

Əgər atası oğlunu zorla almaq istəsə, Of oğlanı yeyəcəkmiş. Ancaq necə olursa Of oğlanı yemir və atası oğlunu alıb gedir. Bir-iki saat keçdikdən sonra oğlan atasına deyir:

– Ata, siz yaşlısınız, çox yeriyə bilmirsiz. Mən ağ bir at olum, min belimə, səni aparım. Şəhərə çatanda mənim gözəlliyimi görənlər mənə heyran olacaqlar. Padşahın adamları və ya başqaları məni satın almaq istəsələr min qızıldan aşağı satma və başımdakı nişanı da vermə. Beş min versələr də, nişanımı satma.

Sonra oğlan dediyi kimi ağ bir at oldu, atası da belinə minib şəhərə gəldi. Padşahın adamları ilə qarşılaşdılar. Padşahın adamları soruşdu:

– Ey, ixtiyar! Bu atı bizə satarsan?

İxtiyar dedi:

– Yaxşı qiymət versəniz sataram.

Bazarlıq etdilər və ixtiyar atı səkkiz yüz doxsan qızıla satdı və başındakı nişanı da alıb evinə getdi. Padşahın adamları atı gətirib axıra bağladılar. Yem və su verdikdən sonra qapısını kilidləyib getdilər. Yemini yedikdən sonra oğlan silkələnib balaca bir siçan oldu. Qapının deşiyindən çıxıb insana çevrildi və evinə getdi. Anası oğlunu görəndə çox sevindi və gözlərindən öpüb dedi:

– Xoş gəlmisən, oğlum.

Oğlan dedi:

– Ata artıq az-çox malımız-mülkümüz var. Qismət olsa, mən qara bir ayğır olaram, sən yenə məni aparıb satarsan. Bax, min qızıldan aşağı satma məni, unutma nişanımı da vermə.

Oğlan dediyi kimi qara bir ayğır oldu. Atası onu satmağa apardı. Atası qara ayğırı min qızıla satdı. Oğlan yenə əvvəlki kimi edib evə gəldi. Bir gün də boz bir at oldu. O gün Of da quyudan çıxdı və dedi:

– Gedim, baxım, bu oğlan cürbəcür şeylər öyrəndi. Gedib xalqı aldadıb pulunu alar.

Oğlanın atası da boz ayğırın nişanını alıb bazarda gəzərkən Ofla qarşılaşdı. Of dedi:

– Ata, bu atı mənə satarsan?

İxtiyar Ofu tanımır və deyir:

– Sataram.

Bazarlıq edirlər və ixtiyar atı beş yüz qızıla satdı. Of pulunu verdi. İxtiyar da pulu aldıqdan sonra atın başındakı nişanı çıxaranda Of dedi:

– Olmaz, mən sənə beş yüz qızıl verdim. Nişanı da mənə verəcəksən!

İxtiyar dedi:

–Beş yüz qızıl əlavə versən də, nişanı verməyərəm.

Vəziyyəti belə görən Of bir neçə yüz qızıl da əlavə verib həm atı, həm də nişanı aldı. İxtiyar evinə gəldi. Of da daşın yanına gəlib atdan düşdü və dedi:

– İndi mən sənə insanları aldadıb pullarını almağın nə demək olduğunu göstərərəm.

Sonra daşı qaldırıb atla birlikdə quyuya endi. Atın üç ayağını bağladı, bir ayağını bağlamadı. Qızı çağırıb dedi:

– Mənim bıçağımı get gətir, bunu kəsib kabab bişirəcəyəm.

Qız oğlanı tanıdı, bıçağı bir yerdə gizlətdi və səsini çıxarmadı. Of yenidən qışqırdı:

– Bıçağı gətir!

Qız dedi:

– Bıçağın harada olduğunu bilmirəm.

Of dedi:

– Onda sən gəl dur yanında bir yerə qaçmasın. Mən özüm bıçağı tapıb gətirərəm.

Qız oğlanın yanına gəldi, Of da bıçağı tapmağa getdi. Qız oğlana dedi:

– İndi səni kəsəcək! Mənə bir təpik at, mən sənə nərdivanlı bir qapı olacağam.

Əgər qaça bilsən, ondan xilas olarsan, qaça bilməsən öləcəksən!

Oğlan qıza bir təpik atdı və qız bir qapı olub açıldı. Oğlan bir dovşan olub qaçdı.

Qız da qışqıraraq dedi:

– Oy, ayağım qırıldı.

Of oğlanın bir dovşan olub qaçdığını görüncə o da bir təkə olub: «Hey, hey» deyərək onu qovmağa başladı.

Təkənin ona yaxınlaşdığını görən oğlan bir quş olub «pırrr» edib uçdu. Of da böyük bir quş olub onu qovmağa davam etdi.

Oğlan: «Tez şəhərə çatım» – deyər-deməz şəhərə çatdı. Sonra padşahın qızının qaldığı otağının pəncərəsindən içəri girib bir qərənfil oldu və qızın işlədiyi naxışın üstünə düşdü. Böyük quş isə pəncərənin kənarına qonub içəri baxanda gördü ki, padşahın qızı qərənfili iyləyib qoynuna qoydu. Of dedi:

– Tüh, oğlan əldən getdi!

Of uçub yerə qondu və insana döndü. Sonra padşahın qapısındakı adamlara dedi:

– Nə olar, məni də yanınıza alın. Mən də padşaha xidmət edim, pul istəmirəm, heç bir şey istəmirəm, sadəcə qarnım doysun, o, mənə bəsdi.

Qapıçılar: «Yaxşı, olar» – dedilər.

Of verilən bütün işləri yaxşı yerinə yetirirdi. Bir gün padşah ona bir iş tapşırdı. O da tapşırılan bu işi çox gözəl bir şəkildə yerinə yetirdi. Padşah ona dedi:

– Dilə məndən nə dilərsən!

Ərəb dedi:

– Sağlığınızı, padşahım!

Padşah üç dəfə təkrar etdi. Of da hər dəfə: «Sağlığınızı, padşahım» – dedi.

Padşah dedi:

– Mənim sağlığımın sənə bir xeyri yoxdu, nə istəyirsən de.

Vəziyyəti belə görən Of dedi:

– Qızınızın qoynunda bir qərənfil var, onu alıb mənə versəniz, çox şad olaram.

Padşah dedi:

– Canım, onu nə edəcəksən? Mən sənə üç min qızıl verim.

Of dedi:

– Xeyr, padşahım! Mən pul düşkünü bir insan deyiləm.

Axırda padşah qızından qərənfili alıb onu Ofa verdi. Qərənfil bir anda yarpaq olub yerə düşdü. Of da tez bir tırtıl olub yarpağı yeməyə başladı. Yarpağın tilsimi onun damarında idi. Sonra yarpağın damarı bir ovuc dən oldu. Padşah da olanlara təəccüblə «Bunun axırı nə olacaq» – deyə tamaşa edirdi.

Of tez bir xoruz olub dəni yeməyə başladı. Sonra dən də bir köpək olub xoruzu qanadlarından tutdu, yəni Ofu yedi. Padşah gördükləri qarşısında çaşıb qalmışdı: «Bunun axırı necə olacaq? Köpəyin axırı nə olacaq?» – deyə mat-məəttəl baxırdı.

Nəhayət, köpək qalxdı və silkələnib bir insana çevrildi. Dualarla, təriflərlə əyilib padşahın ətəyini öpdü və ona dedi:

– Padşahım, indi verdiyiniz sözü tutacaqsınızmı?

Padşah dedi:

– De görüm, nə deyəcəksən? Hansı söz?

Oğlan dedi:

– Olanları gördünüzmü?

Padşah dedi:

–Ömrümdə heç belə şeylər görmədim.

Oğlan dedi:

– Onda mən danışım, qulaq asın. Filan vaxtda qızınızı mənə istəmək üçün anamı yanınıza göndərmişdim. Siz də anama: «Əgər oğlun dünyada heç kimin bacarmadığı üç hünəri mənə göstərə bilsə, qızımı ona verərəm» – demişdiniz. İndi nə deyirsiz, padşahım?

Oğlan sözünə davam etdi:

– Budur, göstərdim. Bir qərənfil olub qızınızın qoynuna girdim. Artıq qızınızın başqa birinə ərə getməsi doğru olmaz. Nə deyirsiz, padşahım?

Padşah dedi:

– Yaxşı, verdim qızı sənə.

Sonra oğlan Ofun quyusuna gedib oradakı Hind padşahının qızını da öz toyuna gətirir. Qırx gün, qırx gecə toy etdilər. Bir müddət keçdikdən sonra oğlan Hind padşahının qızını da yanına alıb yenə Ofun quyusuna getdi. Quyuda nə qədər var-dövlət varsa hamısını qırx qatıra yüklədi. Yarısını özü götürdü, yarısını da Hind padşahının qızına verdi. Sonra da qızı Hind padşahının yanına apardı. Başlarına gələn bütün əhvalatı birlikdə danışdılar. Hind padşahı çox sevindi və dedi:

– Oğlum, bizimlə qal burda. Taxt-tacımı da, qızımı da sənə verim.

Oğlan dedi:

– Mən ona öz bacım kimi baxdım. Allah ona halal süd əmmiş birini qismət etsin.

Onlar öz arzularına çatdılar və xoşbəxt bir həyat sürdülər.



**Danilenko Yelizaveta, 15 yaş**
*Qaraim nağılı «Tənbəl oğlanın nağılı» –*
*Karaim masalı «Tembel Oğlanın masalı»*

# Tembel Oğlanın Masalı

Bir zamanlar ülkelerin birinde fakir bir adam yaşarmış. Onun bir de oğlu varmış. Bu oğlan o kadar tembelmiş ki, ne zaman babası onun için bir iş bulsa iki üç gün sonra ustası tembel oğlanı geri getirip: «Bana böyle tembel oğlan gerekmez!» der ve gidermiş.

Bir sabah oğlan yatağından kalkmış ve annesine demiş ki:

– Anne, git bana padişahın kızını iste.

Annesi:

– Peki, gideyim demiş.

Annesi padişahın kapısına gitmiş, ancak nöbetçiler kadının padişahın huzuruna çıkmasına izin vermemişler. Kadın yalvarmış yakarmış sonunda girebilmek için izin alabilmiş. Kadın padişahın huzuruna çıkıp padişaha dualar ederek padişahın eteğini büyük bir saygıyla öpmüş. Padişah kadına demiş ki:

– Otur, söyle, niçin geldin?

Kadın:

– Baş benim, kılıç senin. Allah'ın izni, peygamberin kavli ile kızınızı oğluma istiyorum, demiş.

Padişah gülmüş:

– Analık, git oğluna sor. Eğer bana dünyada bilinmeyen marifetlerden üç tanesini gösterirse kızımı ona veririm, demiş.

Kadın evine dönmüş ve oğluna:

– Git dedin, gittim. Dinle şimdi, eğer dünyada bilinmeyen marifetlerden üç tanesini padişaha gösterirsen padişah kızını sana verecek. Yapabilir misin oğlum? demiş.

Oğlu da:

– Yapabilirim, demiş.

Bir ay sonra babası tembel oğlana demiş ki:

– Haydi, başka bir memlekete gidelim, seni bir çorbacının yanına çırak olarak vereyim.

Yola çıkmışlar. Epey bir yol gittikten sonra oğlanın babası büyük bir taş görmüş ve:

“Gideyim şu taşa sırtımı dayayıp biraz yorgunluk atayım” demiş ve oturup taşa sırtını dayayıp «Of!» demiş.

Adam «Of!» der demez boyu iki karış, sakalı bir karış bir Arap ortaya çıkmış ve:

– Ne istiyorsun? diye sormuş.

Adam:

– Yok, ben seni çağırmadım, demiş.

Arap:

– Benim adım Of, elbette ki, benden bir isteğin olmalı, demiş.

Adam:

– Senden bir isteğim yok, demiş.

Sonra Of sormuş:

– Bu oğlanı nereye götürüyorsun?

Adam cevap vermiş:

– Falan memlekete götürüyorum. Bir ustanın yanına çırak olarak vereceğim.

Of da adama:

– Bana verirsen, sana otuz gümüş para ve üstüne de bir elbise veririm ve ona iyi bakarım, her bir şeyi öğretirim, demiş.

Oğlanın babası:

– Peki, vereyim, demiş ve oğlanı Of'a vermiş.

Sonra Of taşı kaldırmış ve oğlanı bir kuyuya indirmiş. Oğlanın babası da çıkıp gitmiş.

Of oğlanın önüne bir avuç taş koyup:

– Sen bu taşları say demiş ve avlanmaya gitmiş.

Bu Of'un yanında da bir kız varmış. Bu kız, Hint padişahının kızı imiş. Of kızı kendine hayat arkadaşı yapmak için kaçırıp getirmişti. Kız oğlanı görünce içinde bir sıcaklık, sevgi hissetmiş. Sonra kız oğlana:

– Bu taşları sayarken tam sayma, bu taşların toplamı seksendir. Hep üç– beş eksik söyle, demiş.

Kız, her gün oğlana türlü türlü marifetler öğretiyormuş. Of da her gün gidip gelip soruyormuş:

– Kaç tane saydın?

Oğlan:

– Yetmiş yedi tane, dermiş.

Arap oğlana kızarak:

– Sabaha kadar tam sayamazsan, seni öldürürüm! demiş.

Her zamanki gibi Of sabahtan ava çıkmış. Kız ise oğlana yeni marifetler öğretmiş. Oğlanın babası tam bir yıl sonra gelmiş ve Of'a:

– Oğlumu almaya geldim, demiş.

Of:

– Canım ihtiyar, bir yıl daha dursun çünkü bir şey öğretemedim, demiş.

Eğer ihtiyar oğlanı almak isterse, Of çocuğu yiyecekmiş. Ancak ne olduysa olmuş Of çocuğu yememiş ve adam oğlunu alıp gitmiş. Bir iki saat yürüdükten sonra oğlan babasına demiş ki:

– Baba siz yaşlısınız, fazla yürüyemiyorsunuz. Ben beyaz bir at olayım, sen bin üstüme. Şehre vardığımızda benim güzelliğimi görür ve bana hayran olurlar. Padişahın adamları veya başkaları beni satın almaya kalkışırlarsa bin altından aşağı beni satma ve başımdaki nişanı verme. Beş bin verseler dahi nişanımı satma, demiş.

Sonra oğlan dediği gibi beyaz bir at olmuş, babası üstüne binip şehre gelmiş.

Sonra padişahın adamlarıyla karşılaşmışlar ve padişahın adamları:

– Hey, ihtiyar! Bu atı bize satar mısın? diye sormuş.

İhtiyar:

– Değerini verirseniz satarım, demiş.

Pazarlık etmişler ve ihtiyar atı sekiz yüz doksan altına satmış ve başından nişanını alıp evine gitmiş. Padişahın adamları atı alıp ahıra koymuşlar yem ve su verip kapısını kilitleyerek gitmişler. Yemek yedikten sonra oğlan silkinip, ufak bir fare olmuş. Kapının deliğinden çıkıp bir insana dönüşerek evine gitmiş. Annesi oğlunun gözlerinden öpmüş ve:

– Hoş geldin oğlum, demiş.

Oğlan:

– Baba şimdi az çok malımız mülkümüz var. Ben kısmet olursa, yarın siyah bir aygır olurum, sen yine beni götürür satarsın. Bak bin altından aza satma beni, ayrıca beneğimi de verme! demiş.

Oğlan söylediği gibi siyah bir aygır olmuş ve babası onu alıp satmaya götürmüş. Babası siyah aygırı bin altına satmış. Yine oğlan önceki gibi yapıp eve dönmüş. Bir gün de boz bir at olmuş. O gün Of da kuyudan çıkıp:

– Gidip, bakayım. Şu oğlan türlü şeyler öğrendi. Gidip halkı kandırıp parasını almasın, demiş.

Oğlanın babası boz aygırın nişanını alıp pazarda gezerken Of ile karşılaşmış.

Of:

– Babalık bu atı bana satar mısın? diye sormuş.

İhtiyar, Of'u tanıyamamış ve:

– Satarım, demiş.

Pazarlık etmişler ve ihtiyar atı, beş yüz altına vermiş. Sonra Of parasını ödemiş. İhtiyar parayı aldıktan sonra atın başındaki nişanı çıkarıp alacağı zaman Of demiş ki:

– Hayır, ben sana beş yüz altın verdim. Nişanını da bana vereceksin!

İhtiyar:

– Beş yüz daha versen, yine vermem! demiş.

Bunun üzerine, Of birkaç yüz altın daha vermiş. Ne yapıp edip atı da nişanını da almış. İhtiyar evine dönmüş. Of da taşın yanına gidip attan inmiş:

– Şimdi ben sana insanları kandırıp paralarını almanın ne demek olduğunu gösteririm, demiş.

Sonra taşı kaldırmış, kuyuya atla birlikte inmiş. Atın üç ayağını bağlayıp, bir ayağını bağlamamış. Kıza seslenmiş:

– Benim bıçağımı al getir, bu adamı kesip kebap yapacağım!

Kız oğlanı tanıyıp, bıçağı bir yere saklamış ve sesini çıkarmamış. Of bir daha bağırmış:

– Bıçağı getirsene!

Kız:

– Nerede olduğunu bilmiyorum, demiş.

Of:

– Öyleyse gel sen dur yanında bir yere kaçmasın. Ben, kendim bulup getireyim! demiş.

Kız oğlanın yanına gelmiş, Of da bıçağını bulmaya gitmiş. Kız oğlana:

– Şimdi seni kesecek! Bana bir tekme at, ben sana merdivenli bir kapı olurum. Eğer kaçabilirsen kurtulursun, kaçamazsan ölürsün! demiş.

O an oğlan kıza bir tekme atmış ve kız anında bir kapı olup açılmış. Oğlan bir tavşan olup kaçmış. Kız da:

– Vay ayağım kırıldı, diyerek sızlanıp yatmış.

Of, oğlanın bir tavşan olup kaçtığını görünce, kendisi de bir teke olup «Hey, hey!» diyerek onu kovalamış.

Teke tam ona yetişecekken oğlan ufacık bir kuş olup «pırrr» edip uçmuş. Of da büyük bir kuş olup, oğlanı kovalamaya devam etmiş.

«Hemen şehre varayım!» der demez oğlan şehre ulaşmış. Sonra padişahın kızının oturduğu odanın penceresinden içeri girip bir karanfil olmuş ve kızın gergefinin üstüne düşmüş. Büyük kuş ise pencerenin kenarına oturup içeriye bakmış ve görmüş ki, padişahın kızı karanfili koklayıp koynuna koydu. Of:

– Tüh, oğlan gitti elden! demiş.

Of, uçup yere konmuş ve insana dönüşmüş. Sonra padişahın kapısındaki adamlara:

– Ne olur, beni de yanınıza alın, ben de padişaha hizmet edeyim, para istemem, hiçbir şey istemem, sadece karnım doysun, o bana yeter, demiş.

Kapıcılar:

– Peki, demişler.

Of her türlü hizmeti yapmış. Bir gün padişah ona bir iş buyurmuş. O da buyrulan bu işi mükemmel bir şekilde yerine getirmiş. Padişah, ona:

– Dile, benden ne dilersen? demiş.

Arap:

– Sağlığınız padişahım! demiş.

Padişah üç defa daha sormuş ve Of her defasında:

– Sağlığınız, padişahım! demiş.

Padişah:

– Benim sağlığımdan sana bir fayda yok. Ne dilersin dile, demiş.

Buna karşılık Of da:

Kızınızın koynunda bir karanfil var, onu alıp bana verirseniz sevinirim, demış.

Padişah:

– Canım! Onu ne yapacaksın? Ben sana üç bin altın vereyim, demiş.

Of:

– Hayır, padişahım! Ben para düşkünü birisi değilim! demiş.

Sonra padişah kızından karanfili almış ve onu Of'un eline vermiş. Karanfil bir anda yaprak olup yere düşmüş. Of da hemencecik bir tırtıl olup, başlamış yaprağı yemeye. Yaprağın tılsımı damarındaymış. Yaprağın

damarı bir avuç buğday olmuş. Padişah da olup biteni şaşkınlıkla izliyormuş. Bunun sonu nereye varacak, diye.

Of, hemen bir horoz olup buğdayı yemeye başlamış. Sonra buğday bir köpek olup horozu yani Of'u kanadından yakalayıp yemiş. Padişah olanlara şaşırmış ve:

– Bunun sonu nasıl bitecek? Köpeğin sonu ne olacak? diyerek bakakalmış.

Köpek kalkıp silkinerek bir insana dönüşmüş ve dualarla, övgülerle padişahın eteğini öperek padişaha:

– Şimdi sözünüzü tutacak mısınıız? demiş.

Padişah:

– Anlat bakayım, hangı sözümü? demiş.

Oğlan:

– Olanları gördünüz mü?

Padişah:

– Ömrümde hiç böyle şeyler görmedim, demiş.

Oğlan:

– Öyleyse, falan zamanda kızınızı istemek için annemi yanınıza yollamıştım. Siz de anneme «Eğer oğlun dünyada bilinmeyen marifetlerden üç tanesini bana gösterirse kızımı ona veririm.» demişsiniz. Şimdi ne diyorsunuz, padişahım? demiş.

Oğlan devam etmiş:

– İşte yaptım ve kızınızın koynuna karanfil olup yattım artık kızınızın başkasıyla evlenmesi doğru olmaz, ne diyorsunuz padişahım? diye sormuş.

Padişah:

– Peki, verdim gitti, demiş.

Sonra oğlan Of`un kuyusuna gidip oradaki Hint padişahının kızını da almış ve düğününe getirmiş. Kırk gün, kırk gece düğün olmuş. Bir vakit geçtikten sonra kuyuda kendisine yardım eden Hint padişahının kızını da yanına alıp Of'un kuyusuna giderek kuyuda ne kadar mal varsa kırk katıra yüklemiş. Yarısını kendi almış yarısını da Hint padişahının kızına vermiş. Sonra kızı Hint padişahına götürmüş. Başlarından ne geçmiş ise hepsini birlikte anlatmışlar. Hint padişahı çok mutlu olmuş ve:

– Otur, oğlum! Padişahlığımı da kızımı da sana vereyim, demiş.

Oğlan:

– Ben onu kendime kız kardeş olarak gördüm. Allah onu helal süt emmiş biriyle karşılaştırsın, demiş.

Onlar ermiş muradına biz çıkalım kerevetine.

# Aldar Kosa

Lap qədim zamanlarda Xarəzm şəhərində Aldar Kosa adlı bir kişi yaşayırdı. Buxara şəhərində isə iki nəfər – Muxtar Kosa və Duxtar Kosa yaşayırdı. Xarəzmdən Buxaraya gələnlər bir şeyi iddia edirdilər ki, Aldar Kosanı heç kim aldada bilməz. Bu zaman Muxtar Kosa ilə Duxtar Kosa dərindən nəfəs alır və deyirdilər: «Əgər, doğrudan da, belədirsə, biz onunla yarışmalıyıq». Buxaradan Xarəzmə gələnlər isə bundan da artıq sübut etməyə çalışırdılar ki, Muxtar Kosa ilə Duxtar Kosa dünyada ən bic adamlardı. Belə olduqda Aldar Kosa da dərindən nəfəs alaraq deyirdi: «Görəsən, mən onlarla necə yarışa və onları necə aldada bilərəm». Beləcə bir-birləri haqqında dərindən düşünməyə başlayan Muxtar Kosa ilə Duxtar Kosa Xarəzmə üz tuturlar. Xarəzmdə onlar Aldar Kosanın evini axtarıb tapırlar. Aldar Kosa onları lazımi şəkildə qəbul edir, çay verir. Onlar ev sahibindən soruşurlar:

– Eşitdik ki, ay Aldar Kosacan, sən ən böyük aldadıcısan, yalançısan, sən yalançıların lap dahisisən. Biz də istərdik ki, səninlə gücümüzü sınayaq.

Aldar Kosa gülümsəyərək deyir:

– Nə danışırsız, bu, mümkün deyil, siz mənim qonaqlarımsız, qonaqları isə aldatmaq, ümumiyyətlə, yaramaz. Mən də eşitmişəm ki, siz həddindən artıq tanınmış yalançılarsız. Amma bununla belə mən də sizinlə yarışmaq istərdim. Lakin mənim sizə belə bir məsləhətim var ki, bir günlük meşəyə gedək və orada birlikdə gücümüzü sınayaq.

Beləliklə, Aldar Kosa evdən bir dənə qazan və plov hazırlamaq üçün lazım olanları götürüb meşəyə üz tuturlar. Ocaq qalayırlar və görürlər ki, düyünü az gətiriblər. Aldar Kosa deyir:

– Gör, mən necə də bədbəxt adamam. Cəmi-cümlətanı bir nəfərlik düyü gətirmişəm.

Plovu süzməyə başlayırlar. Yeməyə isə bir şey yox idi. Aldar Kosa təklif edir ki:

– Burada olan yeməyin hamısı bircə adamlıqdır. Onda, gəlin uzanıb yataq, qoy düyü bir az da şişsin, kim daha yaxşı yuxu görsə, plovu da o yesin.

Muxtar və Duxtar daha yaxşı yuxu görmək fikri ilə uzanıb yatırlar və tezliklə dərin yuxuya gedirlər. Aldar Kosa isə özünü yuxuluğa vurur. O, plovun hamısını axırıncı düyüsünə qədər yeyib qurtardıqdan sonra yuxulayır. Muxtar və Duxtar yuxudan ayılırlar. Aldar Kosanı oyadır və ona yuxularını danışmağa başlayırlar.

Duxtar deyir:

– Yuxuda gördüm ki, bir atın belindəyəm, buludlardan da yuxarı uçub getmişəm.

Muxtar isə:

– Mənə elə gəldi ki, sanki qanadlı bir atın belində göylərin lap ənginliklərinə uçub getmişəm, – deyir.

Aldar Kosa əsnəyə-əsnəyə deyir:

– Mən isə gördüm ki, Duxtar, sən ağ atda, Muxtar isə uçan atda allahın lap yanına gedib çatmısınız. Sizi gözləyə bilmədim və bildim ki, düz cənnətə gedib düşmüsünüz və buna görə də mən plovun hamısını yedim.

Muxtar Kosa və Duxtar Kosa qazana yaxınlaşır və görürlər ki, qazan bomboşdur. Muxtar incikliyindən papağını yerə çırpır. «Mən daha iki dəfə aldadılmaq istəmirəm» – deyib, Buxaraya qayıdır. Duxtar isə fikirləşir ki, baxıb görsün Aldar Kosanı axır necə aldada bilər. Onlar meşədən geri qayıdır və Aldar Kosanın evində şam edirlər.

Aldar Kosa deyir:

– Duxtar Kosa, sən, yəqin bilirsən ki, bizim vilayətin xanı bir az bundan əvvəl rəhmətə gedib. Hal-hazırda taxt-tacda oturan onun oğludur. Onun yanına getmək və ələ bir şey keçirmək istəyirsənsə, gəl bura. Lakin burada məni aldatmaq məsələsi olmasın.

Duxtar Kosa fikirləşir ki: «Görəsən, burada necə irəli düşə bilərəm». Aldar Kosa isə onu başa salır ki, get gənc xanın yanına, ona təzim et və de:

– Mən Buxaradan olan Duxtar bəyəm və sənin atan mənimlə hərbi xərclərlə bağlı min qızıldan mərc eləmişdi, indi gəlmişəm ki, sənin atana təzim edəm, onun səhhəti ilə maraqlanam. Sən demə, o, artıq dünyasını dəyişib. İndi borcun qaytarılması ilə bağlı məsələ necə olacaq? Gənc xan sənin sözünün doğruluğuna bir qədər şübhə edəcək, sənsə ona qoca xanın qəbrini ziyarətə getməyi təklif et. De ki, rəhmətlik son dərəcə ədalətli, mərhəmətli, müqəddəs bir insan idi və o da sənin sözlərinin həqiqiliyini təsdiq edəcək. Beləliklə, hər şey yaxşı olacaq. Lakin rəhmətliyin qəbrini ziyarət edəndə, onun əvəzinə mən cavab verəcəm. Başa düşdün? Duxtar, bax, gəlir belə əldə olunacaq.

Duxtar Kosa gənc xanın yanına gedir. Xan onu qəbul edib dinləyir və əlbəttə ki, inanmır. Lakin xan Duxtar Kosa ilə birgə atasının qəbrini ziyarətə getməkdən boyun qaçırmır. Duxtar Kosa əl götürüb Allaha xeyli yalvarır. Ürəyində isə yalanının açılmaması

üçün Aldar Kosanın köməyi ilə başını qurban verməsin deyə dua edir. Sonra isə o, əsə-əsə qəbrə müraciət edərək deyir:

– Ey mənim böyük padşahım! Siz ömrünüz boyu bütün şahların ən ədalətlisi olmusunuz. Mən həmin Duxtar bəyəm ki, sizə min qızıl vermişdim. Siz indi cənnətdə olanda da, yəqin ki, biz bədbəxtləri yaddan çıxarmırsınız. Öz oğluna de ki, ey böyük padşahım, mənim min qızılımı qaytarsın.

Qəbirdən səs gəldi:

– Bəli, bu, düzdü. Mən Duxtar bəydən min tümən qızıl almışdım. Əmr edirəm ki, mənim oğlum Duxtar bəyə onun əvəzinə iki min qızıl qaytarsın.

Eşitdiklərindən heyrətə gələn gənc xan Duxtar Kosanı öz sarayına gətirir və onu şahlara uyğun qəbul edib, iki min qızıl verir. Saraydan çıxarkən Duxtar Kosa bazara yollanır, bir eşşək alır, qızılı eşşəyin belindəki xurcuna yığıb Buxaraya yola düşür. Duxtar Kosa deyir ki, «Aldar Kosadan bir deyən, qoy məndən yüz desin və görsün ki, buxaralı ilə yarışmaq ona nə verə bilər».

Aldar Kosa gecəyə qədər qəbirdə yatır, sonra evə qayıdır. Evdə arvadından soruşur ki:

– Duxtar Kosa evə gəlməmişdi?!

Arvad onun gəlmədiyini deyir.

– Ay şeytan, məni aldatdı.

Aldar Kosa deyir ki, yəqin, o, bazara gedib. Duxtar Kosanın oradan Buxaraya yola düşməyinin bütün təfsilatını öyrənir və Aldar Kosa burada bir köhlən at əldə edib, bir çəkməçidən bir cüt çəkmə də götürüb Duxtar Kosanın dalınca yola düşür. Aldar Kosa onun dalınca gedərkən yolda Duxtar Kosanın eşşəyin belində oxuya-oxuya getdiyini görür. Aldar Kosa Duxtar Kosanın getdiyi yolu kənardan keçib çəkmələrdən birini yolda tullayır və ağacların arxasında gizlənir. Duxtar Kosa yaxınlaşıb çəkməni qaldırır və düşünür ki, gör nə pis olub, əgər bir cüt olmuş olsa idi, çəkmələri götürərdim. Birini götürüb neyləyəcəyəm, nəyimə lazımdır. Duxtar Kosa çəkməni tullayıb yoluna davam edir. Aldar Kosa çəkməni götürüb yenə də Duxtar Kosanın keçəcəyi yolun kənarına tullayır. Duxtar Kosa bu yerə gəlib çatanda birdən əlini alnına çırpır. Budur, çəkmənin biri də burda. O biri çəkməni götürmədim. Qayıdım onun dalınca. O, eşşəyi ağaca bağlayıb, özü həmin yolla geri qayıdır. Aldar Kosa isə xurcundan qızılı çıxarır, çəkmələri də götürüb yoluna davam edir. Geridə nə qızılı, nə o biri çəkməni tapmayan Duxtar Kosa özünü itirib hönkürür: «Ay... bu, Aldar Kosanın işidir. Qoy gedim nəyin bahasına olursa-olsun, ondan bu şeyləri alım». Evə qayıdan Aldar Kosa arvadına deyir:

– Bax, iki min qızıl. Bütün bu var-dövlət ömrümüzün axırına qədər bəsdir. Lakin Duxtar Kosa mütləq bura qayıdıb öz payını istəyəcək. Görəsən, nə etmək olar? Qərara

gəlirlər ki, qızılı yemək bişirdikləri qazanın içində gizlətsinlər. Aldar Kosa gedib xanın qəbrinin arxasında gizlənməli, arvadı isə oraya yemək aparmalıdır. Duxtar Kosa oraya gələndə arvad onun boğazından yapışıb deməlidir ki, ərimi neynəmisən? O, səninlə birgə getmişdi, harda itib. Yəqin, Aldar Kosanı sən öldürmüsən. Tez ol, ərimi mənə ver. Duxtar Kosa, heç şübhəsiz ki, o andan sonra Aldar Kosanın evinə qayıtmayacaq...

Duxtar Kosa görür ki, Aldar Kosanın arvadı xanın məzarına bir qaşıq aparıb qoyur. Deməli, Aldar Kosa üçün yemək aparır və məndən gizlənir. Duxtar plan qurur. «Pullar qəpiyinə qədər mənimdir. Nahaq sən bicliyə əl atırsan, Aldar» – deyə Duxtar Kosa yalnız bundan sonra Aldar Kosagilə üz tutur. Aldar Kosanın arvadı isə əri öyrətdiyi kimi Duxtarın üstünə atılır. O, sakitcə bu fikirləri rədd edir, sonra isə deyir:

– Bax, bacı, mən Buxaraya gedirəm. Sadəcə olaraq, sizin tərəfə döndüm ki, mənə söyüb-danışmayın. Dostumla sağollaşıb ona minnətdarlığımı bildirməliyəm. Söhbət ondan gedir ki, mənim çoxlu qohumlarım var. Onlardan hərəsi mənə bir keçi, bir çəpiş bəxş ediblər. Beləliklə, cəmi beş keçi və beş də çəpişim olub. Lakin bu heyvanlar artıq yorulub. Onları beləcə Buxaraya aparıb çıxarmaq olmaz. Onları yaxşı yedizdirmək lazımdır, mənim isə buna vaxtım yoxdur. Buna görə də fikirləşdim ki, keçi və çəpişləri dostum Aldar Kosaya verim. Keçilər və çəpişlər dağın o tərəfində otlayırlar. Get onları bura gətir. Ərin gələndə isə mənim ona hörmət və ehtiramımı bildir. Sağ olun, xudahafiz.

Duxtar Kosa çıxıb gedir. Əslində isə bir yerdə gizlənib baxır ki, görsün, nə olacaq. Aldar Kosanın arvadı hər şeyi yadından çıxarıb, dağın o tərəfinə gedir ki, oradan keçi və çəpişləri bura gətirsin. Bununla belə Duxtar Kosa Aldar Kosanın arvadı hazırladığı sıyığı və balaca qabı götürüb xanın məzarına yollanır. Məzara yaxınlaşmamışdan qabaq o, qabı sıyıqla irəli ötürür və qadın səsi ilə deyir:

– Aldar Kosa, götür bu yeməyi, axı sən acsan.

İçəridən belə bir səs eşidilir:

– Duxtar Kosa gəlmişdi?

– Yox, gəlməyib.

– Əgər gəlmiş olsa, sənə öyrətdiyimi yaddan çıxarma. Qızıl öz yerindədi?

– Bəli. Lakin bədbəxtlik burasındadır ki, yadımdan çıxarmışam ki, onu hara qoymuşam.

– Eh... ay yaddaşsız, – Aldar Kosa yeməyi yeyə-yeyə deyir.

– Axı biz onu qazanda gizlətmişik. Eh... necə də yaddaşsızsan.

Duxtar Kosa boş qabı götürüb deyir:

– Di sağ ol, yadıma düşdü. Mən gedirəm.

Aldar Kosanın evinə qayıdan Duxtar Kosa yenidən həmin qabı sıyıqla doldurur, qa-

zanın içindən qızılları götürüb Buxaraya üz tutur. Aldar Kosanın arvadı hələ də keçiləri axtarırdı. O, bir dağı, ikincini, üçüncünü, dördüncünü, beşincini keçir, keçiləri tapmır ki, tapmır. Xeyli yorulduqdan və acdıqdan sonra evə qayıdır, qabı sıyıqla götürüb məzara üz tutur.

– Aldar, bu sıyığı götür ye, – arvad qışqırır.

– Hansı sıyığı. Axı sən bir az bundan qabaq mənə yemək gətirmişdin?! – deyə Aldar Kosa təəccüblə ona baxır.

– Mən səni bu gün yedizdirməmişəm.

Aldar Kosa düşünür ki, bu, Duxtar Kosanın əməlləridir.

Aldar Kosa arvadından keçilərin məsələsini öyrəndikdən sonra onu xeyli məzəmmət edir. Lakin nə etmək olardı. O, qəbirdən gündüz çıxa bilməzdi. Ona görə də o, çıxınca Duxtar Kosa xeyli yol qət etmiş olacaqdı.

Duxtar Kosa evə gəlib çatır və arvadına deyir:

– Bax, bu da iki min qızıl. Bu var-dövlət bizə bir əsr bəsdi. Lakin bədbəxtlik orasındadır ki, bir-iki gündən sonra Aldar Kosa gələcək və öz qızıl payını istəyəcək. Mən isə buna razı ola bilmərəm. İstəyirəm ki, qızılların hamısı bizdə qalsın. Qonaq qərb tərəfdən gələcək, o tərəfdən gözünü çəkmə. Bu alaçığın yanında keçə düzəlt və Aldar Kosa gələndə mən özümü ölülüyə vuracağam, sən də başımın üstə dayanıb ağla. Aldar Kosa bunu görüb geri qayıtmağa məcbur olacaq.

Bir gün Duxtar Kosa arvadı ilə yemək yeyən zaman qərb tərəfdən bir atlı görünür. Duxtar Kosa onu görüb qışqırır:

– Bax, bu, odur.

O, uzanaraq, özünü ölülüyə vurur. Arvadı isə hönkürür.

Aldar Kosa gəlir və bilir ki, məsələ nə yerdədi, o, özü də başlayır ağlamağa və deyir:

– Duxtar mənim ən yaxın dostum idi. Mən ona çox borcluyam. Mənim borcumdan biri də odur ki, onu özüm dəfn etməliyəm. Su qızdır.

Duxtarın arvadı bir qazan su qaynadır.

Aldar Kosa barmağını suya salıb deyir:

– Su hələ lazımınca qızmayıb. Görünür, dostumun xüsusiyyətlərini yaxşı bilmirsən. Axı o, həmişə qaynar suda çimməyi xoşlayırdı. Aldar Kosa özü iki qucaq odun gətirir, suyu tam qaynadır. Onu iki çaydana boşaldır və miçətkənin altına girib cənazəyə yaxınlaşır. O, Duxtarı soyundurduqdan sonra üstünə qaynar su tökməyə başlayır. Duxtar Kosa ağrıdan qışqırır. Aldar Kosa isə öz-özünə deyir:

– Ya sus, ya da mənim iki min qızılımı qaytar.

Duxtar isə susurdu. Aldar Kosa onu necə lazımdı yuyub, sonra kəfən geyindirir, xərəyə qoyub, Duxtarın arvadına deyir:

– Gəl mənə kömək et, xərəyi qaldıraq, aparım dostumu dəfn edim.

Aldar Kosa bir qədər açıqlığa çıxandan sonra xərəyi yerə qoyur və qışqırır:

– Ey çobanlar, baxın, elə edin ki, heyvanlar bizim bu ölünü tapdalamasın. Mən tez gedim bel gətirim. Lakin yaxında heç bir malqara sürüsü yox idi. Aldar Kosa bir qədər gözlədikdən sonra öküz kimi bağırmağa başlayır. Bundan Duxtar Kosa qorxub qışqırır.

– Sən nə mələyirsən?

Aldar Kosa deyir:

– Pulları ver.

Duxtar Kosa yenə də susur. Onda Aldar Kosa xərəyi yenidən götürüb meşəyə tərəf aparır. Xərəyi yerə qoyub bir az dincəlməyə başlayır. Birdən 40 nəfərdən ibarət bir quldur dəstəsini görüb, tez bir ağacın arxasında gizlənir. Quldurlar atlardan düşüb ələ keçirdiklərini bölməyə başlayırlar. Hər şeyi bölürlər, yalnız bircə nizə qalır. Hər biri istəyir ki, bu nizə onun olsun. Belə olduqda, quldurbaşı deyir:

– Nizə bu ağacı ikiyə bölənə çatacaq.

Quldurlardan biri ortaya çıxıb deyir ki, mən bölərəm. Aldar Kosa görür ki, iş başqa cürdür. Ağacın arxasından çıxıb qaça-qaça qışqırır:

– Ölülər, diriləri öldürün.

Duxtar Kosa da həyəcandan kəfəni cırır, əllərini açıb onlarla birgə qışqırır: «Ölülər, diriləri öldürün». Belə olduqda, quldurlar ələ keçirilmiş var-dövləti atıb, atlarına minib oradan qaçmışlar.

Aldar Kosa quldurlardan ələ keçirilmiş var-dövləti ortaya qoyub Duxtar Kosaya deyir:

– Mənə xanın verdiyi iki min qızılı gətir, səninlə yalnız onu böləcəyəm.

O da onunla heç bir mübahisə etmədən sakitcə həmin qızılı onunla bölməyə başlayır. Lakin bir qəpik artıq qalır. Onun kimə çatacağı barədə xeyli düşünürlər. Onun heç kimin olmaması və heç kimin inciməməsi üçün bu qəpiyi nizə ilə iki yerə bölürlər. Beləliklə, onu da öz aralarında bölüşürlər. Bundan sonra Aldar Kosa doğma şəhəri Xarəzmə qayıdır.



**Xəlilova Aytac, 14 yaş**
***Qaraqalpaq nağılı «Aldar Kosa» –***
***Karakalpak masalı «Aldar Kosa»***

# Aldar Kosa

Çok eski çağlarda Harezm şehrinde Aldar Kosa adlı bir adam yaşıyormuş. Buhara şehrinde ise Muhtar Kosa ve Duhtar Kosa diye iki kişi varmış. Harezm'den Buhara'ya gelenlerin iddasına göre Aldar Kosa çok uyanık bir adammış, onu kimse kandıramazmış. Onların bu iddiasına karşın Muhtar Kosa ile Duhtar Kosa derinden bir nefes alıp:

– Madem öyle, onu bir deneyelim, demişler.

Buhara'dan Harezm'e gidenler ise Muhtar Kosa ile Duhtar Kosa'nın çok uyanık olduklarını kanıtlamaya çalışıyorlarmış. Durum böyle olunca Aldar Kosa da derinden bir nefes alarak:

– Acaba, ben onları nasıl kandırabilirim, onlarla baş edebilirmiyim, dermiş.

Böylece birbirileri hakında düşünüyorlarmış. Bir gün Muhtar Kosa ile Duhtar Kosa Harezm'e gitmeye karar vermişler. Onlar gelip Aldar Kosa'nın evini bulmuşlar. Aldar Kosa onları gerektiği şekilde ağırlamış, yemekler çay ikram etmiş. Onlar ev sahibinden sormuşlar:

– Duyduğumuza göre sen çok uyanık bir adamsın, herkesi kandırabiliyorsun. Çok büyük bir yalancısın, hatta bir dehasın. Biz de seninle yarışmak için geldik. Ne dersin? Kendimizi deneyelim mi? demişler.

Aldar Kosa gülümseyerek:

– Ne diyorsunuz, bu mümkün değil, siz benim misafirimsiniz, misafirleri kandırmak yakışı kalmaz. Aslında benim de duyduğuma göre siz de çok ünlü yalancısınız. Ama tüm bunlara rağmen ben de sizinle yarışmak isterdim. Ancak size bir teklifim olacak. Ormana gidelim, orada gücümüzü deneyelim, demiş.

Teklifi kabul etmişler. Aldar Kosa bir tane kazan ve pilav yapmak için gerekli malzemeleri almış ve ormana gitmişler. Ocak yakmışlar, ama bakmışlar ki, pirinç azdır. Aldar Kosa:

– Bak ya, ben ne kadar talihsiz bir adamım, sadece bir kişilik pirinç getirmişim.

Neyse ki, pilavı yapmışlar. Aldar Kosa yine bir teklifte bulunmuş ve:

– Görüyorsunuz işte, burada sadece bir kişilik yemek var. O yüzden hadi gelin yatıp

uyuyalım. Uyandığımızda gördüğümüz rüyamızı anlatalım, hangimizin rüyası daha iyi olursa pilavı o yesin, demiş.

Muhtar ile Duhtar daha iyi bir rüya görmek düşüncesile hemen yatıp uyumuşlar. Aldar Kosa ise uyuyormuş numarası yapmış ve bakmış onlar derin bir uykudalar kalkıp pilavı son pirinç tanesine kadar yemiş ve sonra da bir güzel uyumuş. Muhtar'la Duhtar uyanmışlar. Aldar Kosa'yı uyandırıp ona rüyalarını anlatmaya başlamışlar.

Duhtar:

− Rüyamda gördüm ki, bir atın belindeyim. Ve atla bulutların üzerinde uçuyorum, demiş.

Muhtar ise:

− Ben de sanki kanatlı bir atın belinde gök yüzünün enginliklerine doğru uçuyordum, demiş.

Aldar Kosa esneyerek:

− Ben ise rüyamda gördüm ki, Duhtar, sen beyaz bir atla, Muhtar ise uçan bir atla ta Allah'ın yanına gitmişsiniz. Düşündüm ki, siz artık cennettesiniz. O yüzden sizi bekleyemedim ve pilavın hepsini yedim, demiş.

Muhtar Kosa ile Duhtar Kosa kazana bakmışlar ki, kazan bomboş. Muhtar darılmış, şapkasını çıkarıp yere çarpmış ve :

− Ben bir kez daha bu adamın beni kandırmasını oturup bekleyemem, demiş ve yenilgiyi kabullenerek Buhara'ya geri dönmüş.

Duhtar Kosa ise Aldar Kosa'yı nasıl kandırabilirim diye düşünmeye başlamış. Onlar ormandan geri dönmüşler ve Aldar Kosa'nın evinde akşam yemeği yemişler.

Aldar Kosa:

− Duhtar Kosa sen biliyorsun değil mi, bizim memleketin hanı kısa bir süre önce Allah'ın rahmetine kavuştu. Onun yerine ise oğlu geçti. Onun huzuruna gidip bir şeyler elde etmek istiyorsan birlikte hareket edelim. Ama bu işte beni kandırmayı falan düşünme, demiş.

Duhtar Kosa; «Acaba ne yapsam da bir şeyler elde etsem» diye düşünmüş. Aldar Kosa ona:

− Git genç hanın huzuruna, ona de ki, ben Buhara'dan geldim. Adım Duhtar Bey'dir. Senin babanla askeri harçlarla ilgili bir konuda bin altından bahse girmiştik. Şimdi hem babanın durumunu merak etdiğim için, hem de bahsimizle ilgili konuşmak için geldim. Ama duydum ki, o artık Allah'ın rahmetine kavuşmuş. Peki, şimdi borcun ödenmesile ilgili mesele nasıl olacak? Genç han senin söylediklerinin doğru olup olmadığından kuşkulanacak. Sen ona babasının mezarını ziyaret etmek istediğini söyle. De ki, rahmetli son derece adaletli, merhametli bir insandı. O, da senin söylediklerini onaylayacak ve böylece her şey iyi olacak. Ama mezarı ziyaret etdiğinizde rahmetlinin yerine ben konuşacağım. Anladın mi? Evet,

Duhtar böylece bir şeyler kazanabiliriz inşallah! demiş.

Duhtar Kosa hanın huzuruna gitmiş, han onu kabul etmiş, dinlemiş, ama, tabii ki, inanmamış. Ancak han Duhtar Kosa ile babasının mezarını ziyaret etmeği kabul etmiş. Duhtar Kosa ellerini açmış Allah'a bir hayli yalvarmış, ama içinden de yalanının ortaya çıkmaması için, canından olmaması için dualar etmiş. Çünkü Aldar Kosa yardım etmezse, canından olacak. Hanın mezarına gelmişler, o titreye titreye mezardakı hanla konuşmaya başlamış:

– Ey benim büyük padişahım! Siz hayatınız boyu tüm padişahlardan adaletli oldunuz. Ben, işte o Duhtar Bey'im. Size bin altın vermiştim. Siz şimdi cennettesiniz, eminim ki, orada da bizleri unutmamışsınız. Ey büyük padişahım, oğlunuza söyleyin benim bin altınımı geri versin, demiş.

Mezardan bir ses gelmiş:

– Evet, doğrudur. Ben Duhtar Bey'den bin altın almıştım. Emrediyorum benim oğlum o bin altının karşılığında Duhtar Bey'e iki bin altın versin! demiş.

Duydukları karşısında hayretler içinde kalan genç han Duhtar Kosa'yı saraya getirmiş, onu çok güzel ağırlamış ve iki bin altın vermiş. Duhtar Kosa saraydan çıkınca pazara gitmiş, bir eşek almış, altınları eşeğin sırtına yüklemiş, Buhara'ya doğru yola koyulmuş ve; «Şimdi Aldar Kosa anlasın Buharalı ile yarışmak nasıl olur», demiş.

Aldar Kosa gece yarısına kadar mezarda uyumuş, sonra eve dönmüş. Karısından Duhtar Kosa'nın eve gelip gelmediğini sormuş. Karısı da gelmediğini söylemiş. Aldar Kosa:

– Seni şeytan, beni kandırmış, demiş.

Aldar Kosa Duhtar Kosa'nın pazara gitdiğini anlamış, koşarak pazara gitmiş ve tüm olanları en ince ayrıntısına kadar öğrenmiş. Sonra bir at, bir çift de çizme almış ve Duhtar Kosa'nın peşinden gitmiş. Aldar Kosa yolda giderken bir de bakmış ki, işte Duhtar Kosa eşeğin sırtında şarkı söyleyerek gidiyor. Aldar Kosa hemen Duhtar Kosa'nın geçeceği yolun kenarına çizmelerinden birini bırakmış. Kendisi ise ağaçların arkasında saklanmış. Duhtar Kosa yaklaşıp çizmeyi almış ve; «Tüh, yazık eğer bir çift olsaydı çizmeleri alırdım. Tek çizmeyi ne yapacağım» diye düşünmüş ve fırlatıp atmış. Sonra da yoluna devam etmiş. Aldar Kosa çizmeyi alıp biraz daha ileride yine Duhtar'ın geçeceği yolun kenarına bırakmış. Duhtar Kosa tekrar çizmeyi görünce eliyle kafasına vurmuş; «İşte, çizmenin diğer çifti burdaymış. Keşke diğerini de almış olsaydım. Neyse, geri dönüp onu da alayım» demiş ve eşeğini ağaca bağlamış, çizmeyi almaya gitmiş. Aldar Kosa ise eşeğin sırtındakı altınları da, çizmeleri de almış ve yoluna devam etmiş. Duhtar Kosa ise hem altınları, hem de çizmeleri kaybettiği için çok üzülmüş ve ağlamaya başlamış ve; «Hımm... Bu Aldar Kosa'

nın işidir. O yapmıştır. Gideyim ona belki bir şeyler alabilirim» demiş ve geri dönmüş.

Bu arada Aldar Kosa evine dönmüş ve karısına:

– Bak, burda iki bin altın var. Hayatımızın sonuna kadar bu altınlar bize yeter. Ama Duhtar Kosa onun olanı almak için kesinlikle buraya gelecek. Acaba ne yapabiliriz? demiş.

Sonra karısı ile birlikte düşünüp taşınmışlar ve böyle bir plan yapmışlar. Altınları yemek pişirdikleri kazanın içine saklamışlar. Aldar Kosa hanın mezarına gidip orada saklanacak, karısı ona yiyecek götürüp getirecek. Duhtar Kosa buraya geldiğinde Aldar Kosa'nın karısı onun yakasından tutup, kocama ne yaptın? O seninle birlikte gitmişti. Yoksa onu öldürdün mü? Hemen kocamı bana getir, diye ona saldıracak. Her halde bu durumda Duhtar Kosa çekip gidecek, bir daha oraya dönmeyecek...

Duhtar Kosa Aldar Kosa'nın karısını izlemiş, bakmış ki, o hanın mezarına gidip bir kaşık bıraktı. «Her halde Aldar Kosa'ya yemek götürüyor!» diye düşünmüş ve hemen bir plan yapmış. «Paralarımı son kuruşunadek alacağım, Aldar, senin uyanıklığın bana sökmez» demiş ve Aldar Kosa'nın evine gitmiş. Aldar Kosa'nın karısı kocasının söylediği gibi onun üzerine saldırmış. Duhtar Kosa ise söylenenlerin hiçbirini kabul etmemiş ve:

– Bak bacım, ben Buhara'ya gidiyorum. Buraya gelmemdeki amaç sadece arkadaşımla vedalaşmak ve ona minnettarlık etmektir. Benim burada akrabalarım var. Onlar bana hediye olarak keçi, oğlak verdiler. Toplam beş keçi, beş oğlak. Ancak hayvanlar çok aç ve yorgun oldukları için onları bu şekilde Buhara'ya götüremem. Onlara iyi bakmak gerek, ama buna da benim zamanım yok. Bu yüzden düşündüm ki, onları arkadaşım Aldar Kosa'ya vereyim. Hayvanlar dağda otlaktalar. Git onları evinize getir. Kocan gelince de ona saygılarımı ve minnettarlığımı iletirsin. Hadi hoşca kalın, demiş.

Duhtar Kosa bunları söyledikden sonra çekip gitmiş. Aslında ne olup bittiğini anlamak için bir yerlere saklanmış. Aldar Kosa'nın karısı ise herşeyi bırakıp hayvanların peşinden gitmiş. Duhtar Kosa Aldar Kosa'nın evine gitmiş karısının onun için hazırladığı yemeği almış ve mezarlığa gitmiş. O mezara yaklaşmadan yemek tabağını ileri doğru itmiş ve kadın sesile:

– Aldar Kosa, her halde çok acıkmışsın, al yemeğini, demiş.

Aldar Kosa:

– Duhtar Kosa geldi mi? demiş.

Duhtar Kosa:

– Hayır, gelmedi. demiş.

Aldar Kosa:

– Eğer gelirse, sana anlattıklarımı unutma. Altınlar yerinde mi? demiş.

Duhtar Kosa:

– Evet, ama maalesef ben onların yerini unuttum, demiş.

Aldar Kosa:

– Eh... Hafızanı iyice kaybetmişsin sen de. Biz onu kazanın içine sakladık ya, demiş.

Duhtar Kosa:

– Evet, hatırladım. Hadı hoşca kal. Ben gidiyorum, demiş ve yemek tabağını da alıp tekrar Aldar Kosa'nın evine gelmiş.

Duhtar Kosa tabağı yemekle tekrar doldurmuş ve yerine koymuş. Altınları da kazandan alıp Buhara'ya doğru yola çıkmış. Aldar Kosa'nın karısı ise hala hayvanları aramaktaymış. O her yere bakmış ama hayvanları bulamamış. Çok yorulmuş ve eve dönmüş. Biraz dinlendikten sonra yemek tabağını alıp kocasının yanına, mezarlığa gitmiş ve bağırarak:

– Aldar, al yemeğini ye, demiş.

Aldar Kosa şaşırarak ona bakmış ve:

– Ne yemeği? Sen daha biraz önce bana yemek getirdin ya, demiş.

Karısı:

– Ben bugün sana yemek getirmedim, demiş.

Aldar Kosa hemen durumu anlamış. Karısı tüm olup bitenleri ona anlatmış. Aldar Kosa karısına çok kızmış ama yapacak bir şey yok. Mezardan da hava aydınlıkken çıkamazmış. Mecburen akşamı bekleyecek. O zamana kadar da Duhtar Kosa bir hayli yol katedecekdi.

Evet, nihayet Duhtar Kosa evine varmış ve karısna:

– Al, iki bin altın. Bu altınlar bize hayatımızın sonunadek yeter de artar bile. Ama birkaç gün sonra Aldar Kosa altınları almak için buraya gelecek. Ben altınları ona vermek istemiyorum. Onların hepsinin bizim olmasını istiyorum. Misafirimiz Batı'dan gelecek. Gözünü oradan ayırma. Bahçede bir yer hazırla. Aldar Kosa gelince ben ölmüş numarası yapacağım. Sen de bağıra çağıra ağlarsın. Aldar Kosa durumu böyle görünce kesin geri döner, demiş.

Günün birinde Duhtar Kosa karısı ile yemek yerken Batı'dan bir at görünmüş. Duhtar Kosa atı görünce bağırmış:

– Bak, işte geliyor! demiş.

O hemen hazırladıkları yere yatmış ve ölü numarası yapmış. Karısı ise saçını başını yolarak ağlamaya başlamış.

Aldar Kosa gelmiş ve durumu anlamış. Kendisi de ağlayarak:

– Duhtar benim en yakın arkadaşımdı. Ben ona çok şey borçluyum. O yüzden de onu kendi ellerimle defnedeceğim. Hemen su ısıt, demiş.

Duhtarın karısı su ısıtmış. Aldar Kosa parmağını suya sokmuş ve:

– Su yeterince sıcak değil. Ben arkadaşımı iyi tanıyorum, o, çok sıcak su ile yıkanmayı severdi, demiş.

Aldar Kosa kendisi odun getirmiş ve suyu iyice kaynatmış. Sonra yıkamak için mevtaya yaklaşmış. Duhtar`ı soyundurmuş

ve üzerine sıcak su dökmeye başlamış. Duhtar Kosa acısından bağırmış. Aldar Kosa ise:

– Ya susarsın, ya da benim iki bin altınımı geri verirsin, demiş.

Duhtar susmuş. Aldar Kosa ona gerektiği gibi kefen giydirmiş ve karısına:

– Gel bana yardım et, arkadaşımı götürüp defnedeyim, demiş.

Aldar Kosa biraz gitdikten sonra cenazeyi yere bırakmış ve bağırarak:

– Heyyy, çoban kardeşler, dikkat edin hayvanlar mevtanın üzerine çıkmasın, ben gideyim bir bel getireyim, demiş.

Ama aslında yakınlarda ne bir hayvan sürüsü, ne de bir çoban varmış. Aldar Kosa biraz bekledikten sonra öküz gibi böğürmeye başlamış. Duhtar Kosa bunu duyunca çok korkmuş ve o da bağırarak:

– Sen ne diye böğürüyorsun? demiş.

Aldar Kosa:

–Paraları ver, demiş.

Duhtar Kosa yine susmuş. Aldar Kosa cenazeyi almış ve bir ormana götürmüş. Cenazeyi bıraktıktan sonra biraz dinlenmek için oturmuş. Bir bakmış ki, kırk kişilik bir harami destesi geliyor. Hemen bir ağacın arkasına saklanmış. Haramiler atlardan inip yağmaladıkları para pulu aralarında paylaşmaya başlamışlar. Her şeyi paylaşmışlar ama bir tane mızrak kalmış. Hepsi de mızrağın kendisinin olmasını istemiş. Durumu böyle gören haramilerin başçısı Aldar Kosa'nın saklandığı ağacı göstererek:

– Şu ağacı kim ikiye ayırırsa mızrak onun olacak, demiş.

Haramilerden biri hemen:

– Ben yaparım demiş.

Aldar Kosa bakmış durum kötüye gidyor. Hemen ağacın arkasından çıkmış, koşarak bağırmış ve:

– Ölüler, dirileri öldürün, demiş.

Duhtar Kosa heyecanla kefeni yırtmış ve ellerini açıp onlarla birlikte bağırarak o da:

– Ölüler, dirileri öldürün, demiş.

Durum böyle olunca haramiler korkmuş ve ellerindeki para pulu ne varsa, hepsini bırakıp atlara binerek oradan kaçmışlar. Aldar Kosa haramilerden kalan herşeyi almış ve Duhtar Kosa'ya:

– Hanın verdiği iki bin altını bana getir. Sadece onu seninle paylaşırım, demiş.

Duhtar Kosa hiç tartışmadan altınları getirmiş ve aralarında paylaşmışlar. Ama bir kuruş fazla çıkmış. Onun kimin olacağı ile ilgili düşünmüşler ve sonunda kimse darılıp gücenmesin diye onu da mızrakla iki bölmüşler. Ve böylece onu da bu şekilde paylaşmışlar. Sonra da Aldar Kosa memleketi Harezm'e geri dönmüş.

# Qoçaq Puruş

Biri vardı, biri yoxdu, bir igid oğlan vardı. Bu oğlanın adı Puruş idi. Bir gün xan onu kus adlı balığın sümüyünü gətirmək üçün göndərdi. Puruş kus balığının sümüyünü tapmaq üçün yola düşdü. O, yorulanda oturub dincəldi. Sonra yenə yola düşdü. Yolda bir falçı qocayla rastlaşdı. Falçı qoca dedi:

– Ömrün xoş keçsin, Puruş, hara belə gedirsən?

Puruş dedi:

– Atacan, mən kus balığının sümüyünü gətirməyə gedirəm.

Falçı qoca dedi:

– Əgər axtardığın kus balığıdırsa, onda elə bu çayın qırağı ilə get, dediyin balığı taparsan.

Puruş qocanın dediyi kimi də etdi. Çayın qırağı ilə gəlib böyük bir dağa çıxdı. Baxdı ki, bir ağ balığı quyruğundan daşa mıxlayıblar. Puruş gəlib mıxı qopartdı. Ağ balıq ona dedi:

– Mən sənə nə yaxşılıq edə bilərəm?

Puruş dedi:

– Mənə heç nə lazım deyil, kus balığının sümüyünü tapıb versən, səndən razı qalaram.

Ağ balıq bir göz qırpımında kus balığının sümüyünü tapıb verdi. Puruş sümüyü gətirib verdi xana.

Bu dəfə xan buna tsus balığının sümüyünü tapmaq tapşırığı verdi. Puruş dedi:

– Mənə möhlət ver, xan.

Xan dedi:

– Yaxşı, sənə üç gün yarım vaxt verirəm.

Puruş yola düşdü. Çox getdi, az getdi, gəlib həmin falçı qocaya rast gəldi. Falçı qoca bundan hara getdiyini soruşduqda Puruş dedi:

– İndi də tsus balığının sümüyünü axtarmağa gedirəm.

Qoca dedi:

– Yenə də bu çay boyu get.

Puruş başladı çayın qırağı ilə getməyə. Bir az getmişdi ki, gördü çaydan bir əjdaha çıxıb qaraquşun yuvasına tərəf gedir. Yuvada iki qaraquş balası vardı. Puruş bunu görəndə qızıl saplı qılıncını sıyırıb əjdahanı iki böldü. O saat bu quşların ata-anaları uçub gəldilər. Dedilər:

– Sən bizə yaxşılıq etdin, biz də bu yaxşılığın əvəzində sənə nə verə bilərik? Sən bizim balalarımıza ata-anadan da yaxınsan. Əgər sənə bir şey lazımdırsa, tapıb verərik.

Puruş dedi:

– Mənə tsus balığının sümüyü lazımdır.

Qaraquşlar o saat tsus balığının sümüyünü tapıb ona verdilər. Puruş gətirib bu sümüyü də verdi xana. Bir neçə gündən sonra xan təzədən onu yanına çağırıb dedi:

– İndi də mənə Aksulu adlı qızı gətir.

Puruş yenidən yola düşdü. Gəlib həmin falçı qocaya rast gəldi. Qoca soruşdu ki, ay oğul, bəs bu dəfə hara gedirsən? Puruş dedi:

– İndi də Aksulunu gətirməyə gedirəm.

Qoca o saat şunqara çevrilib Puruşu qanadları arasına aldı. Uçub düşdü çayın o biri üzünə. Bunlar gəlib bir daş evin qabağında dayandılar. Puruş baxdı ki, bu evin nə qapısı var, nə də pəncərəsi. O, qılıncını sıyırıb evə vurdu. Nə təhər zərblə vurdusa, ev arxası üstə düşdü. O saat qapı açıldı, o girdi içəri. Baxdı ki, Aksulu buradadır. Puruş qızı götürüb gətirdi verdi xana. Qız dedi:

– Xan, bu Puruş sənə kus balığının sümüyünü gətirdi, sonra tsus balığının sümüyünü istədin, onu da gətirdi. Axırda da məni gətirdi. Sən bunların əvəzində buna bir şey verdinmi?

Xan dedi:

– Heç nə vermədim.

Qız dedi:

– Onda qarğa ol, sənin adamların da qarğa olsun.

Aksulunun duası ilə xan və adamları qarğa oldular. Falçı qocanın köməyi ilə Puruş xan oldu. Aksulu da Puruşun arvadı oldu. Puruşla Aksulunun toyu qırx gün çəkdi. Toyda yedilər, içdilər, hamı şad-xürrəm oldu.



**Rzazadə Fidan, 14 yaş**

*Barabin tatarlarının nağılı «Qoçaq Puruş» – Barabin Tatar masalı «Yiğit Puruş»*



**Əlizadə Ayxan, 8 yaş**
***Barabin tatarlarının nağılı «Qoçaq Puruş» –***
***Barabin Tatar masalı «Yiğit Puruş»***

# Yiğit Puruş

Biri varmış, biri yokmuş, bir yerlerde yiğit bir adam yaşıyormuş. Onun adı Puruş'muş.

Günlerden bir gün han onu yanına çağırtmış ve ondan kus adlı balığın kemiğini bulup getirmesini istemiş. Puruş kus balığının kemiğini bulmak için yola çıkmış. O, zamanı geldiğinde dinlenmiş, yatıp uyumuş. Sonra yine yola koyulmuş. O, yolda ihtiyar bir falcıya rastlamış. İytiyar falcı:

– Hayatın güzel geçsin, Puruş, nereye böyle? demiş.

Puruş:

– Babacığım, ben kus balığının kemiğini arıyorum. Onu bulup hana götüreceğim, demiş.

İhtiyar falcı:

– Eğer aradığın kus balığıysa, işte bu ırmağın kıyısı ile git, onu bulursun, demiş.

Puruş ihtiyarın söylediği gibi yapmış. Irmağın kıyısı ile gitmiş ve gelip büyük bir dağa rastlamış. Bakmış ki, dağın eteğinde beyaz bir balığı kuyruğundan taşa mıhlamışlar. Puruş hemen mıhı çıkarmış ve balığın hayatını kurtarmış. Beyaz balık ona:

– Sen benim hayatımı kurtardın. Söyle bakalım, ben bunun karşılığında sana nasıl bir iyilik yapabilirim? demiş.

Puruş:

– Bana hiçbir şey gerekmez, sadece kus balığının kemiğini bulup bana verirsen sana minnettar olurum, demiş.

Beyaz balık anında kus balığının kemiğini bulup Puruş'a vermiş. Puruş da kemiği götürüp hana vermiş.

Bu kez de han Puruş'a tsus balığının kemiğini bulup getirmesini söylemiş.

Puruş:

– Bana zaman ver, han, demiş.

Han:

– Peki, sana üç buçuk gün zaman veriyorum, demiş.

Puruş hazırlanıp yola çıkmış. Az gitmiş, uz gitmiş, yine gelip ihtiyar falcıyla karşılaşmış. İhtiyar falcı ondan nereye gitdiğini sormuş. Puruş:

– Şimdi de tsus balığının kemiğini bulmaya gidiyorum, demiş.

İhtiyar:

– Yine bu ırmağın kıyısı ile git, demiş.

Puruş ırmağın kıyısıyla yürümeye başlamış. Bir süre gitdikten sonra bakmış ki, ırmaktan bir ejderha çıkmış ve kırlangıçın yuvasına doğru gidiyor. Yuvada iki kırlangıç yavrusu varmış. Puruş hemen kılıcını çekmiş ve ejderhayı öldürmüş. Yavruların anne babası uçup gelmiş ve Puruş'a:

– Sen bize cok büyük bir iyilik yaptın. Bizim yavrularımızın hayatını kurtardın. Bu iyiliğinin karşılığını nasıl öderiz? İstediğin her hangi bir şey varsa, söyle, hemen yapalım, demişler.

Puruş:

– Bana tsus balığının kemiği lazımdır, demiş.

Kırlangıçlar hemen tsus balığının kemiğini bulup ona vermişler. Puruş da kemiği alıp hana getirmiş.

Birkaç gün sonra han yine Puruş'u yanına çağırtmış ve:

– Şimdi de git bana Aksulu adlı kızı bul getir, demiş.

Puruş yeniden yola koyulmuş. Yolda yine ihtiyar falcıya rastlamış. İhtiyar:

– Oğlum, peki şimdi nereye gidiyorsun? diye sormuş.

Puruş:

– Şimdi de Aksulu adlı kızı bulmaya gidiyorum, demiş.

İhtiyar bir şungar olmuş, Puruş'u kanatlarının arasına almış ve ırmağın diğer kıyısına geçmiş. Bir süre gitdikten sonra kendilerini bir evin karşısında bulmuşlar. Puruş bakmış ki, bu evin ne kapısı var, ne de penceresi. O, kılıcını çekip eve öyle bir darbe vurmuş ki, ev arkası üste devrilmiş. Sonra hemen bir kapı açılmış ve o, içeri girmiş. Bakmış ki, Aksulu buradadır. Puruş kızı alıp hana getirmiş. Kız hana:

– Han, Puruş sana önce kus balığının, sonra da tsus balığının kemiğini getirdi. En sonunda da beni sana getirdi. Peki, sen bunların karşılığında ona bir şey verdin mi? diye sormuş.

Han:

– Hayır, hiçbir şey vermedim, demiş.

Kız:

– Öyleyse sen de, senin adamların da kargaya dönüşsün, demiş.

Böylece Aksulu'nun duası ile han da, adamları da kargaya dönüşmüşler. İhtiyar falcının yardımı ile Puruş han olmuş. Aksulu da Puruş'un karısı olmuş. Puruş'la Aksulu'nun düğünü tam kırk gün, kırk gece sürmüş. Düğünde yemişler, içmişler, eğlenmişler, herkes çok mutlu olmuş.

# Mişovul

Qədim-qədim zamanda, qədim zaman ötəndə, indiki olmayanda, silkinib yer yarananda, dağlarda qamış bitəndə, sular şırıltı ilə axanda, camaat belə yaşayanda, biri vardı, biri yoxdu, balaca bir yetim oğlan vardı. Bu balaca oğlanın nə atası, nə də anası vardı. Bir gün bu yetim oğlan bərk acdı, ancaq evdə yeməyə bir şey tapa bilmədi. O, yol aldı meşəyə, öz-özünə dedi: «Bəlkə, meşədə bir quş vurub yeyərəm». Ancaq o, meşədə nə bir heyvan, nə də bir quş tapa bildi. Onun əynində yarpaqlardan toxunmuş bir paltarı vardı, o da ağaclara ilişib cırıldı. Oğlan kor-peşman, ac-susuz evə qayıtmaq istəyirdi ki, bir mişovul gördü. Bu mişovulu qovmaq istəyəndə mişovul atılıb bir kötüyün yarığına girdi. Oğlan başladı kötüyü doğramağa. Mişovul yarıqdan çıxıb insan kimi dil açdı, dedi:

– Ay oğlan, sənə nə lazımdır?

Oğlan duruxub qaldı, o, indiyə qədər eşitməmişdi ki, mişovul da danışar. Buna görə də o, bərk qorxdu, özünü itirdi, göz yaşı töküb yalvarmağa başladı, dedi:

– Acından ölürəm, hec olmasa bir dəfə doyunca yesəm, dərdim olmaz.

Mişovul buna dedi:

– Yaxşı, indi get evə, yat.

Oğlan aclıqdan taqətsiz halda qayıdıb evə gəldi. Uzanıb yatdı. Səhər oyanıb baxdı ki, onun balaca daxması yaraşıqlı bir ev olub. Əynindəki yarpaqdan toxunmuş paltardan əsər-əlamət qalmayıb. Parçadan səliqə ilə toxunmuş paltarı görəndə yetim oğlan çox sevindi. O baxdı ki, ocaqda qazanın içində yemək var. Qazanı götürüb yerə qoydu, başladı doyunca yeməyə. Yeyib doydu, baltasını götürüb gəldi həmin kötüyün yanına. Başladı əlindəki balta ilə kötüyü doğramağa. Mişovul yarıqdan çıxıb bu yetim oğlanı gördü, dedi:

– İndi nə istəyirsən?

Oğlan dedi:

– Üç-dörd mərtəbəli böyük bir ev istəyirəm, hər mərtəbədə nökərlər olsun. Birinci mərtəbədə dükan olsun.

Mişovul dedi:

– Yaxşı, get evə, yat.

Oğlan gəldi evə, uzanıb yatdı. Səhər yuxudan duranda baxdı ki, üç-dörd mərtəbəli bir evdədir. Birinci mərtəbə dükandır, qalan mərtəbələrdə də nökərlər qaynaşır. Ancaq nə dükana girən var, nə də çıxan. Oğlan meşəyə gəlib kötüyü döyəcləməyə başladı, mişovul yarıqdan çıxıb dedi:

– Bəs indi nə lazımdır?

Oğlan dedi:

– İndi mən böyük bir tacir olmaq istəyirəm.

Mişovul dedi:

– Yaxşı, get evə, yat.

Oğlan evə gəlib yatdı. Səhər qalxanda baxdı ki, böyük tacir olub. Dedi: «Yaxşısı budur gedim mişovula deyim ki, hər şeyə qadir olan Allah olmaq istəyirəm». O, belə fikirləşib gəldi kötüyün yanına, başladı balta ilə kötüyü döyəcləməyə. Mişovul yarıqdan çıxıb dedi:

– Böyük tacir olubsan, daha nəyin çatmır?

Yetim oğlan dedi:

– İndi qərara gəlmişəm ki, hər şeyə qadir olan Allah olum.

Mişovul dedi:

– Yaxşı, get evə, yat.

O gəlib yatdı. Səhər ayılanda baxdı ki, əvvəldən necə idi, indi də elədir. Yenə də həmin uçuq-sökük ev, özü də həmin ağac yarpaqlarından toxunmuş paltarda. O, acı-acı ağladı, baltasını da götürüb gəldi kötüyün yanına. O, kötüyü nə qədər döyəclədisə, mişovul çıxmadı. Oğlan acığından balta ilə kötüyü doğrayıb, xırda odun parçalarını ora-bura atdı. Ancaq mişovul çıxmadı ki, çıxmadı.



**Karatekin Sofiya, 9 yaş**
***Çalkən tatar nağılı «Mişovul» –***
***Çalkan Tatar masalı «Keme»***

# Keme

Çok eski zamanlarda, sarsılıp yer oluşurken, dağlarda kargı biterken, sular şırıl şırıl akarken, insanlar böyle yaşarken biri varmış, biri yokmuş, küçük bir yetim oğlan çocuğu varmış. Bu cocuğun ne anası, ne de babası varmış.

Günlerden bir gün bu yetim çocuk çok acıkmış. Ama evde yiyecek hiçbir şey bulamamış. O, bir şey bulma umuduyla ormana gitmiş. «Orada bir kuş avlayıp yerim» diye düşünmüş. Ancak ormanda ne bir hayvan, ne de bir kuş bulmuş. Onun üstünde yapraklardan dokunmuş bir elbise varmış. Elbisesi de ağaçlara takılarak yırtılmış. Yetim çocuk çok üzülmüş. Aç susuz eve dönerken bir keme görmüş. Kemeyi yakalamaya çalışmış, ama keme kaçıp bir kütüğün deliğine girmiş. Çocuk başlamış kütüğü kesmeye. Keme delikten çıkmış ve insan gibi konuşmaya başlamış:

– Hey, çocuk, ne istiyorsun? demiş.

Çocuk kemenin insan gibi konuşmasına çok şaşırmış ve korkmuş. Nasıl olur da keme insan gibi konuşurmuş? O, kendini kaybetmiş, göz yaşı dökerek yalvarmaya başlamış ve:

– Açlıktan ölüyorum, sadece bir kere doyunca yesem, başka bir şey istemem, demiş.

Keme:

– Tamam, şimdi sen eve git ve uyu, demiş.

Çocuk açlıktan halsiz düşmüştü. Zor olsa da bir şekilde eve dönmüş. Yatıp uyumuş. Sabah uyandığında görmüş ki, onun küçücük evi çok güzel bir eve dönüşmüş. Üzerindeki yaprakdan dokunmuş yırtık elbise gitmiş ve yerine kumaştan yapılmış güzel bir elbise gelmiş. Yetim çocuk çok mutlu olmuş. Bir bakmış, ocağın üstünde bir tencere yemek. Tencereyi almış, koymuş önüne ve yemeğe başlamış. Karnını güzelce doyurmuş ve sonra baltasını alıp ormandaki kütüğün yanına gitmiş. Elindeki balta ile kütüğü kesmeye başlamış. Keme delikten çıkınca yetim çocuğu görmüş ve:

– Şimdi ne istyorsun? diye sormuş.

Çocuk:

– Üç dört katlı büyük bir ev istiyorum. Her katta cariyeler olsun. Giriş katında ise bir dükkan olsun istiyorum, demiş.

Keme:

– Tamam, şimdi git eve ve uyu, demiş.

Çocuk eve gitmiş ve yatıp uyumuş. Sabah uyandığında bakmış ki, üç dört katlı bir evin içindedir. Giriş katta dükkan, diğer katlarda ise cariyeler varmış. Ancak dükkana ne giren var, ne de çıkan. Çocuk yine ormana gitmiş ve kütüğü vurmaya başlamış. Keme delikten çıkmış ve:

– Peki, şimdi ne istiyorsun? demiş.

Çocuk:

– Şimdi de ben büyük bir tüccar olmak istiyorum, demiş.

Keme:

– Tamam, git eve ve uyu, demiş.

Çocuk eve dönmüş ve uyumuş. Sabah uyandığında bakmış ki, büyük bir tüccar olmuş. Çocuk; «En iyisi gidip kemeye söyleyeyim her şeye kadir olan Allah olmak istiyorum» diye düşünmüş. O, bu düşünce ile kütüğün yanına gelmiş ve kütüğü vurmaya başlamış. Keme delikten çıkmış ve:

– Büyük tüccar da oldun, daha ne istiyorsun? demiş.

Çocuk:

– Şimdi de, her şeye kadir olan Allah olmak istiyorum! demiş.

Keme:

– Peki, git eve ve uyu, demiş.

Çocuk eve dönmüş ve uyumuş. Sabah uyandığında bakmış ki, her şey eskisi gibi olmuş, önceki durumuna geri dönmüş. Eski püskü ev, yapraklardan dokunmuş yırtık elbise. O, çok üzülmüş ve ağlamış. Baltasını alıp kütüğün yanına gitmiş. Kütüğü çok vurmuş, ama keme çıkmamış. Çocuk öfkesinden çıldırmış, kütüğü balta ile paramparça etmiş ve parçalanmış odunları etrafa fırlatmış. Çocuk ne yapsa da keme bir daha çıkmamış.

## İSTİNAD OLUNMUŞ MƏNBƏLƏR


1. Asiya xalqlarının nağıl və əfsanələri. – Bakı: Öndər, 2005. – 280 s. – (Dünya uşaq ədəbiyyatı).
2. Dağıstan xalqlarının nağılları. – Bakı: Təknur, 2013.– 76 s.
3. Dombra nə dedi?: Qazax xalq nağılları. – Bakı: Gənclik, 1982.
4. Günəşdə qaya: Tuva xalq nağılları. – Bakı: Azərnəşr, 1963. – 92 s.
5. İraq-Türkmən nağılları. – Bakı: Təhsil, 2014. – 432 s.
6. Qaqauz folkloru: Seçmələr.– Bakı: Gənclik, 1996 .– 200 s.
7. Qazax xalq nağılları. – Bakı: Azərnəşr, 1988. – 256 s.
8. Qazax və Orta Asiya xalqlarının nağılları. – Bakı: Çaşıoğlu – Multimedia, 2009. – 124 s.
9. Özbək xalq nağılları. – Bakı: Azərnəşr, 1987. – 239 s.
10. SSRİ xalqlarının nağılları. – Bakı: Gənclik, 1988.– 400 s. – (Dünya uşaq ədəbiyyatı kitabxanası. XI cild).
11. Tastarakaydan Keloğlana: Türk Dünyası Nağıllarından Seçmələr. – İstanbul, 2013. – 232 s.
12. Tatar xalq nağılları. – Bakı: UşaqGəncNəşr, 1962. – 116 s.
13. Türk xalqlarının nağılları: Nağıllı Həftə. – Bakı: Atilla, 2000. – 68 s.
14. Türkmən xalq nağılları. – Bakı: Azərnəşr, 1989.– 272 s.
15. Zaman-zaman içində: Türk xalqlarının nağılları. – Bakı: Yazıçı, 1993. – 208 s.


## KAYNAKLAR


1. Asya Halklarının Masal ve Efsaneleri. – Bakü: Önder, 2005. – 280 s. – (Dünya Çocuk Edebiyatı).
2. Dağıstan Halklarının Masalları. – Bakü: Teknur, 2013. – 76 s.
3. Dombra Ne Dedi?: Kazak Halk Masalları. – Bakü: Gençlik, 1982.
4. Güneşte Kaya: Tuva Halk Masalları. – Bakü: Azerneşr, 1963. – 92 s.
5. Irak Türkman Masalları. – Bakü: Tahsil, 2014. – 432 s.
6. Gagavuz Folkloru: Seçmeler. – Bakü: Gençlik, 1996. – 200 s.
7. Kazak Halk Masalları. – Bakü: Azerneşr, 1988. – 256 s.
8. Kazak ve Orta Asya Halklarının Masallları. – Bakü: Çaşıoğlu-Multimedia, 2009. 124 s.
9. Özbek Halk Masalları. – Bakü: Azerneşr, 1987. – 239 s.
10. SSCB Halklarının Masalları. – Bakü, Gençlik, 1988. 400 s. (Dünya Çocuk Edebiyatı Kütüphanesi. XI cilt)
11. Tastarakaydan Keloğlana: Türk Dünyası Masallarından Seçmeler. – İstanbul, 2013. – 232 s.
12. Tatar Halk Masalları. – Bakü: UşakGençNeşr, 1962. – 116 s.
13. Tatar Halklarının Masalları: Masallı Hafta, – Bakü: Atilla, 2000. – 68 s.
14. Türkmen Halk Masalları. – Bakü: Azerneşr, 1989. 272 s.
15. Zaman Zaman İçinde: Türk Halklarının Masalları. – Bakü: Yazıcı, 1993. – 208 s.

## MÜNDƏRİCAT – İÇİNDEKİLER

Ön söz (Düsen Kaseinov)..................................3
Azərbaycan nağılı – Cırtdan .............................7
Azerbaycan masalı – Cırttan...........................10
Türk nağılı – Qaranquş və sərçə .....................12
Türk masalı – Kırlangıç ve Serçe .....................15
Qazax nağılı – Dombra nə dedi? ....................17
Kazak masalı – Dombra Ne Dedi? .................20
Özbək nağılı – Üç qarpız toxumu ...................22
Özbek masalı – Üç Karpuz Tohumu................25
Türkmən nağılı – Tacirin qızı...........................27
Türkmen masalı – Tüccarın Kızı ......................32
Qırğız nağılı – Ağıllı dehqan............................36
Kırgız masalı – Akıllı Köylü..............................42
Tatar nağılı – Atanın üç məsləhəti.................46
Tatar masalı – Babanın Üç Nasihatı................49
Başqırd nağılı – Qoca və pəhləvan .................51
Başkurt masalı – İhtiyar ve Pehlivan..............54
Qaqauz nağılı – İvançu ..................................57
Gagavuz masalı – İvançu ................................61
Krım tatar nağılı –
Ağıllı kirpi ilə hiyləgər tülkü............................64
Krım tatar masalı –
Akıllı Kirpi ile Kurnaz Tilki ...............................70
İraq-türkman nağılı – Titlə – Bitlə ..................74
İrak Turkmenleri masalı – Title ile Bitle..........77
Balkan nağılı – Div ilə padşah qızı ..................79
Balkan masalı – Dev ile Padişah Kızı...............83
Saxa (Yakut) nağılı – Hiyləgər tülkü və quşlar......86
Saha (Yakut) masalı – Kurnaz Tilki ve Kuşlar ...91
Balkar nağılı – Dəvə, tülkü və canavar...........95
Malkar masalı – Deve, Tilki ve Kurt ................97
Tuva nağılı – Ağıllı qız və Uluzun xan..............98
Tuva masalı – Akıllı Kız ve Uluzun Han .........102
Noqay nağılı – Kamır-Batır ...........................104
Nogay masalı – Kamır Batır ..........................108
Kumık nağılı – Qurd.....................................111
Kumuk masalı – Kurt ...................................113
Şor nağılı – Çarıs..........................................115
Şor masalı – Çarıs........................................120
Altay nağılı – Sağsağan, tülkü və çəyirtkə ....124
Altay masalı – Saksağan, Tilki ve Çekirge .....129
Çuvaş nağılı – Kehermen Ketil......................133
Çuvaş masalı – Kehermen Ketil ....................138
Qaraçay nağılı – Atəşin sultanı .....................142
Karaçay masalı – Ateşin Sultanı....................146
Uyğur nağılı – Sehrli çeşmə..........................149
Uygur masalı – Sihirli Çeşme........................157
Axısqa türklərinin nağılı – Pişik və Siçan ......164
Ahıska Türklerinin masalı – Kedi ve Fare ......166
Xakas nağılı – Sehrli göl................................167
Hakas masalı – Sihirli Göl .............................170
Sarı Uyğur nağılı – Kasıb kişinin nağılı .........172
Sarı Uygur masalı – Yoksul Adamın Masalı...176
Qaraim nağılı – Tənbəl oğlanın nağılı...........179
Karaim masalı – Tembel Oğlanın masalı.......185
Qaraqalpaq nağılı – Aldar Kosa ....................190
Karakalpak masalı – Aldar Kosa....................197
Barabin tatarlarının nağılı – Qoçaq Puruş ....203
Barabin Tatar masalı – Yiğit Puruş................207
Çalkən tatar nağılı – Mişovul........................209
Çalkan Tatar masalı – Keme .........................212

***TÜRK DÜNYASININ NAĞIL BAĞI***
Bakı, «Təhsil », 2017.

Dizayneri ***Mələk Şimşek***
Korrektoru ***Ülkər Tağıyeva***

Çapa imzalanmışdır 29.11.2017.
Kağız formatı 60x90 $^1/_8$. Sifariş 167.
Fiziki çap vərəqi 27,0. Tiraj 500.

«Təhsil Nəşriyyat-Poliqrafiya»
müəssisəsində dizayn edilmiş və çapa
hazırlanmışdır.

Bakı, AZ 1052, Fətəli xan Xoyski küç., 149
Tel.:(+994 12) 567-81-28/29;
E-mail: tahsil_az@yahoo.com

***TÜRK DÜNYASININ MASAL BAHÇESİ***
Bakü, «Tahsil», 2017.

Tasarımcı ***Melek Şimşek***
Tashihçi ***Afet Mamayeva***

Basım tarihi 29.11.2017
Kağıt ölçüsü 60x90 $^1/_8$. Sipariş 167.
Baskı kağıdı 27,0. Tiraj 500.

"Tahsil-Neşriyat-Poligrafiya"
matbaasında dizayn edilmiş ve baskıya
hazırlanmıştır

Bakü, Az. 1052, Feteli Han Hoyski sok. No:149
Telefon No: (+99412) 567-81-28/29
E-posta adresi: tahsil_az@yahoo.com

TÜRK DÜNYASININ NAĞIL BAĞI • TÜRK DÜNYASININ MASAL BAHÇESİ

BAKI-2017

9 789952 503586